AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# GÜNEY AZƏRBAYCAN FOLKLORU

## VII KİTAB

## "ŞİKARİ" dastanı

BAKI – 2018

**Layihənin rəhbəri:** Akademik **Muxtar KAZIMOĞLU (İMANOV)**

**Toplayanı:** Yrd.Doç.Dr. **Nabi Kobotarian AZEROĞLU**

**Tərtib edənlər:** f.ü.f.d., dosent **Mətanət MAŞALLAHQIZI (ABBASOVA)**
**Böyükbəy ƏLƏKBƏROĞLU**

**Redaktor:** **Aydın MUSTAFAYEV**

**Güney Azərbaycan folkloru, VII kitab.** Bakı, Elm və təhsil, 2018. -358 səh.

Kitaba Güney Azərbaycanın zəngin şifahi xalq yaradıcılığına aid "Şikari" dastanı daxil edilmişdir.

Folklor.az

G $\frac{4603000000}{098-2018}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2018.

# TƏRTİBÇİLƏRDƏN

"Güney Azərbaycan folkloru" seriyasının növbəti – VII cildinə Təbriz aşıq məktəbinə aid "Şikari" dastanı daxil edilmişdir. Qəhrəmanlıq mövzusunda olan bu dastan islamiyyətin yayılması motivi əsasında yaranmışdır. Dastan keçən əsrin 60-70- ci illərindən etibarən Təbriz aşıqları tərəfindən sürəkli repertuarlara salınmış, ancaq dastanın həcmi böyük olduğundan yalnız müəyyən qolları məclislərdə aşıqlar tərəfindən söylənilmişdir. Dastanın tam variantda ifa edilməməsi nəticədə müxtəlif mətnlər arasında əlaqəsizliyə gətirib çıxarmış, daha sonrakı mərhələdə tam mətninin toplanılmasında müəyyən çətinliklər yaratmışdır.

Azərbaycan türkcəsinin Təbriz şivəsində söylənən "Şikari" dastanı Aşıq Yədullah tərəfindən öz ustadının dilindən alınaraq bugünkü variantında qorunub saxlanmışdır. Aşıq Yədullah 1938-ci ildə Təbriz yaxınlığında yerləşən İlxıçıda anadan olmuş, kiçik yaşlarından başlayaraq, aşıqlıq sənətinin sirlərini Aşıq Hüseyn Namvər, Aşıq Məhəmməd Bağır və Aşıq Şəhnazi kimi ustad, dastançı aşıqlardan öyrənmişdir. O, xalq arasında "Əsli və Kərəm", "Koroğlu", "Abbas və Gülgəz", "Tahir Mirzə", "Qurbani", "Şah İsmayıl", " Əli Rafi" və s. dastanların mahir ifaçısı kimi tanınmışdır. Aşıq Yədullah repertuarında xüsusi yer tutan "Şikari" dastanını Aşıq Hacı Əli, o isə öz növbəsində ustadı Aşıq Gümüşkəmərli Ələsgərdən dinləyərək öyrənmişdir. "Şikari" dastanı əsasən 1970-ci illərdən başlayaraq, Təbriz aşıq dastanları içərisində diqqət mərkəzində saxlanılmışdır. 1969-cu ildən aşıqlar arasında yayılmağa başlayan dastan 1971-ci ilə qədər pərakəndə şəkildə əldə olunmuşdur. Dastanın geniş mətninin toplanılması işi Nəbi Kobotarian tərəfindən həyata keçirilmişdir. Nəbi Kobotarian "Şikari" dastanının səsli mətnlərini müxtəlif aşıq repertuarlarından toplamaqla yanaşı, yarımçıq mətnləri həm də Aşıq Yədullahın arxivindən götürərək bərpa etmişdir. "Şikari" dastanı mətnlərinin toplanılması işi üzərində fəaliyyətini davam etdirən Nəbi Kobotarian ilk dəfə olaraq "Təbriz aşıqlıq gələnəyi və aşıq ədəbiyyatı" adı altında dastanın geniş şəkildə elmi tədqiqini aparmışdır.

“Şikari” dastanı ənənəvi qəhrəmanlıq dastanlarına uyğun çoxşaxəli qollar üzərində qurulmuşdur. Dastanın məzmunu şah Daranın oğlu Şikarinin İslam dinini yaymaq uğrunda mübarizəsi ilə bağlı olaraq müxtəlif ölkələrə səyahətini, eyni zamanda ailə-məişət məslələrinin də yer aldığı hadisələri əhatə edir. “Şikari”də hadisələrin inkişaf nöqtəsi bir çox dastan və nağıllarda motivləşən iki qardaşın rəqabətindən başlanır. Belə ki, Rum şahı Daranın Ərçə adlı oğlu qardaşı Şikarinin atası tərəfindən vəliəhd seçilməsini qəbul edə bilmir, ov bəhanəsiylə Şikarini saraydan uzaqlaşdırıb uzaq bir səhrada quyuya salır. Şah Daraya isə Şikarini ovda şirlərin parçalaması xəbərini verir. Keyvan tacir tərəfindən quyudan azad olunan Şikari onunla birlikdə ölkələri dolaşıb İslamı yaymaq uğrunda mübarizəyə qoşulur. “Kitabi-Dədə Qorqud” dastanlarında olduğu kimi, burada da dastan qəhrəmanının ətrafına müdrik ağsaqqallar və adlı-sanlı igidlər toplaşırlar. Şikari İslama dəvət etdiyi ölkələrin, ədalətlə idarə olunmasını təmin edir və rəiyyətin sevimlisinə çevrilir.

“Kitabi-Dədə Qorqud” dastanlarında rast gəldiyimiz bir sıra motivlər –qəhrəmanın öz ailəsinin ardınca düşmən üzərinə təktənha getməsi (Salur Qazanın Şöklü Məliklə qarşılaşması), oğlunu xilas etməsi (Salur Qazanın oğlu Uruzu dustaqlıqdan azad etməsi), igidlərin öz sevgililərini ov əsnasında tapmaları, qadınların ərə gedəcəkləri oğlanları döyüşdə sınamaqla seçmələri (Beyrək və Banuçiçəyin ilk qarşılaşması) və s. “Şikari” dastanında da öz əksini tapır.

Şikari və oğlanları başda olmaqla qəhrəmanlar İslam bayrağı altında bir araya gələrək, daim kafirlərlə döyüşürlər. Baş qəhrəmanlar güc və yenilməzliklərini fövqəltəbii qüvvələrdən alırlar. Dastandan məlum olur ki, Şikari “kəmər bəsteyi-Xızır”, Cahandarsa “kəmər bəsteyi-Həzrət Əlidir”. Yəni Xızır peyğəmbər Şikarinin, Həzrət Əli isə Cahandarın yuxusuna girməklə onların belinə pəhləvanlıq kəməri bağlamış, əlini qəhrəmanların kürəyinə çəkmiş, nəticədə onlar yuxudan qeyri-adi gücə malik pəhləvanlar kimi ayılmışlar. Dastan qəhrəmanlarının igidliyi sehrli nağıl və əsatiri görüşlərlə səsləşən yardımçı qüvvələr- atların mifoloji

özəlliyində də ifadəsini tapır. Türk dastançılıq ənənəsinə bağlı olaraq "Şikari" dastanında at kultu mifoloji funksiyasında çıxış edir. Mənzər şahı Yəməninin dörd divar arasında illərlə bəslədiyi "mərkəbi- Əjdaxar" Şikarinin, Xocand vəzirinin dərya atlarından döl tutduğu Kürrəsə Cahangirin dastan boyu silahdaşı, yoldaşı kimi təsvir olunur.

Dastanda qadın obrazları müxtəlif qollarda hadisələrin süjet xəttində aparıcı obraza çevrilməklə igidlikləri, ağıl və ləyaqətləri ilə " Kitabi-Dədə Qorqud"qəhrəmanlarını xatırladır. Xocand vəzirin qızı Pərnaz xanım, Mənzər şahı Yəmənin qızı Simizər, Ərəblər şahının qızı Xurşid Banu, Sah Sucanın qızı Qonçələb və s. qadın obrazları dastanda həm tədbirli, həm də sədaqətli olmaları ilə dastan qəhrəmanlarının yardımçısına çevrilirlər. Xurşid Banu kəmənd atıb ov tutması, küşt tutması, ox atması ilə seçilən qadın obrazıdır. O, yalnız onu yenə biləcək qəhrəmana ərə gedəcəyini bildirir. Şikari ilə rastlaşarkən üzünü niqabda saxlayaraq onunla döyüşür, ancaq onun qadın olduğu bəlli olduqdan sonra döyüş dayandırılır və Xurşid Banu əhdinə sadiq qalıb Şikari ilə ailə həyatı qurur.

Ayrı-ayrı nağıl və dastanlarda olduğu kimi, burada da əfsanəvi Xızır qəhrəmanların köməyinə çatır, ən çətin sınaqlarda onların yardımçısına çevrilir. Məhz Xızır peyğəmbərin Şikari, Sərhəngi Şaminin pəhləvanı Keyvan Dilavər, Şəbru Əyyar, Cahandar və Şirzadi Tigzənin yuxusuna girməsi, qəhrəmanlara yuxuda "ismi-əzəm", "batili-sehr" öyrətməsi, kəmər-qurşaq bağlaması ilə onlar tilsimləri dəf edir, düşmənin saysız-hesabsız qoşunu üzərində qələbə çalmağı bacarırlar.

Dastanda Şikari və onun igidləri həm zülmkar hökmdarlar, həm də şəri təmsil edən cadugərlər və devlərlə mübarizə aparmalı olurlar. Devlər şahı Elavə dev, Ekvan dev, Sütüsər dev, Qaf dağında yaşayan Zərdan dev, Əncüm pəri, Pərilər padşahı Sərəfraz şah, Tufan cadu, Zəfəran cadu, Fitnə cadu və s. sehrli qüvvələr dastanda əlavə sujetlərə qoşulmaqla qəhrəmanların qarşısına çıxır, onları yeni maneələrlə üz-üzə gətirməklə ağıl və tədbirliliklərini sınaqlardan keçirirlər. Yarı insan, yarı heyvan olan devlər, göyər-

çin, yaşlı qarı, qurd, ahu və s. cildinə düşən bu fövqəltəbii qüvvələr dastan poetikasına uyğun daha arxaik görüşlərdən xəbər verir.

"Şikari" dastanı söylənilərək yazıya alınmışdır. Tam 55 saat ərzində dinlənilərək səsli fayllardan götürülən dastanda 18 ustadnamə, 225 qoşma və 65 bayatı mətni qeyd olunmuşdur. Şeir şəkilləri bu strukturda əsasən 4+4+3, 6+5, 4+4 heca şəkillərinə uyğun verilmişdir. Aşıq şeiri şəkilləri aşıq Yədullah da daxil olmaqla ayrı-ayrı aşıqların repertuarından müxtəlif nümunələrlə zənginləşdirilmiş, hadisələrə uyğun olaraq mətnə bayatı nümunələri əlavə edilmişdir. Dastanda hadisələrarası ustadnamələr, eləcə də aşığın bu və ya digər hadisəyə münasibətini ifadə edən sujetdən kənar nümunələr əsasən Xəstə Qasım, Aşıq Ələsgər, Aşıq Şəmşir, Aşıq Mənsur, Xəstə Bayraməli və b. aşıqların şeirlərindən götürülmüşdür.

## ŞİKARİ

### USTADNAMƏ

Dostum, deyir sənə salam verənin
Neçə başdan kamalü arı gərək.
Alnı açıq ola, ürəyi təmiz,
Doğru sözüylə etibari gərək.

Qəmimdə ağlaya, toyumda gülə,
Özü öz qədrini, qiymətin bülə,
Halımı soruşub qədrimi bülə,
Doğru sözüylə düz ilqari gərək.

Öylə allanmaya pula, dövlətə,
Hiylə ilə soxulmaya geyrətə.
Dostunu salmaya heş xəcələtə,
Nəmüsü, qeyrəti, ari gərək.

### USTADNAMƏ

Bər-ilahim zatı pakin eşqinə,
Heş mərdi namərdə eyləmə mohtac.
Qamuyə rəzzaqsən, cümləyi aləm,
Üz tutubdu sənə həm qəni, həm ac.

Kəlami fazilsən, otuz cüzi Quran,
Səni bərhəq bilən heç görməz yaman.
Çün dedin yarandı zeminü asiman
Külli şey, hər nə var, əmrivə rəvan.

Əhədsən, səmədsən, ey gəyumü qədir,
Adilsən, həkimsən səmiü bəsir,
İnsanü yaratdın dört şeyden bəşir,
Zahir oldu onda orgü rühü naz.

Mucrim Kərim sənə tutubdur üzün,
Nə ki üzün, hər nə ki varsa sözün.
Aləm dərgahiva tutubdur üzün,
Həm adil, həm fazil, həm biehtiyac.

Zəmanı qədimdə nəql olub, diyərlər diyəri Rumda bir padşah var idi, benamı şah Dara. Mının iki dana oğlu var idi, bir dana qızı. Oğlanların böyüyün adı Əhməd idi, kiçigin adı Muhamməd idi. Əmma ləqəbdə böyüyün adına Ərçə diyərdilər, kiçigin adına Şikari diyərdilər. Şahzadə oğlu Şikari. Bacılarının adı Sünbülə xanım idi. Şah Daranın yaşı geşmişdi, bir günün sarısıca ömrü qalırdı. Əmirüüməra, vəzirüvüzəra hamısın yığdı dərbara, davət elədi. Hamısı gəliblər, yeyiblər, içiblər, dövrədən əmirüümərа, vəzirüvüzəra üz dolandırdılar:

– Qurbən, qıbleyi-aləm sağ olsun, buyurasız görək bizi nə üçün bura dəvət eliyibsiz?

Şah dara üz dolandırdı:

– Mənim iki dana oğlum var, özümün də sinü səlim geçibdi, üz qoymuşam uqbəyə tərəf, istirəm görəm siz hansisin intixəb eləsəz birin öz yerimdə cənişin qarər verəm.

Hamı hər tərəfdə başın salıb aşağıya. Şahın böyüh oğlu Ərçəydi, kiçih oğlu Şikariydi. Hamının ələqəsi var idi Şikari pədişəh olsun, əmma böyüh oğlan Ərçəydi. Eliyə bülmədilər bir söz desinlər. Şah Dara ikinminci mərhələ izhər eylədi, genə cəvəb olmadı. Üçümüncü mərhələdə dövrədən üz dolandırdılar:

– Qurbən, qıbleyi-aləm sağ olsun, sən bizim padşahımızsan, böyüyümüzsən, sən hər hansın öz yerində versən, bizə çox xoşdi.

Şah Dara bu kəlməni eşidəndə üz dolandırdı:

– Bəs indi ki vəgüzər eliyirsiz mənə, düzdü, böyüh oğlum Ərçədi, padşahlıx ona yetişər, vəli siz də bilirsiz, mən özüm də bilirəm, Ərçə bir az xəbisdi, vəli Şikari rəiyyətpərvər, ədalətpərvər, millətpərvər bir şəxsdir. İstirəm onu öz yerimdə cənişin qarər verəm.

Dövrədən hamı çəpıh tutub hurrə çəhdilər, şad oldular. Şah Dara səltənətdən durub, yapışıb Şikarinin dəsti-bəndindən, gətirib təxti-səltənətdə əyləşdirdi. Təci şəhənəni qoydu başına. Şəhridə,

hər yanda çirağən oldi, hər tərəfi bəzədilər. Elam elədilər, Şah Dara oğlu Şikari dədəsinin yerində cənişin oldu. Əmma buradan bu iki qardaşın arasına ədavət düşdi, Ərçə öz-özünə dedi ki, "dədənin böyüh oğlu mən olam, pədişəhlık mənə yetişə, əmma Şikari neyliyə, gələ otura mənim yerimdə, mənim yerimi işqal eliyə?". Ərçə bu kəlməni ürəyində saxlayıb, buxl elədi. Əmma de bir gün, iki gün, beş gün, bir ay, bir müddət üstündən keçdi. Şikari təhti səltənətdə hökümrənlığa məşğuldi. Ərçə gəlib dayandı bərəbərində, dedi:

– Bəradər, cən əgər icazə versən, verim tədəruki şikər görsünlər, ikimiz çıxax şikarə.

Şikari üz dolandırıb dedi:

– Dadaş, mən gərək gedəm dədəmə məsləhət eliyəm.

Şikari durub gəldi dədəsinin huzurinə. Şah Dara məriz idi, yatmışdi. Gəlib dayandı atasının bərabərində, sələm ərz eliyib, atası bunun sələmını alıb, üz dolandırdı: "Oğul, bala, fərməyişin nəmənədi?". Üz dolandırdı:

– Atacan, qərdəşim Ərçə məndən icəzeyi şikər istiyıb. Gedax?

Şah Dara üz dolandırdı, dedi:

– Oğlum, əgər mənə vəgüzər eləsən, mən sələh bilmirəm ki, sən gedəsən şikarə. Buna görə ki, Ərçə xəbisdi, aparar çöldə sənin başıva bir qəzəvüqədər gətirər.

Əmma Şikari üz dolandırdı:

– Dədəcan, əgər getməsək Ərçə diyər sən kiçih qərdəş səltənətdə oturdun, daha məni hesaba qoymursan.

Dədəsi gördi ki, bu da həq söz diyir. Bəs neylədi, dedi:

– Oğul, get, vəli ehtiyati əldən verməginən.

Kişinin dünyada kişidən nəmənəsi artiq olar? Ehtiyatı. Şikari verdi tədərüki-şikar gördülər. Ərçənin və Şikarinin hər birinin qırx dana qulamı vardı. Hər biri bir pəhlivan idi. Tədərüki-şikar görüblər, gecəni yatıblar sabah olsun, hər kəs öz mərkəbinə səvar olub. Xurdü xurəh hər nəmənə götürməlidilər götürüblər, getdilər. Bu çəmənzərlıxda, o şikargahda, birin intixab eliyiblər. Gün ortanın zəmaniydi, hamı şikargahda düşdülər. Çadırları nəsb elədilər. Nəmənə ki, özləri üçün yeməkdən, içməkdən ye-

yiblər, içiblər, sirəb oldular. Əmma eşid dastanı kimdən, Ərçədən. Ərçə üz dolandırdı: "Çoxdandı heş biz ikimiz at dolandırmamışıx, ikimiz də minəh atlarımızı gəzək, gözün nə qədər işləsə çəməni basəfadı". Şikari dedi:

– Dadaş, yol gəlmişih, özümüz də mərkəbimizdə xəstəvü xəmir yorğunux, icazə ver bir az yataq, istirahətlik eyliyək.

Vəli Ərçə qəbül eləmədi. Tül vermiyif söhbətə, durublar hər ikisi mərkəblərinin yəhərin qoyublar, üzəngilərin bərkidiblər. Atları qulaxlaşdırıblar. Bir qədri gedəndən sonra Şikari gördü ki, Ərçə qaldı dalı. Niyə? Özü bərqəsd mərkəbin cilovun yığıb. Şikari dönüb dalı baxanda gördü Ərçə əlin qoyub ürəyinin başına:

– Bəradər can, bəs niyə elə eliyirsən?

Dedi:

– Dadaş, susuzlux mənə əl verib, az qalsın cigərlərim çıxsın susuzlıxtan.

Dedi:

– Axı mənim suyum yoxdu, burada çeşmə yox, bulax yox, quyu yox. Mən suyu hardan tapım verim sənə?

Ərçə dedi:

– Mən bu yaxınlıxda bir quyu yeri bilirəm. Gəl bir dolanax quyunu tapax, ta ordan bir qədri su ələ gətirək, içəh, sirəb olax.

Quyunun başında böyüh bir daş var idi. Ərçə yetirdi bu daşı nə qədər təkan verdi, daşı dəbərdə bilmədi, əmma Şikari mərkəbindən düşüb dedi:

– Qardaş, icazə versən mən də bir gücümü vurum.

Şikari var gücüynən götürüb daşı attı quyunun kənarınə. Qədim pəhlivanların qılınc, qalxan, neyzəvu şeşpər, əmudü kəmənd hər bir şeyləri olardı. Kəməndləri gətiriblər bağlayıblar bir-birinə, bir ucunu da bağladılar Ərçənin belinə, sallayıb quyunun təkinə. Ərçə suyu içib sirəb oldu. Şikari çıxardı qoydu bunu quyunun kənarınə. Ərçə dedi:

– Dadaş, quyunun belə işməli suyu var ki, çox ərzü eylədim ki, sən də bu quyunun təkində olaydın, o sudan içəydin.

Şikari dedi:

– Dadaş, mən susuz dəgiləm.

Dedi:

– Bilirəm, susuzsan, əmma ağürəksən, qorxaxsan, qorxursan quyunun təkinə düşmağa!

Bunun, xülasə, dabanların çəhdi. Şikari dedi:

– Bağla tənəfi belimə, mən özüm öz yuxumu görmüşəm.

Ərçə bağlayıb tənəfi Şikarinin belinə, sallayıb quyunun təkinə. Şikari suyu işdi, əmma şeytan Ərçənin ürəyinə girdi ki, çıxartmayım heş, qalsın quyunun təkində. Əmma dedi: "Bəlkə ölmədi, gəl çək quyunun yarısına yetişəndə tənəfi vur quyunun vəsətindən gedsin". Çəhdi quyunun yarısına yetişəndə, genə şeytan bunun ürəyində vahimə elədi ki, bəlkə buradan da getdi ölmədi. Xülasə, çəhdi quyunun axirinə yetişəndə əl eliyib qəbzeyi-şəmşirə. Bir belə altdan baxanda gördü bir əli tənəftədi, bir əli qəbzeyi-şəmşirdədi, istiyir şəmşiri çıxartsın qilafindən. Dadaş, nə iş görüsən?

Dedi:

– Xətakər, istirəm sənə bir təxti-səltənət verəm, oturasan o təxti-səltənətdə şahlıx eliyəsən, o zamanə kimi ki, İsrafil sürun vura. Demirsən mənnən böyüh qərdəşim vardı, bu təxti-səltənət mənimki dəyil, mən niyə özgənin yerin işqal eləmişəm?

Şikari dedi:

– Əziz can, dadaş can, əgər ondan ötür, rəyasəti dünyadan ötür istirsən məni öldürəsən, gəl bu sevdadan əl çəhginən. Mən özüm öz dəsti-xəttiminən imza verrəm ki, padşah sənsən, mən qərdəş səhliyəm, sənə qulame həlqə-beqüşam öləne kimi.

Vəli qəbül eləmədi. Qəbül eləmədi. Nə qədr Şikari diyənnən sonra bunun beyninə batmadı bu sözlər. Şəmşiri qiləfindən ayırdı, qozadı havaya, istirdi başıynan bədəninə bir dəfə ayrılıq salsın, əmma Şikari başın kəc elədi. Şikariyə asib yetişmədi şəmşirdən. Şəmşir qurtulub, dəyib tənəfə, Şikari quyunun başından təkə kimi getdi. Ustad belə nizama çəkib, Ərçə dolandı çöldə nə qədər daştan-kəssəhdən var idi, gətdi o quyuya saldı, quyunun təkinə, əmma pərvərdigarı mutəl adamı saxlıyanda saxlar. Ərçə neynədi? Munun atına neçə yerdən yara yetirdi. Öz atın da minib, Şikarinin atın alıb yedəginə gəldi yetirdi bu qulamilərə. Hər birinin, ərz

elədim, qırx dana qulami var idi, hər biri bir pəhlivan idi, bular hamısı bunu dövrələdilər: "Bəs bizim ağamız necə oldu – Şikari?"

Ərçə düşdü mərkəbindən, tapdadı dizlərinə, başına, gözünə, başladı ağlamağa ki, geddih bi dana cəziryə, iki dana şir çıxdı bizim bərabərimizə, mən qeyiddim qaşdım. Nə qədr bəng vurdum, haray vurdum ki, bəradər, atıvı vır aradan çıx, bu şirlər çox yırtıcıdılar, səni də öldürəllər, məni də. Qəbül eləmədi, getdi şirrəri tutsun, şirrər çəkib bunu aradan cırdılar, hər biri bir şəqqəsin götürdi.

Neylədilər bunlar, hamısı durub çadırların, tənəflərin, mıxların çəkdilər, yığışdırdılar, durdular gəldilər şəhrə. Bu xəbər yetişdi kimə, şəhridə Sünbülüyə. Gördü Sünbülə xanım hər yerə qarə pərçəm vurublar. Bir nəfərdən sual eylədi: "Ay dadaş, məgər nolubdi?". Dedi: "Mən də bu işi bülmürəm".

Sünbülə xanım bir qoca kişidən soruşdu: "Əmican, məgər şəhirdə nolub, qoşun, ləşkər pişvazə gedir?". Dedi: "Məgər bülmüsən? Şikarini şirlər dağıtmış".

Bu kəlmə qocanın ağzından çıxsın, qızın anən ixtiyər əlindən getdi. Həmən yerə yıxıldı, biixtiyar ürəyi xarab oldı, bihüş oldı. Dedilər, buna noldı? Kim nə dedi? Qoca dedi:

– Vallah, mənnən bir söz sual elədi, Şikarinin barəsində, mən də bu cür dedim, biixtiyar yıxıldı.

Tanıyanlardan var idi, üz dolandırdılar bu qocuya ki, kişi, sən səqqəl ağartmısan, dünya görmüsən, məgər tanımısan bu kimdi? Bu Şah Daranın qızıdı. Sən qərdəşinin vay xəbərin buna vermisən. Qızı halə gətiriblər, qız durub ayağa, çaşbaş, pərişan gəlib kəsdi atasının başın üstün, o pərişan olmuş zülflərdən bir tar ayırdı. Götürüb bu dillərinən görək dədəsinə nə deyir? Ondan sora mən də ərz eliyim bütün eşidən dusların hamısının sağlığına. Sünbülə xanım Şah Daraya dedi:

Dolanım başıva, gül üzlü ata,
Dolandı zamanam, zimistan oldu.
Çox ağladım, gözüm yaşım sədrimə,
Qarışdı dəryaya sel, ümman oldu.

Gecəm gecə keçər, gündüzüm qarə,
Nə deyim bu sınıx gönlümə mən beçarə?
Dur hazır eylə mənim üçün bir qarə,
Eşidənnən bağrım bir yan olubdı.

Bir bağ əhdim, heş yemədim barını,
Çəkər Sünbül onun ahı-zarını.
Deyiblar dağıdıb şir Şikarini,
Əl hənası qızıl qanə dönübdü.

Mən aşıqəm, mey qanlı,
Məzə qanlı, mey qanlı.
Qorxuram düşəm öləm,
Rəqibim gəzə qanlı.

Bu kəlməni Şah Dara dərk elədi, dedi:

– Necə, Şikarını şir dağıda bilər?

Üz dolandırdı: "Girin mənim qoltuqlarıma". Əmirüümərа, vəzirüvüzarə dövrəsində durmuşdular, giriblər Şah Daranın qoltuqlarına, durub oturdu. İstiyib çalıskasın, gətirdilər. Şah Dara çağırıb Ərçəni bərabərinə istədi, ona dedi:

– Oğul, de görüm, Şikarini hansı cəzirədə şir dağıdıbdı?

Əmma Ərçə müşəxəsatı kamil demədi, diyəmmədi. Dedi, mən adın tanımıram cəzirənin, elə bir cəzirəydi, şikargahidi gettih, iki dana şir çıxdı qabağımıza. Şikarini çəhdilər dağıttılar.

Əmma Şah Dara dəstür verdi, çalıskanı sürdülər. Şikaridən bir əsəri ələ gətirə bülmədilər. Əmirümərа, vəzirüvüzarə üz dolandırdılar:

– Qurban, tapa bilmərih, qoy çıxax gedəh.

Şah Dara bir dağın ətəyində daşın üstündə bir quş oturmuşdu, onu gördü. Dəstur verdi çalıskanı saxladılar. Götürüb bu dillərinən quşdan sual eliyib, görək aya, quşda dil var, bunun cavabini versin, ya yox. Ərz eliyim əziz eşidənlərin hamısının sağlığına. Şah Dara dedi:

Gəldim dolanam başıva,
Mənə bir xəbər ver bari.

Nənəm qurban, səlvi boylum,
Niyə dərdin mən almadım?

Çox ağladım, gözüm yaşi
Səbrim üstə oldu cari.
Nənəm qurban, səlvi boylum,
Niyə dərdin mən almadım?

Cəmali varıydı mahı-münəvvər,
Çiynində əğlənmişdi şəmsinən qəmər.
Çəhdiyim zəhmətlər getdilər hədər,
Sındı şahın pərü bali, haray.

Mən aşıq, bu dağınan,
El gəzə bu dağınan.
Deyir, yar həsrətiynən,
Ölərəm bu dağınan.

Kəlmə ağzınnan tamam olsun, əmma quş yerindən hərəkət elədi, getdi havanın üzünə. Üz dolandırdılar əmir-üməra: "Qurban, quş da pərvaz elədi, getdi havanın üzünə". Dedi, sözümü dağlardan soruşacağam. Bu dillərinən dağlardan soruşsun görək, mən də ərz eliyim əziz eşidənlərin hamısının sağlığına:

Mənim adım Şah Dara,
Fələh salıb ahü-zarə.
Çıxmışdı şirim şikara,
Dağlar, necə oldu Şikari?

Ərzuruma hay, ərzi Ruma,
Bu yollar gedər Ərzuruma,
Dəvəsi ölmüş ərəbəm,
Dözərəm hər zuluma.

Dağdan, daşdan da cavab almayıb, məlül qayıdıb Şah Dara əmirüümərа, vəzirüvüzarə yığışıblar əzədarlıx eliyiblər. Bir yandan qocalıx, bir yandan Şikarinin dərdi, Şah Dara dünyadən köçüb.

Ərçə bunan sora neylədi? Ərçə verdi onu dəfnü kəfn elədilər. Ərçə arxayınlığa çıxdı, Şikarini saldı quyuya, arxeyindi ki,

munun min dana canı olsa biri qayıdıb gəlməz. Arxeyin, asudə gəldi otdu təxti-səltənətdə, hökmranlığa məşğul oldu.

Rəyasəti dünya və sərvəti dünya qardaşınan qardaşın arasında bu cur ayrılıx salar. Rəyasət və pul elə şirindi insana, mənim əziz eşidənlərdən təqazam budu ki, xahişim budu ki, məbadə, siz də Ərçə kimi olasız. İnsanın qərdəşdən artıx nəmənəsi var? Heş zadı. Belə Ərçə hökmranlığa məşğül olsun, əmma eşid dastani kimdən, Keyvan sovdagərdən. Keyvan sovdagər qırx dana sovdagərinən, nökərnən tacir malı gətirirlər. Buların güzarı düşdü həmün quyunun başına. Keyvan sovdagər dəstur verdi, qafilənin yükün endirdilər, həmün quyunun başında sakin oldular ki, o quyunun suyundan istifadə eləsinlər. O zaman buların yanında tuluğdan var idi, salladılar quyunun təkinə su çıxartsınlar, suyun rəngi qırmızı gəldi. Keyvan sovdagər üz dolandırdı: "Neçə mərhələ mənim bu quyunun başına güzarım düşüb. Bu quyunun abi-kövsər kimi suyu vardı, bu quyuda nə işqal tovlid eliyib ki, indi niyə bu suyun rəngi dönüb olub qırmızı?". Keyvan sovdagər bir qədri fikir elədi, ondan sora elan elədi: "Hər kim gedib bu quyudan bir xəbər gətirsə, o zaman iki yüz tüməni var, ənəmı var". Qoca Əhməd dedi ki, mən quyuya enərəm. Bəli, Keyvan sovdagər dəstur verdi, tənəf bağladılar qoca Əhməd kişinin belinə, salladılar quyunun təkinə.

Zəman o zəmanidi, dövrə dövreyi-həzrəti Yüsif zəmanəsiydi. Hər yana xəbər düşmüşdi, car düşmüşdü ki, deyirlar Həzrəti Yusifi qardaşları salıp quyuya. Şikari o qədr gözəlidi ki, bu Əhməd kişi belə ehsas elədi ki, bu doğurdan Həzrəti Yüsifdi. Gördü bir cavandi ki, gözəlliktə Yüsifi sani, dilavərlihdə Rüstəmi dastan kimiydi. Tənəfi öz belindən açıb bağladı Şikarinin belinə, əmma o adamin gücü yetmədi, dedi:

– Uşaxlar, gəlin yaxına görək, mənim gücüm çatmır bunu çəkəm quyudan çıxardam. De bir nəfər, iki nəfər, üş nəfər, xülasə, beş-altı nəfər yığışıb Şikarini çəhdilar qoydular quyunun kənarına. Keyvan sovdagərin diyəllər bir təbibi var idi yanında. Üz dolandırdı:

– Təbib, yeri yaxına, gör bu cavanın nəfəsi var, ya yox?

Rəvayətdi, diyəllər təbib bir dana ayna gətirib tutdu bu cavanın ağzının bərabərində, gördü hər iki-üç dəyqədən bir nəfəs gedir-qeyidir, ayna tərrədi. Təbib üz dolandırdı:

– Əgər qırx gün, qırx gecə bu quyunun başında sakin olax, mən muna təbabədih eliyəm, ümidim həqqa var ki, bu cavan ələ gələ, əmma əgər yol gedə-gedə buna təbabədih eləsəm, min dana can olsa, biri qutulmaz.

Sovdagər üz dolandırdı:

– Təbib, nə qədr ki, bu oğlan ələ gəlmiyib, mən bu quyunun başından hərəkət eləmərəm. Sən arxayin buna təbabətih elə.

Təbib məşğul oldu buna, əlindən gələn imkanlarla buna təbabədlik elədi. Yaralarına məlhəm qoydu. Bir gün, iki gün, üş gün, beş gün, Şikari hala gəldi. Vəqti ki, Şikari daha özün bülür, Keyvan sovdagər getdi yanına, bundan sual eylədi:

– Oğul, de görüm, sən kimə neynəmisən? Sənin əlinnən nə xəta baş verib? Səni niyə gətiriblər salıblar bu quyuya?

Şikari üz dolandırdı:

– Qurban, mən inanmıram əlimnən elə bir xəta baş verə ki, mən bir adamı incidəm əliminən, ya diliminən, əmma rüzigərdı, gətiriblər salıblar.

İyirmi gün tamam olanda Şikarini Keyvan sovdagər dubarə tutub danışığa, gördü xeyir, demir ki, məni niyə gətiriblər salıblar quyuya.

Keyvan sovdagər Şikariyə dedi:

– De görüm, şərab içərsən?

Şikari dedi:

– Niyə, qurban, olsa içərəm.

Keyvan sovdagər dəstur verdi, minayə şərab qoydular arayə. Məşğul oldu Şikari, bir neçə piyalə işdi. Bir balacə həyəcanə gəldi. Keyvan sovdagər sözün üstün aşdi:

– Oğul, de görüm sən kimə zülm eləmisən? Sən elə oğlan dəgilsən, mən görürəm danışığınnan, simannan yaxcı oğlana oxşuyursan. Ammə de görüm sən kimə zülm eləmisən?

Şikari gördü olmayacax, götürüb bu dillərinən görax Şah Dara oğlu Şikari nə deyib? Şikari Keyvan sovdagərə dedi:

Sənə qurban olum, Keyvan sovdəgər,
Elimnən, gülümnən aralıyam mən.
Sənə köməh olsun bir pərvərdigar,
Qohumdan, qardaşdan yaralıyam mən.

Mən aşıqam, qan eylər,
Dad eylər, divan eylər.
Dost məni bu halda görsə,
Ya ölər, ya qanıma qan eylər.

Əvvəldə şam yanar, sora pərvanə,
Hicri möhnətinnən gəlmişəm cana.
Çox istərdi məni yadu biganə,
Atamın qəlbinin qərariyam mən.

Mən aşıx, keşmə mənnən,
Çay sənnən, çeşmə mənnən.
Baxma yadlar sözünə,
Cəvanam, keşmə mənnən.

Fələk verib mənə bol ahi-zari,
Artırıb dərdimi, dindirmə bari.
Şah Dara oğluyam, adım Şikari,
Atamın qəlbinin qərariyam mən.

Mən aşiq, o güneylər,
O quzeylər, o güneylər.
İki həsrət bir-birin görəndə,
Elə bayramın o gün eylər.

Dedi: "Bəli, qurban, mənim adım Şikaridi. Özüm də Şah Daranın, Məlik şahı Ruminin oğluyam. Şikarinin oğlanlığın, dilavərliyin, ismürəsmi şöhrətin Keyvan sovdagər eşidmişdi, əmma özün görməmişdi. Şah Dara oğlu Şikari adını eşidəndə Keyvan sovdagər düşdü bunun qədəmlərinə. Şikari mən sizə diyənləri Keyvan sovdagərə dedi. Söhbət tamam olsun, durub köçü çattılar. Köçü çatıblar qafilə rəvaneyi-rah oldu. Az gəliblər, çox gəliblər,

gəlib yetirdilər hara, şəhrin kənarinə. Şikarinin bi bağı var idi, "Güllü bağ" diyərdilar adına. Şikarinin gözü düşür öz bağçasına, bağ xaraba qalıb, viran olub, dedi:

– Keyvan sovdagər, sənə qurban olum, ürəyim dərdə gəlib, istirəm sənə bir neçə kəlmə söz diyəm, əgər deməsəm ürəyim patlar. Şikari dedi:

Bu dünyadə hər kim gülsə,
Onun yəqin ari olmaz.
Bir bağın bağbanı ölsə,
O bağın heş bari olmaz.

Bu görükən Güllü bağdı,
Düşmanım ölməyib, sağdı.
Mənim gönlüm uca dağdı,
Yel əsəndə qari olmaz.

Düşmənim göründü gözə,
Köhnə dərdim oldu təzə.
Qoysam düşməni sağ gedə,
Şikari, Şikari olmaz.

Söz tamam eliyib, rəvaneyi-rah oldu. Az gəliblər, çox gəliblər, yetişdilər şəhrə. Keyvan sovdagər hər zaman gəldiyi karvansarada mətəin endirdi. Qədim rəsm idi, sovdagərlərinən padşahlar arasında. Bir şəhridə sakin oldular ki, malların orda früşə yetirsinlar, bir xonça bəzərdilər, aparardılar padşahın görüşünə, padşahdan icazə alardılar. Keyvan sovdagər xonça bəziyib, dörəsində bir neçə tacirlərdən xonça tabağı aparıblar padşahın hüzurinə. Xəbər veriblər Ərçiyə, bəs Keyvan sovdagər gəlib. Pərdədər pərdəni sındırıb, bunlar varid olsun içəriyə. Bəli, çay, qəhvəvü qeylən, yemək-işmək, burada sohbətə məşğül olsunlar. Eşid dastani kimnən, Ərçənin dostundan, Ərçənin bi dana dustu var idi, onun güzari düşdü karvənsəranın qabağınnan. Şah Dara oğlu malların üstündə sazı basıb bağrına, oturub həzin-həzin sazı danışdırır, oxuyur. Yeriyib yaxına salam verdi, əleykum salam, aşıq. Bəli: "De görüm, sənin adın nəmənədi?". Dedi: "Mənim adım Aşıxdı". Dedi: "Sənə dədə-nənə bir ad qoyub, ya yox? Mən istirəm ananın qulağıva çağırdığı adı or-

gəşəm”. Dedi: “Mənə dədə-nənə qoyan ad elə Aşıxdı”. Qayıdıb özün dərhal yetirdi dərbara. Yavaşca sıxıldı qoltuğuna, dedi, Şikari Keyvan sovdagərin mənzilindədir. Ərçə dedi:

– Aslan, imkanı yoxdu.

Dedi:

– Mən dirəm vardı da.

Ərçə dedi:

– Bəs neyliyəh?

Dedi:

– Denən nəmənə nökərlərin var, mehtərlərin var, qulamıva kimi hamısın gətir.

Keyvan sovdagər durub gedəndə Ərçə üz dolandırdı:

– Keyvan sovdagər!

Cavab verdi:

– Bəli.

Dedi:

– Nəmmənə nökərin, qulamın var, hammısı bu gecə mənə qonaxsız.

Cavab verdi:

– Eybi yoxdi.

Durublar getsinlar, cərəyani Şikariyə dedilər. Şikari dedi: “Manei yoxdu, siz gedəcaxsız gedin, hamını apar, bi mənnən sora”. Vəxti ki gecə gəlib araya şəbnişlık oldu, qonaxlar münəzəh hər kəs öz yerində oturub, Ərçə göz dolandırdı dörüyə. Şikariya oxşuyan bir şəxs yoxdu. Dedi:

– Məgər mən sənə deməmiştim ki, namənə nökərin, qulamın var, hətta mehtərlərivə kimi gətirəsən bura?

Keyvan sovdagər dedi:

– Bəli, hamısın gətimişəm.

Ərçə dedi:

– Mən bilən, elə bil birin gətiməmisən.

Keyvan Sovdagər işi anladı, dedi:

– Bəli, qurban, bir nəfərimiz var, gətiməmişəm, çün o qabili bu məclis dəgil. Saz çalıb ordan, buradan diyər.

Ərçə dedi:

– Nə manehi var, gələr burada oxuyar, beş-üş kəlmə biz qulaq asarıx.

Keyvan sovdagər üz dolandırdı:

– Qurban, axı elə bir qabilli oxumaq oxumaz, əmma əgər səlah bilisiz, gəlsin bura, yollayın getsin gətisin.

İki nəfər yolluyublar gettilər. Şikari durdu bunlarınan bahəm gəldi dərbara. Gətiriblər. Ərçənin gözü sataşanda Şikariyə gördü öz qərdəşidi. Bir müddət dili tutuldu ki, bir söz desin. Bu yannan, o yannan üz vurublar. Ərçə icazə verdi, aşıq oxusun. Götürüb bu dillərinən görəh Şikari nəmənə diyəcək? Şikari dedi:

Namərdin üzü gülməsin,
Gizli sözüm aşikar dəyil.
Sirrimi heş kəs bilməsin,
Gizli sözüm aşikar dəyil.

Nə lazımdı özümü öyəm,
Sirrimi namərdə diyəm.
Şir oğluyam, şiri-beçəyəm,
Məni aşıx bilmir, bilməsin.

Mən aşiq, qoydun məni,
Nar kimi soydun məni.
Nə kölgəndə saxladın,
Nə bir günə qoydun məni.

Ərçə cəllad istiyib, Şəyatin sıfatlardan ikisi yeriyib qabağa. Dedilər:

– Qurban, can fəda, kimin ömrü başa yetişib başıynan bədəninin arasına ayrılıq salaq.

Keyvan sovdagər genə qabağın sədd elədi, dedi:

– Qurban, axı nolubdu ki, cəllad istədiz? Məgər mənim aşığım nə günəh eliyib?

Ərçə dedi:

– Keyvan sovdagər, məgər görmüsən ki, diyir nə lazım özümü öyəm, sirrimi namərdə diyəm? Məni dubarə genə namərd hesab eliyib.

Keyvan sovdagər dedi:

– Qurban, mən əvvəl də demişəm, aşığın sözünnən qabil söz də çıxar, bir moqe iştibah eliyib beqabil söz də çıxar.

Dövrədən genə üz vurublar. Ərçə icazə verdi ki, aşıx sözünü bitirsin. Bəli, əmr olundu, aşıq sözünün təxəllüsünü oxusun. Şikari bu dillərinən desin, ərz eliyim tamam dusların sağlığına, aşıx dusların sağlığına. Şikari dedi:

Məclisdə tanısın hamı,
Şahlar şahı veribdi camı.
Şah versin Şikari verən ənami,
Ömrü, dölət malı üzülməsin heç.

Mən aşıqəm, gülə naz,
Bülbül eylər gülə naz.
Zəmanə belə getsə,
Ağlıyan çox, gülən az.

Ərçə bu sözü eşidəndə dedi:

– Bura bax görüm, nə Şikarisi?

Dedi:

– Qurban, sənnən qabax burada bir cavan otumuşdu, təxtisəltənətdə hökmranlığa məşğül idi. Məni burada çaldırıb-oxudturub, məni çox təşviq eləttirib. Adına Şikari diyərdilar, mənə həmmişə ənəm verərdi. Mən aşığam, ya bir az pis oxuram, ya bir az yaxşı oxuram. Niyə gərək məni öldüttürəsən?

Bu kəlməni eşidəndə Ərçə dəstür verdi ki, bu aşiqə ənam gətirin. Gediblər o zəmanın pulu üş yüz tümən aşığə ənam gətirdilər, bərabərində qoydular yerə.

Eşid dastani Keyvan sovdagərdən, Keyvan sovdagər yerindən hərəkət eliyib, əlin atıb o pulları götürüb gətirb padşahın bərabərində qoydu yerə, dedi:

– Qurban, belənçi pulları mənim qapıma sail gələndə, mən muqayyət ollam, verəm o sailə. Sən mənim aşığıma üş yüz tümən ənam verisən? Mənim aşığımın elən pullara ehtiyacı yoxdı.

"Durun ayağa", – Keyvan sovdagər dəstür verdi, hamısı durdular ayağa, şam da yemədilər.

Əmma Ərçə üz dolandırdı dedi:

– Keyvan sovdagər, indi ki, gedisən, əgər gün çıxana kimin buradan qafiləni hərəkət elədin eləmisən, eləməsən verrəm malıvı qarət eləllər, özüvü də öldürəllər.

Keyvan sovdagər yolladı iki nəfər nalbəd gətdilər, dəstür verdi nalbəddərə, tamam mal-heyvanın, at, qatırın namənə nal, mıx var idi, çəkdilər töhdülər yerə, dedi, buların nalların tərsə nallıyacaxsan. Vəqti ki, biz buradan hərəkət eliyəcağıx, qafilə gedəcax şəhridən xaric olsun, bir nəfər rəddinə baxsa belə ehsas eləsin ki, bu mal varid olub şəhrə. Dedilər, xeyli xüb. Çəkib tamam at-qatır nalın çəkib töhdülar yerə, tamam tərsə nalladılar.

Sübhün vəxtində qafilənin yükün çatıb hərəkət elədilər. Bir qədr gedənnən sora şəhridən aralaşsınlar, Şikarinin gözü sataşdı qəbristənlıxda bir dana saxtumana. Öz-özünə dedi: "Hatmən o qəsridə mənim dədəmin məzarı var, mən bir gedim dədəmin məzarının başı üstə gəlim". Qapıdan varid olup içəri, gördü, bəli, burda bir məzari təşkil veriblər, əmma iki dənə vəizu əlim oturublar, biri ayax tərəftə, biri yuxarı tərəfdə, Şikari sual elədi:

– Bu qəbr kimin ola?

Dedilər:

– Bu Şah Darənin qəbridi.

Şikari oturub neynədi? Əl eliyib sazı köynəyinnən çıxatsın, vəizlərin biri dedi: "Nə iş görüsən?". Dedi: "İstirəm fatəhə oxuyam". Dedilər ki, bunnan ki, fatəhə olmaz.

Dedi, elə biz dədədən-babadan hamımız sazınan-sözünən fatəhə verrih. Vəiz əl atıb tutub yapışdı sazınnan ki, bunan fatəhə olmaz, Şikari yumuruğu dügünnədi bunun üstünə:

– Əlivi çəh, qoy nə cür istirəm fatəhəmi verim gedim.

O birisi dedi:

– Əlivi çəh, qoy nə cür fatəhəsin verir versin.

Götürüb görəh Şikari nə dillərinən dədəsinin məzarinin üstündə oxuyacaq və nə diyəcəh? Şikari dedi:

Dolanım başıva, gül üzlü ata,
Atacan, nə yatmısan məzarda?
Özün getdin, vallah, rahət oldun,
Xəbərin yoxdi məni sarıdan.

Qazan ağlar,
Od yanar, qazan ağlar.
Bir iyit qurbətdə ölsə,
Qəbrini qazan ağlar.

Əgər düsəm sözüm çoxdu,
Düşman sözü mənə oxdu.
Bu yerin vəfası yoxdu,
Ay dədəcan, niyə yatmısan?

Dağlara qar düşübdü,
Gör nə hamayil düşübdü.
Qəbrivi yadlar qazıb,
Əhlətin dar düşübdü.

Geçən günü yoxlamadım,
Düşman bağrın oxlamadım.
Sənə əzə saxlamadım,
Bilirəm, incimisən Şikaridən.

Xoy çiməni, xoyçi məni,
Mərəndin qoy çiməni.
Mələrəm dalısıcan tapam,
Ya vurar ovçu məni?

Dedi:

– Oğul, sən kim olasan?

Şikari dedi:

– Mən Şah Dara oğlu Şikariyəm. Məgər sözümdə təkrar elədim?

Dedi:

– Oğul, məgər Şikarini şir dağıtmıyıb?

Şikari dedi:

– Nə, xeyir.

Başının sərgüzəştini bulara da dedi. Durub icazə istiyib getsin, bir qədr də əlin saldı cibinə, ağlı-qaralı yetirdi bu əlimlərə ki, mən gedirəm, vəli istigas eləyin, atamın rühu mənim dalımca duaçı olsun. Gəldi qafiləyə yetişdi. Şikari Keyvan sovdagərə sual eylədi:

– Keyvan sovdagər, hara gedirıx?

Dedi:

– Oğul, biz gedirih Yəmən şəhrinə.

Şikari başını dolandırdı. Keyvan sovdagər dedi:

– Başıvı niyə dolandırısan?

Dedi:

– Dədəm var idi, qərdəşim quyuya salmamışdı, dədəminən mən peyman bağlamışdım, hər hansı məmləkətinən cəngimiz olsaydı, mən təkütənha gedərdim qoşunun qabağına. Mən bının qoşunun qıra-qıra neçə dəfə aparıb qala qapısından ötürüb içəri qəyidib gəlmişəm. Məni göydə axtarır, yerdə əlinə düşmüşəm, qanımı su əvəzinə içər. Buradan bu yana mənim adımı Xudapərəst səsliyəcəksiz. Keyvan sovdagərin nəfəratı variydi, hammısı bunun adın munnan bu yana Xudapərəst desin. Gəlib qala qapısınnan varid oldular şəhrə. Genə bir karvansərədə bular sakin oldular. Keyvan sovdagər başında bir neçə nəfərətiylə sovdagərlərinən genə bir xonça bəzəyib, təbəğ tutub, qoyub bir qulamın başına gedillər hara, Mənzər şahı Yəməninin huzürinə. Xəbər verdilər Mənzər şahı Yəməniyə ki, gələn var. İcazə verildi, gəlib durdular pərdənin dalısında, pərdadər pərdəni sındırıb varid oldular içəri. Gətdikləri tabağı qoydular yerə. Oturublar, çay, qəhvəvü qəlyan. Bir qədr oturublar durublar getsinlər, Mənzər şahı Yəməni də buları qonax çağırdı ki, Keyvan sovdagər, çoxdandı bizim məmləkətə gəlməmisən, gecə mənə qonaxsız. Gecə gəldi araya, Şikarini də özləriynən apardılar. Vəxti ki, oturublar, dövrə münəzzəm əyləşiblər, Mənzər şahı Yəməni göz dolandırdı dövrüyə. Keyvan sovdagərin nəfərətinə baxdı, gördü buların içində bir cavan oğlan vardı, gözəllihdə mislü mənadi yoxdu. Sual elədi:

– Keyvan sovdagər, o oğlanın adı nəmənədi?

Keyvan sovdagər üz dolandırdı:

– Qurban, onun adı Xudapərəstdi.
Şah sordu:
– O sənin nəmənəndi?
Dedi:
– Qurban, o mənim qulumdı. Bazarda satırdılar, almışam.
Mənzər şahı Yəməni dedi:
– Bura bax görüm, onu satasan, mən alam?
Dedi:
– Nə, qurban, mən onu özüm üçün almışam.
Mənzər şahı Yəməni dedi:
– Sən gəzərçisən, dolanansan bazarrarda, gələr birin alarsan.
Keyvan sovdagər dedi:
– Qurban, satmaram.
Şah dedi:
– Neçə vermisən, iki bərabərin verrəm, mənfəət verrəm.
Qəbül eləmədi. Şah dedi:
– Üş bərabər verrəm.
Qəbul eləmədi. Mənzər şahı Yəməni dedi:
– Onu qoyaram tərəzinin bir gözünə, bir gözündə də onun ağırlığında qızıl verərəm sənə.
Keyvan sovdagər dedi:
– Eybi yoxdı.
Qəbul eliyib, gətirib tərəzinin bir gözünə Şah Dara oğlu Şikarini qoydular, bir gözünə də onun ağırlığında qızıl.
Mənzər şah dəstur verdi, bir dəst libas gətdilər, bir dana qılış. Libasi geydi əyninə, qılıncı bağladı belinə, oğul, bunnan bu yana sən mənə nəzər qulu olacaxsan, təxtimin sağ tərəfində duracaqsan.
Mənzər şahı Yəməninin iki dana vəziri var idi. Birinin adı Bəhmən vəzir, birinin adı Xocand vəzir. Xocand vəzir müsəlmandı batində, ammə zahirdə bunlar çün butpərəst idilər, boynuna büt asar, əmma batində müsəlman idi. Əmma Bəhmən vəzir zahirdə, ya batində butpərəsti-mütləxdi. Bu, o qədər xünxəridi ki, gündə gərəh şərabına müsəlman qanı qataydı. Bəhmən vəzir Şikarinin əhsini götümüşdi. Bir az fikr elədi, fikr elədi, öz-özünə dedi: "Sən ölmüyəsən bu Şah Dara oğlu Şikariyə oxşuyur, özü-

dü. Durub padşaha diyəcağam”. Mənzər şahı Yəməninin bərabərində kürnüş eliyib dayandı, dedi:

– Qurban, ərzim var.

Şah dedi:

– Buyur, söhbətivi de.

Bəhmən vəzir üz dolandırdı:

– Bu nəzər qüli ki saxlamısan yanında, bilisən kimdi?

– Qurban, bu Şah Dara oğlu Şikaridi. Neçə mərhələ bunun dədəsiylə bizim cəngimiz düşüb. İndi də bu qurt donunda gəlib sənin təcü-təxtinə rəxnə salsın.

Mənzər şahı Yəməni dəstür verib, yavaçça işarəynən Şikarini daldan qıs-qıvraq tutdular. Bərgahın vəsətində otutdular yerə, qolların dalıdan bağladılar. Bir dana teşt gətirdilər qoydular qabağına. Şah dedi:

– Oğlan, vəsiyətivi eləginən. Əgər düz dedin, Şah Dara oğlu Şikarisən, səni öldürməyəcəyəm, əgər düz deməsən, öldütdürəcəyəm səni.

Şikari dedi:

– Qurban, Şah Dara oğlu Şikari hara, mən hara? Mən bir qulun birisiyəm, Keyvan sovdagər alıb gətirdi, indi düşmüşəm sənin əlinə.

Mənzər şahı Yəməni dedi:

– Vəsiyyətin-zadın olsa, eləginən və əlli min dana canın olsa, biri qutulmuyacax.

Şikari dinmədi. Götürüb bu dillərinən görək nə deyib? Şikari dedi:

Hökm eylədin, qollarımı bağlatdın,
Qaldı vətən sarı əlim, nə deyim?
Sinəm üstü çalar sazı dağlatdın,
Yadlarınan nə danışım, nə deyim?

Mən aşıq, bu dağınan,
El gəzər bu dağınan.
Sənə yaxşı diyəllər,
Mən ölsəm bu dağınan?

Mən Məcnunu bu halidə görmədim,
Çox ağladım, gözüm yaşın silmədim.
Tifilkən də şəd olubən gülmədim,
Bağlı qaldı mənim qolum, nə deyim?

Mən aşıq, abır eylər,
Gözlərim abır eylər.
Yanasan mənim ürəyim
Necə dərdə səbir eylər?

Şikar oldum, işi hara yetirdim,
Qafil oldum, bir namərdə tutuldum.
Qul adına bu şəhridə satıldım,
Yolum düşdu bu bərbadə, nə deyim?

Yol kəsənlər, ay yol kəsənlər,
Qorxmaram, yol kəsənlər.
Gəl bir qol-boyun olax,
Bəlkə ayrıldım sənnən.

Əmma eşid dastani kimnən, Xocand vəzirdən. Xocand vəzir yeriyib qabağa, üz dolandırdı:

– Qurban, ərzim var.

Mənzər şahı Yəməni üz dolandırdı:

– Vəzir, buyur sözüvü de.

Xocand vəzir üz dolandırdı:

– Mənim də bu dərbəridə vəzirlikdə həqqim var, ya yox?

Dedi: "Vəzirin biri sənsən, biri də elə Bəhmən vəzir". Xocand vəzir üz dolandırdı:

– Düzdü Şikari bizim düşmənimizdi, neçə mərhələ bizimlə qoşun keşliyimiz olub, qoşunumuzu qırıb, əmma bu bir dana Xudapərəstdi, sən almısan qul adına. İndi Bəhmən vəzir də diyir ki, bu Şah Dara oğlu Şikaridi. Dünyada adam adama oxşar, demirəm oxşamaz, əmma vurdu Şikari olamdı, verdin bunu öldürdülər, səhər bu xəbər getdi yetişdi Şah Dara oğlu Şikarinin qulağına, Şah Dara oğlu Şikari əgər bu kəlməni eşidə, gəlsə bu məmləkətdə şa-

girdən kəbirə rəhm eləməz ha. Verər bu məmləkətin toprağın at, eşşəh torbasında daşırlar, tökərlər dəryayə.

Xocand vəzir bu nəqşeynən, bu kələyinən istir Şikarini buradan qurtarsın. Şah üz dolandırdı:

– Vəzir diyəsən əqilə batan söz diyir, bəs mən neyniyim? Verim zindani eləsinlər?

Xocand vəzir dedi:

– Yox, sən əgər mənim sözümü qəbul eləsən, munu üş günə kimi ver mənə zamanət. Əgər bu Şah Dara oğlu Şikari oldu, Şikariliyin boynuna qoyaram, əgər olmadı, gətirrəm bu cür xidmətinə təvil-tehvil verrəm. Fəqət üş gün sənnən möhlət istiyirəm.

Qəbul elədi. İmza aldı Mənzər şahı Yəməni Xocand vəzirdən. Üş günün zamanətinə verdi, Şikarini apardı. Xocand vəzirin bir dana qızı var idi. Benamı Pərnaz. Neçə yerdən muna əmirüüməradən, vəzirüvüzarədən elçi gəlmişdi, verməmişdi heş kimə. Qız oturmuşdu küləfirəngidən baxırdı. (Qədimlərdə iki mərtəbə, üş mərtəbə olsaydı ona külafirəngi diyərdilər). Gördü dədəsi varid qapısınnan, əmma bir dana da oğlanınan varid oldu içəri. Gözəllihdə Yüsifi sani, dilavərlihdə Rüstəmi dastan. Qız əl götürdü pərvərdigarın dərgahına:

– Ey yerləri, göyləri yoxdan xalq eliyən Allah, ey on səggiz min aləmi bisutün xalq eliyən Allah, bu dədəmi mənə çox görmə, onu qoruyasan.

Qızın imanı döndü qırqı imanına. Varid oldular otaxda otursunlar. Çay gətirdilər, mivə, şirini, yeməh-işməh, gecəni yorublar. Durup bunun gözünün bərabərində dəstnəməz alıb, ibadət eliyib ki, Şikari inansın ki, bu müsəlmandı. Gecəni yorublar, qonağ otağında Şah Dara oğlu Şikarinin rəxti-xabın açıblar. Getdi orda yatmağa məşğul olsun, əmma harda ilan vuran adam yatıp, bu yatmayıb. Həm Şikari yata bilmir ki, fikri nərahatdı, həmi qız. Qız niyə yatammır? Qız da Şikarinin dərdinnən yatammır. Gecənin oğlan vəxti, qız ayıldı yuxudan yatammır, vəxtən istifadə elədi. Gözəl qisməti gözəl olar, bir muxtəsər də otursa aynanın qabağında, özünə bir balaca əl dolandıra, adamın dədəsinin evin yıxar qoyar orada. On yeddi qələmnən zinət elədi özü-

nə. Durub yavaccə qapını açıb çıxdı eşiyə. Gördü oğlan yatıb, əmma üzünə bir dana ipək dəsmal çəkib. O siyah zülüflərdən bir dəstə tel ayırıb, basıb məmələrinin üstünə, görəh Şah Dara oğlu Şikarinin başı üstə nə deyir? Pərnaz xanım Şikariyə dedi:

Nə yatmısan xabi-qəndə,
Xabi-qənddən ayıl, oğlan.
İki gözüm camalinə,
Oldum sənə mayil, oğlan.

Xoş gəlmisən, mənim gülüm,
Həm gülümsən, həm bülbülüm.
Ruxsət verginən tərini silim,
Qol boynuva salım, oğlan.

Başın üstə vardı bir saz,
Qış göylümü eylədin yaz.
Vəzir qızıyam, adım Pərnaz,
Oldum sənə mayil, oğlan.

Pərnazın anasının səs dəydi qulağına, yuxudan ayıldı. Qızın yerinə baxdı, gördü xeyir, qız yoxdı. Bir balacana qulağ asdı, gördü oğlanınan müzakirə eliyirlər, səs qonağ otağınnan gəlir. Yavacca Xocand vəziri oyatdi. Xocand vəzir oyandı dedi: "Nolub?" Dedi: "Nə vardı, nə ola, dur ayağa bax, nə cur qonax gətimisən ki, qızın səsi qonağın otağınnan gəlir". Xocand vəzir dedi: "Mənim qonağıma iftira demə".

Dursunlar ayağa. Xocand vəzir və xanımısı çıxdılar eşiyə. Xocand vəzirin xanımısı istəyir Şikari olduğu otağın qapısın aça, tutdu biləyinnən. Xocand vəzir dedi:

– Səsivi çıxartma, gəl bura, bura imtahən ayağıdır. Əgər bu Şah Dara oğlu Şikari olsa min dənə sənin qızın kimi qızlar və onnan gözəlləri də gedsə onun yanına gözünün quyruğuynan dönüp baxmaz. Xeyir, əgər naxırçı oğlunnan zaddan olsa, onu demirəm.

Yavaşca yapışıb biləyinnən gəldilər durdular eşihdə, pəncərənin qabağında. Bular Şikarinən qızı görüllər, vəli Şikariynən qız buları görmür. Olar həyətdə qəranlıxdadılar, bular otaxda işıxdadılar. Qız çox dedi, oğlan az eşiddi, oğlan çox dedi, qız az

eşiddi, axırı sərəncamında qız öz-özünə dedi ki, mən baxıram bu oğlan beləlihlə ram olmuyacax, yaxcısı bu ki, mən buna yalvar-yaxar eliyəm. Dedi:

– Oğlan, mən görürəm elə bil çox səngdilsən. Qulaq as, bir neçə kəlmə sözüm var, deyim sənə. Onan sora məni yanınnan qovsan da qov.

Siyah zülflərdən bir dəstə tar ayırıb basıb məmələrinin üstünə və görəh Şikariyə nə diyəcəh, deyim sizlər sağ olun. Pərnaz xanım Şikariyə dedi:

Xoş gəlmisən, gözüm üstə yerin var,
Çox zəhmət çəhmisən bu xənumənə.
Bir quş gəlib bir butağa çıxarsa,
Butağ olan onu verməz tərlanə.

Mən aşiq, sini-sini,
Doldur ver sinisini.
Öz yarımı versələr,
Neylərəm özgəsini?

Şikari dedi:

– Nazənin, sözüvü saxla. Qulağ as, cavabıvı algınan. Nazənin, mən demirəm sən qolaysan, çirkinsan. Çox da gözəlsən, əmma mən eliyə bülmərəm, əqlimi sənin kimi nədanlara verəm. Gəl əl çəh mənnən, qoy çıx get.

Görək daha nə dedi? Şikari dedi:

Qoy get, gözəl, məni rüsva eyləmə,
Əğlimi verməröm hərgiz nadana.
Əl götürgünən mənnən ey mahiliqə,
Səni qəsəm verərəm qadiri-subhanə.

Oğlan buna yalvarır ki, bəlkə bu qız bunun yaxasınnan əl çəkə gedə. Xeyir, yapışıb qopmaz. Qız deyir, ölərəm, getmərəm. Ata, ana qulağ asır, həyətdə təmaşə eliyirlər, ta görəh işin axiri hara yetişəcəh. Qız götürür o bürü kəlməsin bu dillərinən desin, ərz eliyim eşidənlər sağlığına. Pərnaz xanım dedi:

Dərin-dərin dəryalərə dalmasan,
Eşq atəşi şirin canə salmasan,

İlqar verib mən gözəli almasan,
Ərzimi eylərəm sultana, xana.

Mən aşiq, qəlbiləndi,
Ay doldu, qəlbiləndi.
And içirəm yar ola,
Bu qəlb o qəlbiləndi.

Şikari öz-özünə dedi: “Di gəl, gəl buna qarə qorxu verginən, bəyə sənnən əl çəkə gedə”. Şikari götürüb bu dillərinən görəh qızın cavabın nə deyir?

Dolu-dolu peymanələr doldurram,
Saraltubən gül rəngini soldurram.
Yəqin bil ki, durram səni öldürrəm,
Gəl məni batırma nahax qana.

Xocand vəzir xanımısıyla durublar pencərənin qabağında, təmaşə eliyirlər, ta görəh işin axiri harda bənd olacax. Qız gördü işin orası dəyil, öz-özünə dedi: “Gəl söz arasında muna andırgınan ki, əgər mənnən üz döndərəsən ha, məhkəmeyi İlahidə sənin əlinnən yapışıb, şahı-mərdanə şikayət eliyəcağam”. Qız götürdü görəh bu nə deyir, ərz eliyim əyləşənlər sağlığına. Pərnaz xanım dedi:

Pərnazam, mən buraya gələndə
Əziz Allah mətləbləri verəndə,
Qiyamət günündə tutam əlinnən,
Şikayət eylərəm şahı-mərdanə.

Şah Dara oğlu Şikari qızın cavabində belə ərz elədi:

Şikari diyər, indi bildim mərəmın,
Yardan ötrü gəlmir sənin aramın.
Səhər olsun, açım həqqin kəlamın,
Məşvrət eyləyim mən də Quranə.

Şah Dara oğlu Şikari dedi:

– Bu gecəni mənə möhlət verginən, ta səhər olsun, sabahları mən gedim Quranə istixarə eliyim, onnan sora sənə cavab deyim.

Qız birdən dedi:

– Bura bax görüm, cavan, deməh hələ bu gecəni sənə möhlət verəm, ta sabah ola, sabahda yaxcı gəlmədi, qolay gəldi, demax sən məni almıyacaxsan?

Bu kəlməni diyəndə oğlan üş barmağın yatırdıb, iki barmağıynan bunun binəgüşinnən bir dana silli vurdu. Qız cin vurmuş pişih kimi kələfçələnib evin arasında yıxılsın yerə, ağız-burun doldu qanınan. Bu heyndə Xocand vəzirinən qızın nənəsi qapını açdı, varid oldular içəri. Şikari utandığınnan başın saldı aşağa. Xocand vəzir Şikarinin alnınnan öptü, qolların saldı boynuna, üz dolandırdı:

– Oğul, haləl olsun o Şah Daranın çörəyin sən yemisən. Halal olsun, o anıya ki, sənə süd veribdi. İndi bildim ki, sən Şah Dara oğlu Şikarisən.

Şah Dara oğlu Şikari utandığınnan başın saldı aşağa. Vəzir dedi:

– Mənim də dəri-dünyada bir dana qızım vardı, sənə də demişəm, mən müsəlmanam, bunlar hammısı bütpərəstdilər, əmma bir müsəlman mənəm. Əgər ləyiqi kənizlih olsa, yox demiyəsən, halalın olsun sənin bu dünyada.

Şikari genə başın saldı aşağa, utandı, ikiminci dəfə üçümüncü dəfə. Qızın ürəhi düşüb tıbbatıba, vurur, çırpınır: “Pərvərdigara, görəsən oğlan “hən” diyəcax?”. Əmma çün Şah Dara oğlu Şikari utanırdı, bir söz diyə bülmürdi.

Dünyaya çox şairüşüara gəlib gedib, əmma hər kəs öz ağlının əndazəsicən, mərifətinə görə təqəzəyi zamanəyə baxıb beş kəlmə söz nizama çəkib, dünyadan köçüb gedib. Allah-tala dünyadan ölüb gedən üstadlarə və ülamalara rəhmət eyləsin. Əyləşən ağaları, o şaxsilar ki, qulaq asırlar, navardan oları da Allah-tala paydər və salamət eyləsin. Allah-tala sizə şadlıq versin, yamanlıq verməsin.

Allahın bəndəsi rəsüli-Xuda,
Dur gedəh məscidə, vəxt keçər indi.
Yığalar şiəni rüzi məhşərə,
Mömünü kafərdən kim seçər indi.

Oxudun kitabı, Qurani keçmə,
Kitab qırx cüzvədi, hurüfdan keçmə,
Behişti-əlada bir neçə çeşmə,
Onların suyunnan kim içər indi?

O peyğəmbər çıxıban mimbərdə durdu,
Çəkibən zülfiqəri kafəri qırdi.
Göyün mələhləri səf çəkib durdi,
O Sırat köprüsün kim keçər indi?

Səhərin seyrində mən bir tərlanam,
Uca dağ başında bir meh dumanam.
Qasiməm mən, dəryayı-ümmanəm,
Arif olan ağalar tez seçər indi.

Moc vurub həqqin kəlami dəryayi-ummanə bax,
Altında dünya salınıb, titrəyir hər yanə bax.
İlahi bir quş yaratıb, rüzisi həxdən yetər,
Dimdiyində dən alıb, dən yiyən dəndanə bax.

Bir gün olar cahan zülmət olar, görmağ olmaz göz-gözi,
Şəmsü-qəmər bürüyübdir səngü-səhrani, düzi.
Gör nə gözəl xəlq eyləyib ayı, günü, ulduzi,
Yeddi yerdi, yeddi göydi, yeddi də ərşi-zamin.

Dolanır çərxi mualla, o asimanə bax,
Abü atəş, xakü baddan yarandı Adəm ata.
Uydu Şeytanın sözünə, dən yedi, etdi xəta,
Buyurdu mənnən vəsidi, siz buyurun ümmətə.

Atdılar cənnətdən kənarə o bədəni-üryanə bax.
Yəzıx Qül Əbəzər, bax Xudanın işinə,
Ağlayubən ümman edib, göz vurub göz yaşinə,
Habil öldürdü Qabıli, qəsd edib qardaşinə,
Beş gün çün fani dünyadə o məlün şeytanə bax.

Xocand vəzir çox basəvədidi, dedi, oğul, mən özüm, siğə zad da oxuya billəm. Qızınan oğlanın siğeyi-məhrəmin oxuyubdi. Qızı oğlana, oğlanı qıza məhram eliyib. Bəli, üş günə kimi ki Şikari qaldı otaxda, üş günün ərzində bı qızın bətninə bir dana uşax düşür. Ərz eliyəcağam, dünyaya gələnnən sora bu oğlanın adın qoyullar Cahangir. Bəli, üş günnən sora, çün munun zamanəti ta-

mam olur, Xocand vəzir yapışır Şikarinin dəsti-bəndinnən, aparıp bargahi-Mənzər şaha. Xocand vəzir dedi:

– Qurban, qıbleyi-aləm sağ olsun, başıv içün üş gündü buna odu fişərət ki, gəlmişəm, o ki işkəncədi vermişəm, vəli andaman içir ki, mən Şikari adında ad eşitməmişəm. Boynuna qoyammamışam ki, bu Şah Dara oğlu Şikaridi.

Bəhmən vəzir dedi:

– Qurban, Şikarinin bir də əlayimi var mənim yanımda.

Şah dedi:

– Nəmənədi?

Dedi:

– Şikari yeddi tuluğ şərab içər, vəli keflənməz. Bı da onun bir əlamətlərindəndi.

Mənzər şahı Yəməni dəstür verdi, minayə şərab qoyuldu arayə. Bəli, minayə şərab qoyulsun arayə. Xocand vəzir göz elədi: "Bir ata sözü var, dəvəni çömçəynən suvarmaxla dəvəyə qanıx verməz ki su".

Şikari bir neçə piyalə işdi. Gördü, xeyir, yalannan özün dursun, vursun keflılığa, imkanı yoxdu. Saqi piyaleyi minayə şərabı dolandırır, bunun önünnən keçəndə tutur saqinin dəsti-bəndinnən. Yavaşca minayə şərabı dayıyır ağzına. "Qurthaqurt, qurthaqurt"-ta tulux qutulana kimin Şikari çəhdi başına. Ondan sora durdu ayağa. Şah Dara oğlu Şikari ta görəh nəmənə deyir, ərz eliyim bütün eşidənlərin sağlığına. Şikari dedi:

İşmişəm şərabi, məstəm,
Saymaram Rüstəmi xanı.
Əgər çəkəm əyri qılıncı,
Dağıdaram bu cahanı.

Rüstəm təkin qılış tovlaram,
Ləşkərivin hamısın ovlaram.
Nə qədər dilavərin olsa, doğraram,
Təxtinnən salaram paşanı, xanı.

Mən hara, Şikari hara,
Ürəyimə vurdun yara.

Ləhnət büti büzürgəvəra,
Sevəram şahı-Mərdanı.

Xocand vəzir üz dolandırdı:

– Qurban, ərz elədim əvvəldə onu minayə şərab götürübdi, o aləmi məstlihdədi indi, heş bülmür ki, nəmənə diyir axı.

Şikari pəhlivanlar gördü, dedi:

– Olarınan güləşərəm. Oların qılıncı var, qalxanı var, atı var, axı mən bu cür əliyalın olarınan güləşə bilmərəm ki...

Bəli, Mənzər şahı Yəməni dəstur verdi, gedin muna geyim gətirin. Gediblər bir dəst libasi gətirdilər. Götürüb geysin əyninə, qolun geyir, cırır qoyur yerə.

Mənzər şahı Yəməni üz dolandırdı:

– Oğul, o libasları niyə axı cırısan?

Dedi:

– Qurban, məndə təqsir yoxdı. Bıları ya xayyət çürümüş sapınan tikib, ya da ambarda o qədr şeh yerdə saxlıyıb ki, bu libaslar çürüyüblər, beyndən gediblə.

Şəmşir gətiriblər, hər hansına əlin atdı, yapışdı, şəmşiri aradan sınıb atdı yerə. Allah qədim kişilərə rəhmət eləsin, nə diyibdilər? Allah-tala insanın işin düzəldəndə düşmənin öz əliynən düzəldər. Oydi ki, Bəhmən vəzir üz dolandırdı:

– Qurban, sənin qızın Simizərin yəxdənində bir dəst geymi-Süleymani vardı və bir də tiği-Süleymanı vardı. Munun əynində dəvəm eləsə-eləməsə, olsa-olmasa, o olar.

Mənzər şahı Yəməni götürüb bir dana namə yazdı qızı Simizərə ki, qızım Simizər, bu hamili vərəqəynən geymi-Süleymani, tiği-Süleymani oları verərsən bu şəxs gətirə bura.

Qız şahı-Mərdanı yuxusunda görmüşdi və şahı-Mərdan buyurmuşdu ki, qızım, o libasları ki, geymi-Süleymanidi və tiği-Süleymanidi ki, sənin yəxdənindədi. O libaslar hər kimin əyninə olsa və o tiği-Süleymanini hər kim belinə bağlasa, səni ona buta verirəm, onu sənə.

Qasid Simizərin bərabərində dayanıb salam ərz elədi:

– Xanım Məlekə sağ olsun, atannan pəyəmım vardı.

Simizər dedi:

– Gətir görüm yaxına.

Qız alıp naməni oxudı, məzmünunnan baxəbər oldu. Öz-özünə dedi: "Pərvərdigara, görəsən, bu libasları mənim dədəm istiyir kimə verə və kim giyəcaxdı? Pərvərdigara, barı bu libaslara görə, mərdənəliği və qabiliyyəti var, ya yox?". Qız gətirib libasları verdi qasidə. Qasid götürüb gətirib bargahi-Mənzər şahı Yəmənidə şahın qabağında qoydu yerə. Mənzər şahı Yəməni dəstür verdi ki, o libasları verin Xudapərəstə. Şikari bir baxdı tiği-Süleymaniyə, geymi-Süleymaniyə. Tiği-Süleymanini aldı əlinə, bi yapışdı qəbzeyi-şəmşirdən, bir də yapışdı şəmşirin ucunnan əydi gətirdi, şəmşiri ötürən kimi qeyiddi yerinə. Libasları necə ki, götürüb atıb havaya, havadən tutub giydi, şəmşiri öpüp qoydu yerinə. Mənzər şahı Yəməni dəstur verdi mehtərə ki, oğlum, get o yaxcı atdardan birin gətirginən bu Xudapərəstə. Mənzər şahı Yəməni üz dolandırdı:

– Xudapərəst, geş o da sənin atın, min görəh.

Şikari gəldi atın yanına, ata nəzər saldı, Şah Dara oğlu Şikarini hər mərkəb eliyə bilməz ki, dolandırsın. Bu baxdı gördü ki, bu mərkəbin iş dəyil ki, Şikarini dolandırsın. Ayağın qoydu üzəngiyə. Şikari ayağı qoydu üzəngiyə, mərkəbin beli sınıb, atın qarnı dayandı yerə. Bəhmən vəzir dedi:

– Mən sənə demişəm, bu Şah Dara oğlu Şikaridi və genə də deyirəm, əmma sözümü hələ də qəbül eləmisən. Sənin bir dana da Mərkəbi-Əjdaxarın vardı ki, ona mərkəbi-Süleymani diyərsiz, hesərda onu saxlatdırmısan və otun, suyun divardan verəllər. Bunu dolandısa dolandırmasa o mərkəb dolandıracaxdı.

Mənzər şahı Yəməni üz dolandırdı:

– Bəhmən vəzir, elə bil yaxcı söz deyisən, yaxcı oldu, yolluyax onun yanına, o bir dəfəlik mını öldürsün, bizim də yaxamız qurtulsun, sizin də. Mərkəbi-Süleymaninin əlində bu ölsün, biz asudə olax.

Mənzər şah çağırıb mehtəri dedi:

– Mehtər, munu aparasan o Mərkəbi-Əjdahaxının yanına.

Mehtər dedi:

– Baş üstünə, qurban.

Mehtər düşüb qabaxda, Şah Dara oğlu Şikari munun dalısıcan. Az gediblər, çox gediblər, şəhridən kənar bir dana hesar idi. Yetişəndə mehtər qorxusundan qaçdı getdi. Ammə Şah Dara oğlu Şikarinin o zaman gözü sataşdı bir dənə Mərkəbi-Əjdaxara elə necə ki, qabaq əllərin qovzuyubdu göyə, ağzını açıb məqərə kimi üstünə, ənqəribdi ki, bunun başının kasasını götürsün, başıynan bədəninin arasında ayrılıq salsın. Şikari necə ki, yumuruğun dügünnüyüb mərkəbi-Əjdaxarın qulağının dibinnən bir dana vırsın, mərkəp yıxılır yerə. Diyəllər, at minənindi, don giyənin. Dadaşım, at minənin tanıyar. Mərkəb yerdən durdu, bədəni nanə yarpağı kimi titrəmağa başladı. Oturdu mərkəbin başı üstündə, əllərinyən munun başına gözünə tumar verir: “Ey Allahın zəbənbəstə heyvanı, qurbət eldə beqeyr əz Allah mənim kəsim yox. Nə iş görüsən? Sən də mənə düşmən olanda mən kimə pənah aparacağam?”. Əmma neynədi, mərkəbin yapışıb yallarınnan qalxızıb, mərkəb durdu ayağa. Gətirib yəhərin qoydu belinə, yeddi yerdə təngin bərkidib, cilovun vurub ağzına, ayağı üzəngiyə, diz qabriqayə, şahbaz kimin yerində qərar tutdu. Mərkəbi-Əjdaxarı minib gəlmağa məşğül oldu.

Əmma güzarı düşdü hardan? Güzari düşdü Simizərin qəsrinin qabağınnan. Xəbər yetişib Simizərə ki, o libaslari ki atan istəmişdi, verdi bir cavan oğlan geyip və tiği-Süleymanini də bağlayıb. Simzar külafirəngidən baxırdı, gördü bir nəfər cavan gəlir. Gözəllihdə Yüsifi sani, dilavərlihdə Rüstəmi dastan. Əmma Şikari fikri piçidədi, fikri o yerdə dəyil. Qız görür bunı, vəli bu qızı görə bilmir. Boynunda bir gərdənbənd var idi mirvarıdan. Qızı eşq çulgalıyıb, az qaldı həlak olsun, da dəvam eliyə bülmədi, əl atıb boynunnan gərdənbəndi qırıb o mirvarının danələrinnən birin atdı çitməyinin arasınnan, getdi dəydi. Hardan? Şikarinin peysərinnən. Şikari mərkəbin cilovun yığıb bir boynun döndərdi, gözü sataşdı külafirəngidə bir dana qıza. Gördü qız mislinki bir dana on dört gecəlih aydı, bulut altınnan tilü eliyib. Gözü sataşdı qıza, dedi:

Səlam, ey sərvi qamətin tübadən gözəl,
Çəkilmiş gaşların bədri bədradən gözəl.
Sənin o hicəz ləblərin içib məxmüri sagərdən,
Geyinmiş siyahın, hüsni Züleyxadən gözəl.

Şikari neynədi? Əl eliyib o Misri qılıncı döndərib sinəsinə (qız mayıl-mayıl baxır bunun üzünə), Şikari götürüb görəh qızın o baxmağına nə deyib, mən də ərz eliyim bütün eşidənlərin sağlığına. Şikari dedi:

Bir bəri bax, gözləri çağ,
Hansı bağçanın gülüsən?
O bağa bağban mən ollam,
Hansı bülbülün gülüsən?

Mina kəmər, inçə belin,
Cəbinivi basıb telinə.
Mənə nişan ver, bir elin,
Sən kimin şirin dilisən?

Tanıyan yoxdı burada,
Sirrimi demərəm yada.
Mənəm Şikari Şahzəda,
Sən mənə baxıb gülüsən?

Deyib, düzəldi yola. Qız qayıdıb əlin qoydu ürəyinin başına, otağın o başına gedir, bu başa gedir. Şikarinin eşqindən əlini ürəyinə qoydu və öz-özünə dedi ki, ey dadi-bidad, elə bil bu oğlan əvvəli eşqimizdə mənnən küsdü, pərvərdigara, mən neyniyəcəğəm? Bu qız burda qalmaxda olsun, əmma eşid dastani kimnən, Şikaridən. Şikari gəlib yetirdi hara? Meydana, pəhlivan meydanına. Mənzər şahı Yəməni zərrin təxtinin üstündə oturub bargahın qabağında. Dörəsində əmirüümərа, vəzirüvüzarə. Bəhmən vəzir üz dolandırdı:

– Qurban, biz arxeyinidix ki, mərkəbi-Əjdaxar öldürəcəh, beyinnən aparacax, o da mərkəbi-Əjdaxar minip özün yetirdi meydana.

Çox təcüb elədilər. Əmmə Xocand vəzir ürəyində toy tutubdı, da bilir ki bunnan sora dünyaye məsavə Şikarini qabağında qul eliyə bülməzlər. Özü Şikaridən çox arxeyinidi. Əmma Bəhmən vəzir üz dolandırdı:

– Qurban, mən sənə dedim bu Şikaridi, əmma inanmadın, indi kimdi ki, bunun qabağında dayanacaq?

Pöhrüz getdi kəsdi Şikarinin qabağını dedi:

– Ay xətakar, saxla.

Şikari əl eliyib mərkəbin cilovun yığdı, dayandı. Şikari dedi:

– Fərmayişin nəmənədi?

Pöhrüz dedi:

– Sən kimnən icazə almısan, bu meydanda at dolandırısan?

Dedi:

– Məgər mən birininnən qərardı icazə alam?

Pöhrüz dedi:

– Bəli.

Şikari dedi:

– Kimnən?

Dedi:

– Gərəh mənnən icazə alaydın. Mən Mənzər şahı Yəməninin nammənə pəhlivanı var, hammısınnan ərşədəm və adıma Pöhrüz pəhlivan diyəllər və buların hamısının da böyüyəm.

Şikari dedi:

– Güzəşt elə, mən bülməmişəm! Ancax icazə almamışam, at dolandırmışam. İndi sözün nəmənədi?

Pöhrüz pəhlivan dedi:

– Görürəm, sən yaxcı cavansan, gələsən mənim rikəbimnən öpəsən, səni özümə mən qülam eliyəm.

Şikari bir güldü, dedi:

– Məni?

Dedi:

– Hə, səni deyirəm.

Şikari dedi:

– Pöhrüz, dayangınan sənə bir neçə kəlmə ərzim var, əgər onları qəbül eləsən eləmisən, əgər eləmədin, səninkiynən mənimki qalıb Allaha.

Götürüb bu dillərinən görəh nə ərz eliyib? Mən də deyim eşidənlərin sağlığına. Şikari Pöhrüz pəhlivana dedi:

Canım Pöhrüz, indi nədir məramın?
Alıram canıvı mən Xudapərəst.
Kəsərəm başıvı, tökülsün qanın,
Alaram canıvı mən Xudapərəst.

Gər qanım tökülə zaminü xakə,
Qəbül olar həx yolunda dərgahə.
Əgər gedəsən həft əflakə,
Kəsərəm başıvı mən Xudapərəst.

Şikariyəm, qılış vurram adıva,
Qiyamətin günündə düşər yadıva.
Çağırgınan, tarı yetsin daduva,
Alaram canıvı mən Xudapərəst.

Əl eliyib yapışdı Pöhrüzün dəsti bəndinnən (o şəmşir olan əlinnən), o qədr fişər verdi, verdi, Pöhrüzün əlinnən şəmşir düşdü yerə. Pöhrüzə dedi:

– İndi de görüm, müsəlman olusan, ya yox? Əgər kəlmeyi-şəhadətivi dedin, müsəlman oldun, sənnən qardaş olacağam, əgər olmasan, üş yüz atmış altı Tarı səhlidi, üş yüz atmış altı canın olsa biri mənim əlimnən qurtarmaz.

Pöhrüz dedi:

– Bura bax görüm, nəmənə desəm ollam müsəlman?

Şikari dedi:

– Diyəsən, kəlmeyi-şəhadət edəsən, müsəlman olarsan.

Şikari ona müsəlman ədəblərin dedi. Pöhrüz buları eşidəndə dedi: "Mənnən müsəlman çıxmaz, neynəməlim?" Elə ki dedi "mənnən müsəlman çıxmaz", bunu yəhrin qaşının üstünnən göttü Yəməninin bərabərinə. Pöhrüzü başı üstə yerə elə vura bildi ki, Pöhrüz dağım-dağım dağıldı. Pöhrüz cəhənnəmə vəsil olsun. Mənzər şahı Yəməni day özün saxlaşdıra bülmədi, dedi:

– Tutun bu xətakarı.

Hər tərəfdən atdı qaxdı atın belinə. Qoşun əhli hucüm gətirib Şah Dara oğlu Şikarinin üstünə. Şah Dara oğlu Şikari əl eliyib şəmşirə, şəmşiri qiləfinnan çəkib özün vurdu dəryayi-ləşkə-

rə. Sağdan gələni sağdan vurur, soldan gələni soldan vurur, qoldı, qışdı, bədəndi, bərgi-xəzan kimin vurur tökür yerə.

Şah Dara oğlu Şikari əzanı "Allahü-Əkbərə" kimin cəng elədi. Cəngin içində bir nəfər süvari gəldi, bir nəfər qasiddi, namə gətirib Mənzər şahı Yəməniyə. Kimnən? Sərhəngi Şamidən. Sərhəngi Şami belə yazıb namədə: "Mənzər şahı Yəməni, o qızın Simizərə mən müştəriyəm, bu qasiddi, namədi yollamışam. Əgər Simizəri özün öz dəsti-xəttivinən geyindirdin, kecindirdin və kəniz, qulam və qoşununan bir kəcavəya qoyub mənim xidmətimə yolladın, yollamısan, əgər yollamasan, cəngim cəng idi sənnən".

Yetirib bunun qulaxlarıynan bırnın kəsib qoydu qasidin ovcuna: "Apar, denən əlinnən gələni yeddi boşqaba çəh". Qasidin bırnıynan qulaxların sıyrıb qoyub ovcuna, yola salıp getdi. O da oyana getmaxda.

Elə ki əzan "Allahü-Əkbər" oldu, Şikari şəmşiri qoyub qılafinə, mərkəbin üzün döndərdi Xocand vəzirin qızı Pərnaz xanımın evinə. Bəli, gəlib mərkəbindən piyadə olub geçib otaxda outrup, şəmşiri belindən qoydu, həniz çəhmələrin də ayağınnan çıxartıb. Pərnaz buna elə xidmət eliyir.

Eşit dastani kimnən? Simizər xanımnan. Simizər xanım bayağ ərz elədim, əlin qoyub ürəyinə, otağın içində o başa gedir, bu başa gəlir. Gözünün yaşın bahərın buludu kimi ruxsarınə tökür. Bunun bir dayəsi var, adı Mahızəmin. Mahızəmin gəlib Simizərin yetirdi yanına, dedi:

– Qızım, sənə gələn dərdübəla gəlsin mənim canıma. De görüm, sənə nolup? Niyə əlin qoynunda dolanısan?

Simizər dedi:

– Dayə can, bir dərdə düçər olmuşam, bir nəfərə diyə bülmürəm.

Dedi:

– Dayən sənə qurban olsun, de dərdivi dayəvə.

Simizər dedi:

– Dayə can, qulağ as, deyim da, sənnən sora mənim bir kəsim yoxdu ki. Dayə can bir kagaz al əlivə, bir də qələm, mən deyim, sən yazgınan.

Götürüb bu dillərinən görək Simizər dayəsinə nə deyip, ərz eliyim bütün eşidənlərin sağlığına. Simizər xanım dedi:

Canım, dayə, gözüm, dayə,
Mən ölürəm, aman, dayə.
Rəhmin gəlsin göz yaşıma,
Yəqin ölləm, inan, dayə.

Dərdim dərmanı burda,
Eşqim oynayır sərda.
Məni salıpdı min dərdə,
Əbruları kəman, dayə.

Ürəyimdə bax yarəyə,
Rəhmin gəlsin mən cəvanə.
Bu naməni Şikariyə,
Yetir sahibi-zaman, dayə.

Dedi: "Dayən sənə qurban, axı mən tanımıram Şikari kimdi?". Dedi: "Şah Dara oğludu. Geymi çar əynanı giyən, libası Süleymani, tiği-Süleymanını giyən oğlan. Mərkəbi-Süleymaniyə səvar olup, mənim səbrü qərəmımı əlimnən alıp".

Mahızəmin dedi:

– Axı mən bilmirəm ki, hardadı?

Dedi:

– Xocand vəzirin qızı Pərnazın yanındadı.

Dedi:

– Sənə qurban olum, əlan gedərəm, sənin dərdivə dərmən elərəm.

Dayə durub ayağa. Dayə qisməti də çox bilici olar. Dayə durub ayağa çadra, çərşaf, tünükə corab geyinib, kecinip. Başdan geyinib, ayaxda qıfıllanıb, durdu düşdü yola, naməni də götürüb. Yetirdi, Xocand vəzirin qapısını döyüp, gəlib aşdılar. Soruşdı, Pərnaz xanım hardadı? Otağın nişan verdilər. Gəlip qapını döyüp. Bilir ki, Şikari onun mənzilindədi. Qapını döyüp, Pərnaz xanım qapını aşdı. Pərnaz gördü Simizərin dayəsi Mahızəmindi. Mahızəmin salam verib Pərnaz Xanıma. Pərnaz xanım salamın

alıp dedi: "Buyurun görəh, dayə can, nə əcəb?". Dedi: "Nazənin, peyəmım vardı, gətirmişəm şahızədiyə". Şikari naməni Mahızəmin dayədən alıp oxudu, məzmununnan xəbərdər oldu. Şikari oxuyup naməni, başın saldı aşağa. Pərnaz üz dolandırdı:

– Şahzadə, de görüm, o namədə nə yazıbdı?

Şikari dedi:

– Nazənin, mən ki diyə bülmərəm, naməni oxuyasan, xəbərdər olasan.

Qız alıb naməni oxudu. Gördü, bəli, Simizərdandı bu namə. Üz dolandırdı Şikariyə:

– Cavan, and ola cəlalı-ilahiyə, mən ki kamımı almışam sənnən, ər də bir olar. Gör da, kami-dil hasil eləmişəm sənnən, o da bir kişinin qızıdı. Düzdü, mən vəzirin qızıyam, o da şahın qızıdı, səni and verrəm o cəlali-İlahiyə, durasan Mahızəmininən gedəsən, ta Pərnaz xanımın göylü bizdən incimiyə.

Şikari dedi:

– Nazənin, imkanı yoxdu.

Dedi:

– Mahal əmridi, getməsən, incirəm sənnən. Çətin-çətin belə bir şəxs tapılar dünyadə. İmkanı yoxdu ki, tapılsın.

Pərnaz xanım Şikarini qalxızıb və verdi özü Mahızəmin dayiyə təvil, aparasan bunu Simizərin yanına. Az gəliblər, çox gəliblər, yetirdilər hara? Bağa. Qızın qəsri-səxtuməni bağdaydı. Hovuzun başında dayə Şikariya üz dolandırdı:

– Gedim qızdan ənam alım, müjdə verim.

Dayə ki gəlib Şikarinin dalısınca, qız durub oturub aynanın qabağında, açıb yəxdəni, töküb nə qədr ki lişbası var, geyir, gəlir durur aynanın qabağında. Xoşuna gəlmir, çıxardır o bürüsün geyir, gəlir durur aynanın qabağında. Axirində birin pəsənd eliyib libasların. Oturub aynanın qabağında, on yeddi qələminən zinət eliyib. Gözəl qisməti elə gözəl olar, bir balaca da özünə əl gəzdirəndə...

Mahızəmin dayə gedir bu eşqinən qıza müjdə versin, qızdan pədəş alsın. Simizər gözü sataştı dayiyə, gördü ki, çox sevincək oynuya-oynuya gəlir. Üz dolandırdı:

– Dayə can, de görüm nolubdu? Çox sevincək, şad gəlisən.

Dedi:

– Nazənin, müjdə ver, diyim da.

Qız sövünduğnən neynədi? Əlin atıb gərdənbəndin qırıb verdi dayəyə. Dayənin imanı döndü qırqı imanına. Dayə sevincək döndü, Şah Dara oğlu Şikarini dəvət elədi ki, Şahzadə, buyura bilərsiz. Şikarini gətdilər oturdular bir zərin çərpə səndəlin üstündə. Qız bir piyaleyi-şərab doldurub, iki əllərində tutup, əyildi kirnüş elədi və salam verdi.

Şah Dara oğlu Şikarinin gözü sataşdı Simizərə, dedi:

– Cavan, çox baxma, al piyaleyi şərabı mənim əlimnən iş.

Dedi:

– Dayan, bir neçə kəlmə söz gəlib sinəmə, oları deyim, onnan sora alım piyaləni içim.

Şikari Simizər xanıma dedi:

Səni gördüm, hüş oynadı sərimdən,
Çeşmi-məstin mənə olubdu yağı.
O tirmə araxçın kəc et qaş üstən,
Zülfün alni xüb basıbdı xalı.

Gər Yüsifsən, söylə adını, bilim,
Züleyxasan, götür niqabin görüm.
Ya Leylasan, ya Məcnunsan, ya Şirin,
Həqqi var Fərhadın, çapmışdı dağı.

Zəhr versən Şikariyə, olar nüş,
Leyli Məcnunnan yəqin olar tuş.
İçmərəm camı, mən ollam mədhüş,
Ləbinnən bir büsə ver mənə, saqi.

Elə ki piyaleyi-şərabı alıb Şikari çəhdi başına, qızın dodaxlarınnan bir dana büsə götürdü məzəsinə. Bədən minayə, şərab qoyuldu arayə. Yeyiblər içirlər, bir tərəfdə nəvəzəndə çalır, bir tərəfdə rəqqəsə oynuyur. Bir tərəfdə bular yeyillər, içillər, kef eliyillər. Dəf, tənbür, ney, ərgəvən səsi asimanə bülənd olub. Gecə belə keçdi.

Dayə üz dolandırdı qızlara, kənizlərə: "Durun, hər kəs getsin öz mənzilinə". Dayə buları buların başınnan dağıdıb və özü də gedib. Bular qol bir-birinin gərdəninə salıb, o sarmaşıx kimi geyişiblər bir-birlərinə.

Əmma eşid dastani kimnən? Qızın bir əmoğlusu var, benami Qəhrəman. İldə bir dəfə şəhr üzü görməz, çöllərdə, biyəbanda, dağlarda daşlarda, zindəganlığ elər. Hə, eşqi-Simizər düşdü bunun kəlləsinə. Öz-özünə dedi: "Mən heş çoxdandı şəhrə getməmişəm, durum ayağa, bir gedim görüm şəhridə nə var, nə yox? Ordan da bir baş çəkim əmiqızımın bağına, görüm bağda nə var, nə yox?"

Qəhrəman durub gəldi yetirdi şəhrə, bir qədr şəhridə dolansın, gəlib düşdü bağa. Bu yana döndü, o yana dolandı, xulasə, bir yol tapıb gəldi Simizər olan otağa. Baxdı ayrı adam var. Bu nə işdi? Rəxti-xab birdi, baş ikidi, ayax dört.

Öz-özünə dedi: "Görəsən, pərvərdigara, bu kim ola? Mənim əmqızımın yanında yatıb?". Bu yannan, o yannan nəzər saldı Şah Dara oğlu Şikarinin üzünə. Gördü bir dana dilavərdi ki, əgər təngini canü cin geçə, qutarmaz. Qəhrəman bir az qorxuya düşdü. Öz-özünə dedi ki, ey dadi-bidad, bu ayılsa mən neyniyə bülləm, munun qabağında? Bir qolu quvvəli adam adamı tez vurar, bir də qorxağ adam. Qorxağ adam mümkündü onnan da adamı tez vura. Çün bu qorxurdu, əhsas elədi əgər bu yuxudan ayıla, mənim yüz min dana canım olsa biri munun əlinnən qaçıb qurtara bilməz.

Buna görə Qəhrəman əl elədi qəbzeyi-şəmşirə. Simizərinən Şikari elə yatıbdı ki, rəxti-xabidə, bir qazan su tökəsən üstünnən, vəsətdən bir qətrəsi keçməz yerə, hamısı ayaxdan başdan, başdan gedər tökülər.

Hə, əl eliyib qəbzeyi-şəmşirə, şəmşiri qiləfinnən ayırıb, qozadı göyə. Şikarinin başın hədəf qərar verib. Necə ki, şəmşiri yendirsin Şikarinin kəlləsinə, Şikarinin başına şəmşir dört barmak əylənsin. Şikari bir nərə çəkib, Qəhrəman özün pəncərədən atdı yerə, tü dabanına, qüvvət qaşdı. Əmma Şikarinin nərəsinə qız yuxudan ayıldı. Şikari özü bihüş oldu. Qan götürdü bunu. Mahızəmin dayə, qızlar yığıldılar munun dörəsinə. Qız ağlıyır. Görək bu qızlara və Mahızəmin dayəyə, qızlara nə deyəcək?

Simizər xanım dedi:

Mahızəmin, du qıl başım çarəsin,
Əcəb oldum bəxti qarə bu gecə.
Kovkəbi-əsəddə, bürci Qəmərdə,
Əcəb axdım şəbi tərə bu gecə.

Gedən yoxdu bu cavanın elinə,
Namə yazam ərzi-hali bilinə.
Bülbül idi, həsrət qaldı gülünə,
Qan ağlasın Şah Dara bu gecə.
Qoyubsan başıva şahlıq tacı,
Cəhd elə, qapında doyur bir acı.
Kötülühlə bitən əyri ağacı,
Olmaz bir barı, olmaz bir dadı.

Duman gəlsin, bu dağları bürüsün,
Didəm yaşı Ceyhün olsun, yürüsün.
Bu cavanı vuran, sənin qolun qurusun,
Rast gəleydin zülfiqarə bu gecə.

Nə gözəl açıbdı behiştin güli,
Həsən, Hüseyn, o cənnətin bülbülü,
Daş yarıldı, çıxdı Şahın Düldülü,
Aslanı yanında gəldi, ha gəldi.

Quranı oxullar aya üzünnən,
Gül tökülər peyğəmbərin sözünnən.
Abbas, kimilər düşdü haqq gözünnən,
Əliyəl-Murtəza gəldi, ha gəldi.

Sözümüz orda qaldı ki, Şikarinin başının qanını xuşk eləmağ üçün qız basdı məmələrinin arasına, ammə gördülər ki, qan xuşk olan dəgil. Mahızəmin üz dolandırdı: “Nazənin, dur ayağa, biz başımıza çarə eliyəh, əgər sənin atan bülsə bu cərəyani, hamımız ölümə gedərik”.

Simizər dedi:

– Mahızəmin, neyləməliyik indi?
Mahızəmin dedi:
– Bu öldü, bir tərəftə munu biz orda quyluyax, ta səsi bir tərəfə çıxmasın.
Əmma Simizər üz dolandırdı:
– Dayə can, mən heş movqe o işi eliyə bülmərəm. Əmma mən bir tabax qızıl tökəcağam, bunu pərdə kilimə bükəcəğəm, munu çıxardax aparax bağın kənarində divarın yanında qoyax yerə.
Başın da bir şeyinən səridilər, gətdilar bağın kənarində hasardan kənar qoydular. Bular burda qalmaxda olsun, eşid dastanı kimnən? Yəmənin dağlarının birində bir məqərə var idi. O məqərədə qırx dana hərəmi zindəganlıx eliyir. Buların böyühlərinin adı Səyyah Pəhlivandı. Həmün gecə çıxmişdilər gəştə. Çox dolandılar, əllərinə bir şey dolaşmasın. Üz dolandırdılar Firuza.
– Neçə müddətdi burda biz qazanırıx, sən yeyisən. Bu gecənin qəzası sənnəndi, sən gərəh təyin eliyəsən.
Firuz dedi:
– Evi yıxılmamışın oğlu, indi gecənin yorğun vəxti gecə sovuşub, hara getməliyəm?
Dedilər ki, biz bilmərik. Firuz Əyyar durub dağın damənəsinnən endi əşağya. Öz-özünə fikr eliyir: “Pərvərdigara, mən hara gedim? Yaxcısı budu, gəl get Simizərin bağinin kənarınə, ta bir tərəfdən yol tap, get bağın içinə, genə şah qızıdı, şah dərxanəsidi”. Hamü yerdən geçəndə gördü, oğlan, uzun bir şey uzadıblar. Yeridi yaxına, gördü bir dana pərdə kilimdi. Bir o yan tərəfdən, bir bu yan tərəfdən əlin atdı, gördü bu çox ağırdı. Yavacca pərdəyi aşdı, gördü bir dana şəxsidi. Nə qədər o yannan, bu yannan təkan verdi, gördü xeyir, gücü çatmır. Çün əyyar idi, sehr zad bilərdi, bir məntər oxuyub püflədi, bu, bunun nəzərində çox yüngül gəldi. Götürüb atıb dalısına, özün yetirdi məqariyə. Pələngi-püş üz dolandırdı:
– Firuz, nə tezlihdə gəldin?
Dedi:
– Vallah, güzarım düşdü bir yerdən, şansüza bunu tapmışam.
Qoydular yerə, aşsınlar baxsınlar, gördülər bir dana cavan idi yaralı. Gördülər, bəli, bunun başınnan yara dəyip, bihəldı.

Səyyah Pəhlivan üz dolandırdı: “Nə qədər canımızda can var, bədənimizdə qan var, buna gərəh biz xidmət eliyəh”. Firuz üz dolandırdı:

– Bunun yanına o qədr qızıl töküblər ki, yanı da bu böyük adamdı, hər kimdi.

Əmma Pələngi-püş üz dolandırdı.

– Bəli, necə ki bunu gətirmisən, gərəh döhtür gətirəsən.

Firuz Əyyar gəldi şəhrə varid olsun. Gəlib qapını döydü. Döhtürün peşxidməti çıxdı qapıya. Dedi: “Kimsən?”. Dedi: “Mənəm, gəlmişəm döhdürdən ötür. Döhdürü oyat gəlsin”. Dedi:

– Eliyə bülmərəm, döhtür yatıbdı.

Firuz əlin saldı o qızıllardan bir qədr verdi döhdürün pişxidmətinə. “Zər aləmdə camın müşkülgüşədı, hər nə istərisən onnan rəvadi”. Yetirib döhdürü oyatdi. Döhdür dedi:

– Get denən yatıbdı.

Pişxidmət dedi:

– Canım, sən bülmüsən ki, o qədər pul gətirib ki, mənə nə qədər ənam veribdi. Döhdür durub ayağa, tüman-köynəh, həmin tovr gəlib qapıya.

Firuz dedi:

– Amandı, döhdür, belə başıva dolannam, mənim bir mərizim var, gəlməsən ölər.

Döhdür dedi:

– Mən gedə bülmərəm gecənin bu zamani, siz gətirəydiz bura.

Döhdür istədi getməsin. Firuz götürüb hansı dillərinən görək necə yalvarır döhdürə? Mən də ərz eliyim, hamiz şad olasız. Firuz Əyyar dedi:

Ümid bilib, səni deyib gəlmişəm,
Canım dohdür, çox dərindi yarası.
Ağlayubən gözüm yaşım silmişəm,
Bilmirəm öləndi, ya var çarəsi?

Mən aşıq, əbir eylər,
Gözləri əbir eylər.

Yanasan mənim ürəgim,
Bu dərdə səbir eylər.

Yoxdu baxın sultanından, xanınan,
Dərsin vardı Əflatün loğmanından.
Tez getməsən çıxar can dodağınnan,
Onda gərək ona tutax yasin.

Mən aşiq, de gəlsin,
Demədən de gəlsin.
Annıyan özü gələr,
Annamıyana de gəlsin.

Firuz diyər, zəhmətivi çəkərəm,
Ağlaram, gözümnən qan-yaş tökərəm.
Başınnan ayağa teh qızıl tökərəm,
Gözü yolda ağlar qalıb anası.

Dağlara qar düşübdü,
Gör nə hamar düşübdü.
Qəbrini yadlar qazıb,
Yeri də dar düşübdü.

Döhdür dedi:

– Di bəs qoy geyinim.

Yeridilər, yetişdilər məqariyə, varid olsun məqariyə, gördü, canım, burda mislinki yasdı. Bir cavan oğlan uzadıblar məylisin arasına. Məqərədə dört dörə oturubdular, hammısı pəhlivandı, şəmşir lap dizlərinin üstündə, buğlar eşilib elə bil kəl buynuzudu, qulaxların dibində dayanıb. Gətirib ayna tutdu ağzının bərabərinə. Gördü, yox, ayna tərliyir. Bu gətirib bunun başına bəxiya vurup, yara məlhəmin salıp davə verip.

Şikari bir halə gəldi. Bir qədridən sonra ki halə gəlsin, gözü sataşdı dört dörədə, görd pəhlivandılar oturublar, buğlar (dediğim kimi) kəl buynuzu kimin qulaxların dalısında eşilip. Şikari buları görəndə, özün o vəzidə görəndə, bir nərə çəhdi. Nərə vuranda bəxiyələrin hamısı atsın, Şikari genə bihüş oldu. Döhtür bir də bə-

xiya vurdu, Şikari genə hala gəldi, dörəni gördü, genə bəxiyəlar atdı. Döhdür ağladı. Dedilər: "Bə sən niyə ağlısan?". Dedi: "Munun bir çarəsi qaldı, əgər mən bir də bəxiya vuram, bu bu cur qışqıra, bəxiyəlar ata, da bunun başı bəxiya tutmaz, bu cavan heyfdi, aradan gedər". Səyyah Pəhlivan üz dolandırdı:

– Döhdür can, sən bu səfər də buna bəxiya vur, biz qoymarıx bu qışqırsın. Əgər bu dirilə, bu dilavərih ki bunda var, biz dünyaya sahib olarıx.

Dübarə gətirib bunun başına bəxiya vurup, məlhəm salıb. Şikari bir azdan genə hala gəldi. İstədi nərə çəhsin, pəhlivanlardan durmuşdu bunun dörəsində, əlin qoyuplar ağzına,ənginnən, başınnan tutuplar, qoymadılar qışqırsın. Səyyah Pəhlivan üz dolandırdı:

– Cavan, biz səni bu pərdə kilimin arasında çöldən tapıp gətimişih gecənin bu zamanında. Budu, bax başıvın üstündədi sənə təbabətih eliyir.

Çox bu sözlərdən diyənnən sonra Şikari bir fikrə getdi: "Mən gərəh filan yerdə olaydım. Mənə namərətliyi olar eliyiblər?". Bir az yaxşı olannan sora, dedilər sənə nə oldu? Kim səni belə elədi? Şikari dedi:

Dad eylərəm bu fələyin əlinnən,
Fələh gör nə çəkir qətarə məni.
Neçə dəfə imtahannan çıxmışam,
İmtahan eyləyir dübarə məni.

Namərd fələh vermədi mənə firsət,
Bu beş günnüh ömrü vurmasın minnət.
Bu yarəni vurup mənə bi namət,
Qorxuram öldürə bu yarə məni.

Fələh verib mənə bol ahı-zari,
Xəbər al, ama dərdimi dindirmə bari.
Şah Dara oğluyam, adım Şikari,
Fələh salıb eldən kənarə məni.

Şikari dedi, qardaşım filan kəsdi və bu cərəyanın üzünnən məni qardaşım apardı saldı quyuya, yalannan gəlib deyib ki, şir

dağıdıbdı. Dedilər, cavan, biz sənin qulamınıx da. Şikari Səyyah Pəhlivana diqqətinən baxanda gördü elə bu öz boyuhlərinəndi. Pələngi-püşdi, ö bürüsü Firuz, yetirdi döşəndi qədəmlərinə. Döhtürə çoxlu ənam verdilər, istədilər döhdürü azəd eləsinlər. Dedilər, iki gündə bir gələsən munun yarasına baş çəkəsən.

Gün o gün oldu ki, Şikari çox məlül, bekef idi. Bunnan sual elədilər ki, qurban, sən niyə gərək bekef olasan? Şikari dedi:

– Onun fikrində dəyiləm, məni axı dursam ayağa heş mərkəb dolandırmaz, mənim mərkəbim var idi, mərkəbi-Əjdaxər. Bülmirəm hayandadı? Onun bekefiyəm.

Firuz dedi:

– Bura bax görüm, Yəmənin dağlarında bir qorux vardı, bir dana heyvən otduyur orda, gecə-günüz. Gözləri çirax kimi yanır. Tamam o çəmənliyi qorux eliyibdi, bir nəfər o yannan bu yana qoymur rəddü bədəl olsun.

Şikari dedi:

– Bura bax görüm, məni onun yanına apara bülüsən?

Firuz dedi:

– Dur ayağa, gedəh da. Bə niyə apara bülmürəm?

Firuz, Şikari, bir neçə nəfər dilavərlərdən də bunun dovrəsində durublar, yendilər dağın damənəsinnən, yetirdilər. Şikarinin gözü aralıdan sataşdı mərkəbi-Əjdaxara. Gördü mərkəb oturur çəmənlihdə, əmma atın yəhər olmazmı üstündə, o yəhər dönüb qarnının altına. Şikari gedib buna sarı. Bir qıy vuranda Şikari mərkəbi-Əjdaxar gəldi. Ustad belə deyir ki, onun başının iyisiynən mərkəbi-Əjdaxar gəlib o məqərənin damənəsində, dağın damənəsində məşğül olmuşdu çarəyə. Bəli, mərkəb qabax ayaxların götürüb göyə bir şahə çəkdi. Bular hamısı vahimiya düşdülər, bəng vurdular Şikariya ki, mərkəbi-Əjdaxar gəldi. Şikari əl atıp mərkəbin cilovunnan tutup, qolun saldı boynuna, o üzünnən öpdü, bu üzünnən öpdü. Şikari burda mərkəbin vafədarlığına bir qatar söz oxusun, mən də ərz eliyim hamüz şad olun:

Dostlarda, rəfıxda görmədim vəfa,
Dünyaya vermərəm, Əjdaxar, səni.

Bir də minsəm, dünyada sürrəm səfa,
Dünyaya verməręm, Əjdaxar, səni.

Mən cavanın yoxdu burda anası,
Başımda vardı namərdin yarası.
Gər ölsəydim kimlər tutardı yası?
Dünyaya verməręm, Əjdaxar, səni.

Bu qəmli günümdə yoldaşsan mənə,
Hərdən söhbət edirəm, sırdaşsan mənə.
Mərkəb demək olmaz, qardaşsan mənə,
Dünyaya verməręm, Əjdaxar, səni.

Sözün tamam eliyib, təngin bərkidib, sürüb məqariya sarı. Firuz bunun yanında və dilavərlar bunun yanında gəldilər yetirdilər məqariyə. Mərkəbi-Əjdaxarı ötürdü məqərənin qabağına. Şikari varid olsun içəri, dövrəsində qülamilərinən oturublar, şirin söhbət eliyillər. Söz ordan-burdan gəldi. Şikari bulardan sual elədi, bu müddətdə ki, gəlmisiz bura, mənə deyin görüm özüzə dost qazammısız, ya düşmən? Dedilər, yeddi nəfər bizim dustumuz var ki, ərəblər padşahının oğlanlarıdı ki, buların böyüyünün adı Yusif Ərəbdi. Hər namənə tapsax, qazansax, ordan-burdan, tacirdən soysax, gətirsəh bura, olar aparıb əridəllər. Bu eynidə oturmuştular, gördülər yeddi nəfər kərgədansəvər guruha gəldi. Həmün Yusif Ərəbgildilər, yeddi qardaş, ərəblər padşahının oğlu. Bəli, gəliblər kərgədannan piyadə olsunlar, gəliblər yetirdilər məqariyə.

Bular gördülər bir nəfər qəribə şəxsidi, nəşinəs. Bəli, sual elədilər Səyyah Pəhlivannan ki, bu şəxs kim ola? Səyyah Pəhlivan Yusif Ərəbə dedi ki, dilavər, bu da padşah oğludu. Rumda bizim ağamız var idi. Benami Şah Dara oğlu Şikari, bu həmün cavandı ki, qardaşı yalannan demişdi şir dağıdıb, aparıb salmışdı quyuya.

Dedi:

– Bura bax görüm, bizim qanünimizi demisiz da buna?

Şikari qabaxladı, dedi:

– Sizin qanünüz nəmənədi?

Dedi:

– Bizim qanünimiz bular bililər, cavan. Hər kim ki, gəlsə bura bizinən gərəh küştü tuta, əgər bizə qalib oldu, biz ona "bəli" diyəcəyih, ya xeyir, biz ona qalib oldux, bular kimi o da bizə "bəli" diyəcax.

Şikari dedi:

– Eybi yoxdı, mən hazıram buna. Sən nə cur deyisən, biz o cur eliyəh.

Yusif Ərəb dedi:

– Əvvəliminci budu ki, küştü tutacağıx və minəcəğıx atımıza kəmərinən hər kim bir-birin tutsa, o onun tabehində olacax.

Şikari dedi:

– Bax, bir mənə küştü tutmağın təsiri yoxdu, əncax mən başdan yaralıyam, elə burda ki oturmuşuh, bir-birimizin gücünü muləhzə eliyəx da.

Səyyah Pəhlivan dedi ki, o da yaxcı sözdü. Yusif Ərəb qəbül elədi. Dedi, mən indi əlimi verirəm sənə, sən üş dəfiyə kimi zoruvu vur mənim əlimə, nə qədr qudrətində var, sıx. Yusif Ərəb bunun əlin aldı əlinə, Şikari əhəmiyyət vermədi, döndü Firuzunan söhbət eləmağa.

Bu Yusif Ərəb bir də bir fişər verdi. Gördü, xeyir, bunun heş nəzərində dəyil. İki əlli aldı dizinin üstünə, möhkəm sıxdı, gördü, xeyr, heş bunun nəzərində dəyili. Şikari dedi, sıxmısan, icazə ver, növbə bi yol mənimkidi. Şikari mının əlinə fişər verəndə, barmaxlar az qaldı bir-birinən qırılsın. Yusif Ərəb tab eliyə bülmədi, gətdi başın dayadı Şikarinin dizinə, Şikari ötürdü. Yusif Ərəb dedi:

– Cavan, bəsimdi, da amanım qırıldı axı, mən sənə əbd oldum.

Elə ki bu əbd olsun buna, Şikariyə dedi, ama bu biriydi, iki dana da şəritimiz vardı. Şikari dedi:

– Nəmənədi?

Yusif Ərəb dedi:

– Ərz elərəm.

> Aşiq olub oba-oba gəzənin,
> Qəlbi məclislərdə şəd olsun gərək.

Kamil ustalardan alsın dərsini,
Söhbətində şirin dad olsun gərək.

İnsan olan yağlı dilə baxmasın,
Çalışsın sözündə qələt çıxmasın.
Qız-gəlin görəndə gözü axmasın,
Adı eldə təmiz ad olsun gərək.

Ürəyim açılar toyda, nişanda,
Bəyinən gəlinə mahnı qoşanda.
Əkbər eşqə gəlib sazla coşanda,
Ürəyində sönməz od olsun gərək.

Yusif Ərəb dedi ki, bizim iki dana da şərtimiz var idi: Biri budu ki, mən Bəhmən vəzirin qızı Əfşər Banuya alüdəyəm, aşiq olmuşam, əmma istirəm, dədəsi vermir. Onu gətirəsən, alasan mənim üçün. Ö bürü şərti də baş-başa olanda diyəm. Şikari dedi: "Gedərəm qızı gətirram və danışdırram, əgər qız səni sovdi, eybi yoxdu, işim yoxdi, aldım, əmma qız səni soyməsə nə cur gətimişəm, o cur da aparram qoyam yerinə". Şikari dedi:

– O biri nəmənədi?

Şikarini yanalıyıb çəhdi kənarə, dedi:

– Mənim bir dəna bacım var, biz yeddi qardaşıx, bir dana bacım var. Adı Xürşid Banudi. Biz yeddi qardaş bir tərəftə ollux, o təki-tənha bir tərəftə olar. Bizi götürər qoyar bir-birimizin üstümüzə.

Bəli, Xürşid Banunun eşqi vurdu Şikarinin kəlləsinə. Dedi, indi gedirəm Bəhmən vəzirin qızı Əfşər Banunu sənə gətirəm. Yetirmax həmin, əvvəl buna bihüşdarü verdi. Bihüşdarü verib bunu bihüş eliyənnən sora, qızı bühdü pərdə kilimə, salıyıp Şikari tutsun. Qoyup mərkəbi-Əjdaxarın üstünə, yetirdilər məqariyə. Yetirdilər məqariyə, elə ki halə gətirdilər bunu, behesab nüşdarü veriblər (bənəvşəni damızıblar damağına,) qız halə gəldi, durdu oturdu. Şikari dedi:

– Nazənin, heş narahad olma. Sən mənim qızımsan, balamsan, fəqət, səni gətirmişəm, bir kəlmə söz soruşacağam. Di-

lavərlər oturub, sən bulara nəzər sal, gör buların içində sevdiyin var? Ya buların hansını sevərsən?

Qız dovrədən göz dolandıra-dolandıra gəlib, gözü sataşdı Yusif Ərəbə. Yusif Ərəbə gözü sataşanda dedi: "Ey mənim ruhümu qəfəsdən oynadan ərəb, məni dədəm vermir sənə, mən ki səni sevirəm, niyə qorxudusan bu cur?"

Şikari dedi:

– Day bəsdi, bura kimi görər. Elə sən onunsan, o da sənin.

Onnan sonra indi bi yol qərar qoyullar ki, getsinlər Yusif Ərəbgilin öz topraxlarına ki, ərəblər padşahının evinə. Şikari üz dolandırdı: "Siz Əfsər Banunu götürün gedin evizə, mən də sizin dalızcan gəlləm". Bir rəvayətində bahəm gedillər, gecəni bir yerdə qalıllar, səhər Şikari bularınan çıxır şikara. Şikari gedirdi yoluna, gördü bir dana yaralı ahü, özün gətdi Şikariya pənahəndə oldu. Bu heynidə gördü bir dana səvari, niqab üzündə, dayandı:

– Ey xətakarın birisi, mənim şikarimi niyə tutmusan?

Şikari dedi:

– Niqabdar, mən yolunan gedirdim, bu yaralı ahü mənə pənahəndə oldı, şikar səninki, di sənin olsun, buyur.

Dedi:

– Bu duruluxda olmaz.

Şikariynən Xürşid Banu, əl eliyibdi qılınca, əmüd, şeşpər, neyzəü kəmənd, tamam nəmənə ki cəngalatı var idi, hamısınnan çıxdılar bir-birinə, əsər vermədi. Xürşid Banu girəvya saldı, bi dana yumuruq vursun Şikarinin başınnan, çün Şikarinin başı yaralıydı, yumuruğu dəydi Mərkəbi-Əjdaxarın kəlləsinnən. Mərkəbi-Əjdaxar dizləri üstə gəldi yerə, genə qaxdı. Şikari əl elədi yapışdı bunun kəmərinnən, çəhdi mərkəbinnən, saldı yerə. Bular kətan kimi durdular yeri söhməyə. Üş gün yehsərə bular burda küştü tutullar. Heş biri heş birisinə faix gələ bilmir. Qız üz dolandırır ki, cavan, biz bir-birimizin kəmərinnən yapışax, hər kim hər kimi qovzadı göya, o ona faix gəlsin. Şikari dedi, bını qabaxdan deginən da. Şikari əlin çəkib durdu, dedi, gəl yapışgınan, zoruvu vur. Qız iki dəfiyə kimi buna zorun vurdu, əmma onu qozamaya gücü yetişmədi, dedi:

– Səni tihmiyiblar ora? Bi çəkil yerivi əvəz elə görüm.

Dedi:

– Xeyir, niqabdar, mənim ayağımı, zadımı tihmiyiblar bura.

Çəkildi bu yanda durdi, üş dəfə zorun vurannan sonra, xeyir, bunu götürə bilmədi. Növbə yetişdi Şikariyə. Şikari əlin bənd eliyib bunun kəmərinə, buna təkən verəndə, qovziyanda kəmər qırıldı, qız qaldı yerdə. Qız niqabi üzünnən rəd elədi, Şikari görür bir gözəldi ki, mislü manəndi yoxdi, gözəlliyinnən əlavə dilavərdi. Xürşid Banu üz dolandırdı:

– Cavan, mən əhd eləmişəm, hər kim mənim qəddimi götürsə, gedəcağam ona.

Bu yannan Yusif Ərəb gəldi. Üz dolandırdı ki, dilavər, mən dediyim bizim bacımız həmün budı, Xürşid Banudı. Durublar gəlsinlər, gəldilər yetirdilər. Ərəblər padşahı da bilsin, hammı bu işdən baxəbər oldı. Bular Xürşid Banuyu Şikariyə, Əfşər Banunu Yusif Ərəb ilə evləndirdilər.

Həmün gecə Xürşid Banunun bətninə Cahandarin nütfəsi bağlanır. Beş günnən sora Şikari Ərəblər padşahının hüzurində dayanıb. Ərəblər padşahı dedi:

– Cavan, mənnən nə istisən, istə.

Şikari:

– Mən bilirəm başımın qəzasını. Sərhəngi Şamiynən cəng eliyəcağam. İndi bülmüram beş günə, üş günə ləşkər çəkib gələcaxdı Yəmənə. Mən sənnən qoşun istirəm.

Rəvayətində vardı ki, əlli min buna qoşun verir. Yusif Ərəb yeddi qardaşıynan, əlli min qoşununan, durullar gəlilər hara? Həmün məqariyə və Şikarinin öz qulamiləri. Bəli, bir gün, iki gün, bu heynidə Firuz yetirib Şikariya xəbər verir ki, evin yıxılmasın Qərtası Filsevar gəlir. Şikari kəsdi buların qabağın, dedi:

– Dilavər, nə üçün ləşkər çəkib sən gəlmisən bura?

Dedi:

– Gəlmişəm bu məqərədə neçə nəfər vardı mənim sovdagərlərimi soyublar, otuz tümən sərvətlərin alıblar.

Buların sözləri çəp gəlip, Qərtası Filsevarinən Şikarinin. Qərtası Filsevarınan bular küştü tutdular. Əmüd, neyzə, kəmənd,

qalxan, əmma çox küştü tutannan sora alır başına, gətirir meydanin vəsətində qoyur yerə. Deyir ki, mən əhd eləmişəm, mənim kim qəddimi götürsə ona qulam olacağam. Nə deyim, olum müsəlman? Dedi: "Deginən kəlmeyi-şəhadətini və müsəlman olgunan". Buların dilində diyənnən sora on iki min filsevarınən bular dönüllar müsəlman olullar. Üstad belə deyib ki, gündə bir dana dəvə yiyərdi. Gündə bi dana dəvəni kəsəllər, fəqət çəkərdilər şişə, yiyərdi, şərabi içərdi, oturardı. Bəli, bu heynidə xəbər yetirdi kimdən, Sərhəngi Şamidən. Sərhəngi Şami dört yüz min dana qoşununan ləşkər çəkib gəlir Yəmənə. Düşür Yəmənin kənarında, götürür bir dana namə yazır Mənzər şahı Yəməniyə ki, hə, ya gərəh Simizərı verəsən mənə, ya ki, cəngim cəng idi. Bu namə bı yannan gəlməhdə olsun Mənzər şahı Yəməniyə, bı yan tərəfdən Firuz baxəbər olur. Bəhmən vəzir üz dolandırır:

– Qurban, bunun övhdəsinnən biz gələmmarıx, gəl sən qızı ver mənə, mən aparım verim.

Əmma Xocənd vəzir deyir:

– Yox, qurban, namənin cavabın cəng yazgınan.

Mənzər şahı Yəməni deyir:

– Axı mənim əlli min qoşunum var, o dört yüz min qoşun gətiribdi.

Xocənd vəzir deyir:

– Sən onun fikrini eləməginən, sən belə ehsas elisən, bəs ki şahzadə ölüpdi. Sən cəng yazgınan.

Bu xəbəri Firuz yetirir Şikariyə. Şikari öz-özünə deyir: "Əgər Allahim yar olsa, bu gecə gedəcağam Simizərin bağına, ta mən onnan bir mətləb ələ gətirəm, görüm məni niyə bu halə salıbdı?". Durur mərkəbi-Əjdaxarı minir, gəlir bağın kənarinə, yol tapır, gedir bağa. Bir dana çinar ağacı vardı, gedir durur onun dalısında, görür ki, Simizər oturub çox pərişan halinən. Mahızəmindi və tamam dayələr bunun dövrəsində düzülüblər, qırx incə qızlar bunu dövrələmişlər. Simizər ağlıyır, bunlar buna təskinlih verir. Mahızəmin üz dolandırır:

– Axı niyə ağlıyısan bir belə?

Simizər deyir:

– Qulağ as, deyim da niyə ağlıyıram.

Simizər xanım dedi:

Başına döndüyüm, yığılan qızlar,
Yadə düşüb o cananım, ağlaram.
Sümüyüm içində iliyim sızlar,
Yadə düşüb o cananım, ağlaram.

Fələh mənə yaxcı sitəm yetirdi,
Sədrim üstə ərməğanlar bitirdi.
Kimlər dəfn eylədi, kimlər götürdü,
Yadə düşüb o cananım, ağlaram.

Simizər sözlərin tamam elədi, əmma Şikari öz-özünə dedi: "Məlüm oldu, bunun işi dəyili və bunun bəfasın gördüm. Gərək səbr eliyəm, ta görüm bu xəta kimin əlinnən baş verib və mənim başıma bu yaranı kim vırıb?"

Bu kəlməni öz ürəyində desin, bağda çinar ağacının dibinnən qeyitsin, iradə eylədi ki, gedim görüm vəzirin qızı neyləyir və onun da bəfasın ələ gətirim. Gəlib, sübhün zamaniydi, kəməndi atıb, çıxdı divardan, yavaşcə endi həyətə. Gördü sübhün zamanidi, bu, səccədəni döşüyüp ağlıyır. Zülflərin alıp əlinə, bu dillərinən ta görəh nə diyəcəh?

Pərnaz xanım dedi:

Sübhün zamanında, zülfüm əldədi,
Ya mənim sevgilim, ya səbir Allah.
Bir yalqız cavandı, qurbət eldədi,
Ya mənim sevgilim, ya səbir Allah.

Mən aşiqəm, mey qanlı,
Məzə qanlı, mey qanlı.
Qorxuram düşəm öləm,
Yurdumda gəzə qanlı.

Bəla gəldi, dörd bir yanım bürüdi,
Ürəyimdə qəm kərvanı yeridi.
İntizar çəhməhdən canım əridi,
Ya mənim sevgilim, ya səbir Allah.

Mən aşiqəm, gülə naz,
Bülbül eylər gülə naz.
Zəmanə belə gedsə,
Ağlıyan çox, gülən az.

Bülbül kimin heç olmadı pərvazım,
Uçubdu gölümnən ördəyim, qazım,
Pərnazam, əzəldən gülmədi üzüm,
Ya mənim sevgilim, ya səbir Allah.

Sözlərin deyib, alnın qoydu movhürün üstünə, ağlamağa məşğül oldu. Şikari öz-özünə dedi: "Xüb, bunun da vəfasını gördüm". Çün çoxtandı gedib və Simizərin otağınnan yaralı gedip, o vaxtan bu yana bunu hənüz görən olmuyubdı. Kəməndi atıb divarın üstünə, divarı aşsın o üzə, mərkəbi-Əjdaxara səvar olub, özün yetirdi məqariyə. Gecəni yatsın səhər eləsin. Bu tərəfdən Sərhəngi Şami ərz elədi dört yüz min qoşununan gəlib. Elə ki səhər olsun, Küh-peykəri Şami ləşkərin qabağında dayanıb. O zaman oldu ki, Mənzər şahı Yəməninin qoşunu bı yan tərəfdə səf çəkib dayandı. Küh-peykəri Şami mərkəbinə hey vırıb, yetirdi meydanə, əmma bı yan tərəfdən (Mənzər şahı Yəməni tərəfinnən) pəhlivanlardan biri getdi meydanə. Bəli, Küh-peykərinən qılınc, qalxan, əmüd, şeşpər-bılar cəng tutdular. Küh-peykəri Şami Mənzər şahı Yəməninin tərəfinnən gedən pəhlivanı öldürdü. Onu öldürənnən sora o birisi meydana getdi, əmma eşid dastani Şikaridən. Şikari geyib əyninə, qılınc, qalxan, əmüd, şeşpərü neyzə, hammısın, üzünə bir dana niqab çəhdi, mərkəbi-Əjdaxarın təngin bərkidib, diz qəbirqaya şahbaz kimi atladı üstünə. Mərkəbinin də ayağının altına çekəl tutmuşdu ki, səsi çıxmasın, yavaşca dağın damənəsinnən enib Mənzər şahı Yəməninin səflərinin dalısında. Küh-peykər Mənzər şahı Yəməniyə üz dolandırdı, hə, bu eynidə Şikari hey vurub mərkəbə, özün yetirdi meydanə. Küh-peykər bərabərində dayananda, gördü ey dadi-bidad, elə bil dağı qoymusan dağın üstünə, Şikarinin qırx beş ərəş qamətidi, sinəsinin eni deməğ olar ki, on ərəş olar. Küh-peykər üz dolandırdı:

– Sən kimsən?

Şikari dedi:

– Mən də sənin kimi bir bəşərəm.
Küh-peykər dedi:
– Sən üzünnən niqabi rədd elə görüm kişisən, ya arvadsan? Axı mən ki, səni görmürəm, tanımıram kimsən.
Şikari dedi:
– Sənin nə işin vardı mən kiməm? Mən sənin mələkəl-movtuvunam, gəlmişəm canıvı almağa.
Bu eynidə Küh-peykər dedi:
– Mən görürəm, sən yaxcı dilavərsən, gəl səni aparım Sərhəngi Şaminin yanına. Əgər səni aparsam Sərhəngi Şaminin yanına, vədə verib mənə, qızı Nazikbədəni verəcaxdı mənə.
Şikari dedi:
– Bura bax görüm, sən məni aparammasan onun yanına, sən mənim əlimdə dəstigir olsan, o qızı mənə verər?
Dedi:
– Nasəza danışmağınan səndə nə qabiliyyət vardı ki, onu alasan? Sən kimsən axı?
Şikari dedi:
– Qulağ as, deyim da kiməm. Götürüb bu dillərinən görək nə deyir?
Şikari dedi:

Bu cəngidən bura bövyüh meydandı,
Bütün dəryalərin nəhəngiyəm mən.
Söylədiyin yarə bu can qurbandı,
Bütün dəryalərin nəhəngiyəm mən.

Sənə ki demirəm meydannan qaç,
Pəhlivansan, çək qılıncın meydan aç.
Bütpərəstisən, boynunda var xac,
Bütün dəryalərin nəhəngiyəm mən.

Dolandırıb peymanəni doldurram,
Düşməni ağlatıb dostu güldürrəm.
Bu gün bu meydanda səni öldürrəm,
Bütün dəryalərin nəhəngiyəm mən.

Söz qutardı, savaş başladı. Əl elədi qılınc, qalxan, əmüda, neyziyə yetişəndə Şikari neyzəni taxıp Küh-peykərin ürəyinin başınnan, qalxızdı havanın üzünə, elə tünliya bildi ki, getdi düşdi Sərhəngi Şaminin ləşkərinin qabağına. Hə, Qərtası Filsevar, ərz elədim da, Qərtası Filsevar bir pəhlivan idi, Sərhəngi Şaminin sipəhpudıdı ki, meydanda Şikari qulaxların və burnun kəsib qoymuşdu bunun ovcuna. Həmün Qərtası Filsevar bir nərə çəhdi. Sərhəngi Şami dedi:

– Bəs niyə dadi-bidad eliyisən?

Qərtası Filsevar dedi:

– Sən öləsən, bu həmün Xudapərəstdi ki, mənim qulaxlarımı çıxardıb və burnumu kəsib.

Bəli, Sərhəngi Şami cərəyanı bu cur görəndə, Küh-peykərdən sonra ayrı bir pəhlivanı gəldi. Onu da öldürdü, de onnan sora bir ayrısı gəldi, onu da öldürdü, necə ki, bu heç olmasa əlli dana pəhlivan öldürmüşdi. Şikari buların intiqamin aldı. Day meydana gələn olmadı. Meydana gələn olmuyanda, Sərhəngi Şami öz mərkəbinə səvar oldu. Bəli, Sərhəngi Şami ki mərkəbinə səvar oldu, gördü kü, gedən yoxdu, əz qəza güzari düşdü Əşgəri Şaminin çadırının qabağınnan. Əşgəri Şami üz dolandırdı Sərhəngi Şamiyə, dedi:

– Hara gedisən?

Sərhəngi Şami dedi:

– Çarəm yoxdu, sənin kimin pəhlivanlar otura çadırında, mənim də bir kəs yoxdu ki, məydanə getsin, məcbüram gərəh özüm gedəm.

Əşgəri Şami dedi:

– Qurban, sən özün bilisən ki, mən hər bazar oğlunun meydaninə getmərəm. Bu bir dana səvaridi, niqabdar gəlib mənim meydanimə? Əgər gedsən bu cavanin ya ölüsün, ya dirisin mənə gətirsən bu niqabdarın, mən qızım Nazikbədəni verəcağam sənə, özüvü də Şamidə vəliəhd eliyəcağam.

Əşgəri Şami bu müjdəni eşidəndə durub ayağa, mərkəbinə səvar olub, girdi meydanə. Əşgəri Şami meydanə varid olsun Şikariyə dedi:

– Cavan, mən görürəm sən yaxcı dilavərsən, gəlginən səni aparım Sərhəngi Şaminin yanına, səni böyüh məqamə yetirrəm. Bu Sərhəngi Şamidi, ləşkəri çoxdu, qəvidi, dünyaya pərçəm vırıbdı bu.

Şikari dedi:

– Pəhlivan meydanda dilin bağlar, əlin açar.

Əl elədilər, qılınc, qəlxan, əmüd, şeşpər, kəmənd, sonra əl elədilər bir-birinin kəmərinə. Şikari bunu alıb kəlləsini yerə elə vırdı ki, dağım-dağım dağıldı. Da meydanına gələn olmadı. Meydanına gələn olmasın, bu heynidə Sərhəngi Şami bəng vurdu, fərman verdi ləşkər yerinnən oynadı.

Bir gözəl keşdi qarşımdan,
Sallandı yana yeridi.
Kiprih vurdu, oğrun baxdı,
Od saldı cana yeridi.

Sallanuban yenə vurdu,
Qaşlarınan kaman vurdu,
Mujgənın sinəmə vurdu,
Qəmzəsi cana yeridi.

Qaşların bənzətdim aya,
Əhsən qudrət verən paya.
Endirib salladı çaya,
Dost, mehrübana yeridi.

Dedim getmə, yar, amandı,
Ələsgər odlara yandı.
Dedi, qoca, piranədı,
Mərdi mərdana yeridi.

Sözlərim həmin yerdə qaldı ki, Şikarini təhləmişdilər. Qeysi Rəmmahı Ərəb Firuz Əyyara dedi ki, Şikarini təhliyiblər, gedəy onun köməyinə.

Firuz Əyyar üz dolandırdı ki, gedəndə mənə tapşırıbdı ki, əyər bir nəfər gələ mənə köməhlih eliyə, edama məhkümdi, əgər

biz getsəh, öldürər bizi. Əmma bu eynidə bir nəfər savəri niqabdar özün vurub ləşkərə, ləşkəri dörd ağaş sındırıb Yəmənnən aralandırdı. Təbili bazgəşt vırılanda bu savəri niqabdar mərkəbinə hey vırıb aradan çıxsın. Şikari gəldi məqariya, Firuz Əyyarı istədi muqabilinə, dedi:

– Firuz, məgər mən sənə deməmiştim ki, bir nəfərin həqqi yoxdu gələ mənə köməy eliyə?

Firuz Əyyar dedi:

– Başın üçün bir nəfər gəlmiyib.

Şikari dedi:

– Bəs o niqabdar kimidi, gəlmişdi?

Firuz Əyyar dedi:

– Mən bülmürəm.

Dedi:

– Firuz, əgər niqabdarı tapmısan, əgər tapmadın, özüvi ölmüş bülgünən.

Firuz özün vırdı bu yana, o yana, gecənin zamanında gördü, ey dadi-bidad, dağın damənəsində bir ışıldı gəlir. Özün yetirsin ora. Gördü bir dana çadırdı qurulub, bir nəfər şəxsidi oturub çadırın içində, yeyib şərab içir. Yetirdi yaxına, salam verdi. Bu üz döndərib salamın alanda, Firuz gördü ki, ey dadi-bidadi bu Xürşid Banudı. Ərəb padşahının qızı ki, Şikari alıb, odur.

Firuz Əyyar Şikariyə dedi:

Sənə qürban, şir Şikari,
Gətirmişəm xəbər sənə.
Bədbəxt eyləmə Simizəri,
Gətirmişəm xəbər sənə.

Ürəyimdə sözüm çoxdu,
Düşmən sözü mənə oxdu.
And işmisən xətər yoxdu,
Gətirmişəm xəbər sənə.

Yol gözlər intizarındı,
Qəm günümdə qəmxarımdı,

Kömək gələn öz yarındı,
Gətirmişəm xəbər sənə.

Firuz Əyyar dedi:

– Xürşid Banudan sora kim olacaxdı?

Şikari dedi:

– Ax, duva eləginən ki, and işmişdim, vallah, doğrardım büləsin.

Durublar ayağa, Firuz Əyyarınan gedib Xürşid Banunun çadırına. Bahəm əyləşiblər, həmsöhbət oldular. Bəli, qol bir-birinin gərdəninə, eyşü-nüşa məşğul oldular. Yedilər, işdilər, şərab işdilər, xülasə, gecəni səhər eliyiblər, savaşa getdilər.

Dört gün dəva oldu Yəmən şəhrində. Dört gün dəvadan sonra Sərhəngi Şami gördü ki, buların qabağında dayana bülmüllər. Sərhəngi Şami götürüb bir əman-namə yazdı, on gün dübarə mohlət istədi. On gün mohlət istiyib, götürdü yeddi iqlimə namə yazdı. Bu yan tərəfdən eşid dastani Mənzər şahı Yəmənidən. Mənzər şahı Yəməni dedi ki, mən gərəh gedəm biləm bu cavan kimdi, gəlir, bir belə xidmət edir. Dört yüz nəfər adamınan, vəzirüvüzarədən yığıb dovrəsinə və iki nəfər vəzirin, Xocand vəzirinən Bəhmən həmün məqariya sarı gəldi. Mənzər şahı Yəməninin gözü sataşdı, gördü dağın dəmənin tutubdı tamam islam pərçəmidi. Qarışqanın sayı var, ammə qoşunun sayı yoxdı. Şikari tapşırdı əfraninə, buna kəm ehtiramlıq eləmiyəsiz ha, bizə qonaxdı, xah müsəlman ola, xah kafir ola, ancaq bu padşahıməmləkətdi, buna gərəh ehtiram eliyəh. Varid olsun çadırdan içəri, gözü sataşdı, gördü yuxarı başda sədridə Xudapərəst oturub. Mənzər şahı Yəməni üz dolandırdı:

– Cavan, həmün niqabdar sənsən?

Şikari dedi:

– Bəli, qurban.

Mənzər şahı Yəməni dedi:

– Cavan, məgər mənim plovum yoxdu sən yiyəsən, şərabım yoxdu sən içəsən? Sən bu dağın damənəsində burda niyə gəlib düşmüsən?

Şikari dedi:

– Qurban, düzdü mənə qonaxsan, ehtiramın vacibdi, mən təsmim tutmuşam, namərd çörəyi yemiyəm.

Mənzər şahı Yəməni dedi:

– Mən sənə nə vaxt namərddih eləmişəm?

Şikari dedi:

– Namərt, mənim başıma bu yaranı niyə vurdurmusan?

Mənzər şahı Yəməni dedi:

– And ola lətü mənatə, mənim xəbərim yoxdı.

Götürüb Şikari görəh o yerdə Mənzər şahı Yəməniyə nə deyəcəh, mən də ərz eliyim eşidənlərin sağlığına.

Şikari Mənzər Şahı Yəməniyə dedi:

Vacibdi mənə sənin hörmətin,
Yeri, göyü xəlq eyləyib bir subhan.
Sərrəfam mən, özüm billəm qiymətin,
Deginən kəlməni, gəl ol müsəlman.

Elə bildim mənnən aranı qırdın,
Qafildən başıma yarə sən vurdun.
Namərd fələk didərgin salıb yurdum,
Gəzirəm dağda, çöllərdə pinhan.

Dəstigir olarsan, ey biçarə sən,
Qiyamətdə yanmıyasan narə sən,
İman gətir o sahibi-Zülfiqarə sən,
Deginən kəlməni, gəl ol müsəlman.

Bu oğlanın, Şikarinin bu sözlərinnən Mənzər şahı Yəməninin qəlbi dolandı, islamə çox yaxın oldu, dedi:

– Mən nəmənə desəm ollam müsəlman?

Şikari dedi:

– Gərəh diyəsən: “Əşhədü ənla ilahə illəlllah və əşhədü ənna Mühamədə rəsülullah”.

Mənzər şahı Yəməni bu kəlmələri deyib, döndü oldu müsəlman. Şikari üz dolandırdı:

– Əgər qoşunun və məmləkətivin hamısı müsəlman olsa, gələm ora, olmasa ammə yox.

Mənzər şahı Yəməni üz dolandırdı:

– Mən ki oldum müsəlman, gərəh millətim də dönə ola müsəlman.

Mənzər şahı Yəməni üz dolandırdı, buları dört-dört, beş-beş gətirir, kəlmeyi-şəhadətlərin dedirir. Hamısı müsəlman olannan sora Mənzər şahı Yəməni dedi:

– Dilavər, əmr elə nəmənə qoşunun var atlansın, gedəh Yəmənə.

Şikari, Yusif Ərəb yeddi qardəşiynən, Qeysi Rəmmahı-Ərəb on iki min filsevarinən və Ərəblər padşahının qoşunu ki əlli min nəfər vermişdi, Yəmən şəhrinə gəldilər. Şikari qədəm qoydu ləşkəriynən Yəmənə. Gəlib yetirdilər bərgahı Mənzər şahı Yəməniyə. Əmirüümərə, vəzirüvüzarə hammı müsəlman olub, Xocand vəzir ki qədimnən müsəlman idi, əmma Bəhmən vəzir yalannan müsəlman olubdu, zahir aləmində, batində ürəyinnən çıxartmır. Mənzər şahı Yəməni Şikariyə dəvət elədi ki, səltənətim, millətim, hər bir şeyim sənin ixtiyarindədi, buyur, əyləş təxti səltənətdə. Tamam hər yerə İslam pərçəmi vurublar, gələn kəlmeyi-şəhadətin deyir, müsəlman olur, gələn, gələn... bir nəfər qalmadı, beqeyrəz Bəhmən vəzir.

Xocand vəzir xəbər verdi qızı Pərnaz xanıma ki, Şikari gəlib və demişdi də ki, qızım, qoxmagınan, Şikari o gecədən zindədi.

Əmma eşid dastani kimnən? Simizərin dayəsi Mahızəmindən. Mahızəmin dedi, şəhridə nə xəbər var? Dedilər cərəyanı bu cur olub, inanmadı. Gəldi, gözüynən baxdı, gördü kü, ey dadi-bidad, Şikari oturub bargahi Mənzər şahı Yəmənidə. Mənzər şahı Yəməninin təxtində. Bu xəbəri Simizərə gətirdilər, Simizər hənüz həmmamə də getməmişdi. Mahızəmin çox şədüşən getdi. Simizərə dedi:

– Müjdə verginən. Nazənin, Şikari ölmüyüb, diridi.

İnanmadı.

Dayə dedi:

– Başıv üçün. Əlan atovun bargəhində, lap sədrdə oturub.

Dedi:

– Dayə can, ya özün, ya bir adam təyin elə ki onu təqib eləsin, ta görüm bu gecə hara gedəcaxdı?

Elə ki gecə gəldi arayə, Şikari durdu getdi Xocand vəzirin qızı Pərnaz xanımın evinə. Bu xəbəri yetirdilər Simizərə.

Simizər dedi:

– Dayə can, mənə kağız, qələm gətir. İstirəm o cavanə bir dana namə yazam.

Götürüb bu dillərinən görəh naməni necə yazır, mən də ərz eliyim əziz dustdarın hamısının sağlığına.

Simizər xanım Şikariyə məktubda yazdı:

Mahızəmin, dur ayağa, qıl çarə,
İndi o cavanə yazıram kağaz.
Qoy gəlsin, eyləsin parə-parə,
İndi o cavanə yazıram kağaz.

Dolanuban peymanəsin doldurmaz,
Saraluban gül rəngini soldurmaz.
Ayrı adam onun dilini bülməz,
İndi o cavanə yazıram kağaz.

Simizər eşqidən olubdu məriz,
Sən mənə xanim ol, mən sənə kəniz.
Həmməşə xətirin tutaram əziz,
İskəndərdən qalıp yazıram kağaz.

Eşqin gör ki, eşqidən məriz olupdu, yorğan-döşəyə düşübdü. Bu naməni götürdi, rəvaneyi-rah oldu. O eynidə ki, Pərnazınan Şikari bir yerdə eyşünüşa məşğüldular, bir zəman gördü ki, qapı döyüldü. Bu kimdi, qapını döyür? Pərnaz durub pəncərədən gördü kü, həmün Simizərin dayəsidi. Qapını açıp, ovrət varid oldu mənzilə, ədəb, əllər sinəsində ki, dayandı şahzadənin bərabərində. Şikari dedi:

– Hə, Mahızəmin, nəyə gəlmisən?

Dedi:

– Cavan, mən neynim, mən bi dana kənizəm, buyruxçuyam. Mənə namə veribdi ki, bunu yetirginən şahzadiyə.

Gətirib naməni alıb oxudu, məzmüninən xəbərdər oldu.

Simizər xanımın cavabında bir dana o yazsın, aparasan verəsən. Götürüb bu dillərinən görəh Şikari namənin cavabını nə yazacax?

Mahızəmin, sən əziz mehmanımsan,
Mənim dilimcən o yarə diyərsən.
Mən oxudum nazlı yarın naməsin,
Mənim dilimcən, o yarə diyərsən.

Əl verməröm bivəfanın əlinə,
Nə girmişdin mən cavanın qəsdinə?
Yarə əgər gəlsə bu yarəmin üstünə,
Öldürər dübarə bu yarə, diyərsən.

Din yolunda gərəh başımnan keçəm,
Öz xələtimi özüm boyuma biçəm.
Tiyan olam, doyunca şərabı içəm,
Gəlib edəm parə-parə, diyərsən.

Mahızəmin naməni apardı verdi Simizərə. Simizər alıp naməni oxusun, qız naməni oxuyur. Qız indi götürüb bu naməni yazır.

Yengidən yazıram sənə namə,
Nadanam, görmüşəm bir nadan işi.
Güzəşt eylə bu təxsiri sən mənə,
Nadanam, görmüşəm bir nadan işi.

Məzələndi,
Mey içər məzələndi.
Vəfalı dostumu gördüm,
Ürəyim təzələndi.

Şanə olub asılanmadım telivə,
Şələ olub sərməşmədim belivə.
Razı olma özgə qonaq gülüvə,
Nadanam, görmüşəm bir nadan işi.

Ay belə qan eylər,
Qan eylər, divan eylər,
Dost məni belə görsə,
Ya ölar, ya qan eylər.

Yar yarına namə yazsa oxunı,
Yar sinəsi dərdə yaxın oxunı.
Sinəmdəki nişanə var oxunı,
Simizərin görüb bir nadan işi.

Deyir, belə mərd atası,
Doldur ver mərdə tası.
Namərd gəlib mərd olmaz,
Olmasa mərd atası.

## USTADNAMƏ

Ey vətən! Mən sənin gözəlliyini,
Hər zəman başımın tacı bilmişəm,
Oğlunu özümə bəfalı qardaş,
Qızını mohrüban bacı bülmüşəm.

Namərdə yalvarmaq insafdan deyil,
Düşmana yaltaqlıq mərdə yaraşmaz.
Öyünüb desə də min yol nakişi,
Mən də qəhrəmanam, ona yaraşmaz.

Hər kəs öz gücünü sınaya əzəl,
Yar olmaz söyüddən tökülən xəzəl.
Namus, qeyrət, həya bilməyən gözəl,
Çəksə də üzünə pərdə, yaraşmaz.

Qatil də özünə deməz cəlladam,
Onun şər işinə düşmənəm, yadam.
Elin zəhmətinə yanmayan adam,
Desə ki, şərikəm dərdə, yaraşmaz.

Şəmşir məqsədinə çata yaxşıdır,
Söz, hərif sərrafa çata yaxşıdır,
Cömərd oğul, yaxşı ata yaxşıdır,
Qabul edib xeyridə, şərdə yaraşmaz.

Durub bi yol rəvaneyi-rah oldu. Gəlib yetirdi Xocand vəzirin evinə. Şikari alıb naməni oxusun. Şikari başdan-ayağa naməni oxudu. Axır o yerə gəldi çıxdı ki:

Yar yarına namə yazsa oxunı,
Yar sinəsi dərdə yaxın oxunı.
Sinəmdəki nişanə var oxunı,
Simizərin görüb bir nadan işi.

Şikari sual eylədi:

– Mahızəmin, bura bax görüm, qıza da yara yetişibdi?

Bunu diyəndə onun bir az dili açıldı, dedi:

– Şahzadə, mən nə bülüm axı, gəl özün bax yara yetişibdi, ya yox.

Bəli, Şikari üz dolandırdı: "Sən get, mən budu ha gəlləm". Mahızəmin bu yan tərəfdən sövüncəh getməhdə, bu yan tərəfdən də Şikari gəlməhdə. Pərnazdan xudafizdih eliyib gəldi. Bu cərəyan qırx gün çəkib, Simizər libasın da əvəz eləmiyib, həmmamə də getmiyib. Elə ki Şahzadə gəldi, Simizər durub qolun salıb boynuna, danışdırmır. Simizər üz dolandırdı:

– Şahzadə, olmaya mənnən incimisən? Mənnən nə xəta baş verib?

Şikari üz dolandırdı:

– Day sən bunnan artıq neyniyəcağıdın ki?

Simizər dedi:

– And ola cəlali-İlahiyə, səni vuranı da mən görmədim.

Şikari dedi:

– O nəmənədi namənin axirində yazmısan ki, "Sinəmdəki nişanə var oxunı, Simizərin görüb nadan işi".

Bunu diyəndə Simizər əl eliyir köynəyi qozuyur yuxarı. Şikarinin qanlı başın ki, basmışdı sinəsinə, dedi:

– Şahzadə, sinəmdəki başıvın qanı sinəmnən getmiyib, həmmamə də getməmişəm.

Bu cur görəndə Şikari qolun salır boynuna, deyir, nazənin, məni güzəşt elə, mən səni günəhkar bilirdim. Bular burda olmaxda olsun, eşid dastani kimnən, Bəhmən vəzirdən, gedir Qəhrəmanı tapır. Qəhrəmana üz dolandırır:

– Gedəsən Simizərin evinə, Şikarini öldürəsən.

Qəhrəman durur ayağa, kəməndi atır, düşür bağın içinə. Dolanır, görür bağda yatıblar. Gecənin bir aləmində Qəhrəman bala-bala özün verir bulara sarı. Göz-göz eliyir, elə həmün yara ki, vırmışdı, o yerdən vırsın. Şəmşiri qozuyanda, şəmşir ilişir ağacın butağına. Necə ki, yerinnən qalxıb, dəsti bəndinnən yapışıb, fişər verir, şəmşir əlinnən düşür yerə. Buların səsinə Simizər ayılsın. Simizər dedi: "Elə səni vıran buyumuş". Şikari neynədi, tutub bunu qoydu ayağının altına. Dizin qatdıyıb qoydu sinəsinin üstünə, yapışdı başın çıxartdı atdı o yana.

Bəhmən vəzir gördü ki, dünən axşam yollamışdı, gün axşam oldu, Qəhrəmannan xəbər olmadı, gecəni salır araya, məxfiyənə gəlir bağa. Gəlir yetirdi qəsrin qabağına, yavaççə bu yannan, o yannan, pəncərədən baxır, görür ki, Xudapərəst Simizərinən bi yerdədi. Bunu görəndə Mənzər şahı Yəmənini götürdü dalıcax, dedi, gəl gedəh diyəcağam. Gətirib həmün pəncərənin qabağına, diyir, bax bir, qızıvun başın alıb dizi üstünə.

Firuz Əyyar da xəbərdar olur, tez özün yetirir Şikarinin yanına, diyir, cərəyan bu cürdü. Şikari durdu ayağa geyinsin. Xocəstə Banu dedi:

– Hara gedisən? Sən gedisən gələllər, bunu öldürəllər. Mən uların hamısın yola sallam.

Xocəstə Banu Şikarinin libasın geyir əyninə, kuləhin qoyur başına, qızın başın alır dizinin üstünə oturur. Bu yan tərəfdən bular gəlsinlər: "Siz gecənin bu vaxtı burda neynisiz? Nəya gəlmisiz bura?". Mənzər şahı Yəməni cərəyanı bu cur görəndə üz dolandırdı:

– Tutun Bəhmən vəziri!

Bəhmən vəziri qısqıvraq tutullar, aparıllar, istir bunu mucazat eləsin, Xocand vəzir iltimas elir, güzəşt elillər onu. Səhər çağı istir ki, geyimin geysin, Simizərdan xudafizçilih eləsin, get-

sin. Simizər durub qolların asıb salır Şikarinin boynuna. Gözünün yaşın baharın buludu kimi ruxsarinə rəvan eliyir. Bu eynidə Şikari götürüb görəh Simizərə nə tapşıracax?

Ağlayıb, sızlayıb əfqan eyləmə,
Gedirəm, unutma duadan məni,
Bağrımın başını al-qan eyləmə,
Gedirəm, unutma duadan məni.

Mən aşıq, bu dağınan,
El gəzər bu dağınan.
Sənə yaxşı deməzlər,
Mən ölsəm bu dağınan.

Əgər gedəm bu yolda ölümə,
Həsrət əlin dahi çatmaz əlimə.
Özgə bülbül qoyma qona gülümə,
Gedirəm, unutma duadan məni.

Gedərəm özgə kəndə,
Qoxmaram yol kəsənnən.
Gəl bir qol-boyun olax,
Bəlkə ayrıldım sənnən.

Şikariyəm, düçar oldum bəlayə,
Kimsə yoxdu indi gələ həraya.
Sən də mənim kimi sığın Xudayə
Bəlkə Allah sova bəladən məni.

Əbir eylər,
Gözlərim əbir eylər.
Yanasan mənim ürəyim,
Necə bu ayrılığa səbir eylər?

Sözlərin tamam eləsin, xudafizçilih eliyib rəvaneyi-rah oldu. Şikari Bəhram Zəncirxab, Bəhramı Zəncirsər kimi nə qədər bəlli pəhlivan var, buların hammısın öldürür. Sərhəngi Şami gö-

rür ki, bularınan başara bilməyəcəh, bunun bir vəziri var, Kamil vəzir. Sərhəngi Şami diyir:

– Vəzir, tədbir töhgünən mənə. Neynəməliyəm? Kamil vəzir dedi:

– Ərçə var. Onnan köməy alarıx.

Sərhəngi Şami götürür ona bi dana namə yazır ki, amandı, mən bi dana Xudapərəstin əlində qalmışam. Götürüb bu naməni qasid vəsiləsiylə göndərir Ərçənin əlinə. Ərçə ki bütpərəst olub, bunun bi dana oğlu var, Şirzadı Tigzən adında, Şikarini Ərçə quyuya salanda bu beş yaşındaydı. Bəli, Ərçə oğlu Şirzadı Tigzəni isdiyib, oğul, cərəyan bu curdi. Bəli, dört yüz min qoşununan atlanır gəlir Sərhəngi Şamiyə köməh, Şikarinin cənginə. Bu xəbər yetişir Şikariyə. Şikari çox bekef idi. Şikari qardaşı oğlunu çox sövərdi. Firuz Əyyar dedi:

– Şikari, sənə nolub, bu cur bekefləmisən?

Dedi:

– Eşitmişəm Şirzadı Tigzən gəlir, mənim də qardaşım balasıdı, ürəyimnən artıq istərəm onu, mən ona zərər yetirəmərəm. İndi köməy istirəm.

– Kimi istisən?

– Qeysi Rəmmahı-Ərəbi.

Dedi:

– Qeysi Rəmmahı-Ərəb ərz eləmişəm da, on iki min nəfərdilər, bular gəlillər.

Bı yan tərəfdən Sərhəngi Şamiyə bu xəbər yetişəndə, əlli min qoşun göndərir ki, gedəsiz Firuz Əyyarı, Qeysi Rəmmahı-Ərəbi öldürəsiz, qoymuyasız. Bu xəbər yetişib Şikariyə. Şikari on min nəfər yolluyur. Bu xəbər yetişir Sərhəngi Şamiyə, o əlli min nəfər yolluyur. Xulasə, de, iş ora yetişir ki, Sərhəngi Şami özü atlanır dübarə əlli min nəfərinən. Bu xəbər yetişir Şikariyə, yetişəndə Şikari on nəfərinən qalxır at belinə, Mərkəbi-Əjdaxarı minir, bıların dalısıca gedir. Bular yol getməhdə, dastani eşid əvvəl gedənnən. Firuz Əyyar gecə yetirib, gecə Şirzadı Tigzən ki yatıb, yuxunun içindədi, burnuna bihüş eliyib götürür qoyur yəxdənə, xəzanəynən bını çatır. Çatannan sora verir min nəfərə ki, bunu

aparın yetirin Şikariyə. Bu yan tərəfdən bılar gətirməhdə, Sərhəngi Şaminin qoşunu çıxır bıların qabağına, bıları vırıllar, dağıdıllar, qaçan qaçır, ölən ölür, xəzanə keçir Sərhəngi Şaminin qoşununun əlinə. Bu min nəfər gələndə çıxır Şikarinin göndərdiyi on min nəfərin qabağına, de bıları vırıllar, dağıdıllar, xəzanə əldən-ələ keçir axirində yetişir Sərhəngi Şaminin əlinə. Sərhəngi Şami Şikarinin qoşunun əldən-ayaxdan salır, xəzanəni verib min nəfərə ki, bını aparasız mənim ləşkərimə. Bı yan tərəfdən olar gətiməhdə olsun, Şikari on nəfərinən çıxır buların qabağına, Şikarini görəndə hər kəs mərkəbinə hey vırır, xəzanə qalır yerdə. Şikari bunu verir on nəfərə ki, aparın verin xəzanəya, ləşkərimə. Elə ki gəlillar, yetirillar çadıra, çağırıb Firuz Əyyarı. Firuz Əyyar dedi:

– Şirzad məndədi.

Şirzadı sandığın içərisinnən çıxatdılar gətirdilər çadıra. Şikari bir dana niqab çəkib üzünə ki, bu məni tanımasın. Şirzad bir belə baxdı dovriyə, gördü bəli, pəhlivanlardan oturub, şəmşirləri dizlərinin üstündə, ammə bir nəfər niqablı başda.

Niqablı dedi:

– Mənnən bir neçə piyalə şərab içəsən və sənnən bir neçə kəlmə söz soruşacağam. Əgər sən məni yıxdın, hər nə bilsən elə, əmma mən səni yıxdım, ölənə kimi mənə qül olacaqsan.

Bir neçə piyalə şərab içiblər, söhbət eliyiblər, söz ordanburdan gəlib. Şikari dedi:

– Dilavər, sənin adın nəmənədi?

Dedi:

– Mənim adım Şirzadı Tigzəndi.

Şikari dedi:

– Kimin oğlusan?

Şirzadı Tigzən dedi:

– Ərçənin.

Şikari dedi:

– Ərçə kimin oğludu?

Üz dolandırdı:

– Məlik Şahı Ruminin.

– Məlik Şahı Rumi kimin oğludı?

Getdi çıxdı bının babasına ki, İskəndərdi. Şikari dedi:

– İskəndər bütün bütxanələri yıxdı, dünyaya İslamın pərçəmini vırdı, bəs sən niyə bir kafərə köməh gəlmisən?

Şirzadı Tigzən dedi:

– Niqabdar, mən neyniyim, mənim çarəm yoxdu, dədəm namənə desə, mən gərəh dədəmin fərmanın icrə eliyəm. Məni dədəm vadar eliyibdi ki, gərəh Sərhəngi Şamiya köməh gedəsən.

Şikari dedi:

– Bura bax görüm, heş sizin tayfüzda elə bir adlı-sanlı pəhlivan yox idi?

Dedi:

– Niyə, var idi?

Şikari dedi:

– Adı nəmənəydi?

Dedi:

– Onun adın araya gətirə bülmərəm, onun adını araya gətirsəm, narahand ollam.

Şikari sordu:

– Niyə diyə bülmürsən?

Dedi:

– Niqabdar, üzrüm var da, diyə bülmərəm.

Belə diyəndə görəh Şikari götürüb Şirzadı Tigzənə nə diyəcəh? Aldı sazın:

Canım Şirzad, indi mehmansan mənə,
Gər hakimsən, məlhəm eylə yarayə,
Söylə görüm, nami nəngi var idi?
Adın niyə gətirmisən arayə?

Şirzadı Tigzən dedi:

Sənə qurban olum mən, ey niqabdar,
O bir zəman getmiş idi şikara.
Adın desəm, mən olaram divana,
Onu şir eləyibdi parə-parə.

Şikari dedi:

Söylə görüm, aciz idi, ya ki cəngiydi?
Hindiydi, Rümiydi, ya ki Firəngi?

Məgər pis adı vardı, namı nəngiydi?
Söylə görüm, harda getdi bəlayə?

Şirzadı Tigzən dedi:

Səgir idim, çəkərdim intizari,
Bu yerdə xəcalət eyləmə bari.
Adım Şirzad xan, əmim Şikari,
Diyəllər şir edibdi parə-parə.

Bu sözü diyənə Şikarinin ürəyi gəlmədi day ayrı söz desin. Başın salıb əşağa, çün desə axir kəlməsin, bu munu tanıyar. Şirzadın gözü bundaydı, görür niqabın altınnan yaş qətrə-qətrə gəlir. Şirzad dubarə götürüb görəh Şah Dara oğlu Şikariyə namənə deyib?

Şirzad dedi:

Başıva dolanım sənin, niqabdar,
Görürəm, məclisin məhzəri var.
Əzəldən bilirəm, bir məst cavanam,
Qorxuram danışam, bu gün olam xər.

Dağlara qar düşübdü,
Gör nə hamar düşübdü.
Qəbrimi yadlar qazıbdı,
Əhlətim dar düşübdü.

Şirzadı Tigzən dedi:

Axar çayları bu sözün bulandırdı,
Şərabın məni tutdu, halim dolandırdı.
Həqq Allahdan ilham oldu, məni qandırdı,
Elə bil səsivin əmimə bənzəri var.

Gedərəm, yol kəsənnən,
Qorxmaram yol kəsənnən,
Gəl bir qol-boyun olax,
Bəlkə ayrıldım sənnən.

Şirzad deyir, qəbül eylə sözümi,
Kim ağlar qoyub sənin gözüvi?

Çək niqabivi, görüm sənin üzüvi,
Elə bil Şikarisən, əmimə bənzərin var.

Mən aşiqəm, oyan, gül,
Oyan, bulbul, oyan, gül,
Öpəm xumar gözlərinnən,
Nə yatmısan, oyan, gül.

Şikari niqabı rədd eliyəndə o yana, Şirzad gördü. Durub ayağa qolların saldı bunun qoynuna. Şirzad da bihüş oldu, Şikari də. Ağa, buları halə gətiriblər, qol-boyun oldular, əmi, qardaşoğlu. Şikari dedi:

– Oğul, məni şir dağıtmamışdı, mənim başımın sərgüzəşti çoxdu. Biri məni quyuya atdı. Axı mən desəm, bülürəm divanəsən, gedərsən mənim qatilimi öldürərsən.

Dedi:

– Yox, xan əmi, başıv üçün, gərəh mənə diyəsən bu sözü, əgər deməsən, özümü həlak elərəm.

Şikari dedi:

– Məni şir dağıtmamışdı, məni sənin dədən, ibərət ola öz qardaşımnan rəyasət üstündə salmışdı quyuya.

Şirzadı Tigzən dedi:

– Mənim qulamlarım atımı hazır eləsin, yəhərləsin.

Şikari dedi:

– Nə iş görüsən? O bilər, mən billəm, mən billəm, qardaşım bilər, sənə yetişməz o işlər, vəxtində mən özüm danışaram.

Səhər cəng başladı. Sərhəngi Şaminin bir pəhlivanı var, benamı Kerbaş. Gəlir meydanə, Şirzadın meydanına. Qılınc, qalxan, əmüd, neyzəvü kəmənd, heş birisinnən murad hasil olmur. Şirzadı Tigzən əl eliyir bunun kəmərinə, kəmərinnən götürsün, atın üstünnən götürür başının üstündə bir dovrənə gətirir, başı üstə vırır yerə. Bunu cəhənnəmə vəsil eləsin, o yan tərəfdən Sərhəngi Şami bəng verir. Hər tərəfdən ləşkər atlandı. Şirzadı Tigzən əl eliyir şəmşirə. Bı yannan Şirzad, o yan tərəfdən Qeysi Rəmmahı-Ərəb, yeddi qardaş, bı yan tərəfdən Şikari, gün üzü tutulur. Ta axşam olsun, təbli-bazgəşt vırılır, hər kəs gessin öz

yerinə. Sərhəngi Şami genə möhlət istədi. Götürür bi dana namə yazır, kimə? Dübarə Ərçiyə bir namə yazdı ki, "Ərçə, mən sənə namə yazdım, köməy istədim, oğlun Şirzadı yolluyasan gələ mənə köməy eliyə, ya gələ o Xudapərəstə köməy ola?". Namə getsin yetişsin Ərçəyə. Ərçə götürdü bir dana namə yazdı Zəlzələ Zəngiyə. Zəlzələ Zəngi dört min dilavərinən gəlir, pəhlivandılar hammısı, adam yiyən. Zəlzələ Zəngi Zangibarın şahıdı. Zəlzələ Zəngi hammısına vədə verir ki, sizə adam əti yedirdəcəyəm.

Elə ki bu xəbər gəlsin yetişsin Şikariyə, Qeysi Rəmmahı-Ərəbə, Yusif Ərəbə, Şirzada və Firuz Əyyara, hammısı düşdü vahimiyə. Şikari deyir ki, Qeysi Rəmmahı-Ərəb, Zəlzələ Zəngi gəlir, onun tutmağ sənnəndi. Həmün Qeysi Rəmmahı-Ərəbdi ki, gündə bi dana dəvə yiyərdi, Şikari də ona dedi, sənə erkək aslan əti verəcağam. Elə ki bu erkəh şir əti eşidəndə qəbul elədi. Səhərçağına cəngə amədə oldu, hər iki tərəfdən ləşkər amədə durub. Bı yan tərəfdən Qeysi Rəmmahı-Ərəb, o yan tərəfdən Zəlzələ Zəngi. Bular ikisi bir-birinə rübərü gələndə, əl bir-birinin kəmərinə, mərkəbdən saldılar yerə bir-birin. Axşama kimin küştü tutublar, axşam bazgəşt vırılıb, sabah səhər ha kəza, genə axşam bazgəşt vırılıb, sabah səhər ha kəza. Üş gün bular küştü tutdular. Üçümüncü gün Qeysi Rəmmahı-Ərəb (çün təzə müsəlman olub), üz dolandırdı Pərvərdigarın səmtinə: "Ey on səggiz min aləmi yoxdan xalq eliyən pərvərdigar, mən təzə müsəlman olmuşam, bu bütpərəstin qabağında sən məni gərəh aciz eliyəsən? Mənə güc ver". Dedi, göddü bunı göyə, gətirib meydaninin vəsətində qoydu yerə, möhkəm qolların bağladı, əl elədi xəncərə. Zəlzələ Zəngi üz dolandırdı:

– Ey dilavər, mən əhd eləmişəm, kim mənim qəddimi götüsə, mən ona qulam olam.

Qeysi Rəmmahı-Ərəb Zəlzələ Zəngiyi özünə qul elədi və müsəlman elədi və dört min nəfəri də azəd elədi getdi. Zəlzələ Zəngi qalır Şikarinin yanında Sərhəngi Şami gördü ki, əl boşa çıxdı burdan da. On gün dübarə möhlət aldı. Vəzirinə dedi:

– Kamil vəzir, bəs mən neynəməliyəm? Bu Xudapərəst mənim on yeddi min adlı-sanlı pəhlivanımı öldürübdü.

Kamil vəzir üz dolandırdı:

– Başqa çarən yoxdu, götür gedəh Xunxarı Şaminin dalısıcan.

Xunxarı Şami rüyintəndi və bədəni tilsimidi. Nə ot yandırar, nə su boğar, nə qılış kəsər, heş zat. İndi çarəsi yox, hər yannan əli üzülüb. Nəinki namə yazsın, qasid göndərsin. Kamil vəzirinən gedir hara, Xunxarı Şaminin yanına. Yetirillər, çadırın içində necə ki Xunxarı Şami böyrün vermişdi yerə, şərab içirdi, yeyirdi, bular varid oldular içəri. Oturdular bi yol söhbətə:

– Hə, Sərhəng, de görüm nəyə gəlmisən?

Sərhəng dedi:

– Bir nəfər, bu cur Xudapərəst peydah yeyib, mənim də əmanımı kəsibdi. Gəlmişəm səni aparam orda bir təmaşə eliyəsən onun cənginə.

Dedi:

– Eybi yoxdu, siz gedin, mən özüm gəlləm.

Üş gün, dört gün fasiləynən Xunxarı Şami gəlir. Xunxarı Şamiyə neçə dənə qurban kəsillər, ceşn tutullar. Firuz, bi xəbər gəti görüm bu ceşni nəmənədi? Firuz gedir, qeyidir gəlir. Şah Dara oğlu Şikariyə deyir:

– Bu yerdə qalmaq olmaz.

– Axı niyə?

– Məni desəz, elə çadırları zadı yıxax, bir dəfə burdan qoyax, çıxax gedəh.

Zəlzələ Zəngi bu xəbəri eşidsin, Yusif Ərəb, Qeysi Rəmmahı-Ərəb, yeddi qardaş. Xunxarı Şamidən belə qorxullar. Şikari diyir:

– Bəs niyə belə eliyisiz? Bu iftizah nəmənədi? Biz altı aydan bəri cəng elirıx, qoyun gəlsin, o da bir pəhlivandı da.

Firuz Əyyar dedi:

– Axı bi qulağ as. Bu, o pəhlivanlardan dəyil ki.

Götürüb sazı bu dillərinən görək Firuz Əyyar nə diyəcəh Şikariyə?

Firuz Əyyar Şikariyə dedi:

Sənə deyim, ay şir Şikari,
Day bu yerdə qalmaq olmaz.

Əldən alallar Simizərı,
Qol bynuna salmaq olmaz.

Mən söz dedim, gəlmə qeyzə,
Dost dost ilə yetər feyzə.
Nə ox batar, nə də niyzə,
Day bu yerdə qalmaq olmaz.

Ver, içax ayrılıq camı,
Firuz deyir söz tamamin.
Gəlibdi Xunxarı Şami,
Day bu yerdə qalmaq olmaz.

Xunxar Şami rüyintəndi, nə su boğar, nə ot yandırar, nə qılış kəsər. Cərəyanı belə eşidəndə Şikari bir bəng vurdu, dedi: "Bir hammı dayansın. Xunxarı Şaminin cənginə özüm gedəcağam. Əgər mən onu öldürdüm, aradan apardım, elə mən Şikariyəm və siz də mənim dovrəmdəsiz, xeyir, əgər o məni öldürdi, day indidən niyə bə gedisiz?". Hammı bu sözü qəbül elədi. Bı yan tərəfdən Şikari dəstur verdi Şirzada. Dedi:

– Oğul, ver təbli-cəngi vırsınlar mənim adıma.

Şirzadı Tigzən verdi təbli-cəngi vırdılar xan əminin adına. Elə ki səhər olsun, hər iki tərəfdən də ləşkər dayanıb. Şikari Mərkəbi-Əjdaxarın üstündə. mərkəbi-Əjdaxarın üstündə qədəm qoysun meydana. Bu yan tərəfdən Xunxarı Şami Sərhəngi Şamiyə üz dolandırdı:

– Sərhəngi Şami, bir nəfər dilavər yolla görüm bunun meydanınə.

Bir nəfər pəhlivannardan yoluyublar Şikarinin meydanınə. Əvvəldə necə ki əl eliyib neyziyə, Şikarinin üstünə, Şikari alıb neyzəsin atdı o yana, əl elədi kəmərinən götürüb göyə, elə tulluya bildi ki, getdi düşdü Sərhəngi Şaminin ləşkərinin lap qabağında. Xunxarı Şami dedi:

– Pəhlivan yollama meydanına, birdən həmlə ver ləşkərə, görüm burdan bu yana neyniyəcəh, nə cür savaşacax?

Elə ki birdən həmlə versinlar ləşkərə, Şikari əl elədi şəmşirə. Tamaşa eliyir, görür, hər tərəfə dönür pərçəmdi, ələmdi, yatırdır. Xunxarı Şami Sərhəngi Şamiyə üz dolandırdı:

– Ver, bazgəşt vırılsın.

Bazgəşt vırıldı. Oyünkü gün o cur qalsın, gecə Xunxarı Şami şərab içib, Sərhəngi Şamiyə deyir: "And olsun büti üzmayə, Latü Mənatə and olsun, səhərçağıma sağlıq olsa, gedərəm mını da tutaram, səni asudə elərəm, Simizəri də allam sənə". Sərhəngi Şami necə sövünür, öz ürəyində toy tutubdı.

Ammə dedi, "sən saydığıvı say, qoy yana gör fələh nəmənə sayır?" Bəli, elə ki səhər olsun, iki tərəfdən xətti cəngə qədəm qoydular. Şikari başda geyib, ayaxda qıfıllanıb, kimin cənginə gedir? Xunxarı Şaminin. Şikari bi yanda durub, Xunxarı Şami o yannan gəlir. Olar bir saət bir-birinin üzünə baxıllar. Elə ki bir saət sovuşup, Xunxarı Şami deyir:

– Dilavər, nəyə baxırsan mənə?

Üz dolandırır deyir:

– Mən ona baxıram ki, sən hankı nəhəngin qarnınnan çıxmısan? Səni arvad doğa bilməz ki? Xub, sən nəyə baxısan?

Deyir:

– Mən ona baxıram ki, görüm sən hanki pələngin belinnən gəlmisən? Bu dilavərrihdə, bu zərbu-şəstə adam olmaz.

Xunxarı Şami dedi:

– Gəl sən mənim rikabımnan öp, özün də yaxcı dilavərsən, səni, özüvü də çox böyük məqamə yetirəm.

Şikari dedi:

– Mənim qəbülimdi, ama mənim də sənnən bir iltimasım var, onu deyim, sən də qəbül eləsən, eybi yoxdi.

Dedi:

– Sən mənən nə iltimasi eliyəcəhsən?

Dedi, qulağ as deyim da, nə iltiması eliyəcəyəm. Sazını aldı, görək nə deyir?

Şikari Xunxarı Şamiyə dedi:

Dayan, deyim sənə cəngi dilavər,
Mərdanəlih istər bu gün bu meydan.

Başın üstə gəzər şəmsinən qəmər,
Mərdanəlih istər bu gün bu meydan.

Həmmaşə mən xidmətində duraram,
Hər nə desən mən boynumu buraram.
Düşmənivi at döşündə yoraram,
Yeri, göyü xalq eyləyib bir subhan.

Yaradanın sənə olsun dadrəs,
Bu gün sənnən eyləyirəm bəhs.
İstəsən sən olasan İslampərəst,
Diyəsən "La ilahə illəllah", ol müsəlman.

Xunxarı Şami dedi:

– Mən olum müsəlman?

Şikari dedi:

– Bəli, əgər müsəlman olsan ölənə kimi mərkəbivin çibinlərini qovaram.

Xunxarı Şami dübarə meydanı dolanıb bir nərə çəhdi. Xunxarı Şami gəlib mının bərabərində dayansın, əl eliyib neyziyə, neyzəni bir dolandırıb atanda, Şikari qalxanı verib qabağa. Əmma novbə yetişdi Şikariyə, Şikari bir əlqəm kimi neyzəyi dolandırıb, necə ki, vırsın Xunxarı Şamiyə, Xunxarı Şaminin libasların biçə-biçə getdi, necə ki, bədəninə yetişəndə Şikari neyzəni çəkib baxdı gördü ki, neyzənin ucu dönübdü. Neyzəni atdı kənarə, əl eliyəndə şəmşirə. Xunxarı Şami dedi:

– Dilavər, bir dayan.

Əl elədi, kulahı başınnan götürdi, dedi:

– O şəmşiri vır mənim başıma.

Şikari dedi:

– Namərddih olar axı.

Dedi:

– Mən özüm icazə verirəm, vırmasan namərdsən.

Şikari dedi:

– Yaxcı, oldu.

İstədi fürsətdən istifadə eləsin, elə ki bu kulahi götürüb, Şikari bir zərbə vırdı bunun kəlləsinnən, şəmşir vurdu. Şikari üş

dana şəmşir vurdu, əl elədi əmuda, üş dana da əmud zərbəsi vurdu, buna heş zad olmadı. Üş dana qılış vurur, üş dana əmut vurur, görür ki, əsər eləmədi. Şikari bunu belə görəndə, kəmərinnən tutdu, küştüya başlıyılar. Xunxarı Şaminən Şikari dört gün, dört gecə küştü tutular. Şikari əman vermir, əl eliyir bunun kəmərinə. Ta əzan "Allah Əkbər"ə kimi bular küştü tutullar, qaş qaralır, on iki dana məşəl gəlir meydana, nə qədr eliyilər bular aralanmırlar. Aralanmasınlar, qəza gətirillər, xahiş, təmənna, aralanıllar, meydanın bir tərəfində qəzaların yeyillər, genə yapışıllar bir-birinin kəmərinnən.

Dört gün yehsərə bular küştü tutullar. Dördümüncü günün axirində Xunxarı Şami deyir:

– Dilavər, biz daha təngə gəldik, ayrı bir fəndimiz qalmadı tutax, gəl bir-birimizin kəmərinnən yapışax, zor vurax, hər kim hər kimi qovzasa, o onu qoysun yerə, başın kəssin.

Dedi:

– Mənim başım üstə, bunu qabaxca de da.

Şikari üz dolandırdı:

– Bəs sən zoruvu vur.

Xunxar Şami dedi:

– Bu gecəni biz bir-birimizə möhlət verək, gedək, sabah gələk.

Xunxarı Şami qeyitsin Sərhəngi Şamiyə sarı, Şikari mərkəbi-Əjdaxar minib yeksərə sürdü Simizərin otağına. Onda hammı gördü ki, Şikari ki, Xudapərəst deyillər aşeqi Simizərdı. Şikari libasların soyunur soyunmaz, Simizər yetirir qolun salır bunun boynuna. Bu sübhə kimi yuxlasın, əmma Simizər ayıxdı, göz yaşı tökür. O orda yuxlamaxda, bu burda göz yaşı töhməhdə.

Xunxarı Şami də burda, nə qədər gecə şərab işdi, hammısın işdi. Bılar da gecəni bu cur sovsunlar.

Əmma eşid dastani Şikaridən və Simizərdən. Simizər Şikarinin başın alıb dizinin üstünə, sübhün nəsimi əsəndə Simizərin gözünnən iki qətrə yaş düşsün Şikarinin üzünə. Şikari gözlərin aşdı, gördü qız ağlıyır. Şikari dedi:

– Nazənin, nəyə ağlıyısan? Məgər sənə nolubdu?

Dedi:

– Qulağ as, deyim da.

Simizər götürüb bu dillərinən sazını aldı görək Şikariyə nə deyir? Mən də ərz eliyim sizin hamızın sağlığına. Simizər xanım dedi:

Nə yatmısan xab içində,
Oyan, ay bixəbər səyyad.
Bahəm gedəh, olax pinhan,
Mənəm Şirin, sən ol Fərhad.

Duman gəlib dağdan keşməz,
Yar ürəyin daşdı pişməz.
Dünya gəlsə gücü düşməz,
Gəl biz gedax, olax pünhan.

Əlin ver bu əlimə,
Bülbül qonar gül üstünə.
Məni qoy mərkəb üstünə,
Gəl biz gedax, olax pünhan.

Elə ki Simizər sözün tamam elədi, durdu ayağa dəstəmaz aldı, gəlib bir neçə rəkət namaz qıldı, əl götürüb göydəki pərvərdigarı dərgahına:

– Ey on səggiz min aləmi yoxdan xalq eliyən Allah, ey yerləri, göyləri yoxdan xalq eliyən Allah, tovfih vermisən, iki, üş dovlət mən İslamə gətirmişəm, müsəlman eləmişəm, əgər mən ölsəm bular genə dönüb bütpərəst olacaxlar. Sən gəl mənə tovfih verginən.

Bir qədr nəzrüniyəz elədi, əmma götürüb görəh Simizərə nə deyir Şikari.

Şikari Simizər xanıma dedi:

Sənə qurban olum, gül üzlü gözəl,
Mən cavanın yoxdu burda anası.
Mənim canım sənə olsun qurban,
Ölməmişəm, belə tutmusan yası.

Dolandırıb peymanələr doldurram,
Saraldubən o xunxari soldurram.
Mən müsəlmanam, o kafəri öldürrəm,
Ölməmişəm, belə tutmusan yası.

Bir tərlanam, mən uçuram yuvadan,
Həx yolunda gəl unutma duadan.
Mənə kömək istəsən o xudadan,
Təzə müsəlmanın qəbül olar duası.

Bəli, bu yan tərəfdən səhər açılıb, bu yan tərəfdən yeyib işsin, Şikari geymi çəraynasın geyib əyninə, durdu mərkəbi-Əjdaxara səvar olub.

Xunxarı nabekar, hey vurub, filin başına külüng ilə vurub, rəvaneyi meydan oldu. Şikari üz dolandırdı Xunxarı Şamiyə dedi:

– Xunxar, bizim indi qərarımız odu ki, biz bir-birimizin kəmərinən yapışax və hər kim hər kimi götürsə, ona fayiq gələcək. Gəl indi yapış kəmərimnən.

Xunxarı Şami dedi:

– Dilavər, məni xər eləməginən, mənim adıma yeddi dövlətdə nəqqare vırılıbdı. Mən Sərhəngi Şamini dünyaya padşah eləmişəm.

Şikari dedi:

– Sən bir dana kafərsən, vəli mən müsəlmanam. Bizim ağamız həmmişə firsəti düşmənə veribdi, əvvəl gərəh sən zoruvu vurasan.

Xunxar yeriyib yaxına, əl eliyib şahzadənin kəmərinə, şahzadə üzün tutdu göyün səmtinə, o Xunxarı Şami nə qədr buna zor vurdu, yerinnən tərpədə bilmədi. Əlin çəhdi dayandı:

– Səni elə bil ora tihmiyiblər. Yerinnən tərpəş görüm.

Şikari ayağın bu yannan götürüb qoydu o yana. İkiminci dəfə qayıdıb zorun vurdu. Genə yerinnən dəbərdə bilmədi. Əlin çəkib. Dedi, sən ya cadugərsən, ya sehrigar. Qayıdıb gəlib üçümüncü dəfə nə qədr zor vurub yerdən götürə bülmədi, o qədr zor vırdı, zərbidən burnunnan qan açıldı. Məcbur oldu əlin çəhdi. Əlin çəhsin, novbə yetişdi şahzadə Şikariyə. Şikari üz dolandırdı:

– Üş dana zor vurmusan, mənim də indi həqqim var üş dana zor vuram, elədi, ya yox?

Dedi:

– Bəli.

Şikari üz dolandırdı:

– Üş dana ki zor vurmusan, birin güzəşt elədim o Pərvərdigari-mutəalə. Birin güzəşt elədim peyğəmbərə, əmma birin vıracağam. Allaha təvəkkül.

Elə ki Şikari bir meydanı dolanıb genə üz tutdu Pərvərdigari-mutəalə: "Ey yerləri, göyləri yoxdan xalq eliyən Allah, əgər mən ölsəm bular hamısı dönüb bütpərəst olacax ha. Gəl sən burda islamə köməhlih elə". Şikari beş "Pənc-təni-Alı əbə"nı zikr eliyib, gəldi yapışdı Xunxarı Şaminin on səggiz lay kəmərinnən, Xunxarı Şamini götdü dizinə, dizinnən döşünə, döşünnən başına, bəli, meydanın vəsətinə dolandırır. O cur dolandırır. Dolandırır, dolandırır, istir bunu vırsın yerə, bu gördü yerinən bərabərdi, bir dana yonma daş. Şikari genə Allahə yalvardı. Genə beş "Pənc-təni-Alı əbən"ı dilində zikr eliyib, başı üstə Xunxarı Şamini yerə elə vura bildi ki, Xunxarı Şaminin başı keşdi qəfasiya ruyintən bədəninin. Sərhəngi Şami bang vurdu, qoymayın, əgər Xunxarı Şami ölsə, bizə nəcat yox, bu yan tərəfdən Ləşkər həmlə eləsin Şikarinin üstünə. Ləşkər o zaman Şikariyə yetişdi ki, Şikari Xunxarı Şaminin başını bədəninnən ayırıb, qaxdı mərkəbi-Əjdaxarın üstünə. Əl elədi əlmas nigara, özün vurdu dəryayı ləşkərə.

Bı yan tərəfdən Qeysi Rəmmahı-Ərəb, Yusif Ərəb, Zəlzələ Zəngi, Şirzadı Tigzən və islam qoşunu Şikariyə köməy elədilər. Ağa, ta gün batanacan çalhaçal oldu. Elə ki axşam olsun, genə bazgəşt vırılsın. Üz dolandırdı Sərhəngi Şami Kamil vəzirə:

– Kamil vəzir, neyniyim?

Dedi:

– Qurban, götür möhlət istə.

On gün götürüb, dubarə möhlət istədi. On gün möhlət versinlər, oturublar fikir, fikir, neyniyəh, neynəmiyəh? Xülasə, dedi, indi bir çarəmiz ona gəlir ki, Tüfan Cadunun dalısıca gedəh.

Bu səfər Sərhəngi Şaminən Kamil vəzir ikisi səhər atlanıllar gedillər Tufan Cadunun dalısıcan. Bəli, xəbər verillər Tufan Caduya ki, Sərhəngi Şami gəlir. Peşvaz eliyiblər, elə ki gəlsinlər otursunlar, çay, qəhvə, qəlyan. Danışmaya başladılar.

– Bəli, xüb Sərhəngi Şami, nə əcəb sən bizi yadə salmısan?

Üz dolandırdı:

– Xanım (Tufan Cadu bir nəfər arvatdı, atmiş min sehrigari var, özü də cadugərdi). Mən bir nəfərinən davə eliyirəm, Xüdapərəst adında bir oğlandı. Məni təngə gətiribdi, on yeddi min adlı-sanlı pəhlivanımı öldürübdi.

Dedi:

– Sən mənim sövgülümə niyə kağız yazmadın ki, səni bınnan bı cəngə gətirsin, sənə kömək eləsin?

Kamil vəzir dedi:

– Sənin sövgülün kimi deyisən?

Dedi:

– Xunxarı Şamini.

Bunu diyəndə Sərhəngi Şami getdi fikrə. Sərhəngi Şamiyə bu sözü diyəndə, başın saldı aşağa, əmma Kamil vəzir üz dolandırdı:

– Onu ki deyisən mələkə, onu dilavər öldürdi.

Tufan Cadu dedi:

– Necə öldürdü? Ona kimin gücü çatar? Onu nə qılış kəsər, nə ot yandırar, nə su boğar. De görüm necə öldürdü?

Tufan Cadu hirsləndi.

Dedi:

– Çox tovzih verəmmərəm, ama dört gün küştü tutannan sora aldı kəlləsinə elə vıra bildi ki, yerə başıynan g..... bir oldu.

Tufan Cadu dedi:

– Bəs, bu nə cur adamdı ki, mənim sövgülümü öldürsün? Mənə vacib oldu onun xətti cənginə qədəm qoymax.

Belə dedi ki, siz gedin, mən üş gün ona təziya tutacayam, Şeytanın yanında şərməndəliy olar, mən üş günnən sora gəlləm. Bular durublar, yola düşüblər, gəlsinlər. Onnan sora atmış min nəfər sehrgərinən atlandı, cəngə gələ. Sərhəngi Şaminin ləşkərinə, genə ceşn tutuldu, nəqqarələr çalındı, qurbanlıq kəsildi.

Şikari bu səsi eşitsin, deyir, Firuz, mənə bir xəbər gətir görüm nə xəbərdi?

Firuz gedib baxəbər oldu ki, Tufan Cadu atmış min sehrigarinən gəlib. Getdi gəldi, ikiəlli vırdı kəlləsinə, dahı bırda qalmaq olmaz. Genə Şikari ləşkəri düşdü vahiməyə, həm-həmə elədilər, istədilər, fərar eləsinlər, Şikari dedi:

– Canım, həm-həmə eləməyin, sakit olun, Xunxarı Şami gələndə də belə eliyirdiz. Dibi mən gedəcəğəm onun cənginə da, əgər məni tutdu öldürdü, siz çıxın gedin, ya xeyir, dönün genə bütpərəst olun, gedin Sərhəngi Şaminin pərçəminin altına.

Bular genə qəbül eliyiblər sakit otursunlar. Elə ki gecəni səhər eləsinlər, təbli-nəqqarə vırıldı, o yan tərəfdən Tufan Cadunın adına, bı yan tərəfdən Şikarinin adına. Səhərçağına bular genə qədəm qoydular xətti cəngə, iki tərəfdən ləşkər amadə durub. Şikari Mərkəbi-Əjdahaxara səvar oldu, getdi meydanə. Sərhəngi Şamiyə üz dolandırdı, dedi:

– De görüm, genə hansı tülkünü gətimisən mənim meydanimə?

Tufan Cadu xəlifələrinnən birinə, lap o böyühlərinə dedi ki, get onu tut gətir bura. Çün Şikari gözəldi və dilavərdi, büyücü meydana girəndə, bu gəlib sehri yadınnan çıxdı, gəldi belə durdu hülüt-hülüt baxdı Şikarinin üzünə, sehr zad yadınnan çıxdı. Şikari əl elədi şəmşirə, elə bu istədi dodağın tərbətsin, baş bədənnən ayrıldı, getdi kənarə, onu cəhhənnəmə vasil elədi. De bir ayrısın yolladı, o da həmin tovr gəldi, elə Şikarinin rübərüsına yetirəndə sehr yadınnan çıxdı. Şikari buna da firsət vermədi, vurdu baş bədənnən ayrılsın. Tufan Cadu gördü, xeyir bir-bir getməyinən olmuyacax, həmlə verdi, atmiş min sehrgər birdən özün vırdı Şikarinin üstünə, bı yan tarəftən də islam qoşunu, tamam dilavərlər, özün vırdı dəryayi ləşkərə, bir qırhaqır düşdü. Tufan Cadu gördü, bının qabağında bu cürrüyünən dayanmaq olmaz, çıxdı bir təllin üstünə, bir sehr oxdu, püflədi islam qoşununa sarı. İslam qoşunu sustaldı və tərəfi də qəranlığ oldu, bu atmış min sehrgər daraşdı islam qoşununa. Ağa, bılar bir iş görə bilmədilər, əlli min nəfər islam qoşununnan qırıldı, öldi. Axşam

bazgəşt vırılsın, hər kəs gessin öz yerinə. Tufan Cadu atmış min sehrgərinən gessin Sərhəngi Şaminin yerinə, Şikari də bu yan tərəfdən gəlir hara, Simizərin otağına. Cərəyanı ki bu bu cur gördü, əlli min nəfər müsəlman öldü oyünkü gün, Şikari gəldi dəstəmaz aldı, üzün qoydu topraxlar üstə, namaz qılsın, ibadət eləsin, başın qoyub səjdiyə, möhrün üstünə elə ağladı ki.. Götürüb bu dillərinən görək Şikari nə diyəcək?

Şikari dedi:

Əhkamil-hakiminsan, ey kanı-kərəm?
Yetiş dadimə, ey Subhan, mənim,
Ürəyim bağlıyıb dərdinnən vərəm,
Yetiş harayıma laməkan mənim.

Kimim vardı, kimə gedim harayə,
Təbib ola, məlhəm sala yarayə.
Şahlar şahı, özün yetiş harayə,
Verginən muradım şah Mərdan mənə.

Tərifin eyləsəm gəlməz şumarə,
Düşmanın əlində qaldım əvarə,
Şikariyəm, eylə çağırram harayə,
Yetişər hayıma ey Subhan, mənim.

Şikari deyib genə ağladı. Ağlasın, Allaha yalvarsın, genə bihüş oldu. Xızır peyğəmbər aləmi-royada gəlir bının yuxusuna:

– Şikari, bəs niyə bu qədər ahu, nalə elisən? Məgər mən sənə tapşırmamışam ki, harda dara düşsən çağırgınan məni?

Şikari üz dolandırdı:

– Ya Xızır, belə başıva dolannam. Darda qalmışam.

Dedi:

– Bura bax görüm, mən sənə "İsmi-əzəm" örgətməmişəm?

Dedi:

– Yox.

– Batili sehri necə?

Dedi:

– Xeyir, heş birisin örgətməmisən

Bir dana buğça qoydu yerə, onun içində libas, dedi:

– Bu libasları səhər giyəcaxsan əynivə və bu "İsmi-əzəm"di, örgədiram sənə, bu da batili-sehridi.

Aləm royada desin, Şikariyə örgətdi bunu. Genə də hər movqei dara düşdün, məni çağır köməyivə. Üstadım belə nəzmə çəkibdi ki, Xızır peyğəmbərin adı İbrahimidi. İlyas peyğəmbərin adı Məhəmməd idi. Zülmətdə bular abi-həyatdan içillər, bu olub İlyas peyğəmbər, o olub Xızır peyğəmbər. İskəndər də getmişdi zülümətə, əmma abi-həyatdan içə bülmədi. Olar ki, abi-həyatdan içiblər, ölməzlər.

Elə ki "İsmi-əzəm"i və batili-sehri örgəşsin, bu bir zəman hələ gəldi, hüşə gəldi, gördü bəli, buğçə amadədi və içində libas və oları da ki, Xızır peyğəmbər tapşırmışdı buna, xətirindədi. Tapşırmışdı da ki, səhər çağı bu libasları giyəsən altınnan, səflərin qabağında dolanasan, "İsmi-əzəm"i oxuyasan, batili-sheri oxuyasan və püflüyəsən Tufan Cadu və Sərhəngi Şaminin qoşununa sarı, olar nə qədər sehr oxusalar, day sizə kər kəsməz. O zaman oların tərəfi qarənlığ olar, olar süst olallar, islam tərəfinin qoşunu ışığ olar.

O yan tərəf bir az sustalıp. Şikari əl eliyib şəmşirə. Dilavərləri əl eliyib şəmşirə, qabağında qırq qırq gedir, görür ki, bularda aslan hissi yoxdu. Tufan Cadu gördü nə qədər sehr oxuyur, bulara kar eləmir. Tufan Cadu gördü iş bu üz üstadi, qoşunnunan bir nəfər qalmıyacaxdı, sehr oxuyub, Sərhəngi Şamini, Kamil vəzir və oların tihmələrin bir-bir apardı qoydu bir cəzirədə.

Şikari altmış min nəfər sehrgəri qırdı, dağıtdı, dört dana xəlifə qalıbdı. Kamil vəzirinən dört dana xəlifə canlarını qurtarırlar, qaçırlar. Tufan Cadu dedi:

– Bura bax görüm, məgər sən Simizərdan ötür dəva eliyisən?

Dedi:

– Bəli, mənim dəvam onnan ötürdü.

Tufan Cadu dedi:

– Onu mənə de, gedim gətirim da.

Elə ki axşam olsun, Şikari gördü day Sərhəngi Şaminin qoşunnunan ölən öldü, qaçan qaşdı, bir şey qalmadı, qayıdıb gəlsinnər. Şikari genə getdi Simizərin otağına, Simizərin mənzilində bular

burda olsun, gecə gəldi arayə. Tufan Cadu və xəlifələri gəldi Simizərin bağına. Bağda dolandı, dolandı, gördü bir dənə qız yatıb bir otaxta, əmma bu qız kimdi? Simizərin kənizidi, adı Pərizaddı. Bihüşdərı verdi buna, bühdü pərdə-kilim arasına, bir məntər oxuyub, götdü qoydu Sərhəngi Şaminin yanında yerə. Sərhəngi Şami baxdı, dedi, kənizidi. Dedi, bəs bu kənizidi, eybi yoxdu ayrısın gətirrəm. Onu apardı qoydu yerinə, sabbah gecəsi ayrı bir kənizdərinnən gətdi. Sərhəngi Şami baxdı gördü genə bu o dəyili. Sərhəngi Şami dedi, bu da deyil. Genə gəlsinlər sabah gecə olsun, gecəni sübh vəxtinə kimi dolandı, genə bir şey ələ gətirə bülmədi.

Şikaridə "İsmi-Əzəm" var və batili-sehr var oları tapa bilmir. Heş kim oları görə bilmirdi. Sübhün zamanində Şikari üz dolandırdı:

– Mənə hamam yeri qoygunan, gedim hamamə.

Bu gessin həmmamə, çün batili-sehri də bunun yanındadı, bununan gessin. Bu dolandı, bir xeyləh dolanannan sora Simizərı taptı, yuxu içində, bihüşdarunu verdi burnuna və bühdü bir pərdə-kilim arasına, səritdədi dalısına getmağa məşğül olsun. Gəlib, gəlib istir bağın qapısınnan çıxsın, əz-qəzayi rəbbani, elə bu istiyir ki, yetirsin qapıya, bağın içəri tərəfinnən çıxsın eşiyə, bı yan tərəfdən də Şikari yetirir bağın qapısına: "Dur, ifritin biri ifrit, nə iş görüsən? Namənə aparısan?".

Tufan Cadu istədi qaşsın, əl elədi yapışdı dəstbəndinnən, hara gedisən? Bu nəmənədi aparısan? Burda neynisən sən?

Dedi:

– And işginən mənim bu dalımdaki şələmə ki, səni öldürmüyəcağam, deyim.

Nə bülsün Simizəri büküb bunun arasına aparır? Dedi:

– And ola dalundaki şələyə səni öldürmüyəcağam.

Şikari bunu diyəndə şələni qoydu yerə, bunu ipinən səridi ağaca. Simizər pərdənin arasında bihüşdi. Şikari dedi:

– De görüm bını niyə, hara aparırdın?

Tufan Cadu dedi:

– Aparırdım Sərhəngi Şamiyə. Simizərin bənəfşəni damız burnuna və nüşdəru da tut.

Şikari damızdırdı. Bu halə gəldi, gözlərin açanda Simizər dedi:

– Bəs mən burda neynirəm?

Dedi, səni bu aparırdı Sərhəngi Şaminin yanına ba. Simizər xanım durub baxsın Tufan Caduyə, dedi:

– Amandı, cavan, öldür bu cadugəri.

Dedi:

– Öldürə bülmərəm. And işmişəm.

Simizərə diyəndə and işmişəm, Simizər əl elədi, o siyah zülflərdən bir dəstə tər ayırıb, basıb məmələrin üstünə görəh Şikariyə nə diyəcəh?

Simizər xanım dedi:

Sənə qurban olum, ay şir Şikari,
Aman cavan, öldür bu cadugəri.
Xarab eylər tamam bu rüzigari,
Aman cavan, öldür bu cadugəri.

Bu gəlmişdi bu gün bura şikarə,
Mən gessəydim, sən olardın biçarə.
Nə rəvadı bülbül yalvara xarə?
Aman cavan, öldür bu cadugəri.

Dolduruban peymanasın doldurram,
Saralduban bu ifriti soldurram.
Simizərəm, gücümü sənə bildirrəm,
Aman cavan, öldür bu cadugəri.

Şikari dedi, mən eliyə bülmərəm. Simizər əl eliyib Şikarinin şəmşirin belinnən çəkib bir dana elə vırdı kəmərinən ki, ağacınan ikisin böldü saldı yerə. Hə, bir tüfan qalxdı, yer zəlzələ elədi, onda sözüm yox, Sərhəngi Şami və dört dana xəlifəsi, bular bildi ki, Tufan Caduyə əsib yetişdi. Bular ikisi də qeyitsinlər gəlsinlər qəsrə sarı.

Eşid dastani mının o dört dana xəlifəsinnən. Bular it sürətində, biri varid oldu bağa, üçü də eşihdədi, onu da aradan apardı. Aradan aparsın, əmma o üş dənə ki bağın kənarındə, əyyarlar

dörədə dolanırdı, Firuz Əyyardan, Fərhəng Əyyardan, Şəbrəng Əyyardan, oları da bular aradan apardılar.

Sərhəngi Şaminin əli boşa çıxdı hər yerdən. Elə ki dubarə üz dolandırdı Kamil vəzirə ki, mən neynəməliyəm? Dedi ki, qurban, mən baxıram sənə, köməy istiyəsən, buların qabağında xət eliyəsən, fəqət işi əgər istiyəsən curriyəsən. Götür bir dana namə yazgınan ki, ey Xudapərəst, Mənzər şahı Yəməni, mən istirəm təslim olam sizə. Əgər istəsəz ki, mən dönəm müsəlman olam, mən gəlirəm qonax və siz məni peşvaz eləyin.

Elə ki namə gəlsin yetişsin əlinə, Şikari üz dolandırdı, Mənzər şahı Yəməni və Şikari buların namələrinin cavabında yazıb ki, eybi yoxdı, sən ki dini islamə qədəm qoyursan, bizim gözümüz üstündə yerin var. Nəxşəni belə çəhdilər ki, yəni biz müsəlman olax, onnan sora qonax dəvət eliyəh, doslux qoyax arıya. Sərhəngi Şami və Kamil vəzir elə ki gəlsinlər bıları peşvaz eliyiblər, qabaxlarında qurban kəsiblər, üş gün, üş gecə bular burda ceşni tutular ki, bular müsəlman olublar. Üş günnən sora Sərhəngi Şami və Kamil vəzir bular icazə istədilər ki, gessinlər öz ləşkərlərinə. Götdü bir dana namə yazdı üş-dört günnən sora ki, Mənzər şahı Yəməni və Şikari və dilavərlər, sarayıma qonaq gəlin. Sərhəngi Şaminin davati gəldi. Ağa! Firuz Əyyar dedi ki, getmə. Nə qədər diyənnən sora qəbül eləmədi. Zəlzələ Zəngi, Qeysi Rəmmahı-Ərəb, Yusif Ərəbgil, yeddi qərdəş, nə qədr dedilər, qəbül eləmədi. Firuz gütürüb bu dillərinən görəh Şikariyə nəmənə diyəcəh?

Firuz Əyyar dedi:

Qorxuram ləşkər dağıla başınnan,
Hər dağın başında yurd salmaq olmaz,
Qərg ollux dəryaya göz yaşınnan,
Vəfalı dostu olanın ürəyində dərd olmaz.

Gül əllər,
Ağ biləklər, gül əllər,
Bir iyidin dəryaca ağli ola,
Əmma yoxsul olsa güləllər.

Piyaləvi meyinən doldurallar,
Heyva kimi rəngivi soldurallar,
Pis dərdinən səni öldürəllər,
Namərd insan gəlib vəfalı olmaz.

Ordubadə, ordu badə,
Bu yollar gedər Ordubadə,
Qoşuna sərkərdə gərək,
Verməsin ordu badə.

Firuz deyir, gəl söz eşid, Şikari,
Götür ürəyimnən bu qəm, qubari,
Əlinnən alallar o Simizəri,
Bir yara vurallar, heş vaxt sağalmaz.

Sözlərin tamam eləsin, əmma Şikari qəbül eləmədi. Şikari qəbül eləməsin, üz dolandırdı Mənzər şahı Yəməniyə, Mənzər şahı Yəməniyə üz dolandırsın, əlli min orda Mənzər şahı Yəməninin dörəsində islam qoşunu var. Bunu qəbül eləmiyəndə, Zəlzələ Zəngi də acığ elədi getdi, Qeysi Rəmmahı-Ərəb də acığ elədi getdi, Yusif Ərəb, yeddi qardaşınan olar da küsdülar bınnan geddilər ki, sən niyə gedisən, bu işin içində bir iş var. O, qonax çağırıb, o, bizə düst dəyili, düşməndi, şəyad bu bir nəxşədi işliyir. Diyillər ki, bu işdə iş var. Qəbül eləməyənlər diyirlər o, yalanan müsəlman olub, onun pis niyyəti var. Mənzər şah əlli min qoşununan getməyə hazırlandi.

Şikari durub ayağa gessin Simizərin yanına. Simizərə üz dolandırdı: "Bəs Sərhəngi Şami bir belə namə yazıbdı, biz gedirih, iki gün-üş gün qalax". Əmma bu eynidə kim yetirdi? Mahızəmin yetirdi. Şikarinin çizmələrin çıxatdı. Şikari dedi:

– Bəs dayə, bə elə eliyisən?

Deyir:

– And ola o cəlali-İlahiyə, qoymaram gedəsən.

Şikari dedi:

– Sən nə iş görüsən?

Bu səfər götürüb görəh Mahızəmin Şikariyə nə diyəcəhdi.

Mahızəmin dedi:

Pərvanə tək qoy dolanım başıva,
Yoxdur xəbərin bu qəzanın işinnən.
Rəhmin gəlsin gözdən axan yaşıma,
Dünyalar qərq olar bu göz yaşımdan.

Əgər gessən, səni orda tutallar,
Qollarıvı dar gərdəndə çatallar.
Həna yerinə qanıvı ələ yaxallar,
Yoxdur xəbərin bu qəzanın işinnən.

Mahızəmin bilir sənsən şir Şikari,
Heş kəs bilməz fələk sayan şumari.
Bir gün olar alallar əlinnən Simizəri,
Yoxdur xəbərin bu qəzənın işinnən.

Dəli göyül, atəşlərə atlama,
İnnən belə dünya sənə dar olmaz.
Bir mərd qazansa yüz namərd doyuyar,
Yüz namərd qazansa, mərdə bir yemək olmaz.

Olar nə qədər Şikariyə dedi, söz beyninə batmadı, Mahızəmini itələdi bir tərəfə, Simizəri itəliyib bir tərəfə, çəhmələrin geyib ayağına, Mərkəbi-Əjdaxara səvar olsun, Şahı Yəməniynən gedib, bu da mərkəbə hey vırıb dalıdan yetirsin. Əmma eşid dastani Sərhəngi Şamidən. Sərhəngi Şami nəxşəni belə çəkib, təğribən bu əlli min müsəlmandı. Mənzər şahı Yəmənidi, Şikaridi, Sirzadı Tigzəndi, bu belə nəxşə çəkibdi ki, bölübdü, hər beş min, beş min, veribdi bir çadıra, bulara da belə örgədibdi ki, bular üş gün burda qalacaxlar, o zamani ki mən şeypur verdim vırdılar, o zəman siz bu əlli min müsəlmanı muhasiriya salıb tutacaxsız.

Sərhəngi Şami bıları peşvaz eliyib, qurban kəsdirib, onnan sorama bir deyir, min gülür, çox şəd-nişin dolanır bulara, pəziralığ eliyir, şahzadə çox xoş gəlmisən, qədəm əzizləmisən.

Üş günə kimi bular yeyiblər, içiblər, dəf, tənbür, ney, ərgəvan səsi burda da asimanə bülənd olub, əmma üçümüncü gün

eşid dastani Sərhəngi Şamidən. Özün verdi aşpazxanayə, aşpaza tapşırdı buların ikisinin də qəzasinə bihüşdəru vıracaxsan və saqi ki arada minayı şərab dolandırıb olara da daru vurasan. Şirzadı Tigzən bir zəman baxdı Şikarinin üzünə, dedi:

– Xan əmi, mənim elə bil halim dolandı, sən mənim gözümə belə iki, üş, dört görünüsən.

Dedi:

– Şirzad, sən də mənim gözümə dört görünüsən, olmuya bu oyun çıxaddı bizə.

Şirzad götürüb bu dillərinən görək Şikariya nə diyəcək? Mən də ərz eliyim əyləşən ağaların hamısının sağlığına.

Şirzadı Tigzən dedi:

Canım qurban olsun, xan əmmi,
Qərib yerdə qəza işin işlədi.
Allah heç verməsin yamanı,
Qərib yerdə qəza işin işlədi.

Gedərəm ölkə sənnən,
Qoxmaram yol kəsənnən.
Gəl bir qol-boyun olax,
Bəlkə ayrıldım sənnən.

Mərd iyidlar hırxasına bürünür,
Gözəllərin zülfü dalısıcan sürünür.
Dünya gözümə çox qaranlıx görünür,
Qərib yerdə qəza işin işlədi.

Mən aşiq, günlər ayrısı,
Bülbül güldən günnər ayrısı.
Bir saat ayrılığına dözmüyən canım,
Fələh vurdu, oldum günnər ayrısı.

Bir neçə ərzim var, eyləyim sənə,
Şirzadam, keflənmax iradı mənə.
Yarə həsrət qaldıx, həm vətənə,
Qərib yerdə qəza işin işlədi.

Dağlar abı boyandı,
Yatmış qəlbim oyandı.
Fələh bir iş işlədi,
Zülüm ərşə dayandı.

Oturanda otur, durgunan,
Zatı, sütü dürüst mərdinən.
Gen dolanıb, gen gəzginən,
Həmməşə namərdinən.

## USTADNAMƏ

Abu ateş, xaku baddan xəlq olub,
Necə şirin-şirin canlar qocalır.
Gəl çox da qəm yemə, divanə könlüm,
Hökümət sahibi xanlar qocalır.

Yaxşı adam bu dünyadə ölməsin,
Yaman adam uzun ömür sürməsin.
Kişinin oğulsuz varı olmasın,
Hər sabah malını sanar, qocalır.

Binamusun arı olmaz nəbada,
Aşınanın sır sözün tez verər yada,
Bir iyid ki, yoxsul olsa dünyada,
Her yetən üzünü danlar, qocalır.
Yazıq Aşıq Mənsur şad olub, gülməz,
Gözündən tökülən qan-yaşı bitməz,
Adam var, yaxşı-yamanı bilməz,
Adam var, bir sözü anlar, qocalır.

Əmma Sərhəngi Şami üz dolandırdı Şikariyə:

– Məni müsəlman elədin, onnan işim yoxdu, on yeddi min bəlli-başlı pəhlivanimi öldürmüsən, onnan da işim yoxdu, Simizəri əlimnən almısan, onnan da işim yoxdu, sən demisən ki, mənnən sənə dost çıxmaz?

Əmma Şikari yerinnən hərəkət elədi, dedi:

– Bu nə işidi işlədin bizə?

Kəllə baş-ayax gəldi yerə. Şirzad istədi yerinnən hərəkət eləsin, o da hakəza ani dəqiqədə çöküb buların qolun bağlasın, bunun başı məşğul oldu olara. Mənzər şahı Yəməni işi belə gördü, ani dəiqədə qalxıb mərkəbi-Əjdaxarın üstünə getməhdə olsun. Pəhlivanlardan Ovrəng, Kovrəng dört min nəfərinən attanırlar, Mənzər şahı Yəmənini tutsunlar, bayağ aradan çıxdı. O aradan çıxmaxda olsun, bu yan tərəfdən Sərhəngi Şami verdi şeypuru çalsınlar, şeypur çalınmax həmin əlli min nəfər müsəlmanın qolu daldan bağlanır. Bu yan tərəfdən bu xəbər gəldi yetişdi Simizərinən Mahızəminə. Gördü, bəli, Sərhəngi Şaminin məmurlarıdı:

– Xanım, durun ayağa görəh.

–Həra?

– Cərəyan bu cur oldu, Şikari də, adamları da, hamısı tutuldu. Gətirdilər onu, durun görək, Sərhəngi Şami sizi istəyib.

Sərhəngi Şami yetirdi. Simizər xanım Sərhəngi Şaminin yaxınlaşmasını görüncə dedi:

– Əgər yaxına gəlsən üzüyümün qaşı zəhrdi, içərəm, ani dəqiqədə ölləm.

Əmma bu tərəfdən bunları gətirdilər Şirzadla Şikari olan yerə. Bu eynidə Mahızəmin yetirdi Şikarinin bərabərinə, qolların saldı boynuna:

– Cavan, sənə demədim getməginən?

Mahızəmin götürüb bu dillərinən görək nə deyəcək?

Mahızəmin Şikariyə dedi:

Başına dolanım, gül üzlü cavan,
Bilirəm, dərdivin yoxdu dərmanı.
Yazıx canım qoy sənə olsun qurban,
Dedim ki, qeyitməz bunun fərmanı.

Qan eylər,
Divan eylər, qan eylər.
Dost məni bu həlda görsə,
Ya ölər, ya qanıma qan eylər.

Çarəsiz dərtlərin olmaz dəvası,
Qoymusan başıva göhərdən tacı.
Bu ona qardaşdı, Simizər bacı,
Verirsən qətlinə bunun fərmanı.

Gəlirdim qırağınan,
Gül bişdim orağınan.
Bir cüt tərlan itirdim,
Gəzirəm sorağınan.

İyidlikdə vardı bunda nişanə,
Tərifin eyləsəm, gəlməz dastanə.
Naməni gərəh yazaydın bu cavanə,
Öldürürsən indi sən bu cavanı?

Oyan, dağlar,
Al qana boyan, dağlar.
Bu yanı zülmətxanadı,
Necədi o yan, dağlar?

Sərhəngi Şami bu sözlərinən yumuşadı, dedi:

– Nə, xeyir, mən harda öldürürəm? Mən öldürmərəm daha bu cavanı, çün bu cavan Simizərin qardaşıdı, mən öldürmərəm, ammə qolların da aça bülmərəm. Axı mən indidən bunu öldürsəm, Simizər mənə əl verməz, mən Simizərdan kamı-dil hasil eliyəmən, ta səbr eləyim.

Göydə Allah, yerdə Mahızəmin bu nəxşəni çəhdi, buları elədi bacı-qardaş ki, Sərhəngi Şami bını öldürməsin. Simizərə bu nə qədr elədi ki, bunnan otursun, bir piyalə şərab işsin, Simizər dedi, əgər mənə yəxinnəşsən, üzüyümün qaşında zəhr var, içib özümü öldürrəm. Belə onu qorxuddu. Sərhəngi Şami bunun qorxusunnan dalı çəkilir. O tərəfdən bunun bir dana pəhlivanı var idi, adı Rayizi Şamidi. Rayizi Şamini Sərhəngi Şami burda tihmə qərar verdi. Sərhəngi Şami Xocand vəzirinən Bəhmən vəziri Rayizi Şamiyə vəzir qərar verdi. Bir neçə gün ceşn tutdular. Şikarini bağlıyıblar bir dana ərəbənin üstünə, Şirzadı Tigzəni də bir dana ərə-

bənin üstündə, misli inki çarmıxa çəkiblər, əlli min müsəlmanı da qolu bağlı aparıllar Şamə əsir. Az gəliblər, çox gəliblər, yetiriblər Sərhəngbadə. Üş gündü Sərhəngbaddə istirahətlih eliyillər, əmma Simizər bilmir ki, Şikarini Sərhəngbadə gətiriblər.

Bının, Sərhəngi Şaminin bir dana qızı var, Nazikbədən. Nazikbədənə namə yazdı: "Qızım, Xudapərəst deyillər, bı cavanı tutmuşam, əlli min müsəlmanınan gətirirəm, bəs ver bizi peşvaz eləsinlər". Bu yan tərəfdən qasid yetişib, naməni yetirsin Nazikbədənə. Nazikbədən verdi car çəhdi, çün Şikarinin dilavərliğin, cavanlığın, oğlanlığın, gözəlliğin eşidib, əgər bir nəfər bıları ki, ərəbə üstündə gətirillər zərər verə, mənim əlimnən qurtula bilməz. Dadaşım, Şamın gözəli adınandı, külə quyluyasan, çıxardasan çölə, genə bu biri gözəlləri pozar. Gürg gözəlidi, Şam gözəlidi, adınandı dünyadə. Nazikbədən ki, nazihbədən. Allah gözəlliği paydı veribdi da buna, gözəllih ayrı bir sovqatdı. Gördü bular iki dana dilavərdilər, ərəbənin o yan, bu yanınnan sallanırlar yerə, Şikariynən Şirzadı Tigzəni ikisin bir zindana salıllar. Şikari və Şirzadı Tigzən orda.

Sərhəngi Şaminin on dana zindanı var. Ö bürülərin beş min, altı min, bölüllər verillər bir zindana. Bular zindana gedənnən sora Sərhəngi Şami üz dolandırır:

– Qızım, Nazikbədən, gör neyniyə bülərsən, o qızı mənə ram eliyəsən.

Dedi:

– Ata can, eybi yoxdu, qəbülimdi, əmma mən bir gün sənnən mohlət istirəm.

Nazikbədən gəlib kəniz libası geyib əyninə. Gəlib yetirdi hərəmxaniyə, Simizərdi, Mahızəmindi dörəsində bir neçə nəfərinən yetiriblər hərəmxənya. Gördü bu zar-zar ağlıyır. Nazikbədən istir qızı danışdırsın. Dedi:

– Nazənin, sən çox xoş gəlmisən. Niyə bu qədər ahu-fəğan eliyisən? Səni ki, çih adam almıyıbdı ki? Sərhəngi Şami bir dünyaya padşahdı, böyüh bir adamdı.

Nə qədr Nazikbədən diyənnən sora Simizər xanım cavab vermiyəndə Nazikbədən istir bu qıza bir neçə kəlmə söz desin.

Mahızəmin cavab verdi ki, bunu o zaman ki tutublar gətiriblər qardaşıdı, bir də əmoğlusudu, ona görə ağlıyır, ağlamasın neynəsin? Dedi, bu şəritinən ki, bir mənə yalan danışmıyasan, bir də ki, mənim sözümnən çıxmıyasan.

Qız götürüb bu dillərinən görəh Nazikbədən Simizərə nə diyəcəh?

Nazikbədən dedi:

Pərvanə tək qoy dolanım başıva,
Bir gün sənin olsun, bir gün mənim,
Axır verginən o göz yaşıva,
Bir gün sənin olsun, bir gün mənim.

Qoymaram qalasan burda avarə,
Bağrımın başına düşübdü yarə,
Mənim əlimdədi hər dərdə çarə,
Bir gün sənin olsun, bir gün mənim.

Loğman mənəm, eylərəm dərdə çarə,
Nazikbədən dərdi gəlməz hesabə.
Desən gəl eyliyəh iki parə,
Biri sənin olsun, biri mənim.

Əmma Mahızəmin arifdi. Durdu ayağa dedi:

– Nazənin, mən bülmürəm sən kimsən? Kənizsən, küflətsən? Ya şahzadəsən? Şikari bunun söygülüsüdü.

Hə, belə də əl eliyib libasların əyninən çıxaddı, əyninən çıxadanda gördülər bu şahzadədi. Əğrəbin quyruğu kimi eşq qızın annında çəmbər bağlıyıbdı, az qalır Şikarinin eşqinnən bu divanə olsun, Şikarini deyir bir gün sənin olsun, bir gün mənim. Elədi bala?

Mahızəmin dedi:

– Müsəlman olmasan almaz, sən gərəy əvvəl müsəlman olasan, sora.

Elə orda qız, "kelmeyi-teyibe"yi, "La ilahə illəllah" diyib, döndü oldu müsəlman. Nazikbədən bir dana döhdür istədi. Nazikbədən döhdürün qabağına bir tabax qızıl qoydu yerə. Üz dolandırdı:

– Döhdür can, bı qıza elə bir dava verəsən ki, bı qız məriz ola ki, heş kəs bının yanına gələ bülmiya və onun da ziddin də cübran eliyəsən.

Qızılı da verib ona, gecə gəlsin araya həbbi verib, qız atdı. Səhər dərhövül özün yetirdi dədəsinin huzürinə, dədə can, dünən ki, o qızı gətirmişən, du gəl neynisən elə. Sərhəngi Şami durub özün dərhövil yetirdi Simizərin bərabərində, gördü xeyir, baba, Simizər elə bil bir dana güldü, solupdu. Adam yolladılar həmün döhdürü gətirdilər. Əl elədi bunun nəbzinə baxsın, əl elədi dəsmalı çıxatdı basdı ağzına, hammını töhdü eşiyə. Dedi:

– Bu bir dana dərdə düçar olubdu ki, hər kim bının yanında qalsa, o da bu dərdtən tutacax.

Hamını töhdü eşiyə. Bəli, bu bir dana dərdə mubtələ olubdu, kişi qismətinnən əgər biri bunun yaxınlığına gələ, o dərdtən o da tutacaxdı, beyinnən gedər. Sərhəngi Şami dedi:

– Bura bax görüm, bunun çarəsi var, ya yox?

Dedi:

– Təqribən qırx il çəkər. Qırx il bir şey dəyil ki, qədim adamlar min il ömür elərdilər, indiki kimi dəyil ki.

Sərhəngi Şamini yola salsın, həmün həbbin ziddin verib, Simizər durdu ayağa, oturdu. Bu kələyinən Sərhəngi Şaminin başın allatsınlar. On səggiz il yeksərə bu qalacax zindanda. Bəli, on səggiz il bu burda qalmaxda olsun, Şikari tutulub zindana gedəndə bular da burda qalmaxda olsunlar.

Azdı vətən deyib, vətən eşitmək,
Onu qəlbin kimi qoru, əzizim.
Ürək yanan yerdə gözü yaş eylər,
Yaranı vaxtında sarı, əzizim.

Ana topraq gərək bizə pir olsun,
Yaman gündə dizimizə gir olsun,
Obalar da, oymaqlar da bir olsun,
Budur elin etibari, əzizim.

Bu ana toprağın mərdi azalıb,
Qartal yuvasını sığırçın alıb.

Xəstə Bayraməli nigaran qalıb,
Tükənməzdi intizari, əzizim.

Eşid dastani kimnən? On səggiz il üstünnən geçənnən sora, Şikarinin oğlu Cahangirdən. Şikari zindana düşəndə bu nənəsinin bətnində altı aylığ idi. Xocand vəzirin qızıdı Pərnaz xanım, bunun doqquz ay doqquz gün o sanılı günü, saəti tamam olsun, gəlib yetirib yeddi sinninə, məhtəbxəniyə gedib. On yeddi sinninə yetişəndə bunun fikri-zikri dayim güləşməyidi. Əlaqəsi var idi küştü tutsun, onnan güləşsin, bunan güləşsin. Yəmən şəhrində adam qalmamışdı ki, qolun sındırmasın, qıçın sındırmasın, şikəst eləməsin, çün bunun babası Rayizi Şaminin yanındadı, bi nəfər gəlib şikayət eliyəməzdi. Gün bir gün oldu bir dana döhülçü var idi, bi dana oğlu var idi, vurur yerə, can tapşırır. Beyinnən gessin, döhülçü buna qəzəblənir, "dədəsinnən bixəbər", filan, behman. Bu narahand olur. Necə dədəsinnən bixəbər, məgər mənim dədəm yoxdu? Bu ordan fikr eliyir: "Necə ki, dədəsinnən bixəbər? Məgər Xocand vəzir mənim dədəm dəyili? Vəxti gəlsin evlərinə, görür anası oturub bir pünhanidə, bir güşədə həzin-həzin aglıyır. Dedi:

– Ana, sən niyə ağlıyısan?

Dedi:

– Oğul, elə mən hərdən bir ağlaram.

Cahangir dedi:

– Anacan, mənim ürəyimə bir neçə söz gəlibdi, mən gərəy oları sənnən sual eliyəm. Ana, qulağ as deyim da. Həqiqəti qoyacaxsan meydana.

Götürüb bu dillərinən görək anasınnan nə soruşur?

Cahangir anası Pərnaz xanıma dedi:

Başına döndüyüm gül üzlü ana,
Söylə görüm mənim atam kimdi?
Südüvü əmmişəm mən qana-qana,
Söylə görüm, mənim atam kimdi?

Anam baş dağıydı,
Ölməmişdi, sağıdı.
Varlığını heş bilməzidim,
Arxamda bir dağıdı.

Dolandırıb peymanəmi doldurram,
Saraldıban gül rəngivi soldurram.
Oğulsuz qalarsan, özümü öldürrəm,
Söylə görüm, mənim atam kimdi?

Bu dət məndə üz görübdü,
Gəlib meydanı düz görübdü.
Gedər genə qeyidər,
Bu dərt məndə üz görübdü.

Cahangirəm, sənin üçün bir buta,
Qorxuram ki, səni bu naləm tuta.
Mən də "dədə" deyim, sən də ki, "ata",
Düz de görüm, mənim atam kimdi?

Mən aşıx, ay mədəd,
Mədəd, ya Əli mədəd.
Dan ulduzu baş verdi,
Ayrılıxdı ay mədəd.

Anası ökütmə çəkib ağlıyıb. Deyir:

–Ay ana, de görüm niyə ağlıyısan? Mən sənnən soruşuram ki, dədəm kimdi, axı sən niyə ağlıyısan?

Anası dedi:

– Oğul, deyə bilmərəm.

Cahangir dedi:

– Ana can, əgər deyəsən, yəqin bil ki, özümü öldürrəm.

Əl eliyib xəncərə, dedi:

– Deyisən, ya yox?

Pərnaz xanım dedi:

– İcazə ver, deyim da niyə ağlıyıram.

Götürüb bu dillərinən desin. Mən də ərz eliyim siz şad olun ki, Cahangirin dədəsi kimdi?

Pərnaz xanım dedi:

Başıva dolanım, gül üzlü bala,
Əzəldən bu dünya viran olubdu.
Hər kimsə ki içib eşqin camını,
Ölüncə gözləri giryan qalıbdı.

Baban İskəndərdi sənə nişana,
Aşikar minib, şüriş salıb cihana.
On yeddi ildi dədən düşüb zindana,
Bilmirəm zindədi, ya ki ölübdi?

Pərnaz diyər, dayim eylərəm əfqan,
Sən mənim bağrımı qan eylədin, qan.
Pünhan bəsləmişəm sən təh cəvan,
Şikaridən sən tək cəvan qalıbdı.

Dedi:

– Oğul, sən Şah Dara oğlu Şikarinin oğlusan ki, Məlik Şahı Ruminin oğludu. Baban sənin İskəndərdi ki, dünyaya islam pərçəmi vurmuşdu. Bəs qəzəya bu cur olubdu. Cərəyanı şərh verib: "Sən mənim bətnimdəydin, gedib düşüb zindanə, odu ki, sən gözüvü açannan Xocand vəziri sənə dədə qərar vermişəm". Qiyamət oldu, ana-bala qol-boyun oldular, ağladılar.

Eşid dastani kimnən? Xocand vəzirdən. Xocand vəzir qapıdan girsin içəri, gördü nənə də ağlıyır, bala da ağlıyır. Xocand vəzir soruşdu:

– İndi bildin da sən kimin oğlusan, dədən kimdi? Xüb məramın nəmənədi?

Dedi:

– Babacan, qulağ as deyim məramım nəmənədi.

Cahangir götürüb görəh babasına nə deyir?

Cahangir dedi:

Sənə qurban olum, gül üzlü baba,
Verginən gətirsin yaxşı at mənə,
Gecə-gündüz zikr eylərsən kitabə,
Verginən gətirsin yaxşı at mənə.

Qoy sürüdən bir tək quzu qapım mən,
Sınıx göyüllərə dərman yapım mən.
Fərhad olum, qayaları çapım mən,
Gəlib gedən qoy desin Fərhad mənə.

Cahangirəm, alam göylün, bitirim,
Ürəyinnən qəm-qubarin götürüm.
Dədəm Şikarini gedim gətirim,
Ver gətirsinlər yaxşı at mənə.

Xocand vəzir çün on yeddi sinni var, Cahangir istəmir gessin və illa bir dənə mərkəb bəsliyib buna, (Dərya atlarınan, mərkəbi-Əjdaxardan döl tutublar və buna dil örgədib fəhmidə mərkəbdi, adına da Kürrə deyillər, çün bu istəmir indidən xitab eləsin gessin, odu ki) dedi:

– Oğul, sən get, gəz dolan, nə qədir at söüsən gətir bura, mən pulun verim da. Cahangir gəzir, dolanır hər yanı, tamam ilxıları gəzir dolanır, hər nə cur mərkəbin üstünə minir, əlin atır kakilinə və mərkəb dəvam eliyə bülmür, mərkəbin qarnı dayanır yerə. Daim bu fikridədi ki, yaxcı at tapsın. Xocand vəzir deyir:

– Qızım, sən narahand olma, dünyayi masəvənın mərkəbi yığışa, bunu dolandıra bülməzlər, beqeyri əz Kürrə ki, mən də Kürrənin yerin deməRəm ona.

Günlərin bir günündə, dediyim kimi, evdən çıxıb gessin, iki xacə buna ras gəldi. Xocand vəzir Yəmən şəhrində on beş min müsəlmana demişdi ki, Kürrəni Cahangirə demiyin. Bular götürüllər, gətirillər ətdən, kəbabdan, orda hərəmxanə bağçasında kəbab eliyillər və şərab içillər. Bular bu şərabidən özləri də içillər və Cahangirə də veriblər. İçiblər, məst oldular, piyan oldular, vəqti ki, piyan olsunlar, Cahangir götürüb bir dəsgah xacələrə nə diyəcəh, mən də ərz eliyim, siz şəd olun.

Cahangir dedi:

Gəlin sizə söyləyim, xacələr,
İstirəm, babamtək minəm səməndə.
Çarəsiz dərdlərə olam dərman,
İstirəm, babamtək minəm səməndə.

Fələk məni qoy eldən ayrı salsın,
Qəm ləşkəri gəlib dörəmi alsın.
Nə insafdı, dədəm gözü yolda qalsın?
İstirəm, babamtək minəm səməndə.

Cahangir söyləsin sizə sözlərin,
Nərgisi-şəhlaya bənzər gözləri.
İntizar qalıbdı anam gözləri,
İstirəm, babamtək minəm səməndə.

Bular ki, məst olmuştular, xacələrin biri dedi: "Olan, qoy mən gedim, o Kürrəni tutum gətirim". Durdular üçü də məst-məst yolandılar dərya qırağında Kürrədən ötür. Bir xeylah getdihdən sora xacəlar dedi ki, Cahangir, biz day burdan o yana gedə bülmərih, aralıdan nişan verdilər odu, o Kürrədi, dəryanın qırağında otduyur, ged özün tut. Ona Xocand vəzir dil örgətibdi, yaxına gedənə baxar görər Xocand vəzirdi, gələr yanına, xeyir, əgər Xocand vəzir olmasa naşinas bir adam olsa, qeyidər bir şahə çəkər dəryanın qırağına, nənəsi dəryadən çıxar, o adamı tələf elər, aradan aparar. Cahangir gəldi, bir xeyləh qalanda Kürrə gördü, bəli, aralıdan bir nəfər gəlir. Dörtnala çapa gəlib yetirdi, Cahangirə yetirəndə, gördü bu Xocand vəzir dəyil. Qayıdıb bir şahə çəkib getdi dəryanın qırağına, mının anası çün dərya attarınan idi, bunun şahə səsinə dəryadən çıxsın gəlsin, Cahangir bir dana yumurux düyünnüyüb vırdı bının kəlləsinə. Beyin dağılsın, bu aradan gessin. Kürrə gördü ki, nənəsin öldürdü bu, dubarə şahə çəkib, Kürrə özü yumuldu bunun üstünə. Cahangir üz dolandırdı: "Pərvərdigar, ey on səggiz min aləmi yoxdan xalq eliyən Allah, mən bunu da öldürsəm, mən dədəmin dalısıca gedə bülmərəm, mənnən bir məhəbbət salgınan bunun ürəyinə, dədəm Şikaridi, axı mən Xocand vəzirin nəvəsiyəm".

Belə diyəndə Kürrə Xocand vəzir adın eşidəndə Allah tərəfinnən ürəyinə bir məhəbbət qoyuldu, Kürrə ayaxların qoysun yerə, ram oldu, dayandı.

Cahangir qolunu saldı atın boynuna, götürüb görəh Kürriyə nə deyir, mən də ərz eliyim əyləşən ağaların sağlığına.

Cahangir dedi:

Sən mənə qardaş ol, qurbət ellərdə,
Görürəm, sənsən dəryaların nəhəngi.
Dədəm gözü qalıbdı yollarda,
Mən sənlə eyləmirəm ki, cəngi.

Qılış vırram, ildırım kimi çaxaram,
Düşmənin bağrını yandırıb yaxar,
Dədəm intizardı, yollara baxar,
Can sənə qurban, dəryanın nəhəngi.

Qızıl desəm, qızılgüldən arısan,
Cəmi nəhəhlərin sən nəhəngisən,
Cahangirəm, Şikarinin Əjdəxar yadigarısan,
Can sənə qurbandı, dəryanın nəhəngi.

Sözlərini tamam eləsin, əl eliyib atın kakülünə, alıcı quş kimi qondu mərkəbin üstünə. Elə ki Cahangir mərkəbi Kürrəni çırpağan gətirib yetirdi evlərinə, mərkəbdən piyadə olsun, gətirib bunun qabağına ot tökür, yemir, su qoyur, işmir, yonca tökür, yemir, arpa tökür, yemir. Bu eynidə Xocand vəzir qapıdan girdi içəri, ey dadi-bidad, gözü sataşdı Kürriyə, dedi:

– Oğul, bunu hardan tutdun gətdin?

Dedi:

– Ay baba, bilmirsən ki, bunu xacələrdən almışam, xacəlar nişan verib, mən gedib dərya qırğınnan tutmuşam.

Xocand vəzir bildi ki, bu aygaş hardan geçibdi. Cahangir dedi:

– Ay baba, bu heş zad yemir, mən buna yonca, saman, hər namənə verirəm, yemir.

Xocand vəzir dedi:

– Oğul, o, oların heş birisin yeməz, onun qəzəsı var, verim, gör yiyər, ya yox?

Çəlləyi doldurdu şərabinən, gətirib goydu Kürrənin qabağına, içənnən sora getdi məşğul oldu, ot yoncasın, arpasın yeməğə məşğul oldu.

Dedi:

– Oğul, gördün yiyər, bunun qəzası var, bunu mən neçə ildi bəsləmişəm sənin üçün, özüm demirdim.

Cahangir götürüb görəh Xocand vəzirə nə deyir, mən də də ərz eliyim siz şad olun:

Cahangir dedi:

Həm mənim dədəmsən, həm atam,
İcazə ver, çıxım bir rikab üstə,
Dolanım dünyanı, dədəmi tapım,
İcazə ver, çıxım bir rikab üstə,

Mən aşıx, hərayınan,
Həm bu hərayınan.
Gündə bir kərpiş düşər,
Ömrümün sərəyınnan.

Qədəm qoyub, dos bağına girərəm,
Əl uzadıb qonca gülün dərrəm mən,
Nə qədə kafər olsa tamamını qırəram,
İcazə ver, çıxım bir rikab üstə.

Mən aşıxam, hər aylar,
Həm ulduzlar, həm aylar.
Başım cəllad əlində,
Dilim səni həraylar.

Cahangirəm, mən ağlaram ölüncə,
Ölüm yeydi bu dünyada qalınca.
Gərəhdi ki, gedəm atam dalınca,
İcazə ver, çıxım bir rikab üstə,

Qan eylər,
Divan eylər, qan eylər.
Dost məni bu halda görsə,
Ya ölər, ya qanıma qan eylər.

Xocand vəzir qızına üz dolandırdı:

– Gördün, qızım, bunnan sənə oğul olmuyacax.

Cahangir dedi:

– Babacan, o sözlərin karı yoxdu, mən gərəhdi ki, gedəm babamın dalınca.

Xocand vəzir deyir:

– Oğul, burda ki, on beş min nəfər müsəlman vardı, buların hər məhəllidə, hər küçədə bir nəfər iş biləni var, ağsəqqəli var, onları yığım bu evə, xəbər eliyim, gəlsinlər bu evə, ta bu möriddə biz söhbət eliyəh, görax nə deyirlər?

Qəbul eliyib Cahangir. Bir-bir xəbər eliyiblər, gecə yavaccana gəlsinlər, söhbət eləsinlər. Xocand vəzir dedi: "İndi ki, bəs o cur oldu, sabah mən yolun örgədəcağam buna ki, şəhridə neyliyəsiz, siz on min nəfər bu on beş min nəfərdən intixab eliyəcəhsiz, tamam bəndərlərdə keşih verəcəhlər, təmam bəndərləri kəsəcəhsiz ki, bu Yəmən şəhrinnən bir quş quşluğunda qanad çalıb kənarə gedə bilməsin, əgər gedib Sərhəngi Şamiyə xəbər versələr, bizim axirimizdi". Cahangir dedi:

– Babacan, baş üstə, sən əmr eləginən. Gecə bu qolu qərarı qoysunnar.

Sınıx könüllərə dəyməməx gərək,
Şəriət içində rahi bilənlər.
Özgənin gibətin eyləməsinlər,
Başı üstə bir Allahi bilənlər.

Qəsbi yerlərində tuxm əhməsinlər,
Naməhrəm ayağın heş çəhməsinlər.
Özgə namusuna göz tihməsinlər,
O qəzəbi şahənşahi bilənlər.

Bu dinnən o dinə verməyin bacı,
Cəhd eylə, qapında doyur bir acı.
Gönüldə yetənlər eyləsin hacı,
O Kəbeyi-beytullahi bilənlər.

Xəstə Qəsim diyər, çəhdim çox cəfa,
Çox baxma, eyləməginən fəsad.
Məhəmməd dinində eyləyin cəhad,
Yer üzündə zilullahi bilənlər.

Xocand vəzir gecə nəxşəni çəkib, tədbirin töküb, hamı durub gedib, səhər çağı Xocand vəzir durub, yeyib, içib, geyinib, gedib Rayizi Şaminin yanına. Bu yan tərəfdən Cahangir Kürrə-

nin yəhər-əsbabini qoyub belinə, yeddi yerdən təngin bərkidib, cilovun vurup ağzına, qılış, qəlxan, əmüd, şeşpər, neyzə, kəmənd bağlıyıb atın üstünə, səvar oldu. Elə ki qəravul, yesavulun hammısının qabağınnan keçib, deyillər:

– Oğlan, sənə kim icazə verib qılış, qalxan bağlıyasan, mərkəbə səvar olasan? Yəmən əhlinə icazə yoxdu ki, şəmşir bağlasın.

Cahangir dedi:

– Mənim icazəm özümdədi, heş kimə mərbut olan dəyil.

Hər tərəfi dolanıb qeyiddi gəldi evlərinə. Hər tərəfdən xəbər getdi Rayizi Şamiyə. Rayizi Şami üz dolandırdı Xocand vəzirə:

– Xocand vəzir, sən ona ədəb eliyə bülmüsən? Tərbiyə eliyə bülmüsən? Xocandı vəzir başın saldı aşağaya:

– Qurban, üzüm yoxdu ki, üzüvə baxam, çox şərməndəyəm, neyniyim, gücüm çatmır.

Dedi, qurban, qulağ as deyim da. Götürüb Xocand vəzir Rayizi Şamiyə Cahangirin tərəfinnən nə diyəcək, mən də ərz eliyim əyləşən ağaların sağlığına.

Xocand vəzir Rayizi Şamiyə dedi:

Sənə ərz eliyim, Rayizi Şami,
Mənim gücüm düşmür o cavanə,
Axir sözlərimin budur tamami,
Mənim gücüm düşmür o cavanə.

O güneylar, o quzeylər,
O quzeylar, o güneylər.
Həsrət həsrətin görəndə,
Bayramın o gün eylər.

Göndərginən, qolu bağlı gətirsinlər,
Mənim bu sınıx göylümü bitirsinlər.
Ya öldürsünlər, ya yerinə yetirsinlər,
Ya əmr eylə, salsınlar onu zindanə.

Bir də mən,
Doldur içim bir də mən,

Ömr azaldı, gün keçdi,
Cavan olmam bir də mən.

Xocand vəzirəm, eylərəm əfqan,
Dərd əlinnən bağrım olub bütün qan.
Təngə gətiribdi məni o cavan,
Mənim gücüm düşmür o cavanə.

Qızılgül qonca bağlar,
Dilim diyər, gözüm ağlar.
Ağlaram gözüm yaşı,
Sən gələn yolu bağlar.

Bəli, bir neçə nəfər məmur istiyib, deyir, gedəsiz, vəzirin oğlu Cahangiri gətirəsiz. Cahangir anasıynan oturup, hər ikisi ev-də, məmurlar gəlip yetirsinlər, qapını döysünlər. Cahangir çıxdı qapıya, anasına üz dolandırdı:

– Anacan, məmurlar gəlib, məni istirlər Rayizi Şaminin yanına, mən getməliyəm.

Dedi:

– Oğul, get səni Allaha tapşırdım.

Ama anası üz dolandırdı: "Oğul, dayangınan, sənə bir neçə kəlmə sözüm var". Götürüb bu dillərinən görəh ana nə diyəcəh balasına, mən də də ərz eliyim hamızın sağlığına.

Pərnaz xanım dedi:

Bir tərlansan, uçurduram yuvadan,
Get, mən səni unutmaram duadan.
Sənə köməh olsun, yeri, göyü yaradan,
Get, mən səni unutmaram duadan.

O güneylər, o quzeylər,
O quzeylər, o güneylər.
Həsrət həsrətin görəndə,
Bayramın o gün eylər.

Arı desəm, qızılgüldən arısan,
Yengi bağçaların nobaharısan.

Özün bilisən ki, kimin yadigərısan,
Get, mən səni unutmaram duadan.

Mən aşıq həşəm oldu,
Dərmədim həşəm oldu.
Sənnən ayrılan günnən,
Ağlamaq peşəm oldu.

Oğul dalısıcan qəbul olar ana duasi,
Allah eylər hər işlərin çarasın.
Heç oğul qoymuyubdu ağlar anasın,
Get, mən səni unutmaram duadan.

Mən aşıq, daşa dəyər,
Kipriyin qaşa dəyər,
Bir gecə yar söhbəti,
Tüm qohum-qardaşa dəyər.

Sözlərin tamam eləsin, xeyir-dua versin. Cahangir məmurlarınan məşğul olub gəlməğə, gəldi yetirdi bərgahın qabağına. Mərkəbin üstünnən piyadə olsun, mərkəbin qulağına dedi: "Kürrə, mən varid oluram içəri, burda yeddi yüz əmir var. Bir nəfəri qoymuyasan ki, bu qapıdan eşiyə çıxa, ta mən gəlincə". Kürrə dil bilir, əmma cavab verməğə qadir dəyil. Sözün deyib, tapşırıb varid oldu içəriyə. Əvvalın mərhələdə kəlamı bu olsun ki, mənim bu bargahidə salamım o şəxsə olsun ki, Allahi bir bilər. Hamısı başın saldı aşağıya. Rayizi Şami üz dolandırdı:

– Vah-vah. Xocand vəzir olmuya bu müsəlmandı?

Xucand Vəzir dedi:

– Qurban, mən baş qurtula bilmirəm ki, axı nə qılıxda dolanır?

Cahangir üz dolandırdı dörüyə, gördü heş kəs bunun salamın almadı, yer nişan verən yoxdu. Bunun sağ tərəfində bir dana pəhlivan oturub, bir dana da pəhlivan oturub, adı Zəlzələ Şamidi. Cahangir heş şəmşir də çəhmədi, bir yumurux düyünnüyüp vurdu kəlləsinnən, üzü quylu düşdü yerə, bunun ayağınnan tutdu, götürdü atdı bargahın vəsətinə. Rayizi Şamiyə dedi:

– Bura bax görüm, bəs sənin yerin yoxdu, məni niyə çağırdın burıya?

Rayizi Şami dedi:

– Bəyə mən səni qonax çağırmışdım, çağırmışam səni ədəb eliyəm.

Xocand vəzirə dedi:

– Sən bunu nə cur böyütmüsən?

Xocand vəzir dedi:

– Mən də baş tapa bilmirəm, bu nə quşun yumurtasıdı.

Rayizi Şami dedi:

– Bura bax görüm, sənə kim icazə verib şəmşir bağlıyasan?

Dedi, qulağ as deyim da. Bu sözləri Cahangir götürüb bərgahda Rayizi Şamiyə nə diyəcəh, mən də ərz eliyim əyləşənlər sağlığına. Cahangir dedi:

Sənə kim icazə verib oturdun təxtdə,
Ona görə mən şəmşiri bağlamışam.
Gecələr ağlaram, gündüzlar gülləm,
Sinəm üstə çarı, çapraz dağlamışam.

Fələh səni qurbət elə salıbdı,
Dört dörəvi qəm ləşkəri alıbdı,
Bu təxt Mənzər şahı Yəmənidən qalıbdı,
Onun çün mən bu şəmşiri bağlamışam.

Qədəm qoyub dost bağına girməmişəm,
Dəstə tutmamışam, gül dərməmişəm.
Cahangirəm hələ dədəmi görməmişəm,
Ona görə mən bu şəmşiri bağlamışam.

Rayizi Şami dedi:

– Dədən kimdi ki, görməmisən?

Dedi:

– Mənim dədəm on yeddi ildi zindandadı.

Rayizi Şami dedi:

– Kimin zindanında?

Dedi:

– Sərhəngi Şaminin zindanında.

– Sənin dədən kimdi?

Dedi:

– Mənim dədəm Məlik şahı Ruminun oğlu Şikaridi.

– Vay xətəkarın biri, Şikari gəlib burda nütfə qoyub gedib?

Əl elədi şəmşirə. Bu yannan da Cahangir əl elədi şəmşirə, Rayizi Şami istədi şəmşiri qoziya, Cahangir onu ikiyə böldü.

Eşit dastanı Bəhmən vəzirdən. Bəhmən vəzirin bədəninə rixnə oturdu, bədənində tühlar biz-biz oldu, Bəhmən vəzir istədi qaşsın, qaçan elə bir şəmşirinən aradan ikiya ayırdı, Bəhmən vəziri cəhənnəmə vasil elədi. Əmma neçə nəfər istədi qaşsın, gördülər Kürrə kəsib qapının ağzını, məgər qoyar bir nəfər eşiyə çıxsın? Hər kim ki, müsəlmandı qaçır, Xocand vəzirin dalısına, nəmənə ki, orda bütpərəst varıdı, hamısın öldürdü, cəhənnəmə vasil elədi. Qan sel kimi su yerinə axdı. Hamını öldürdü. Üz qoyub eşiyə Cahangir, mindi mərkəbin üstünə, əl elədi şəmşirə, yüz min nəfər Şam əhli hər kim ki, istədi qaşsın Sərhəngi Şamiyə xəbər versin, öldürdülər. Bir nəfər Şam əhlinnən qalmadı, övrət, uşaxlara kimi töhdülar eşiyə, əsir elədilər, qarət elədilər.

Əmma axşam üstü oldu, Cahangir qeyidib gəldi öz evlərinə, mərkəbinnən piyadə olub, ana-oğul bir-birinin gərdəninə əl saldılar. Xocand vəzir üz dolandırdı:

– Oğlum, sən indi burda təxti-səltənətdə oturacaxsan, əgər Mənzər şahı Yəməni, Yusif Ərəbi, yeddi qardaş, Zəlzələ Zəngi, Firuz Əyyar bular hamısı sənin dədövün başınnan dağılıb gediblər. Əgər bunu bilsələr birbəbir gələllər sənin yanıva.

Cahangir dedi:

– Atacan, mən eliyə bülmərəm, sən özün oturacaxsan burda, təxti-səltənətdə, inşallah, ö bürülər də yığılallar gələllər, mən qoşununan gedə bülməram ki, dədəmin dalısıcan, mən indi ya gərəh tacir surətində, ya gəda surətində gedəm, ya sail surətində gedəm, bir nöinən gərəh gedəm, məxfiyanə gedəm dədəmin cəmalın görəm.

Gecəni yatsınlar, sabahlarına dursunlar, gesinlər bərgahə, tamam Yəmən əhli amadədilər cəngə gessinlər, Cahangir dedi ki, imkanı yoxdu, mən bir nəfər apara bülmərəm.

Bu xəbər getdi yetirdi Cahangirin nənəsinin qulağına. Nə xəbər? Bu xəbər ki, Cahangir istir gessin dədəsinin dalısıcan. Anası dərhal evdən çıxıb gəldi, ana-bala qol-boyun oldular. Anası dedi:

– Oğul, hara gedisən? Mərəmın nəmənədi?

Dedi:

– Anacan, qoy deyim da.

Cahangir götürüb bu dillərinən görək nə deyir, mən də ərz eliyim, siz şəd olun:

Cahangir anası Pərnaz xanıma dedi:

Başıva dolanım, gül üzlü ana,
Ölənəcən sənə qul, bəndiyəm mən.
Südüvü əmmişəm mən qana qana,
Atam cəmalın görmağa diltəngiyəm.

Pərnaz xanım Cahangirə dedi:

Başıva dolanım sənin mən, oğul,
On yeddi ildi dədən düşüb zindana.
Yeditmişəm sənə qənd ilə noğul,
Denən ki, anamın bağrı dönübdü qana.

Cahangir anası Pərnaz xanıma dedi:

Sənin bu sınıx göylüvi bitirrəm,
Gedib mən özümü Şamə yetirrəm.
Ya ölərəm, ya dədəmi gətirrəm,
Nə bilə ki, onun fərzəndiyəm mən?

Pərnaz xanım Cahangirə dedi:

Get, səni mən tapşırıram sübhanə,
Ayrılıxdı, bağrımı döndərmə qanə.
Atan veribdi mənə bir nişanə,
Verirəm, gedərsən onu sənə mən.

Cahangir anası Pərnaz xanıma dedi:

Cahangiri saymaynan hər yana,
Az qalır Məcnun təh ola divana.
Atam sənə nə veribdi nişana,
Onu indi səndən almalıyam mən.

Pərnaz xanım Cahangirə dedi:

Fələh veribdi mənə neçə fəndi,
Salıbdı boynuma ayrılıx kəməndi.
Pərnazam, veribdi bir bazubəndi,
Onu indiyəcan saxlamışam mən.

Pərnaz xanım dedi:

– Atan mənə bir cüt bazubənd nişana veribdi, mən oları da bağlıyacağam sənin qoluva, bəlkə o nişaneynən gedib dədövi tapasan, əgər tanımasa, o bazubəndi sən ona nişan versən tanıyar.

Cahangir anasınan sorar:

– Anacan, Şirzadı Tigzən necə birisidir? De görüm əlinnən bir şey gələr?

Dedi:

– Oğul, o elə şəmşir vurar ki, onun şəmşirini görəməzsən, onun üçün adına Şirzadı Tigzən deyiblər, cəngci dilavərdi, indi dədövünən Sərhəngi Şaminin hər ikisi zindanindədi, əlli min müsəlmanınan.

Anasıynan qol-boyun olullar, üş dəfə anasıynan qol-boyun olublar, ağlıyıblar. Onnan sora gəlib babasının yanına, indi icazə verisən mən gedəm, ya yox? Üz dolandırdı:

– Ata can, day bunnan belə eliyə bülmərəm dayanam.

Üz dolandırdı:

– İndi ki, gedisən, bir qədr qoşun tədarik görək sənnən gessinlər.

Cahangir dedi:

– Sən burda tamam bəndərləri bağlatdır, bir nəfər gedib Sərhəngi Şamiyə xəbər verməsin. Sərhəngi Şami bülsə, mənim dədəmi orda öldütdürər. Mən gərəh ya tacir surətində gedəm, ya sail surətində gedəm.

Babasınnan xudafizçilih eliyib, rəvaneyi-rah oldu. Dərələrdən sel kimi, təpələrdən yel kimi, az gedir, çox gedir, günün ortasında, mərkəbinnən, piyadə olur, dəstəmaz alır, namaz qılır. İstir bir Allahınan bir razuniyəz eləsin və bir neçə kəlmə söz desin, mən də erz eliyim əziz duslar sağlığına. Cahangir dedi:

Qərib yerdə mən ayrıldım anamnan,
Üz çevirib gedim, Allah, hayana?
Bir balıqtək ayrılmışam dəryadan,
Üz çevirib gedim, Allah, hayana?

Qərə qəyə,
Doludur qərə qəyə.
Miskin qapıva gəlib,
Daşlara dəyə-dəyə.

Fələh verib mənə qəmin bolunu,
Mən yazığın soruşan yox halını.
Görsədən yox həqiqətin yolunu,
Üz çevirib gedim, Allah, hayana?

Sənə dağlar,
El gedər sənə, dağlar.
Tutaydım yər əlinnən,
Gələydim sənə, dağlar.

Kimsə yanmaz Cahangirin ahina,
Şikayətim vardır şahlar şahinə.
Sailəm, gəlmişəm həx dərgahinə,
Üz çevirib gedim, Allah, hayana?

Naşı əlinnən,
Atmişam daşı əlimnən.
Yastığım şikayət eylər,
Gözümün yaşı əlinnən.

Durub ayağa mərkəbinə səvar oldu, yol getmağa genə məşğul oldu. Az gedib, çox gedib, günlərin bir güniydi, günorta zamanində gördü uzaxdan bir dana şəhir görsənir. Öz-özünə dedi: "Pərvərdigara, görəsən, bu şəhir haradı? Gərəh o qədr burda gözlüyəm ki, biri gələ ta mən buranın adın soruşam, onnan sora bu şəhrə gedəm. Ata-babadan qalma sözdü ki, sınanmamış atın dalı-qabağına keçməginən". Kürrə də məşğuldu çarəyə. Bəli, məşğuldi

yemağa, gördü bir atdı gəlir. Gəlib buna yetirəndə atı yavaccana yavaşladıb, buna bir salam verdi, keşdi. Keçəndə bu bang vurdu:

– Oğlan, hara gedisən? Dayan görüm.

Atlı dedi:

– Dayana bilmərəm, dalımca düşman gəlir.

Dedi:

– Oğlan, mən özüm davanın misqalın min tümənə alıram, hara gedisən, qeyit gəlginən bura.

Dedi:

– Qeyidəmmarəm, mənim sənə ziyənım dəyər.

Cahangir üz dolandırdı Kürriyə:

– Kürrə, qoyma gessin.

Kürrə alıcı quş kimi aldı bunun qabağın. Məcbur halətində qeyitsin, dubarə səlam veribdi. Dedi:

– Cavan, qoy mən qoyum qedim. At cimcilax su içindədi.

Cahangir dedi:

– Niyə qaçısan?

Dedi:

– Bəs qulağ as deyim da. Götürüb bu dillərinən desin, mən də ərz eliyim siz şad olun.

Atlı Cahangirə dedi:

Sənə qurban olum, gül üzlü cavan,
Namərdin gözünün piçağıyam mən.
Yazıx canım qoy olsun sənə qurban,
Qatiləm, bu vilayətin qaçağıyam mən.

Dolandırıb peymanə doldurmuşam,
Anasın matəmində ağlar qoymuşam.
Ay dilavər, mən bir şahzadə öldürmüşəm,
Qatiləm, bu vilayətin qaçağıyam mən.

Öldürsən də, cəvan, özün tut yasimi,
Ay cəvan, gəl qəbul elə iltimasimi.
Alırdı əlimnən öz namusimi,
Onunçün bu vilayətin qaçağıyam mən.

Atlı oğlan başından keçənləri dedi:

– Bu, bir oğlandı, padşahın oğludu, şəhri-Hilaliyədə, gecələr gedər bir nəfərin evinə, der, dur ayağa, çıx eşiyə. Bir gecə gəldi bizə, nə qədər izhar eylədi, mən qılıncı peysərinən vurdum, baş bədənnən ayrılıb düşdü yerə, odu ki, indi məni sin-sin axtarıllar, mən qaçağam.

Cahangir dedi:

– Bura bax görüm, sənin adın nəmənədi? Haralısan?

Dedi, qulağ as deyim da adım nəmənədi, özümün əsl kökküm haralıdı? Götürüb bu dillərinən desin, mən də ərz eliyim.

Atlı Cahangirə dedi:

Sabit diyər, mən uzax məkanlıyam,
Cəng günündə gözlərimnən qanlıyam.
Xəbər alsan məkanım, İranlıyam,
Qeyrət kanının qaçağıyam mən.

Dedi:

– Özüm İranlıyam, gəlmişəm Hilaliyə şəhrində karvansara cürrəmişəm özüm üçün, ailəmə çörəh qazannam, bu da ki, təqdiri-bəladı gəlib məni tutub.

Cahangir dedi:

– Sən qoxma, yüz min nəfər gəlsə bi şey olmaz, sən göydə Allah, yerdə mənə pənah gətimisən.

Birdən Kürrə şeyha çəhdi. Ləşkərin başı açıldı, toz duman hər yeri alıbdı. Sabit əmma burnunun ucuna kimi saralıbdı. Bir qədərdən sora on min nəfər Zöhhakın qoşunudu, gəlillər Sabiti tussunlar. Elə ki buların sərləşkəri yetirdi, üz dolandırdı:

– Cavan adam, bir bax.

Cahangir dedi:

– Əgər sənin də ajlığın var, buyur meyl eləginən.

Dedi:

– Mən attan yenə bülmərəm. Sabiti məmuram tutam aparam şahın huzurinə.

Cahangir dedi:

– Bura bax görüm, Arazda oxuyub yazan biri vardı, mənim dediklərimi yazasız, aparasız, verəsiz Zöhhakə.

Dedi:

– Bura bax görüm, sən issot yeməmisən, heş issotun zəmisinnən də keçməmisən? Sən mərifət, ədəb-zad bilməssən?

Cahangir dedi:

– Dayan, sənə bir neçə kəlmə sözüm var, deyim, ta onnan sora görək sənnən mənimki nə olacax?

Götürüb bu dillərnən Cahangir görəh nə diyəcək, mən də ərz eliyim əyləşən ağaların sağlığına.

Cahangir dedi:

Bakim yoxdu, min belə ola ləşkər,
Bu gəlibdi mənə pənahəndədi.
Durub boyunuza salaram xəncər,
Bu gəlibdi mənə pənahəndədi.

Demə ki, mən görəni sən görməzsən,
Mən can verməyincə sən can verməzsən.
Sabit, mən ölməyincə sən can verməzsən,
Bu gəlibdi mənə pənahəndədi.

Cahangirəm, gedərəm hər diyarə,
Gər desəm dərdimi gəlməz hesabə.
Öldürrəm səni, eylərəm parə-parə,
Bu gəlibdi mənə pənahəndədi.

Söz tamam olsun, sərləşkər fərmən verdi, bunu tutun. Cahangir əvvəldə sərləşkəri tutdu. Sərləşkər əl elədi şəmşirə, Cahangir əl eliyib, əlinnən şəmşiri aldı, atdı kənarə. Qıs-qıvraq yapışdı kəmərinən götdü elə ki onu cəhənnəmə vəsil eləsin, əl eliyibdi şəmşirə, alıcı quş kimi qalxıb mərkəbin üstünə, əl elədi şəmşirə, elə bil ki, bir dana yalquzəh canavar bir sürü davarı qatıb qabağına. Buları qırdı dağıtdı, bərgi-xəzən kimi töhdü yerə. Amma bulardan bir neçəsi yaralı qurtulub qaşdı. Getdilər Hilaliyə şəhrinə ki, Zöhhaka xəbər aparsınlar. Cahangir Sabiti də götürüb məşğul oldu Hilaliyə şəhrinə gəlmağa. Gətirdi yetirdi karvansəriya, ama çün şəhridən qaşmışdı, əmma bunun evin qarət eləmişdilər. Sabitin anası gördü, Sabit gəldi, özüynən də bir nə-

fər dilavər gətirdi, bir dana mərkəbi var ki, az qalır qapıdan keçməsin. Arvad üz dolandırdı:

– Evin yıxılmasın, indi səni axtarıllar sini-sini, nəyə gəldin evə?

Sabit dedi:

– Arvat, mən özüm gəlməmişəm ki, məni gətirən var.

Dedi:

– Kim gətirib?

Cahangiri nişan verdi. Üz dolandırdı Sabitə:

– Axı evin yıxılmasın, bunu o zaman gətireydin ki, evi qarət eləməmişdilər, indi bir dana piyalə yoxdu ki, uşağa su verəm.

Cahangir üz dolandırdı:

– Ay ana, narahand olmagınan, mən özümnən yiyən qonaxlardanam.

Cahangir Sabitə üz dolandırdı:

– Sən ged əhl-əyalıvın yanına, mən gedirəm bazara.

Bu bazara getmaxda olsun.

Əmma eşid dastani Zöhhakın o nəfərətı beş-altı nəfər fərər eliyib o, on min nəfərdən gəlmişdi, bunu təqib eliyiblər, gördülər kərvansərəya girdi, bular özlərin yetirdilər Zöhhakın yanına, düşdülər Zöhhakın ayaxlarına:

– Qurban, qıbleyi-aləm sağ olsun, bir belə nəhəngə ras gəldix yolda, Sabiti çox qovannan sora getdi bir şəxsə pənahəndə oldu, istədih gətirəh, vermədi. İstədi bizi də öldürsün. Biz də zorunan özümüzü yaralı qurtulub gəlmişik.

Mının, Zöhhak padşahın bir dana vəziri var ki, Vəziri-Əzəm diyərlər adına. Vəziri-əzəmi istiyib bərabərnə:

– Vəzir, mən neynəməliyəm?

Üz dolandırdı:

– Qurban, əgər mənim sözümə baxsan, (özü müsəlmandı, vəli zahirdə boynuna büt salır), qurban, mənim sözümə baxsan mını Latu-Manət xalq eliyibdi, sənin oğluvun qətilin tuta, özü də diyibdi ki, mən bunu qolubağlı gətirrəm şahın bərabərinə. Sənnən mənim təqəzam budu, üş gün möhlət verginən, bu cəvan öz

dediyində sabit bir adamdı, əgər üş günə kimi sənin oğluvun qatilini gətdi bura qolu bağlı, gətirməsə, ver muhasirə eləsinnər.

Dedi, bəs yaxşı sözdü, bını Latu-Manət xalq eliyibdi ki, oğlunun qatilin tussun. Bının dörəsinə qərol, yasol qoydular məxfiyanə.

Eşid dastani Cahangirdən. Cahangir özün verdi bazara, yetirdi. Bi yerdə fərş satırdılar, yetirdi iki dana, üş dana, ağa, bu fərşləri qoy kənarə. Verdi hambalın kürəyinə, bunu apar Sabitin kərvənsarasına. Bu yannan özün verib düyüdən, ətdən, yağdan, əlinə nəmənə gəlsə alır, yolluyur Sabitin kərvənsarasına. Getdi, gördü bir meyxanə vardı, içəri getdi meyxanə sahabınnan soruşdu:

– Bura bax görüm, Sabitin kəvansarasını tanısan?

Üz dolandırdı:

– Bəli.

Dedi:

– Gündə iki dana tulux üş günə kimi şərab yolluyacaxsan, gə bu da pulun.

Pulun verib, gündə iki tulux şərab gəlir. Evə gəldi. Özü də üz dolandırıb:

– Ay nənə, qapını açıx qoyacaxsan, hər kim gəldi bura qonağımızdı, iki gözümüzdü, ona pəziralıx eliyəcağıx.

Elə ki üş gün oldu, Cahangir bir dana qələm, kağaz istədi, Zöhhakə bir dana namə yazdı, ta bilsin ki, mən əhdimə vəfa eliyirəm, onun oğlunun qatilin aparacağam. Kağız, qələmi istiyib, ta görəh nəmənə yazacax, mən də ərz eliyim sağlığınıza:

Cahangir Zöhhak padşaha dedi:

Mənnən səlam olsun ədalət şahım,
Fərman ver, cəm olsun əhli hilalə.
Gəlim eylə olsa sabit günahım,
Bu barədə düşmə özgə xiyalə.

Müsəlmanın olar nəmus, qeyrəti,
Çəkər o səbəbdən çoxlu zilləti.
Qoy mənim boynuma böyüh minnəti,
İçəh bir sənin ilə neçə piyalə.

Mən aşıx, mərd atası,
Doldur ver mərdə tası.
Namərd gəlib mərd olmaz,
Olmasa mərd atası.

Cahangirəm, uzun sözün tamamı,
Səninlə içeydim məhəbbət camı.
Allah xalq eliyib insanların canını,
Xəbər olsun bu gün əhli-hilalə.

Mən aşıxam, dərdə kərəm,
Dərtliyəm dərd əkərəm,
Qoşaram dərd cütünü,
Özümə dərd əkərəm.

Namənin ayağın imzəlayıb qoydu pakata, üstün möhr elədi, qasidə zəvəl yoxdu, verdi bir nəfərə ki, bunu aparasan yetirəsən şahın huzürinə.

Alıblar naməni oxusunlar, məzmününnən xəbərdər olsunlar, elə ki naməni eləm eləsinlər, carçılar.

Zöhhak dedi:

– Bəs verin sabahlarına meydanlar sulansın süpürülsün, eləm olunsun səğirdən kəbirə şəhirdə namənə adam var, hammısı gəlsin pəhlivan meydanına.

Zöhhak padşahın oğlunu gətiriblər, dava içində saxlıyıblar, hənüz dəfn eləmiyibdilər. Bəli, elə ki gecəni yatıblar, sabah eliyiblər, Cahangir üz dolandırdı:

–Sabit.

Dedi:

– Bəli.

– Dosluğumuz yerində, qardaşlığımız yerində, çün bu padişədı və ehtirami vacibdi, sən də qatilsən, mən qovl vermişəm, sənin qollarıvı bağlıyacağam, qatacağam səni qabağıma, aparacağam ora, qoxmagınan, qoymaram sənin başınnan bir tük əksik ola. Sabitin qolların qabaxdan bağladı. Elə ki mərkəbinə səvar oldu, hər tərəfdən küçə və bazarda təmaşəya durublar. Elə ki gə-

tirdi bunu Zöhhakın önünə, mərkəbdən düşdü yerə, gəlib Zöhhakın bərabərində yeddi yerdə kirnuş elədi. Dedi:

– Salam, ərz eliyirəm, qurban. İndi mən əhdimə vəfa elədim. İndi sənin əmrin fərməyişin nəmənədi, buyur, icra olunsun.

Zöhhak padşah dedi:

– Oğul, sənnən çox təşəkkür eliyirəm, söz verdin, tutdun oğlumun qatilin gətidin, sağ ol.

Cahangir dedi:

– İndi mənə icazə verisən Sabitin moridində bir neçə kəlmə sizinən söhbət eliyəm?

Buyurdu:

– Oğlum, azədsan, hər nə fərməyişin vardı, buyur.

Cahangir bu dillərinən şaha yetirmağ istiyir ki, şahda gərək ədələt ola. Bu dillərinən:

Cahangir Zöhhak padşaha dedi:

Ərzim budur, eylərəm gözəl şaha,
Şahlarda gərəhdir ədalət ola.
İnşallah, batmaram heş vəxt günaha,
Şahlarda gərəhdir ədalət ola.

Demirəm ki, məndə vardı rəşadət,
Müsəlmanam, eyliyərəm ibadət.
Bir isrəfdı, səxavətdi, ədalət,
Şahlarda gərəhdir ədalət ola.

Məxfiyanə şəhridə gəzməmisən,
Məzlumların əhvalın sormamısan.
Oğlun zülm eyləyib, sən bülməmisən,
Şahlarda gərəhdir ədalət ola.

Zöhhak padşah üz dolandırdı:

– Dilavər, sən bu adı mənim oğluma qoyursan, mənim oğlum heş vədə bu işi görməz.

Üz dolandırdı:

– Qurban, görübdi, millətdən soruş, desinlər.

Zöhhak padşah üz dolandırdı:

– Mənim oğlumu kim belə görübdü, desin.

Dört bir tərəfdən arvadlı kişili yerinnən qaxdı, üz dolandırdı:

– Qurban, bu düz deyir.

O dedi, düz deyir, bu dedi, düz deyir, ey dadi-bidad.

Zöhhak təxtinnən yenir, dedi:

– Oğul, indi ki, sən bu sirri fəş elədin, icazə ver, mən gərək sizin qədəmlərizə qurban kəsim.

Cahangir dedi:

– Qurban, mən indi gərəh özümü sənə qurban kəsəm, mən gördüm ki, sən ədalətdi padşahsan.

Ustad belə diyir ki, Zöhhak üz dolandırdı:

– Götürün bu ifriti, hər neynisiz eləyin, mənim gözümün qabağınnan itirin.

Cahangir üz dolandırdı:

– Sabit bir dana İranlıdı, fələhzədə olub, gəlib burda sənin pərçəmivin altında zindəganlığ eliyir, əhl əyalina çörəh çıxadır.

Dəstur verdi ki, Sabitin qolların aşsınlar və özünə oğulluğa götürə, çün geyrətlidi. Sora oturdu təxti-səltənətdə, Cahangirə dedi:

– Oğlum, de görüm sən bura nə üçün gəlmisən? Nə səbəbdən bura güzarın düşübdü və hardan gəlmisən? Hara gedisən?

Söhbətdə təam gəldi, çörəh yesinlər, vəkti ki, təam gələndə bu çəkildi durdu kənardə. Zöhhak padşah üz dolandırdı:

– Oğlum, bəs niyə yemisən?

Dedi:

– Mən müsəlmanam, sizinən bir yerdə eliyə bülmərəm təəm yiyəm.

Zöhhak padşah dedi:

– Oğul, niyə ?

Bu Cahangir o qədr Allahın qudrətinnən, yektəlığınnan dedi ki, axirdə çün Zöhhakın ürəyi yumuşağ idi, döndü müsəlman oldu. “Kəlmeyi-teyyibə”sin diyib döndü oldu müsəlman. Dövrədən, yerliyerinnən dedi: “Biz də olduq müsəlman”. Şəhridə şəhrin əhalisi bütün müsəlman olsunlar, əmma bi neçə gün qalıb burda, verdi tamam ki, kilsələri yıxdılar, yerində məscid bina eliyillər. İslamın pərçəmin vırdılar hər yana. Zöhhak padşah əl eliyib ba-

şınnan tacı götürüb qoysun Cahangirin başına. Cahangir qəbül eləmədi. Zöhhak padşah üz dolandırdı:

– Oğul, axı sən mənə demədin hardan gəlisən? Nə səbəbdən gəlmisən bura?

Cahangirin ürəyi dolu, bu dillərinən görəh nə diyəcəh, ərz eliyim.

Cahangir Zöhhak padşaha dedi:

Burda qoya bilmərəm başıma tacı,
Gərəh gedəm, burda qala bülmərəm.
Şirin ağzımı gəl eyləmə acı,
Gərəh gedəm, burda qala bülmərəm.

Ağzımda mənim bir acı dad qalıbdı,
Fələh məni qurbət elə salıbdı.
Atamın çün gözü yolda qalıbdı,
Gərəh gedəm, burda qala bülmərəm.

Cahangirəm, dərdim gəlməz hesabə,
Baş almışam, gedirəm bir diyarə.
Dərdim gizlidir, salammaram aşkarə,
Gərəh gedəm, burda qala bülmərəm.

Cahangirəm, dünya olubdu yaği,
Bir məclis istərəm dolana saqi.
Dədəm Şikaridi, olub qəm dustagi,
Gərəh gedəm, burda qala bülmərəm.

Dedi:

– Dədəm mənim on yeddi ildi Şamda Sərhəng Şaminin zindanindədir.

Zöhhak padşah üz dolandırdı, dedi:

– Heş bülüsən dədən nə iş görüb? On yeddi min nəfər bəlli başlı pəhlivan öldürüb, tamam nə cərəyan olmuşdu, şərh verdi buna.

Zöhhak padşah üz dolandırdı:

– Oğul, indi ki, gedisən bir qədr ləşkər tədərük eliyim, özüvünən apar.

Cahangir bunu da qəbul eləmədi. Dedi:

– Qurban, eliyə bülmərəm, mən gərək ya sail sürətində, ya gədə sürətində, ya tacir sürətində gedəm, özümü yetirəm dədəmə ki, ta dədəmin bir üzün görəm.

Bir neçə min qoşun tədariki görüblar, munı iki ağaş şəhridən yolladılar. Zöhhak padşah üz dolandırdı:

– Oğul, burdan ki bu yana gedisən, ta Şama kimi, vilayəti Gülbar var qabaxda, Sərhəng Abad var qabaxda, necə ki, balığın zindəganlığı suyunandı, Sərhəngi Şaminin də zindəganlığı Sərhəngbadınandı. Dədəvün düşməni çoxdu, ehtiyatını əllinnən verməginən. Bunu bilginən, dədən dünyadə ki, kişilər qoymuyub ki, oğulsuz qalsın, qardaşlar qoymuyub ki, qardaşsız qalsın, analar qoymuyubdu ki, oğulsuz qalsın.

Cahangir biyabanı qatıb qabağına rəvaneyi-rah oldu. Bir neçə gün yol gələnnən sonra gəlib yetirdi şəhri Gülbara. Kənardan gözü sataşır şəhrə, görür ki, elə bil misli bir dana behiştdi. Götürüb bu dillərinən bu şəhrin gözəlliyinə belə desin, mən də ərz eliyim dusların sağlığına.

Cahangir dedi:

Şükr eylərəm birligivə, Xudaya,
Bura nə məkandı, misli behiştdi,
Qadir Allah, özün yetiş fəryada,
Bura nə məkandı, misli behiştdi.

Həmməşə yoldaşam qəmiylə aha,
Qorxuram danışam, batam günaha.
Bağlaram ümüdümü qadir Allaha,
Bura nə məkandı, misli behiştdi.

Cahangirəm, bu gün peymanəm dola,
Qorxuram sarala, gül rəngim sola.
Anam tapşırıb Allaha, salıbdı yola,
Bura nə məkandı, misli behiştdi.

Sözlərin tamam eləsin, varid oldu şəhrin içinə, bir divarın dibində düşüb mərkəbinnən piyadə oldu. Oturdu yerə və mərkəbin də cilovvun saldı qoluna. Allahı and verrəm, öz izzəti cəlali-

nə, heş kimi qərib eləməsin. Oturub divarın kənarində, gördü bir şəxs gəlir, əlində bir sələ var, sələnin içinə səbzidən çörəhdən qoyub, bir-iki dana da şüşə vardı, sələdən başı çıxıb eşiyə görsənir. Buna çox diqqətnən baxır, bu ona baxır, o buna baxır, gəlib geçəndə ehsəs elədi ki, bu müsəlmandı. Müsəlman qovlunda Cahangirə yavacca salam verdi. Dedi:

– Yavacca salam ver, bura salam vermə yeri dəyil ki. Mən sənə yavaşdan salam verdim ki, yəni müsəlmanam.

Dedi:

– Mən görürəm, buyur, elə bil qəribsən bu halin nedi?

Dedi:

– Bəli, onun üçün sənə ərzim var.

Götürüb bu dillərinən görəh nəmənə diyəcəh? Mən də ərz eliyim əziz eşidənlərin sağlığına.

Cahangir dedi:

Sənə qurban olum, ay keçən oğlan,
İstərəm, qonağın olam bu gecə.
Demirəm, varındı kəs mənə qurban,
İstərəm qonağın olam bu gecə.

Muxtar dedi:

Sənə qurban olum mən, gələn oğlan,
Səni saxlaram mən gözüm üstə,
Mən özüm olaram sənə qurban,
Səni saxlaram mən gözüm üstə.

Cahangir dedi:

Qəm libasi geyib, eyş etmərəm,
Fərəmüş etməsəm, heç zad yemərəm.
Gizlin dərdim var, bir kəsə demərəm,
İstərəm qonağın olam bu gecə.

Muxtar dedi:

Pərvanətək gül dövründə dolannam,
Dolanıb başıva qurbanın ollam.
Dərdin nədi, de, mən şərik ollam,
Səni saxlaram mən gözüm üstə.

Cahangir dedi:

Qulam ollam sənə vallah ölüncə,
Dözəsən bu dərdə, məni bilincə.
Sən yeri, mən də gələrəm dalınca,
İstərəm qonağın olam bu gecə.

Muxtar dedi:

Dəhən açıb, neçə kəlmə söylərəm,
Oğlanlığım sənə sabit eylərəm.
Muxtar öz adımdı, sənə söylərəm,
Səni saxlaram mən gözüm üstə.

Muxtarınan Cahangir rəvaneyi-rah oldular. Muxtar qabaxda gedir, Cahangir onun dalısıcan. Muxtarın mənzilinə qapıdan varid olanda içəri, Muxtarın bir dana xanımısı var, atdını piyadə elər, piyadəni ata mindirər,

Əzizim, dostum, arvadı cibivə qoymagınan ha! Kişinin hər bir zadı arvadınandı, oturmağı arvadınandı, durmağı arvadınandı, yatmağı arvadınandı, tez yuxudan durmağı arvadınandı, işə getmağı arvadınandı, bunu yaxcı qulağında saxlagınan. Muxtarın arvadı gördü bu qonax masevaye ayrı qonaxlardandı. Dedi: "Bu məlumdu ki, böyüh xənəvədədəndi, mənim gözüm sataşmax həmin misl-i inki mənim döşlərimə süt gəlibdi, elə bil mənim öz balamdı bu, ürəyimə elə nişəst eliyir ki, elə bil bu oğlan mənim öz oğlumdı". Bəli, əvvəl təam bədən, kəlam. Yedilər, işdilər, Cahangirin içinnən getmax gəlmədi. Qeyitsin gəlsin evə, gördü evdən tüssü qalxır, dedi, bala, qorxdum sənə nəzər dəyə, üzərrih yandırmışam, onun tüssüsüdü, bəlkə sənə nəzər dəyməyə. Gördü cəmaət düzülüb bunun dilavərliyinə, zərbi-şəstinə təmaşə eliyillər.

Bir neçə gün Muxtarın evində qalannan sora Muxtara üz dolandırdı:

– Axı mən neçə gündü sənin evindəyəm, yeyirəm, içirəm, heş mənnən soruşmusan ki, sənin adın nəmənədi?

Dedi:

– Mən eliyə bülmərəm ki, sənin adıvı soruşam, əgər soruşsam, elə bil deyirəm ki, dur burdan çıx ged. De görüm bura nəyə gəlmisən?

Dedi:
– Qabaxda bir uzax səfərim var, ona görə gəlmişəm.
Muxtar dedi:
– Yox, mən geçən gecə bir yuxu görmüşəm.
Götürüb bu dillərinən Muxtar görəh Cahangirdən nə soruşur?
Muxtar dedi:

Yatmış idim, yuxu gördüm rüyadə,
Bülmüram ki, nə muradə gəlmisən?
Mən üzürdüm bir qaranlıx dəryadə,
Dəryadən ayrılıb evə gəlmisən.

Dağlarda bağ gəzərəm
Bülbüləm, dal gəzərəm,
Bir sağalmaz yaram var,
Ölmərəm, sağ gəzərəm.

Mənim ilə sən duz-çörəh yiyəsən,
Gizlin sözün olsa aşkar diyəsən.
Min diliylə danışasan, güləsən,
Görmüşdüm ki, sən rüyada gəlmisən.

Mən aşıq, qoşa dağlar,
Verib baş-başa gağlar,
Alçaxlan, yarı görüm,
Dönəsən qana, dağlar.

Gəl incimə, sən Muxtarın dilinnən,
İyit olan ayrılmaz öz elinnən.
İskəndər elinnənsən, Rüstəm elinnən,
Tayın yoxdu, bu dünyayə gəlmisən.

Mən aşıq, gedər, qalmaz,
Su axar, gedər, qalmaz,
Vəfali yara canım qurban,
Bivəfa yar gedər, qalmaz.

Cahangir üz dolandırdı:

– Dadaş, düzdü, mən sənin çörəyivi yeyirəm, sənə qonağam, əmma sənə sirrimi diyə bülmərəm, əgər bir müsəlman alim olsaydı, bizim qərdəşlıh siğəmizi oxusaydı, sənə ürəyimin sirrini diyərdim.

Dedi:

– Narahand olmagınan, bir nəfər vardı.

– Kim ola?

Dedi:

– Bu Gülbar vilayətində Şah Şucanın bir vəziri vardır. Bu vəzir münəccimdi və rəml bilir, çün o da müsəlmandı, mən də, məni işlədir, o dəftərxanədən bu dəftərxanəyə gedirəm, işlərin görürəm. Göydə Allah, yerdə onun səyasində mən balalarıma rüzi taparam.

Muxtar durur ayağa, gedir vəzirin evinə. Varid olur içəri, görür bu kitaba baxır. Deyir:

– Qurban, nəya baxırsan?

Vəzir üz dolandırır:

– Muxtar, kitab belə nişan verir ki, bu günlərdə bir cavan gələcax bura, evladı İskəndərdən, gəlib bura islam pərçəmin vuracax,ona baxıram ki, bu, niyə gəlmiyibdi?

Muxtar dedi:

– Mənim də bir ərzim var, qəbül eləsən, mənim bir qonağım var, onnan mən bətər dust olmuşam, biz hazırıq bunnan siğə qərdəş olax, gedək bizə, bizim sigəmizi oxuyasan.

Durub Muxtarınan gəldilər, gəldilər varid oldular Muxtargilə, buların barmaxların verdi bir-birinə və bulara bir dana qərdəşlik siğəsi oxudu, əmma qardaş olannan sora dedi ki, siz dosluğuzda genə olun, dos qardaşdan qabaxdı.

Hz. Mevlayə sormuşlar ki, insanın qardaşdan artıq bir şeyi olar? Buyurdu: "Bəli, əgər dünyadə həqqiqi bir dostun olsa, qardaşdan qabaxdı".

Gedənnən sora bular minayi şərabı qoydular araya, şişlihlər çəkildi, indi bular iki qərdəş olublar, məhəbbət cəmını içillər. Bu eynidə Cahangirin qulağına təbil səsi dəydi, Muxtar dedi:

– Dadaş, sabahları cümədi, bizim şahımızın bir qızı var, ona bir dev aşıq olubdu, qızın adı Qonçaləbdi. Bir dev aşıq olub,

benamı Ekvan dev. Ayda bir yol cümədə gələr, o cavanlar ki, buna aşıqdılar, gələllər, onnan cəng eləllər, dev buları öldürər, Bu dev ayda bir gün gələr, bu qızın nə qədr aşiqi olsa öldürər, çıxar gedər, indi neçə illər vardı, bu şəhrə müsəllət olubdu. Bu şəhrdə bir nəfərin gücü onun gücünə yetməz.

Bu kəlməni eşiddi, Cahangir daha yata bilmədi. Gecəni səhərə kimi o başa getdi, bu başa gəldi. Səhər olsun, meydan sulansın, hammı gəlib təmaşəyə. Ekvan dev hər yeri qatıb bir-birinə. Bu Cahangir nə qədər eliyir dur gedax təmaşəyə, Muxtar getmədi, onu da qoymadı gessin. İndi Cahangir götürüb bu dillərinən görəh qardaşına nə cur yalvarır? Mən də ərz eliyim əyləşən dosların sağlığına.

Muxtar dedi:

Başıva dolandığım istəkli qardaş,
Dur, bir apar təmaşəya sən məni.
Sənə qurban olsun bu göz ilən qaş,
Dur, bir apar təmaşayə sən məni.

Ürək sözlərimi gətirmə dilə,
Məcnun kimi üz qoymuşam bu çölə.
Qonaq eyləmisən məni bir günə,
Dur, bir apar təmaşayə sən məni.

Cahangirəm, sənə qurbandı sərim,
İstərəm bağınnan neçə gül dərim.
Əgər çox gözəldi, qoy bir mən görüm,
Dur, bir apar təmaşayə sən məni.

Cahangir o qədr izhar elədi ki, axirdə Muxtari rəya gətirdi. Durublar ayağa, gəlsinlər pəhlivan meydanına. Dam, küçə – hər yan adamdı, təbil, nəqqarə səsi asimanə bülənd oldu. Ekvan dev özün meydanda tək gördü. Şah Şuca bir dana təxt qoyub, dörəsində əmirüümərа əyləşib, qız da küləfirəngidə qırx incə qızınan outrub, təmaşə eliyir. Cahangir gəlib dayanıb səflərin dalısında. Muxtarın qorxusu budu bu gedə meydanə, devinən cəng eliyə, bu dev bunu aradan apara. Nəzər saldı devə, gördü nə dev, bu misli bir minarədi, ağız nə yekəlihdə, dodaxlar sallanıb, az qal-

sın düşsün döşünə, ağzın aşsa hər kimi çəkər kəmına. Meydanda dolanır, nərə çəkir: "Qızın aşıqları kimdi, gəlsin qabağa."

Qırx nəfər ki, qırmızı giymişdilər, bir-bir gəllilər qabağa. Cahangir gördü birin aradan cırır atır o yana, birinin başın üzür atır bu yana. Cahangir üz dolandırdı Kürriyə:

– Kürrə, məni cəmaəti yara-yara yetirəcaxsan şahın hüzürinə. Səfləri yara-yara özün yetirdi şahın bərabərinə. Şah Şuca gördü mərkəbin üstündə bir oğlan gəlir. Şah Şucanın bərabərinə yetirsin, mərkəbdən piyadə oldu, kirnüş eliyib, bərabərində dayandı. Götürüb bu dillərinən görəh Şah Şücaya nə deyir, mən də ərz eliyim əziz dusların sağlığına.

Cahangir dedi:

Şahın xidmətinə verirəm salam,
İcazə ver, gedim bir meydanə mən.
Danışax bir neçə kəlam,
İcazə ver, gedim bir meydanə mən.

Bülbül təh oxuyam mən xoş avazı,
Qonağam, özünnən gəl eylə razi.
Xiləs eylə qəmnən o Qonça qızı,
İcazə ver, gedim bir meydanə mən.

Cahangirəm, mən eylərəm əfqani,
Ürəyimdə bir sırrım var, pünhani.
Nəümid eyləmə sən mən cavani,
İcazə ver, gedim bir meydanə mən.

Cahangir atına minib meydana girdi. Qonça xanım oturub eyvanda, zərrin taxta, dörəsində qırx incə qız və dayələri yanında. Cahangir qızı görmür. Qızın gözü düşdü Cahangirə, gördü bir cavan oğlandı. Oğlan bunu görmədi, əlində bir dəstə gül tutmuşdu, o güllərin bəndini açıb, gülləri dağınıx töhdü Cahangirin başına. Cahangir atdan yuxarı başın qozuyub baxanda gördü qız oturub eyvanda. Cahangir üz dolandırdı:

– Nazənin, mənim başıma gülü niyə sovurusan?

Dedi:

– Cavan, mən gülləri onun üçün sovurdum ki, sən dönəsən, baxasan mənə, mən sənə diyəm ki, heyf cavanlığına, ana-bacıvın gözü yolda qalar, mənnən xətirə bu devin meydaninə getməginən, yazıxsan, gəl getməginən bu devin meydaninə.

Cahangir dedi:

– Nazənin, sənə neçə kəlmə sözüm var, deyim, onnan sora görüm gedirəm meydanə, ya yox?

Cahangir dedi:

Sənə qurban olum, hüri Şəmayil,
İstəmədim, niyə verdin gül mənə?
Gördüm cəmalivi, mən oldum mayil,
İstəmədim, niyə verdin gül mənə?

Rüstəm təki əgər girəm meydanə,
Döndərrəm meydanı qannan ümmanə.
Sən diyən söz yaraşmaz mən cavanə,
İstəmədim niyə verdin gül mənə?

Ürəkdən şad edib səni güldürrəm,
Hünərimi bu meydanda bildirrəm.
Cahangirəm, bu ifriti öldürrəm,
Belə fərman verir o dodax, gül mənə?

Hərcayini özüm-özümə dost eylədim,
Özüm öz canıma çox qəsd eylədim.
Söyütdən ağaca peyvəst eylərim,
Almasın, heyvasın, narın görmədim.

Cahangir Qoncaləbə dedi: "Nazənin, məni o öldürülən cəvanlardan hesab eyləməginən". Sözün deyib rəvaneyi-meydan oldu. Gülbar əhli hammısı durup meydanda tamaşaya, vəqti ki, Cahangir devinən rüberü oldu, gördü, pərvərdigari, mütəəl buna bir gözəllih verib, misli-manəndi yoxdu. Dedi:

– İstirəm səni öldürmüyəm, gəl mənim rikabımnan öp, səni öldürmüyüm, aparım qulleyi-Kafə özümə səqi eliyim.

Cahangir dedi:

– İfrit, sənə bir neçə kəlmə sözüm var.

Götürüb görəh ifritə nə desin? Mən də ərz eliyim əyləşən ağaların sağlığına.

Cahangir dedi:

Bizdə mərdanəlik var, sizi bilmirəm,
Bu meydanda tutax sən ilə cəngi.
Bu şəhrə gəlübən, şəd olup gülmürəm,
Neçə xiyəlların keçir aqlımnən.

Şəd eyləyıp bu milləti güldürrəm,
Qudrətimi bu gün sənə bildirrəm.
Səni pis dərdinən burda öldürrəm,
Qaçıb qurtarmasan əlimnən.

Cahangirəm, həsrət qalmışam elə,
Məcnüntək baş qoyub düşmüşəm çölə.
Haziram sənlə verəm əl-ələ,
Bu meydanda tutgunan küştü mənnən.

Cahangir girdi devin meydanına, əl elədilər yapışdılar bir-birinin kəmərinnən.

Firuz Əyyar ordaydı. Firuz dedi: "İstisən onu aciz eliyəsən, aradan aparasan, əlivi at buynuzuna, devin buynuzunnan yapışsan aciz olar". Cahangir əl elədi, yapışdı devin buynuzunnan. Dev gördü bu o cavanlardan dəyil, bir nərə çəhdi:

– Ey Gülbar şəhrinin əhli, amandı, gəlın məni bu cavanın əlinnən qurtarın, mən gedərəm, bir də Gülbar suyu işmərəm. Gedərəm bir də bu tərəflərə gəlmərəm.

Cahangir bir əlinən devin buynuzunnan tutup, ö bürü əliynən ciğarların çəhdi qoydu eşiyə, dubarə devi alıp təpəsinə bunu vurdu yerə, əl elədi xəncərə, bunun başıynan bədəninə ayrılıx saldı. Devin başı Cahangirin əlində qaldı. Bir zaman gördülər toz yatdı. Bir əlində devin başı, bir əlində xəncər, meydanı dolanır. Gülbar cəmatinin əhli sevindilər. Tamam əmirüümərа, vəzirüvüzarənın əlində tabax-tabax qızıllar vardı. Hər tərəfdən qızıl sovurdular başına. Cahangir devin başını meydanda gəzdirənnən sora gətirib Şah Şucanın atdı qədəmlərinə. Şah Şuca yerinnən durub, gəldi istədi əyilsin, Cahangir qoymadı, şah üz dolandırdı:

– Cavan, buyur gedax saraya.

Dedi:

– Mənim bir dustum var, oların evində qalıram, onnan icazə almam gərəkdir, ya xeyir, onnan bahəm gələm.

Cahangir rəh oldu gessin Muxtarin mənzilinə. Muxtar sevincək varid olub evlərinə, arvadına dedi: "Övrət, müjdə ver mənə, Cahangir devi öldürdü". Övrət əvvəl inanmadı. Cahangir yetirdi. Cahangir varid olsun içəri, Muxtar durub qol-boyun oldular, öpüşdülər, görüşdülər. Əmma üz dolandırdı:

– Bəradər, orda ki, sən gedirdin meydana, məni qorxutdun, Dadaş, biz qardaşıx, sən böyüh qardaşsan, şah məni dərgəha aparırdı, dedim sənnən icazə alam.

Bular bu muhakəmədə olsunlar, eşid dastani Şah Şucanın dərgəhınnan. Vəziri-əzəm üz dolandırdı: "Cahangir ki gəlmədi bura, bunun dalsıcan gərəh böyüh adamlar gedə, əmirüümərа, vəzirüvüzarədən gərəh bunun dalısıcan gessin". Şah Şuca üz dolandırdı: "İndi ki, sən belə məsləhət bülüsən ki, əmirüümərа, vəzirüvüzarədən gedə, onda gərəh mən özüm də gedəm. Həlı-hazirdə mən hər yerdə eləm eləmişəm ki, hər kim bu devi öldürsə qızımı verəcağam ona". Elə ki Muxtar və Cahangir min izzətücəlalinən, əmirüümərа, vəzirüvüzarə buları aparıllar bargahə.

Eşid dastani kimnən? Qonçaləbdən. Qonçaləb özün yetirib anasının bərabərinə, ona dedi: "Ana can, sənə bir neçə kəlmə xidmətivə ərzim var". Qız götürüb neçə tel ayırıb o siyah tellərinnən, basıb məmələrinin üstünə dedi:

Qoncaləb anasına dedi:

Başına döndüyüm mehribən ana,
Dur, biz gedək o xanımın dalınca.
Cahangircan getdi mərdi -mərdana,
Kəniz olam o cananə ölüncə.

Qulağ versən, deyim neçə kəlami,
Onun xidmətinə verək salami.
Doyuncan bir içək məhəbbət cəmın,
Kəniz olam o cananə ölüncə.

Qönçələbəm, deyim xoş avəzınan,
Göylün alax onun şirin sözünən.
Gətirək, ana, qırx incə qızınan,
Kəniz olam o canana ölüncə.

Dedi, bala, indi ki, sənin atan əmirüümərasıynan, vəzirüvüzarəsıynan gedibdi onun dalısıcan, bizə də vacibdi ki, qırx incə qızınan gedəh onu gətirəh bura. Qönçələb qırx incə qızınan, anası da yanında gediblər Muxtarın evinə: "Xoş gəlibsiz, səfə gətiribsiz. Nə əcəb?" Qız yeridi yaxına, əlinnən öpsün, əmma qoymadı. Dedi:

– Sən bir şahzadəsən, mən bir rəiyyətəm, nə munəsibdi sən mənim əlimnən öpəsən?

Qönçələb üz dolandırdı:

– Gəlmişih səni aparmağa.

Durublar qırx incə qızınan min izzətü-şövkətü cəlalinən gətiriblər hara? Hərəmxaniyə. Olar orda yeyib-işməyə məşğül olsunlar.

Şah Şuca üz dolandırdı:

– Oğlum, axı demədin Muxtarınan sən həqiqi, atabir, anabir qardaşsan, ya belə dossan?

Cahangir üz dolandırdı:

– Qurban, biz Muxtarınan siğə qərdəşih, ammə dədəbir, nənəbir qardaşdan biz artığıx.

Şah Şuca üz dolandırdı:

– Oğlum, indi ki, belədi, mən xəzanənin açarın verirəm Muxtarə, xəzanənin təmam işçiləri Muxtarınan olsun. Səni də bura vəliəhd eliyəcağam.

Dəsitani eşid kimnən? Şah Şucanın qızı Qonçə xanımnan. Qönçələb üz dolandırdı:

– Dayəcan.

Dedi:

– Bəli.

Qonçələb dedi:

– Atam elən eliyib hər yana ki, hər kim devi öldürsə, qızımı verəcağam ona. Cahangir oturub bərgahda, əmirüüməra, və-

zirüvüzarəynan, deyib gülməyində, yeyib işməyində məşğüldu, mən də burda ürəyimi oğuşdururam.

Dayə üz dolandırdı:

– Qızım, olmasa götür sən dədüvə bir dana namə yaz.

Qız götürdü atasına bir namə yazdı: "Ata can, sən əhdivə gərəh vəfa eliyəsən, sən ilqar eləmisən ki, hər kəs devi öldürsə, mən qızımı verəcağam ona?". Naməni yazdı, göndərsin. Namə gəlib yetişdi atasının əlinə. Cavab verdi buna. Oğlan gedib hərəmxana bağçasında istirahətlih eləsin, mənim dediğim söz ki, ilqar eləmişəm, əhdimə vəfa eliyəcağam. Qıza bu xəbəri versinlər, qız şəd oldu, dedi:

– Dayəcan, fürsətdi, fövt eyləməz aqil.

Dedi:

– Qızım, istisən neyniyəsən?

Dedi:

– Dur ayağa, məni götür apar hərəmxana bağçasına, istirəm mən bu oğlanı görəm.

Dedi:

– Sən nə xiyəl eliyisən? Səbrinən hər iş düzələr.

Dedi: "Amandı, dayəcan, eliyə bülmərəm". O siyah zülflərdən bir dəstə tar ayırıb, basıb əlbistən məmələrin üstünə, görək dayəsinə nə deyir? Mən də ərz eliyim siz şad olun.

Qönçələb dedi:

Başıva dolanım, gül üzlü dayə,
Dur ayağa, yetir o yarə məni.
Ömrüm gedər indi badi-fənayə,
Dur ayağa, yetir o yarə məni.

Mən aşiq, o güneylər,
O quzeylər, o güneylər.
Həsrət həsrətin görəndə,
Bayramın o gün eylər.

Pərvanətək, yar, başına dolannam,
Dolanıb başına, qadasın allam.

Görməsəm, eşqidən divanə ollam,
Dur ayağa, yetir o yarə məni.

Mən aşıq, oyan dağlar,
Al-qana boyan, dağlar.
Bu yan zülmətxənadı,
Necədi o yan, dağlar?

Qönçələb, ümidin kimə bağlıdı?
Yər əlinnən qarə bağrım dağlıdı.
Gedək, soruşum kimin oğludu?
Dur apar, tez yetir o yarə məni.

Mən aşıq, divən eylər,
Divən eylər, qan eylər,
Dost məni bu halda görsə,
Ya ölər, ya qanıma qan eylər.

## USTADNAMƏ

Əvvəldə şam yanar, sora pərvanə,.
Şam əvvəl yanmasa pərvanəni yandırmaz.
Ged otur yarınan özün rübərü danış,
Özgə gedib yara sözü qandırmaz.

## USTADNAMƏ

Həlal tut mayanı həmişə, oğul,
Həram tikə bucaqlarda mal olmaz.
Əyri gözünən baxsan özgə malına,
Boş qalar pətəyin, onda bal olmaz.

Mərifətnən yanaş tutduğun işə,
Söz gərək ağızdan çıxmamış pişə.
Bağında gül, çiçək bitsin həmişə,
Qanqaldan, tikandan bağda gül olmaz.

İbrət götür Saraclının sözündən,
Müxənnəslər düşər elin gözünnən.
Pəhlivan olsan da çıxma özünnən,
Hər yetən pəhlivan Rüstəm Zal olmaz.

Dayə qəbül eləməyincə qızın ayrı bir şeyə gümanı gəlmədi, əl eliyib boynunnan gərdənbəndin açıb verdi dayiyə.

Zər aləmdə canım müşgülgüşadı,
Hər nə istəsən canım onnan rəvadı.
Zər qılar aləmdə hər dərdə dəva,
Zər olmasa aləmdə sultan gədadı.

Pulun olsa hər yerdə ehtiramın vardı. Dayə bunu gətirdi hərəmxana bağçasına, oğlanın yanına gətirdi. Qapını açıblar varid olsunlar içəri, qız keşdi o yan tərəfə, bu yan tərəfə, baxdı gördü gözlərin yumub yatıbdı. Qönçələb əvvəldən vurulmşdu, bu yan tərəfə keşdi, oyanmadı, o yan tərəfə keşdi, oyanmadı, hölünnən yeriyib ayağ tərəfinə, bu oğlanın ayağların tutup basdı sinəsinə.

O siyah zülflərindən bir dəstə tər ayırıb basıb məmələrin üstünə, ta götürüb görəh Cahangirin başı üstə qız nə desin?

Qönçələb dedi:

Yaradıb səni yaradan,
Belə sərvi-qamət olmaz.
Allah saxlasın bəladan,
Sanki bir qiyamət olmaz.

Aşiq olub eşqə dolsam,
Saralıb heyvatək solsam,
Sən ilən qol-boyun olsam,
Görəsən qiyamət olmaz.

Müsa tək gedir Sinayə,
Oxuyur Turi Sinayə,
Qönçələbinən ver sinayə
Qorxma ki, qiyamət qopmaz.

Dedi:

– Cavan, burda istirahətlığa gəldiğivi eşitdim, gəldim səni soruşam. Kimsən, haralısan, nə əcəb bu yan tərəflərdən geçisən?

Cahangir dedi:

– Nazənin, sənin gəlmağıva bir neçə kəlmə sözüm var, qulağ as sözüvə cavab oxuyum.

Cahangir götürüb görəh nə deyir?

Cahangir dedi:

Pərvanətək qoy dolanım başıva,
Xoş gəlmisən, nazlı yar, gözüm üstə.
Qurban olum sənin qələm qaşıva,
Xoş gəlmisən, nazlı yar, gözüm üstə.

Vəfalısan, yar, bağına girərəm,
Əl uzadıb qönçə gülün dərərəm.
Sənin yolunda ölməyə gedərəm,
Xoş gəlmisən, nazlı yar, gözüm üstə.

Cahangirin dərdin niyə çoxatdın,
Nə bilib burdayam, axtarıb taptın?
Eşqin kəmədin boynuma çatdın,
Ölüncə saxlaram, yar, gözüm üstə.

Qız dedi:

– Dədəm elən eliyibdi ki, hər kim bu devi öldürsə qızım Qönçələbi verecağam ona. Gülləri sənin başıva sovurduğumda səni sövdüm, istəmirdim gedəsən devin cənginə, qorxurdum ki, səni aradan apara.

Dedi:

– Nazənin, çox da məhəbbət eləmisən, mən sənnən artığın hardan tapıb alacağam?

Qız qolun saldı oğlanın boynuna. Dayə dedi:

– Mən sənə arxeyin oldum, onu tapşırdım sənə, səni tapşırdım Allaha.

Olar qaldı baş-başa. Dayə gessin, Cahangirinən qız ikisi qaldılar bir mənzildə. Desinlər, gülsünlər, yesinlar, işsinlər, eyşünüşə məşğül olsunlar.

Eşid dastani kimnən? Əmirüüməra, vəzirüvüzarədən. Üz dolandırdılar:

– Qurban, qıbleyi-aləm sağ olsun, axı Cahangirdən biz doymadıx, adam yollagınan gətirsinlər, onun söhbətinnən doymadıx, eyşünüşa məşğül olax.

Dəf, tənbür, ney, ərgəvən səsi asimanə büլənd olub, şəhridə qiyamətdi. Göydə Allah, yerdə Cahangir buları devin əlinnən qurtarıbdı. Şah Şuca üz dolandırdı Muxtarə:

– Gedəsən Cahangirə diyəsən ki, təşrif gətirəsiz bargahə.

Muxtar durub gəlib hərəmxanə bağçasına. Üz dolandırdı:

– Şah səni ehzar eliyib bargahə, Cahangir gəlsin bargahə, biz onnan bir neçə piyaleyi-cəmi məhəbbət içək. Cahangirinən Muxtar hər ikisi gessinlər bargahə. Elə ki otursunlar, bir məhəbbət piyaləsi verdilər.

Cahangir üz dolandırdı:

– Şah Şucayə qurban, əgər istisiz mən sizinlə olam, mən müsəlmanam, mənnən sizinki tutmaz, əgər müsəlman olsan, mən sənnən varam, əgər müsəlman olmasan, xeyir.

Şah Şucanın o qədr məhəbbəti buna var idi ki, üz dolandırdı: "Cavan, sən namənə desən, o da olsun".

Şah Şuca desin taməm nəmənə əmirüümərа, vəzirüvüzarə hammısı döndü oldu müsəlman.

Onnan sora elən elədilər, islam pərçəmin vurdular bərgahın üstünə. Elən elədilər ki, Gülbar əhli hamısı gərəh müsəlman ola. Büttəri zadı qırıllar atıllar yerə. Bütxanələri yıxıllar, Şah Şuca dəstür verir, oların yerinə məscid binə qoyulur.

Bular müsəlman olannan sora Şah Şuca üz dolandırdı:

– Oğlum, mən əhdü-peyman eləmişəm ki, hər kim ki, devi öldürsə, qızımı verəcağam ona və özün də bu şəhrə vəliəhd eliyəcağam. Əgər ləyiqi kənizlik olsa, verim qızın əqdin oxusunlar sənin adıva.

Cahangir utandı burda, başın salsın aşağa. Muxtar üz dolandırdı:

– Qurban, qıbleyi-aləm sağ olsun, Cahangir utanır, elə sən hər nə desən o olsun. Versinlar buların əğdi oxunsun. İş ora gəlir ki, bunun adı yazılsın dəftərə. Dedi:

– Bura bax görüm, oğlum, sənin adın nəmənədi?

Dedi:
– Cahangir.
Dedi:
– Dədəvin adı nəmənədi?
Bunu soruşanda Cahangir başın saldı aşağa. Dedi:
– Qurban, onu diyə bülmərəm.
– Niyə diyə bülməsən?
Dedi:
– Deyə bülməram da, üzrüm vardı.
Cahangirin gözləri baharın bulutları kimi doldu. Dedi:
– Qurban, qulağ as, deyim.
Cahangir götürüb görək bu dillərinən nə diyəcəh, mən də ərz eliyim, siz sağ olun.
Cahangir dedi:

Sənə qurban olum, qıbleyi-devran,
Dərdim gizlindi, salammaram aşkarə.
Cavan canım qoy olsun qurban,
Qəmim çoxdu, gətirəmmərəm izharə.

Fələk məni eldən ayrı salıbdı,
Dört bir yanım qəm ləşkəri alıbdı.
Dədəm intizardı, gözü yolda qalıbdı,
Dərdim gizlindi, salammaram aşkarə.

Rum vilayətinin şəhriyəridi,
Harda olsa məzlum tərəftaridi.
Cahangirəm, dədəm şir Şikaridi,
Həsrətəm əzəldən mən o ruxsarə.

Leyli mahcamalın görəndən bəri,
Məcnuntək eylədin divanə məni,
Eşqın zəncirini gəl aş boynumnan,
Bağışla Qadiri-subhanə məni.

Şah Dara oğlu, Şikari oğlu Cahangir eşidəndə Şah Şuca biixtiyar bihüş oldu, əmirüümərа, vəzirüvüzarə yığılıb bunun dörəsinə halə gətirdilər. Qönçələbin anasınnan və nədimələrinnən

gəliblər, pərdə dalısınnan durublar qulağ asıllar ki, görək bunun əsli-nəsəbi kimə yetişir? Qız elə ki eşidəndə Şah Dara oğlu Şikaridi, qolların saldı nənəsinin boynuna. Dedi:

– Ana, belə başıva dolannam, ehsəs eləməginən qızın ki, çih adama gedib ha! Bu İskəndər nəvəsidi, evladı İskəndərdəndi, Şah Dara oğlu Şikarinin oğludu.

Bular da getdilər hərəmxanada dubarə ceşn tutular. Dəf, tənbür, ney, ərgəvən səsi asimanə bülənd olub. Bu yan tərəfdən Şah Şucani halə gətiriblər. Nə cur olub görməmisən?

Cahangir dedi:

– Qurban, mənim dədəmi Sərhəngi Şami hileynən tutubdu, on səggiz ildi Sərhəngi Şaminin zindandadı, əmma bülmürəm ölübdü, ya qalıbdı?

Şah Şuça dedi:

– Biz Sərhəngi Şaminin tihmələrinnənih. Sən hardan gəldin, gələndə?

Üz dolandırdı:

– Şəhri-Hilaliyədən, Zöhhak padşahın məmləkətinnən gəlmişəm, oranı da döndərib müsəlman eləmişəm.

Şah Şuca dedi:

– Dört yüz min onun ləşkəri var, dört yüz min mənim silah altında ləşkərim var. Əgər hən deyisən kağaz yazım olar da gəlsinlər, götürəh gedəh Şamə. Sənin dədən ölmüyüb, hənüz qalır, əlli beş döləttən gərək hökm sədir ola onu çəkələr darə, öldürələr. Sərhəngi Şaminin zindanındadı və bir də qardaş oğlusu Şirzad Tigzəni əlli min müsəlmanınan tutublar. Bala, sənin dədən qoymuyubdu məmləkətdə bir nəfər dilavər qalsın. Sərhəngi Şaminin on yeddi min bəlli-başlı pəhlivanın öldürübdü, atmış min sehrgəri öldürüb, Xunxarı Şami ki rüyin-təndi, onu da öldürüb. Sərhəngi Şami onu hileynən tutubdu. Əgər Sərhəngi Şami bilə ki, biz müsəlman olmuşux, ləşkər çəkər bizim məmləkətimizin torpağın at-eşşəh torbasında daşıtdırar tökər dəryayə.

Cahangir deyir:

– Qurban, narahand olma, onun başın mən qataram. Bir də mən eliyə bülmərəm ki, qoşun çəkəm ləşkərinən gedəm dədəmin

dalısınca. Mən Allahınan öz aramda əhdüpeyman eləmişəm. Allah-tala məni öldürsə də dədəmin cəmalın görəm, onnan sora Allah-talaya bir can boşlıyam, ölsəm də ölmüşəm. Mən gərəh ya sail sürətində gedəm, ya dərviş sürətində gedəm, ya tacir sürətində.

Bular burda danışanda qız eşiddi ki, Cahangir istir gessin. Qıza xəbər verdilər ki, Cahangir gedir. Əmma qız götürüb dədəsinə bir namə yazıb: "Atayı-mehribən, eşiddim Cahangir istir gessin dədəsinin dalısıcan, əgər icazə versən, Cahangir hara gessə gedəcağam". Namə gəlib yetirdi Şah Şucanın əlinə, məzmünunnan xəbərdər oldu.

Üz dolandırdı ki, oğlum, sən ki indi istisən gedəsən, Qönçələb belə bir namə yazıb, sözün nəmənədi?

Cahangir götürüb bu dillərinən sazınan, sözünən görək bu kəlmənin cavabında nə diyəcək, mən də ərz eliyim, siz şad olun:

Cahangir məktubda yazdı:

Çıxammaram cananımın sözünnən,
Dünyada yarla gəzmək xoş olar.
Nazilan öpərəm ala gözünnən,
Dünyada yar ilə gəzmək xoş olar.

Gərəkdir ki, gedəm, qala bilmərəm,
Cananımı ayrı sala bilmərəm.
Peymanətək dahı dola bilmərəm,
Dünyada yar ilə gəzmək xoş olar.

Yadınnan çıxatma məni ölüncə,
Cahangir çox qalır səncə bilincə.
Gedirəm atamın indi dalıncan,
Dünyada yar ilə gəzmək xoş olar.

Cahangir buları diyəndə gördü Muxtar ağlayır. Üz dolandırdı:

– Muxtar, niyə ağlıyısan? Mən eliyə bülmərəm sənsiz burda zindəganlıx eliyəm, gərəh məni də aparasan.

Dedi:

– Mənehi yoxdu, Muxtar, səni də aparram, əmma gedəh görəh əyalın razı olur, ya yox?

Bəli, bular qalsın hərəmxanada, Şah Şucaya Cahangir tapşırdı, dönəbədönə ki, məbadə Muxtarın əyalinə və uşaxlarına baxsın. Cahangir Kürrəni minib, Muxtarın özünün mərkəbi var idi, hakəsə və bir dana mərkəb təyin elədilər Qönçələbə. Şəhridən bir qədər aralı buları yola salsınlar qeyitsinlər.

## USTADNAMƏ

On səggiz min aləm, yetmiş iki dil,
Ülfət qılır bir bazarın içində.
Kimi atlas geyir, tirmə quşanır,
Kimi üryan gəzir qarın içində.

Qafilsən işinnən, tapammırsan baş,
Üz döndərər səndən, qohum, yar, yoldaş.
Topraq soyuq, bədən üryan, kəfən yaş,
Tək qalarsan dar məzarın içində.

Mən deməkk nə lazim, özün bilisən,
Bir gün yaranıbsan, bir gün ölürsən.
Arsız, qəmsiz, nə gününə gülürsən?
Yandırarlar səni narın içində.

Ələsgər söyləsin, sən mətləbi qan
Belə qərar qoyub qadiri-sübhan.
Unutma ilqarın, itirmə iman,
İman durar düz ilqarın içində.

Cahangir, Muxtar, Qönçələb-bular üçü yola düşüblər. Az gəliblər, çox gəliblər, günlərdən bir gün yol gəlillər, bir meşənin arasında bir yol vardı, yolunan gedillər. Muxtar özü düşünən idi, dedi: “Dadaş, siz attarızı sürün, dalızca bala-bala gəlləm”.

Meşədə hər heyvanat olar, yırtıcı, dirrəndə, pərrəndə olar, əmma pələh çox nəxələf bir heyvan olar, meşədən bir pələh çıxır. Pəriş eliyir Muxtarın üstünə. Muxtar Cahangiri səslədi, ta Cahangir özün yetirincə Muxtarı pələh atdan saldı yerə, qarnın cırdı. Cahangir bir nərə çəhsin, pələh Cahangirin üstünə qaxdı.

Qolçaqbəndi Cahangir verdi pələngin ağzına. Ağzına verəndə pələngi çövürsün, bu biri əliynən yapışıp pələngin dalı qıçınnan və ö bürü əliynən yapışsın bir qıçınnan, pələngi aradan cırıb, hər şaqqasın atdı bir tərəfə.

Cahangir özün yetirdi Muxtarın başına, gördü qan götürübdü bunu: "Vay qardaş, sən ölüncə, kaş mən öleydim". Əl elədi xəncərə ki, əgər sən ölsən mən özümü aradan aparram. Qönçə üz dolandırdı:

– Şahzadə, mən özüm həkimlih dərsi oxumuşam, buna bir şey olmuyubdu dərisi cırılıbdı. Sən bunun başı üstündə oturasan, mən gedib bir həkim gətirrəm. Bu yaxınlıqda bir qəsəbə var, orda bir həkim vardı, sən başı üstündə dur, qoyma çox tərpəşsın, mən gedərəm həkim gətirrəm.

Qız minb atı gessin həkim gətisin. Cahangir oturub başının üstündə, götürüb bu dillərinən, görəh nəmənə deyir, ərz eliyim əyləşənlar sağlığına.

Cahangir dedi:

Əlvan-əlvan qan tökülür sənnən,
Sən ölüncə, qardaş kaş mən öləydim.
Kimsə yoxdu, xəbər bilə halınnan,
Sən ölüncə, qadaş, kaş mən öləydim.

Qan eylər,
Divan eylər, qan eylər,
Dost dostu bu halda görsə,
Ya ölər, ya qanına qan eylər.

Anan yoxdu, kəsə başın üstünü,
Bacın yoxdu verə sənə dəstini.
Ağlar qoyma mən benava dostunu,
Sən ölüncə, qardaş, kaş mən öləydim.

Məzələndi,
Mey içər məzələndi.
Vəfali dostumu gördüm,
Ürəyim təzələndi.

Cahangiri gəl eyləmə beçarə
Təbib yoxdu, məlhəm sala yarayə.
İkimizi qoyalar bir məzarə,
Sən ölüncə, qadaş, kaş mən öləydim.

Qazan ağlar,
Ot yanar, qazan ağlar,
Bir iyit qurbətdə ölsə,
Qəbrini qazan ağlar.

Qönçələb gedib həkimi tapıb və cərəyanı mətrəh eliyib. Həkim mərkəbə səvar olsun, qızınan bahəm həkimin bir dana nökəri var idi, dedi biz gedirik, sən dalıdan ərəbəni gətir. Elə ki həkim yetişdi, bunun baxdı ora-burasına gördü, xeyir, heş yerinə əsib yetirmiyibdi, fəqət qarnın cırıb pələh, qarnına bəxiya vurub, məlhəm salıb, yarasın bağlıyıb, o yan tərəfdən bunun nökəri yetirib, daşqanı gətirib, içinə saman zad töhmüşdi. Muxtarı götürüblər qoyublar daşqanın içinə, bərabər geddilər həkimin evinə. Cahangir üz dolandırdı:

– Həkim, bax nə qədər pul desən verəcağam sənə, bunu yaxcı eliyəsən. Həkim üz dolandırdı:

– Mən nə qədər canımda can var, buna yaxcı təbabətiy eliyəcağam və toxtatacağam. Sən də neçə gün qalsan, gözümün üstündə yerin var.

Dedi:

– Mən eliyə bülmərəm burda qalam, getməliyəm, əmma hər moqe Muxtar toxtadı, eliyə bülərsən yolluyasan gələ mənim dalımca.

Dedi:

– Oğul, niyə qala bülməssən?

Dedi, qulağ as deyim da niyə qala bülmərəm. Cahangir götürüb bu dillərinən görəh nə deyir?

Cahangir dedi:

Ayrılığa heş kimsə dözə bilməz,
Gərəh gedəm, burda qala bülmərəm.
Dərdü qəmi heş münşi yaza bülməz,
Gərəh gedəm, burda qala bülmərəm.

Mən aşıq, Ərzuruma,
Bu yollar gedər Ərzuruma,
Dəvəsi ölmüş ərəbəm,
Dözərəm hər zülüma.

Qəza işi məni salıb çöllərə,
Didəm yaşı axıb dönüb sellərə.
Atam intizardı, baxar yollara,
Gərəh gedəm, burda qala bülmərəm.

Mən aşıx, Ordubada,
Bu yollar gedər Ordubada.
O qoşuna sərkərdə gərək,
Verməsin ordu bada.
Cahangirəm, ərzim yetdi tamama,
Yar qoynunda bəsləyibdi şəmamə.
Ərsə təng olubdu, gedirəm Şamə,
Gərəh gedəm, burda qala bülmərəm.

Mən aşıq mərd ətasi,
Doldur ver mərdə tası.
Namərd gəlib mərd olmaz,
Olmasa mərd atası.

Muxtar yaralı qalsın həkimin yanında, Cahangir öz əyalını da götürür gessin Şamə ki, dədəsin zindannan çıxatsın. Döhdürdən rəhnumalık istədi. Bəli, yolun-yündəmin nişan verib, Cahangir öz əyalını götürüb, ikisi yol gəlməyə məşğül oldular. Az gəliblər, çox gəliblər, gəlib yetiriblər Sərhəngabadə. Sərhəngabadın kənarində bir kərvənsarə var idi, Cahangir öz əyaliynən gəldi orda düşdü.

Əmma eşid dastani Şamidən, Sərhəngi Şamidən. Sərhəngi Şami vəzirləriynən yeyirdilər, içirdilar, mey məclisiydi, ərz eləmişəm, Kamil vəzir üz dolandırdı:

Axı bu olan iş dəyil ki, sən on səgiz ildi qız gətimisən, əlın əlinə dəymiyibdi, Simizər Şikariynən bacı-qardaş dəyil. Simizər Şikarinin sövgülüsüdü, sənə hilə gəlillər,

Çuğul çuğulluğun elədi, Allah çuğulun birin iki eləsin, ikisin üç eləsin, üçün də yer üzünnən puç eləsin. Kamil vəzir bunun dabanların çəhdi, qurdu ötürdü meydanə. Durub ayağa, gəlib yetirdi hərəmxaniyə. Varid olsun hərəmxaniyə, o duvar sənin, bu duvar mənim. Qızlar qorxusunnan hərəsi qaşdı girdi bir bucağa. Nazikbədən yeridi qabağa:

– Ata can, nə xəta baş verib bizdən? Niyə bu hələtlə gəlmisən?

Dedi:

– Mən səni özümə dos bilmirəm, mənim dünyada sənnən böyük düşmənim yoxdu.

Simizər girdi bir otağa, üzüyünün qaşı zəhridi, istir onu işsin özünü aradan aparsın. Nazikbədən dedi:

– Dədəcan, sən bir iki dəqiqə suküt elə, mən gedim qızı danışdırım görüm.

Varid oldu otağa, gördü Simizər istir zəhri işsin. Dedi: "Nazənin, nə iş görüsən?"

On gün bunnan möhlət aldı. Sərhəngi Şami on gün möhlət alıb geyitsin. Kamil vəzir dəstür verdi, bir iddə qoşun hazır olsun, bular çıxdılar şəhrin kənarində səyahətə.

## USTADNAMƏ

Bu dünyada üç şey başa bəladı,
Yaman oğul, yaman arvad, yaman at.
İstəyirsən qurtarasan əlinnən,
Birin boşla, birin boşa, birin sat.

Ov keşti bərədən, ata bilməzsən,
Uşdu getdi əldən, tuta bilməzsən,
Yerisən, yürüsən, çata bilməzsən,
Görürsən ki, bəxtin yatıb, sən də yat.

Qoyma Ələsgəri məhrumi didar,
Tərəhüm et mənə bir busə, ey yar.
İsmin üç hərfdi, eylərəm aşkar,
Biri kafdı, biri lamdı, biri sat.

Eşid dastani Cahangirdən. Karvansəranın qabağında bir çay var idi. Bunun dərin gölməkləri var idi ki, yuvunmağ, üzmək olardı. Cahangir çayın içinə düşsün ta yuvunmağa. Qönçələb də soyundu girdi suya, elə bil ördəyinən qaz kimi, min işvəylə nazınan.

Sərhəngi Şaminin atdıları bir ip uzadıb, attar gəlib onun üstünnən atlıyırdılar. Bunun baş pəhlivani atıynan addıyanda bu düşdü və at qoydu qaşdı. At çayın yaxasıynan, pəhlivan düşdü bunun dalısıcan. At Cahangirinən Qönçələbin libaslarının yanına qaşdi, pəhlivan dalısıcan gələndə gördü iki dəs libas var, üstündə qızıldan, gümüşdən kəmər. Bu atı ötürdü, dedi qoy görüm buların sahibi hardadı? Gəldi yetirdi gördü bir oğlandı, bir qız.

Cahangir dedi:

– Kimsən?

– Mən Sərhəngi Şaminin pəhlivanlarınnanam. Mən onu, Qönçələbi Sərhəngi Şamiyə aparacağam.

Götürüb bu dillərinən görəh bu dilavərə nə diyəcəh. Mən də ərz eliyim dusların sağlığına.

Cahangir dedi:

Ey dilavər, üzün döndər o yana,
Şikar almaq olmaz tərlan əlinnən.
Bais olmagınan bu çay qana boyana,
Şikar almaq olmaz tərlan əlinnən.

Mən sənnən eyliyəm bir iltiması,
Elə bil ölmüşəm, tutan yox yası.
Sudan çıxax, giyax libası,
Keçərəm yolunda başınan, candan.

Cahangir sözlərin diyər mərdana,
Sənin bu sözlərin məni gətirdi cana.
Canın gedər, qanın olar əfsana,
Şikar almaq olmaz aslan əlinnən.

Sən istisən ala qarqa olasan, bir tərlanın əlinnən şikar alasan? Suyun kənarinə çıxanda Cahangirin əli də yaşıdı, bir dana silli elə vura bildi ki, bunun üzünnən, sillinin yerinnən üzü cırıldı, qan gəldi. Pəhlivan yıxıldı yerə. Cahangir əlin atdı bir çənəsinə, bir başına, pəhlivanın boynun döndərdi gətirdi qoydu çiyninə.

Düşə-düşə yeriyir, yanı-yanı gedir. Yıxıldı yerə, dedi, qurban, canım indicə çıxar. Bu, təbib gəlincə cəhənnəmə vəsil oldu, hamı əskərlərin içində.

Sərhəngi Şami üz dolandırdı: "Kamil vəzir, o cavanı gör dilə tutub gətirə bülərsən bura. Ta mən onnan bir neçə kəlmə söz soruşam?" Bəli, Kamil vəzir özü durub ayağa. Bular da libasların geysinlər, gessinlər karvansarada mənzllərində otursunlar. Dedi:

– Mən Sərhəngi Şaminin vəziriyəm, o buranın padşahıdı, istir səninlə danışsın, söz soruşsun.

Dedi:

– Qurban, təqaza eliyirəm, siz təşrif aparın, mən də sizin dalıca gəlim, mənim gözüm üstə.

Kamil vəzir gedənnən sora Cahangir üz dolandırdı:

– Nazənin, pəs Sərhəngi Şami ki diyillar, bəs budu da, niyə mənim dədəmi on səggiz ildi salıb zindana?

Dedi:

– Cahangir, quş qanatınan uçar, göydə Allah, yerdə mən sənin ümidivə gəlmişəm, gedib çox yubanmagınan ha! Özün gedisən, məni kimə tapşırısan?

Cahangir dedi:

– Nazənin, səni əvvəl Allaha tapşıracağam, dövümən Kürrə burdadı. Quş quşluğuynan bura qanat sala bülməz.

"Ey Kürrə! Mən gedirəm, sən kimsənin bura gəlməsinə icazə verme." - deyip xudafizlih eliyip getdi. Sərhəngi Şami gördü bir nəfər oğlandı gəlir. Peşvaz eliyiblər bunu, gəlib oturdu, mey piyaləsi verdilər. Sərhəngi Şami üz dolandırdı:

– Oğlum, de görüm mənim bu pəhlivanımı niyə vurdun öldürdün?

Dedi:

– Qurban, mən onu öldürməmişəm, mənim əyalimi istirdi əlimnən alsın ki, aparram Sərhəngi Şamiyə, mən də bir dana silli vurmuşam, silli bərk tutubdu, ölübdü.

Sərhəngi Şami dedi:

– Olsun bala, min dana o cürlar sənə qurban olsun. İstiyir Qönçələbi onun əlindən alsın.

Əmma Şamin gözəllərin quyluyasan külə, çıxardasan, genə ö bürü gözəlləri bozar, Qönçələb nə qədər gözəl olsa da genə Nazikbədənə yetməz.

Sərhəngi Şami Kamil vəzirə dedi:

– De görüm, sən bu cavannən nəmənə anlıyısan?

Dedi, qulağ as deyim da namənə anlıyıram. Kamil vəzir götürüb bu dillərinən görək nə deyir? Buları Şam diliynən diyir ki, Cahangir anlamasın.

Kamil Vəzir Sərhəngi Şamiyə dedi:

Sənə bir söz deyim mən bu cavannan,
Qılış çəhsə, yıxar dağınan daşı.
Keçmək olmaz şirin cannan,
Qılış çəhsə, yıxar dağınan daşı.

Mənim sözüm heç olmaz əfsanə,
Bu cavanı görənnən bağrım dönüb qanə.
O şəxsi ki, sən salmısan zindanə,
Ya oğludu, ya da onun qardaşı.

Kamil diyər, Cahangir canınan keçər,
Düşmənilən dostun bağçasın seçər.
Kəlləvi kəsə eylər, onda mey içər,
Ya oğludu, ya da onun qardaşı.

Sərhəngi Şami vəzirin sözlərin qəbül eləmədi. Üz dolandırdı:

– Cahangir, mən səni özümə oğulluğa götürəcağam, çün mənim ərşəd oğlum yoxdu, (istir bu qızı bunun əlinnən alsın) səni özümə vəliəhd eliyəcağam Şamidə, əgər o qızı on günlüğə verəsən mənə.

Cahangir yumuruğun düğünnədi birin qoysun bunun alnınnan, sonra fikirləşdi ki, sən gərəh burda səyasət işlədəsən ki, əlin yetişsin dədəvə. Səbr elədi. Sərhəngi Şami dedi:

– Mən on səggiz ildi bir qız gətirmişəm, mənə əl vermir, mən onun qərdəşin tutmuşam. Əgər sən o qızı mənə versən, mən onnan şərab işsəm, bəlkə Simizər rəyə gələ, çün günü, gününü görsə götürməz. Bunu görəndə bəlkə mənə əl verə.

Cahangir qəbul elədi. Dədəsinə xətir ki, bəlkə dədəsinin üzün görə.) Tamam vəzirlər imzaladılar ki, Cahangir oldu Şamidə vəliəhd.

Sərhəngi Şami iki nəfər xacəsərasınnan yolladı ki, gessinlər Qönçələbi gətirsinlər.

Cahangir Qönçələbə dedi:

Sənə qurban olum, ay gözəl banu,
Cahangirin sənə işi düşübdü.
Yolunda qoyaram başınan canı,
Cahangirin sənə işi düşübdü.

Yar yara qurmaz heş vədə hilə,
Yar yarın gərək göz yaşın silə.
Olursan dədəmə burda vəsilə,
Cahangirin sənə işi düşübdü.

Cahangirəm, sənə sır sözüm deyim,
Verdiyim vədədən mən necə dönüm?
İstirəm vəliəhd libasın geyim,
Qəza vurub işim belə düşübdü.

Dedi:

– Cahangir, mənim nəmüsum sənə yetişər. Dədə-babadan qalma sözdü: kişi qızı olmayasan, kişi arvadı olasan.

Qönçələb dedi:

– Məni dədəm verib sənə, kəbinli əyəlinəm, özün saxlısan saxla, itin ağzına atsan at. Məsləhat sahibisən, özün bilərsən, mənim qeyinatam olur Şikari, sən ona nəcat ver. Mən ölsəm də ölmüşəm.

Cahangir dedi:

– Sən eliyə bülmüsən özüvi on gün orda saxlaştırasan? Mən bülürəm neyləyəcağam.

Bular durdular, hər ikisi mərkəblərnə səvar oldular, karvansaradən çıxdılar, gəldilər hara? Sərhəngi Şaminin qoşununun içinə. Sərhəngi Şaminin gözü sataşdı Kürriyə. Gördü, oğlan, bu bir mərkəbdi ki, yerdə, göydə durmur. Dedi:

– Bura bax görüm, oğul, sən bu mərkəbi hardan almısan?

Dedi:

– Qurban, mən bu mərkəbi dəryadən tutmuşam.

– Necə ki, dəryadən tutmuşam?

Cahangir dedi:

– Mən bir tacir oğluyam, mənim dədəm tacirdi, sovdəgərdi. Bir gün sərvətimiz dəryadə qərq olmuşdu, mən qaldım bir taxta pərənin üstündə, yel vurdu, gün vurdu, çıxdım kənarə, bunu da tutmuşam.

– Oğul, necə sənin dədən qərq oldu dəryadə?

Dedi:

– Qurban, qulağ as deyim da.

Cahangir şəmşiri saz əvəzinə döndərib sinəsinə görək Sərhəngi Şamiyə nə cur deyir dədəsi qərq oldu? Mən də ərz eliyim sizlərə:

Cahangir Sərhəngi Şamiyə dedi:

Gəl sənə söyləyim, ədalət şahım,
Mənim atam qərq olubdu dəryadə,.
Qaldım mən də taxta parə üstündə,
Pənah gətirmişəm indi burayə.

Atamın bədənin balıxlar utdu,
Namərt fələh məni gözünnən atdı.
İzzətim əlimnən onilən getdi,
Rəhm edəsən indi mən binavayə.

Göy üstünnən qaraları bağlıyam,
Öz dərdimi özüm diyəm, ağlıyam.

Cahangirəm, Xacə Səid oğluyam,
Tacir idi, qərq olubdu dəryayə.

Sözün tamama yetirsin, dovrədən hammı təsdiq elədi ki, qurban, eşidmişik Xacə Səid adında birisi mətainan dəryaya qərq olubdu.

Əmma eşid dastani Qönçələbdən. Qönçələbi gətdilər ötürdülər hərəmxaniyə, qızların yanına. Simizərdı, Nazikbədəndi, Mahızəmin dayədi, Pərnaz xanımdı ki, Simizərin dayələrinnən biriydi.

– Deyin görüm burda Simizər kimdi?

Simizər, o yannan üz dolandırdı:

– Qarəbəxt Simizər, nazənin mənəm, sözün nəmənədi mənə?

Dedi:

– Xanım, qulağıva bir sözüm var.

Nazikbədən yeridi yaxına, dedi:

– Nazənin, bura şah məclisidi, söz aşikara olar. Bizi ki görüsən, dördümüz otumuşux burada. Bizim əsrarımız, sırrımız, qanımız birdi. Hər nəmənə desən aşikarə de.

Dedi indi ki, o curdu, bir neçə kəlmə sözüm var. Qız götürüb bu dillərinən görək nə deyir? Mən də ərz eliyim sizlərin sağlığına.

Qönçələb dedi:

Sizə qurban olum, yığılan qızlar,
Ürəyimdə söz var, bu diyarə gəlmişəm.
Gecə-gündüz qovrulur, yaram sızlar,
Ürəyimdə söz var, bu diyarə gəlmişəm.

Şeyda bülbül məyil olar bir gülə,
Göyül bağlamışam bir şirin dilə.
Razı olmayın, əlimi verəm ayrı ələ,
Mətləbim var, bu diyarə gəlmişəm.

Əvvəl əziz idim, indi zəliləm,
Çarəsiz dərtlərə, vallah, dəliləm.
Şir Şikariyə ərşəd gəlinəm,
Bir kənizəm, Simizarə gəlmişəm.

Həyət bağçasında açan bir güləm,
Cahangirə istəkli sevgiliyəm.
Şahı Şuca qızıyam, Qönçələbəm,
Mətləbim var, bu diyarə gəlmişəm.

Sərhəngi Şami gəldi hərəmxanaya. Nazikbədən durdu kəsdi dədəsinin bərabərin:

– Ata can, məgər qərarımız dəyildi, on günnən sora gələsən?

Dedi:

– Qızım, mən Simizərdən ötürü gəlməmişəm. O gözəli ki sahibi bu gün bəxş eləyib mənə, gəlmişəm onunnan yiyəm-içəm, diyəm, güləm, bəlkə Simizər baxıb narahand ola.

Nazikbədən dedi:

– Sən get, on gün rahat otur, mən buları danışdırım, buların arzuları var, qızdılar, toy eləmiyiblər.

Eşid dastani Cahangirdən. Gündüzlar yatır, gecələr gedir zindanə baxır. Sərhəngi Şaminin on dənə zindani varıdı, bu əlli min müsəlmanı ki tutmuşdu, Şikariynən Şirzadı Tigzəninən buları beş min, altı min, təqsim eliyib zindanə. Zindanların, əlbəttə, şumərələri var, əvəliminci zindana bir gecə getdi. Çün elən olunub vəliəhdi, gördü burda beş-altı min nəfər adam var, buların hər birinin diqqətinən baxdı üzünə. Gördü, xeyir, buların heş birinin işi dəyil ki, Cahangirə dədə olsun. Dönsün gəlsin, gündüz istirahətliy eliyib gecə getdi ikinci zindanə. Ö bürü gün ö bürü zindanə, ö bürü gün ö bürü zindanə, doqquzumuncu zindanə doqquzumuncu gün gəldi. Bir pəhlivan var idi, müsəlmanlarınan tutulanların arasında, buna yetirəndə tutdu bunun qıçınnan. Ey dilavər, şahzadə, de görüm sən nəmənə axtarısan axı? Bir qədər diqqətinən onun bunun-üzünə baxmağa. Dedi, cavan, qulağ as deyim da nəmənə axtarıram? Cahangir götürüb bu dillərinən görək nə deyir?

Cahangir dedi:

Sizə deyim zindanilər,
Gecə-gündüz yatammıram.
Yuxu gəlmir gözlərimə,
Gecə-gündüz yatammıram.

Diyə bülmərəm sözümü,
Ağlar qoyubdu gözümü.
Görə bülmüram üzünü,
Axtardığımı tapammıram.

Cahangirəm, eylərəm fəryad,
Dağlar qoynun çapdı Fərhad.
Sərzəniş eylər qohum, yad,
Axtardığımı tapammıram.

Cahangir onumuncu zindanda ki, Şikari və Şirzadı Tigzən qaldığı yeridi, ora gedəcaxdı, böyüh zindan hələ qalır, gəldi gördü, ö bürü zindanlarda ki əlli nəfər, yüz nəfər qəravul qoymuşdular, burda min nəfər keşik verir. Bəli, şeypur vurdu, Cahangir yetişdi, dedi:

– Mən vəliəhd Şaməm. Zindanları bazdid eləmişəm, buranı da bazdid eliyəcağam.

Üz dolandırdılar:

– Qurban, əgər Sərhəngi Şami özü gələ, biz eliyə bülmərix zindanın qapısın açax. Bura əlli beş dovlətdən gərək hökm ola, onnan sora bu zindanın qapısı açıla.

Bəli, gediblər rəisi zindanə xəbər versinlər. Rəisi zindan üz dolandırdı:

– Şahzadə, əlli beş dovlətdən icazə olmasa, eliyə bülmərik qapını açax. Bura masəvayə ö bürü zindanlardı.

– Bu qədər adam niyə burda keşih verir? Burda kim vardı ki?

Dedi:

– Burda iki nəfər var, buların biri Şikaridi, biri də Şirzadı Tigzəndi.

– Bu iki nəfərdən ötürü bular keşih verir?

Dedi:

– Beqeyrəz bir nəfər ki, o da Nazıkbədən bu qəza gətirər.

Cahangir dedi:

– Mən istirəm bu zindani bazdid eliyəm.

Dedi:

– Mən icazə verə bülmərəm.

Rəisi zindan dəstür verdi, bunu dovrələdilər. Cahangir dedi, qulağ as, sənə sözüm vardı. Cahangir götürdü görək rəisi-zindanə nə dedi? Mən ərz eliyim, sizlər sağ olun:

Cahangir dedi:

Gəl sənə söyləyim, rəisi-zindan,
Gərəkdir gedəm bu zindanə mən.
Mənim canım bu yolda ola qurban,
Gərəkdir gedəm bu zindanə mən.

Deyin görüm, nə durmusuz amadə?
Şahlar şahı özü yetişsin imdadə.
Bərəbərəm bu ləşkərə davadə,
Gərəkdir gedəm bu zindanə mən.

Dolu-dolu peymanəni doldurram,
Öz gücümü mən də sənə bildirrəm,
Pis dərdinən bil ki, səni öldürrəm.
Bu şəhri döndərrəm qannan ümmanə.

Rəisi-zindan əl elədi qəbzeyi şəmşirə, elə necə ki, qaldırmağ istədi, Cahangir macal vermədi. Şəmşir bunu ikiyə böldü, bi şəqqəsi o yana, bir şəqqəsi bu yana düşdü. Rəisi-zindani cəhənnəmə vəsil elədi, onnan sora bu min nəfəri qırıb qurtarır. Yetirir zindanın qapısına, gücün vurur, açılan dəyil ki. Bir neçə nəfər qaçıb Sərhəngi Şamiyə xəbər verdilər. Sərhəngi Şami verdi tamam qoşuna bidər-bəş şeypurunu vurdular. Şamın əhli yerinnən oynadı, töküldülar gəldilər Cahangirin üstünə. Cahangir bu küçədən vurur, ö bürü küçədən çıxır. Hər kim qabağına gəlir öldürür, rəhm eləmir. Cahangirə bir neçə yerdən yara yetişdi. Cahangir gördü bu yara bunu işdən salacax, bəng vurdu Kürrəyə. Kürrə Cahangirin səsin alıb, bəzi movqe qaşmax iyidlihdi, mərtlihdi. Cahangir kəməndi atıp qalxdı divarın üstünə, dübarə bir nərə vurdu. Kürrə özün orda amadə elədi, atladı Kürrənin belinə. Kürrə bunu aradan çıxartdı. Getdi gözdən itdi.

Kürrə yetişdi bir bulağın başına, Cahangirin çün çox qanı getmişdi, biixtiyar Kürrənin üstünnən yıxıldı yerə. Kürrə gördü

bunun başı getdi suya sarı. Kürrə yapışıb dişiynən bunu çəhdi kənarə, durdu başının üstündə keşih verdi.

Sərhəngi Şamı dəstür verdi. Şikariynən Şirzadı Tigzəni dəstür verdi, gətirdilər meydanda dar ağaşlarının ayağına. Elə ki gətirdilər dar ağaşların dibinə, bu xəbərdən Nazikbədən xəbərdər oldu. Bildi ki, dədəsi döhdürü istiyəcax. Özün yetirdi döhtürün yanına, bir tabax da qızıl gətdi. Dedi: "Gör neynisən, ölüm fitvəsı verme bulara". Qədim küffər əhlində rəsmiyəti buydu, bir nəfər məriz olsaydı, müsəlman qanınan alardılar, verərdilar, o məriz içərdi, məriz şəfa tapardı. İyirmi dört səat buları saxlaşdır. Döhtür durub getdi, buları muayənə elədi, buları ki zindannan çıxadıblar eşiyə, dedi, çün bular on səggiz ildi hava yemiyiblar, buların qanı xarab olubdu. Bular gərəh abü-hava yiyəlar, ta sabah mən buları muayənə eliyəm.

## USTADNAMƏ

Arif olan, gəlin sizə söyləyim,
İyit sözü mərd-mərdana yaxşıdır.
Kişi gərək dediyinnən dönməsin,
Biilqardan bir heyvan da yaxşıdır.

Qəlbi düz olanın evi hac olur,
Qonşuya kəc baxan, özü ac olur.
İkiarvadlılıq mardan acı olur,
Tez gedirsən bir canana yaxşıdır.

Ələsgər kevsərdən badə içəndə,
Gəşt eliyib, mərd namərdi seçəndə.
Güzarın xoş olub, gün xoş geçəndə,
Ağ otaqdan, tövləxana yaxşıdı.

O tərəfdən Muxtarın yaraları sağalıb mərkəbinə səvar olub, gəlir Şamə sarı. Bir qədr qalırdı bulağın başına, gördü bir mərkəb dayanıbdı. Bir az yeriyəndə gördü bu elə bil Cahangirin atıdı. Kürrə bunu tanımadı, qıyha çəkip yügürdü bunun üstünə, Muxtar bang vurdu, adıynan səslədi. Kürrə dayansın və qeyitdi

gətirdi bunu Cahangirin başı üstə. Muxtar yetirdi gördü, Cahangir neçə yerdən yaralı, bihüş aləmində bulağın başında yıxılıb. Cahangiri götürüb qoyub mərkəbin üstünə. Götürüb qeyitdi təzədən döhtürün mənzilinə. Dohdür buna təbabətiy eliyib, yaralarına məlhəm salıb, Cahangiri hüşə gətirdi. Cahangir gözlərin açanda gördü başın alıb Muxtar dizinin üstünə.

Əvvəldə ki ərz eləmişəm, Şikariyi quyudan çıxatmışdı, Keyvan sovdagər həmün gün gəlib yetirib Şamə, mərkəbini indirib hər kəsi öz evinə göndərib, özü də gəldi evinə gördü, arvad pərişandı. Gördü arvad ağlıyır: “Övrət, sənə nolub? Niyə ağlıyasan? De görüm, mənim ölüm xəbərimi kim verib sizə? Mənim evimdə təziyadi, yasdı, məgər nolub ki, siz ağlıyısız?”. Övrət ağlıya-ağlıya o pərişan olmuş zülflərdən bir dəstə tel ayırıb dedi:

Sövdagər, nigəran gəl qalma bizdən,
Yaxcı gəldin bu diyarə, deyillər,
Sənə ərz eliyim söz düşün sözdən,
Dərdim gəlməz heç şüməra, deyillər.

Mən aşıx, dərdə kərəm,
Dərdliyəm dərd əkərəm.
Qoşaram dərd cütünü,
Özümə dərd əkərəm.

Hər sözü hər insanə demək olmaz,
Yəqin bilsən hər təam yemək olmaz.
Bu işə çarə eyləmək olmaz,
İki cavanı çəkillər darı deyillər.

Mən aşıqəm, gülə naz,
Bülbül eylər gülə naz.
Zəmanə belə gessə,
Ağlayan çox, gülən az.

Keyvan sovdagər övrətinin cavabında dedi:

Qılıncı ver, mən belimə bağlıyım,
Gedim bir meydanı dolanım, gəlim.

Yolu yoxdu, mən sənilə ağlıyım,
Gedim bir meydanı dolanım, gəlim.

Qazan ağlar,
Ot yanar, qazan ağlar.
Bir iyit qurbətdə ölsə,
Qəbrini qazan ağlar.

Yaxşılığı, yamanlığı dünyada qoyaram,
Əl salıb düşmənin ürəyini oyaram.
Başı, canı mən bu yolda qoyaram,
Gedim doğrusun, yalanın görüm gəlim.

Qan eylər,
Divan eylər, qan eylər.
Dost məni bu halda görsə,
Ya ölər, ya qanıma qan eylər.

Heş kəs keçməyib namusu arından,
Ağlıyıb sızlama ahü zarınan.
Mənim kimi sən geş bu oğlanlarından,
Bilim bu işin doğru, yalanın, gəlim.

Oyan dağlar,
Al qana boyan, dağlar,
Bu yan zülmətxanadı,
Necədi o yan, dağlar?

Sovdəgər durub ayağa, şəbrəng libasın geyib əyninə, evdən çıxdı. De burda, de orda, gəldi meydanın vəziyatinnən baxəbər oldu. Bəli, gördü dört nəfər dilavər qoyublar buların dovrəsində, dar ağacında iki nəfər cavandı, bağlıyıblar. Qeyidib gəldi evə, cərəyanı övrətinə şərh verdi. Dedi: "Övrət, sən eliyə bilərsən ki, qala qapısınnan eşihdə altı dana at hazır eliyəsən? Ta mən oğlanlarınan gedim görüm neynəməliyəm". Övrət ani dəqiqədə durub ayağa, eyni elə bil bir dana dilavər, ayaxdan geyib başdan qıfıllandı, altı dana at yəhərliyib çıxatdı qala qapısınnan eşiyə. O amadə olsun. Əmma eşid sovdəgərdən və oğlannarınan, hazrlandılar, yola düşdülər.

Eşid dastani Şəbru Əyyardan. Şəbru Əyyar kimdi? Sərhəngi Şaminin öz əyyarıdı. Aləmi ruyadə yatmışdı, gördü Xızır peyğəmbər gəldi bunun ruyasina. Səslədilar. Dur ayağa görüm. Sora barmağıynan bir bağı göstərdi. Dedi: "De görüm, namənə görüsən?". Dedi: "Bir bağ görürəm, gül-gülə salam verir, sular gülabı axır". Sonra bir od göstərdi. Dedi: "Əgər dönüb müsəlman olsan yerin o bağdı, əgər Sərhəngi Şaminin yanında qalsan yerin o odun içidi". Kəlmeyi-şəhadətin buna deditdirir. Deyir: "Dur ayağa, Şikariynən, Şirzadı Tigzəni Saleh sovdəgər və oğulları açıblar, vəli gücləri çatmır aparsınlar". Ona "İsmi-əzəm"i də örgətdilər, göz önünnən qayib oldular.

Şəbru Əyyar yuxudan ayılsın, övrətinin yanına getdi, gördü o da o yuxudan görüb, dedi: "Mən oldum müsəlman", dedi, – "elə mən də müsəlman oldum". Dedi, onda mən gedirəm meydanə, Şikariynən, Şirzadı Tigzəni, Saleh sovdagəri oğlanlarıynan dardan açıblar, əmma apara bülmürlər.

Şəbru Əyyar gəldi buların yanına ki, gəlmişəm sizə köməhliy eliyəm. Bu buların ikisin də bağlyıb bir-birinə, "İsmi-əzəm"i oxuyub, buları götürdü. Buları qala qapısınnan çıxatdı eşiyə, Saleh sovdagər gördü övrət altı dana atı orda saxlıyıb. Dadaşım, aslanın erkək, dişisi olmaz. Bular mərkəbləri miniblər, Şəbru Əyyarın dalısıcan gedillər. Apardı buları bir dağın ətəyində bir məqarə var idi, o məqarədə qoydu yerə, ammə bular bihüşdular.

Elə ki səhər olsun, xəbər yetirildi Sərhəngi Şamiyə. Sərhəngi Şami yetdi dəfə bihüş oldu, hələ gətdilər, ikiəlli vurdu başına: "Day denən mənim evim yıxılıb. Şikari əgər bir dəfə də çıxsa mərkəbi-Əjdaxarın üstünə sagirdən kəbirə rəhm eyləməz".

Sərhəngi Şami götürdü hər tərəfə namə yolladı ki, bilin, Şikariynən Şirzadı Tigzən mənim zindanimnən qaçıb. Yetdi iqlimə namə yolladı ki, tədərüki qoşun görün. Naməni yazıb hər tərəfə yolladı. Hər tərəfə adam salıb ki, görüm bular hara gedibłər? Buları tapammadılar. Belə ehsəs elədilər ki, Cahangir gəlib buları aparıb.

Bu xəbər yetişdi Nazikbədənə, sevincək getdi qızların yanına. Sordular: "Sənə bu şadlıx hardan yetirib?". Dedi, qulağ asın deyim da. Götürüb bu dillərinən görək Nazikbədən nə diyəcək? Mən də ərz eliyim sizə:

Nazikbədən dedi:

Ürək sırrım, həm dərd münislərim,
Bizə bir də dədəm əl tapa bilməz.
Bu gün sizə bir şad xəbər söyləyim,
Bizə bir də dədəm əl tapa bilməz.

Qəlbim çiçək açıb, gözəl bir bağdı,
Düşman ürəyində böyük bir dağdı.
Şikari ölməyib, hələ də sağdı,
Bizə bir də dədəm əl tapa bilməz.

Cahangirə Allah bir nəzər salıb,
Gəlib Şikarini dardan aparıb.
Nazikbədən qəmli könlü şad olub,
Bizə bir də dədəm əl tapa bilməz.

Cahangir Muxtarın yanında ona təbabətliy eləsin, Keyvan sovdagər və Şəbru Əyyar Şikariynən Şirzadı Tigzənin yanında olsun, buları yadında saxla.

Sizə ərz eliyim, kimdən? Cahandardan. Ərəblər padşahının qızı ki, Xürşid banunu almışdı, onnan bir dana oğlan olub, benami Cahandar. Bir gün iki dana bəbir tutup gətirib oynadırdı. Anası baxırdı, əvvəl güldü, sora ağladı. Anası ağlıyanda gözü sataşdı ona. Cahandar gəldi onun yanına:

– Ana, başıva dolannam, de görüm niyə ağlıyısan? Sənə kim nə deyib? Gərəh mənə deyəsən ağlamağıvın bəisi nəmənədi?

Dedi:

– Oğlum, dədən, baban da sənin kimi şir, pələng oynadardı, ona ağladım, güldüm.

Dedi:

– Ana, mənim dədəm, babam kim ola?

Anasının ürəyi dərdə gəldi, dedi:

– Oğul, qulağ as deyim sənin atan kimdi. Nolubdu və hardadı? Əgər and içəsən ki, mən anannan ayrılmıyasan, diyərəm.

Dedi:

– Mən sənnən ayrılmaram, əmma de görüm mənim dədəm kimdi?

Dedi, oğul, gulağ as deyim da: Bu dillərinən görək nə diyəcək, ərz eliyim siz sağ olun:

Xürşid banu Cahandara dedi:

Sənə qurban olum, gül üzlü oğul,
Atan bağlayıbdı bərəni, bəndi.
Neçə ildi gedib düşüb girdabə,
Vurublar boynuna qəza kəməndi.

Məzələndi,
Mey içər məzələndi.
Vəfalı doslarımı gördüm,
Ürəyim təzələndi.

Dədən İskəndərdi getdi zülmətə,
Həsrət qalıb o da abi-həyata.
Bələd olmamısan hələ heyhatə,
Vurublar boynuna qəza kəməndi.

Dağlara qar düşübdü,
Gör nə hamar düşübdü.
Qəbrimi yadlar qazıb,
Nəhlətim dar düşübdü.

Xürşid banunu yaxşı tanısan,
Bəbir oynatmaxdan baş açammırsan.
Cahandarsan, Şikarinin oğlusan,
Sərhəngi Şaminın olubdu bəndi.

Qərə qayə,
Dolubdur qərə qayə.
Miskin qapıva gəlib,
Daşlara döyə-döyə.

Dedi:

– Sənin dədən Məlik Şahı Ruminin oğlu Şikaridi, Dara vilayatində Rumun şəhriyariyidi. Sərhəngi Şamiynən savaşdı, on yeddi min pəhlivanın öldürdü, axirdə onunan doslux saldı, tutdu

apardı. İndi on səggiz ildi onun zindanındadı. Sövgülüsü Simizərdə ki, Mənzər şahı Yəməninin qızıdı, o da zindanda. Dedi:

– Ana, mənə mərkəb təyin elə.

Dedi:

– Oğlum, sənin böyük qardaşın da gedib.

Dedi:

– Mən nə cür eliyim, gedim oların dalısıcan?

Dedi:

– Bu cəzirədə bir dana niqabdar var, əgər onu tutub yanıma gətirdin, mən billərəm ki, sən pəhlivan olmusan, onda mən billəm ki, pəhlivansan.

Cahandar dedi:

– Onda səhər gedərəm.

Səhər olub mərkəbinə səvar olub getdi cəzirəyə, o yana gedir, ay niqabdar, bu yana gedir, ay niqabdar. Bir azdan sora gördü bir səvari niqabdar niməyan oldu.

Cahandar niqabdara dedi:

– Nənəm deyib əgər səni tutub gətirsəm, pəhlivanlığın təsdığın verəcağam, gəlmişəm səni tutam aparam nənəmin yanına.

Niqabdar dedi:

– Elə də rahat olmaz.

Cahandar əl elədi neyziyə, bir iki neyzə havalə elədilər, Cahandarın qulağının dibinnən bir silli vurdu, bu mərkəbin üsdünnən düşdü yerə. Cahandarın sinəsinin üstünə, əl eliyir xəncərə bunun başın kəssin, xəncari atır o üzə deyir:

– Güzəşt elədim nənən Xürşid banuya, bir də bura gəlmə.

Cahandar durub ayağa bekef, bedamağ, gəlib. Nənəsi soruşdu:

– Oğul, hə nə cur oldu?

Dedi:

– Məni mərkəbin üstünnən yıxdı yerə.

Anası dedi:

– Oğul, əgər sən pəhlivan olsaydın, onu tutub gətirərdin.

Dedi:

– Ana, səhər gedib onu tutub gətirəcağam.

Anası dedi:

– Oğul, gedərsən, səni öldürər.

– Nə qədər dedi, qəbül eləmədi, sabah oldu, genə getdi,.

Niqabdar dedi:

– Dünən sənə demədim gəlmə?

Dedi:

– Ölsəm də, qalsam da gərəh səni tutam aparam veram nənəmə, nənəm bilə ki, mən pəhlivanəm.

Genə niqabdar Cahandarı atdan yıxdı yerə, bu genə çökdü sinəsinin üstünə, genə istədi başın kəssin. Dedi: "Dur ayağa, get, bir də bura gəlməginən". Cahandar getmədi evə, gəldi oturdu bir yerdə, başladı ağlamağa. O qədr ağladı, behal oldu, bihüş aləmində yıxılsın, bihüş aləmində kim gəldi bunun üstünə? Ərşin sutüni, yerin ləngəri, Həsən, Hüseyn ağası Murtəza Əli. Röyadə gördü xəncərin dəstəsin dayıyıb daşa, ucun da dayiyib ürəyinə, istir ağırlığın salsın, özün hələk eləsin. Görür ki, bir nəfər əlin atdı dalıdan, bunu çəhdi kənarə. Dönüb baxanda görür. Deyir:

– Oğlum, Cahandar, bəs niyə istisən özüvü həlak elyəsən?

Dedi:

– Bir niqabdar var, nənəm deyib tut gətir mənə, mən onu tuta bilmirəm. İstirəm özümü hələk eliyəm ki, bu niqabdar kimdi ki, mən bunun əlində aciz qalmışam?

Aləmi röyadə Həzrət kəmərin açdı, bağladı bunun belinə, əlin çəhdi bunun belinə. Dedi: "Oğlum, səni elədim özümə kəmərbəstə. Səni heş kim yıxa bilməz".

Ayıldı rüyadən, gördü bir kəmər var bunun belində. Durub ayağa, sevincək getdi evlərinə, dedi: Ana, başıma belə bir cərəyan gəlibdi. Sabahlarım gedib tutub gətirəcağam".

Şikari özü kəmərbəsteyi Xızır peyğəmbərdi, vəli Cahangir kəmərbesteyi Əliydi, onun belinə kəmər bağladı.

Sabahların mərkəbinə səvar oldu, getdi cəziriyə. Genə niqabdar nüməyən oldu, dedi:

– Sənə deməmişdim, gəlmə?

Dedi:

– O gördüyün gün dəyil. Bu gün tutub aparacağam.

Cahandar bunu çəkib atdan saldı yerə, dizin qatladı qoydu sinəsinin üstünə, əl elədi niqabi üzünnən götürdü, gördü öz anası Xürşid banudu. Dedi:

– Oğul, mən istirdim səni imtahan eliyəm, indi bildim ki, pəhlivansan. Dünən də dedim, sənin dədə-baban da kəmərbəsteyi ayimeydi.

Durublar, hər ikisi ana-bala gəliblər evə. Düşdü Yusif Ərəb və yeddi qardaşdılar bunun dayısıdı, Mənzər şahı Yəməni ki, qaçıbdı, Qeysi Rəmmahı-Ərəbdi, Zəlzələ Zəngidi, Firuz Əyyardıbular hammısı dönühlük eliyib Şikaridən. Cahandar qoşun yığdı ki, dədəsinin dalısıca gələ. Bu da burda qoşun tədəriki görsün Şikarini qurtara.

## USTADNAMƏ

Aşıq olub diyar-diyar gəzənin,
Əvvəl başda pürkəmali gərəkdir.
Oturub durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

Xalqə həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra.
El içində pak otura, pak dura,
Dalısında xoş sədası gərəkdi.

Danışdığı sözün qiymətin bilə,
Kəlməsində ləlü-göhər süzülə,
Məcazi danışa, məcazi gülə,
Tamam sözü müəmmali gərəkdi.

Arif ola, eyham ilə söz qana,
Naməhrəmnən şərm eliyə, utana.
Saət kimi meyli həqqə dolana,
Doğru qəlbi, doğru yolu gərəkdi.

Ələsgər həq sözün isbatın verə,
Əməlin mələklər yaza dəftərə.

Hər yanı istəsə baxanda görə,
Təriqətdə bu sövdalı gərəkdi.

Dəstani kimnən ərz eliyim? Şikarinin özünnən. Şikariyə on beş gün burda təbabətlik elədilər Şirzadı Tigzəyən, göydə Allah, yerdə Şəbru Əyyar.

Şikari Şirzadınan on beş günnən sora halə gəlib gördü yeddi nəfər durub ayağüstə. Saleh sovdagər və Keyvan sovdagər hənüz Şikariynən bir-birlərin tanımıllar. Şikari dedi:

– Bura bax görüm, siz kimsiz, bizə bu qədər xidmət eliyisiz?

Dedi:

– Olar mənim oğlanlarımdı, bu da Əyyardı. Səni biz dardan açıb gətirmişik. Sən müsəlmansan, biz də müsəlmanıx, bexətiri din səni dardan açıb gətimişik.

Keyvan sovdagər dedi:

– Oğlum, indi de görüm sizin yeriz-yurduz haradı? Biz sizi aparax ötürax vətənizə.

Dedi:

– Sovdagər, mənim yerim-yurdum bəlli dəyil.

Dedi:

– Oğlum, yersiz-yurdsuz adam olmaz.

Şikairnin ürəyi dərdə gəldi. Şikari götürüb bu dillərinən görək Saleh sovdagərə nə deyir, mən də ərz eliyim siz sağ olun. Şikari dedi:

Sənə qurban olum mən, ey pirmərt,
Nə yerim bəllidi, nə də məkanım.
Görüm heş mərdi yıxmasın namərd,
Nə yerim bəllidi, nə də məkanım.

Sənə diyəmmərəm, haralıyam mən,
Bir fələkzədə yaralıyam mən.
Qəmim çoxdu, başı bəlalıyam mən,
Nə yerim bəllidi, nə də məkanım.

Bir siyah tellinin mən maralıyam,
Xəbər alsan Rümun şəhriyarıyam.

Məlik Şahı Rumi oğlu şir Şikariyam,
Düşmən əlində qalıb Simizərtək cananım.

Mən aşıq, baş əymərəm,
Ağacı yaş əymərəm.
İlqarım vardı bu yerdə,
Düşmana baş əymərəm.

Bu kəlməni sovdagər eşidsin, bihüş oldu, ta bunu halə gətirsinlər. Şikari dedi:

– Ey pirmərd, de görüm niyə bihüş oldun?

Dedi:

– Mənə burda Saleh sovdagər diyəllər. O zamani ki mən səni çıxatmışam, mənə orda Keyvan sovdagər diyəllər, ayrı vilatətdə mənə, Xacə Əşrəf diyəllər, bir adım da var Xacə Qəni diyəllər. O zəman səni mən quyudan çıxatmışam. Yəmən şəhrində Mənzər şahı Yəməniyə qul adıynan səni mən satmışam. Mənim həqqim var bihüş olam da.

Şikari durdu döşəndi bunun qədəmlərinə. Əlinnən öpür, ayağınnan öpür, üzünnən öpür deyir:

– Başıva dolannam sənin, bu ikiminci dəfədi ki, mənə nəcət verisən.

Şikari başladı ağlamağa. Keyvan sovdagər ona təsəlli elədi. Dedi:

– Oğlum, niyə ağlıyısan?

Dedi:

– Gərəhdi ağlıyam, neçə dəfə Allah qoşunumu əlimnən alıb.

Dedi:

– Oğlum, olsun, genə Allah-tala nəzər qılar, qoşunun gələr yerinə.

Sazı aldı dedi, qulağ as deyim da. Şikari Keyvan sovdagərə dedi:

Sənə qurban olum, atam sovdagər,
Nə başımda tacım, nə ləşkərim var.
Sənə qurban mənim canım, hər nə var,
Nə başımda tacım, nə ləşkərim var.

Mən razıyam başa gələn qəzayə,
Ölsəm, Simizər əyləşsin əzayə.
Qoşunum yoxdu, düzəm nizama,
Nə başımda tacım, nə ləşkərim var.

Şikariyəm, fələk girib qəsdimə,
Dərdim gəlir bu dərdlərin üstünə.
Bir də çıxsam Əjdaxar üstünə,
Nə başımda tacım, nə ləşkərim var.

Keyvan Sovdagər dedi:

– Oğlum, narahat olma, nə qədər istəsən bura ləşkər gətirrəm. Otuz kilo bura qızıl gətirrəm. Oğul, bu cəzirələr doludu vəhşiynən. Özləri də lüt, libasa zada ehtiyaşları yoxdu. Eslehə də elə hərəsinin əlində bir dana nacaxdan, çomaxdan, mızırıxdan, hərəsinin bir şeyi vardi. Fəqət, onların qarınların ver, ötür, hara gəldi gedəllər. Bu Şəbru Əyyarı görüsən, yetmiş iki dil bilir.

Şirzadı Tigzən üz dolandırdı:

– Əmi can, əgər istəsən Sərhəngi Şamiynən cəngi başlıyasan, bir dana namə yaz əvvəl, mən istirəm sənnən cəngi başlamıyam.

Şikari dedi, yaxcı deyisən. Ta götürüb görəh namənə yazacax Sərhəngi Şamiyə, mən də ərz eliyim, eşidənlər sağ olsun:

Şikari Sərhəngi Şamiyə dedi:

Mənnən salam olsun Sərhəngi Şamə
Göndər gəlsin mənim Simizərimi.
Bir də bais olma, gəl nəhaq qanə,
Göndər gəlsin mənim Simizərimi.

Mərd oğlanı görüm aciz qalmasın,
Namərd olan görüm başa varmasın.
Aramızda bir də cəngi olmasın,
Göndər gəlsin mənim Simizərimi.

Şikariyəm, əsla gülmədi üzüm,
İstəmirəm nəhəq yerə qan töküm.
Verginən nəmüsimi, qoyum gedim,
Köylüm çox istiyir Simizərimi.

Namənin üstün möhür vursun. Verdilər vəhşilərin birinə. Çomağın götürüb, naməni aldı əlinə, ya Allah, getdi. Şəbru Əyyar dedi: "Oğlan, qızıl, pul alannan sora naməni ver ha". Bəli, qasidə söz yoxdu, qaravul, yasovul-heş kəs qabağın almaz. Sərhəngi Şami oturub, əmirüümərа, vəzirüvüzarə yanan oturublar hər kəs. Sərhəngi Şami üz dolandırdı:

– Kimin tərəfinnən gəlmisən? Nəyə gəlmisən?

Dedi:

– Mən Şikarinin tərəfinnən qasidəm, namə gətirmişəm.

Sərhəngi Şami dedi:

– Görüm hanı?

Dedi:

– Əvvəl gərək mənim naməmə qızıl nisər eliyəsin, onnan sonar. Bunun naməsinə qızıl nisar elədilər. Sərhəngi Şami tərəfinnən aşsınlar oxusunlar. Sərhəngi Şami üz dolandırdı:

– Kamil vəzir, sən nə deyisən bu sözə?

Kamil vəzir dedi:

– Əgər mənim sözümə baxsan, mən hazıram ki, bunun naməsini verəsən, çıxa gedə.

Dedi:

– Sən öləsən dünya gələ, Simizərin bir dana teliynən əvəz eləmərəm.

Namənin cavabın cəng yazdı. Qasid naməni apardı, naməni aparannan sora göttü bu, Sərhəngi Şaminin bir dana pəhlivani var, adına Keyvan pəhlivan diyəllər, bir pəhlivani var Hüşşami Şami diyəllər, Ləali Şami bular pəhlivandılar. Buları seçib yolladı Sərhəngabadə. Bular varid olsunlar Sərhəngabadə, bular başlayıb təbil-nəqqərəni vurdular. Şikari dedi:

– Təbil nəqərədi, belə malüm ola sabah bizinən cəng eliyəcaxlar.

Şikari götürüb bu dillərinən görək nə desin? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Şikari dedi:

Qadir Allah, budur sənnən diləyim,
Şahlar şahı, özün yetiş haraya.

Çarəm nədir, bularınan neyləyim?
Təbib ola, məlhəm sala yaraya.

Ürəkdən yaralı, sinə dağlıyam,
Öz dərdimi özüm deyim ağlıyam.
Şikariyəm, şahzadə oğluyam,
Qadir Allah, özün yetiş haraya.

Qadir Allah, budur səndən diləyim,
Şahlar şahı, özün yetiş yardıma.
Çarəm nədir, bunlar ilə neyləyim?
Həkim ola, ilaç qoya yaraya.

Eşid dastani Sərhəngabadda Keyvan Dilavərdən. Keyvan Dilavər yatmışdı aləmi röyadə, gördü Xızır peyğəmbər gəlib bunun yuxusuna, cəhənnəminən behişti nişan verib. Ona dedi: “Əgər dönüb müsəlman olsan behiştə gedəcaxsan, əgər bu dində qalsan bu odun içində yanacaxsan. Əgər istisən odun içində yanmıyasan, dön müsəlman olgunan, ged özün də Şikariya köməh eləginən”. Keyvan Dilavər “kəlmeyi-şəhadətin” deyib olsun müsəlman, ayıldı yuxudan, gecəynən durdu yavaccaca üz qoydu dağa ki Şikarigil düşmüşdülər, getdi ora. Girdi Şikari olan çadıra, gördü bular yatıblar, istəmədi buları oyatsın, o da Keyvan sovdagərın yanında başın qoydu yerə.

Eşid dəsitani kimnən? Vəhşilərdən. Vəhşilər Sərhəngabada tərəf yola düşdülər. Elə ki yetirdilər qala qapısına, qala qapısında qaravul, yasavul durubdu, oları öldürdülər, varid oldular Sərhəngabada. Gələni vurullar, gedəni vurullar. Elə ki səhər olsun, Şikari yuxudan duranda gördü yanında bir nəfər dilavər yatıbdı, əmma tanımır kimdi. Dedi:

– Cavan, sən kimsən?

Dedi:

– Mən bir qulamam gəlmişəm. Mən Sərhəngi Şaminin dilavərlərinnənəm. Adım Keyvan pəhlivandı. Hızır peyğəmbəri gördüm. Özüm də tazə müsəlman olmuşam.

Görək nə diyəcək? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Keyvan Dilavər dedi:

Sənə qurban olum, ay şir Şikari,
Yuxuda görmüşəm şahlar Şahını.
Sən mənə verəsən bu iftixari,
Yuxuda görmüşəm şahlar şahını.

Məzələndi,
Mey içər məzələndi.
Vəfalı dostlarımı gördüm,
Ürəyim təzələndi.

Gəlmişəm dostunan düşməni tanıyam,
Sərhəngi Şaminin pəhlivanıyam,
Tazə müsəlmanam, sinə dağlıyam,
Yuxuda görmüşəm şahlar şahını.

Oyan, dağlar,
Qanlara boyan, dağlar.
Bu yan zülmətxanadı,
Necədi o yan, dağlar?

Görmüşəm rüyada şahı Mərdanı,
Məhşərdə quracax özü divanı.
Qəflətdən oyatdı o kərəm kanı,
Yuxuda görmüşəm şahlar şahını.

Keyvan Dilavər üz dolandırdı: "Şahzadə, Sərhəngi Şami Sərhəngabaddadı, əgər istisən, yaxcı ola ki, dur ayağa, gafildən gedək Sərhəngbadı alax".

Şikarigil durublar ayağa, gördülər vəhşilərdən bir nəfər də yoxdu. Bular gördülər bular yeniblər Sərhəngbada sarı. Saleh sovdagər üz dolandırdı Şikariyə:

– Gördün, dedim əğilli çayı bulammıyınca, dəli vurar keçər? Sən özüvü tapınca bular Sərhəngbadı alıblar.

Şikari dedi:

– Götürüm Sərhəngi Şamiyə namə yazım, mən Sərhəngbadı almışam, ver mənim Simizərimi, götürüm gedim.

Ləşkər gecə hamlə eliyəndə qabaxlarına gələni öldürmüşdülər. Bular Hüşşami Şamini də öldürüblər ki, həmün Sərhəngi Şaminin qardaşoğlusudu, Ləli Şamini də öldürüblər. Hüşşami Şami və Ləli Şaminin başın gətirib qoyublar tabağın içinə, puldan, lirədən əşrəfidən üstünə örtüy çəkib bəziyiblər. Şikari götürüb dübarə bir dana Sərhəngi Şamiyə namə yazıb. Ərz eliyim eşidənlərin sağlığına.

Şikari məktubda yazdı:

Sərhəngi Şamiyə yazıram namə,
İstəmirəm aramızda cəng ola.
Ərməğandı, göndərirəm o Şamə,
İstəmirəm aramızda cəng ola.

Namərdin felinə bir yol uymuşam,
On səggiz il zindanında qalmışam.
İndi də Sərhəngbadı almışam,
İstəmirəm aramızda cəng ola.

Vermişidim sənə ixtiyarımı,
Dağıtdın vəzirim, həm vüzarımı.
Şikariyəm, göndər Simizərimi,
İstəmirəm aramızda cəng ola.

Naməni yazıb qoyub paketa üstün möhür elədi. Genə Sərhəngi Şami iddesiynən oturublar, xəbərdən xəbəri yoxdu. Sərhəngi Şami dedi: “Namənə gətimisən?”. Dedi: “Qızıl verməsən demərəm”. Bir qədri buna qızıl veriblər, aldı qoydu ciblərinə. Xonça tabağı qoydu yerə və bir dana namə ona uzatdı. Örtüyün altını da götürəndə gördü, ey dadi-bidad, Hüşşami Şamiynən Ləli Şaminin başıdı.

Dedi:

– Buları Şikari öldürüb?

Dedi:

– Xeyir, Şikarinin xəbəri yoxdu.

Dedi:

– Bəs kim öldürüb?

Dedi:

– Qulağ as, deyim da. Görək nə dedi?

Elçi dedi:

Gəl sənə söyləyim, Sərhəngi Şami,
Belə xiyal etmə çöldə qalmışıq.
İçmişik biz həqiqətin camını,
Ərənlər pirinnən bir pay almışıq.

Allahın birliyin yəqin bilmişik,
Həq yolunda neçə qurban vermişik.
Hüşşami dersən, biz öldürmüşük,
Geçən gecə Sərhəngabadı almışıq.

Xiyal etmə, səndən dalı qalmışıq,
Toprağıva böyük zəxmə salmışıq.
Dünən gecə Sərhəngabadı almışıq,
Bu gecə də nəzər Şamə salmışıq.

Sərhəngi Şami dedi: "Tutun bunu". Əl elədi şəmşirə, bir neçəsin öldürdü, aradan çıxdı. Sərhəngi Şami götürüb namə göndərdi buna ki, "sənnən mən on gün möhlət istirəm, bular on gün burda, hər kəs od odunda, su suyunda qalsın".

Əmma eşid dastani Şikaridən, Şikari gecələrin birində yatmışdı, kimi görür? Simizəri. Simizərin eşqi vurub bunun başına, durub ayağa bir ata mindi, at apara bülmür ki. Gördü at apara bülmür, mərkəbdən piyadə olub, Şam əhlinin libaslarınnan da geyib şəhrin kənarinə yetirdi, kəməndi atıp divarın üstünə, qalxıb düşdü şəhrin içinə. Şəhrdə bir nəfər əhəddən, səməddən yoxudu, şəhr xəlvətdi. Çün bu nəbələddi, şəhri tanımır, Öz-özünə bu dillərinən görək nə desin? Mən də ərz eliyim, əziz eşidənlər sağ olsun:

Şikari dedi:

Şükür eylərəm birliyivə dübarə,
Qoyma qalam mən avarə bu gecə.
Qəribəm qurbətdə qaldım avarə,
Qoyma qalam mən avarə bu gecə.

Oxudum Quranı, yetdim "Yasin"ə,
Gəmitək qərq oldum gəm dəryasinə.

Sürsəm bu sinəmi yar sinəsinə,
Yetir məni Simizərə bu gecə.

Şikariyəm, qəribəm bu diyarda,
Yarın həsrəti var cism ilə canda.
Simizərim qalıb kafəristanda,
Yetir məni Simizərə bu gecə.

De bu küçədə, de o küçədə, gördü bir uca divar çıxdı bunun gabağına. Ehsas elədi bura hərəmxanə bağçasıdı. Allaha təvəkkül deyib kəməndi atdı divarın başına. Qalxdı divarın başına. Düşsün bağın içinə, gördü qabaxda qarovul, yasovul elə bil görsənir. Dönüb dalıdan getdi. De bu yannan, de o yannan, qulağın yatırdıb, gördü həzin-həzin səs gəlir. Şikari qapıdan baxanda necə ki, gözü sataşdı Simizərə, biixtiyar yıxıldı yerə. Qızlar bunu dörələdilər, ta bunu halə gətrisinlər, elə ki halə gəllənnən sora Simizər üz dolandırdı:

– Sən şah Dara oğlusan, de görüm, bu on səggiz ilin məbeynində sənə noldu?

Simizər neynədi?

Sərhəngi Şaminin qızı Nazikbədəni görsətdi, dedi:

– Şahzadə, göydə Allah, yerdə bu qız. Şamın mələkəsidi bu Nazikbədən.

Ama gördü Mahızəmin bir tərəfdə, Pərizad bir tərəfdə, əmma orda bir qız da həzin-həzin ağlıyır. Gözünün yaşın baharın bulutu kimi ruxsərinə rəvən eliyir. Şikari dedi:

– O kimdi?

Dedilər:

– Vallah, bilmirik.

Dedi:

– Şahı Şucanın qızıyam, Gülbar vilayətindən, özü də Cahangirin əyalıyam, özü də Cahangir belə xitab eliyib ki, mən Şikarinin oğluyam.

Şikari yeridi yaxına, görək bu qızın ağlamağına nə deyir, ərz eliyim eşidənlər sağ olsun:

Şikari dedi:

Şikariyəm, day çıxmışam zindandan,
Sarı siyah telli balam, ağlama.
Keçərəm yolunda baş ilə cannan,
Sarı siyah telli balam, ağlama.

Kimə gedim,
Kimim var, kimə gedim?
Bu dərdi sən vermisən,
Dərmana kimə gedim?

Qulax ver, sənə var bir neçə sözüm,
Sürmə məst eyləyibdi ala gözün.
Sən mənim gəlinimsən, ya ki qızım,
Sarı siyah telli balam, ağlama.

Gecə uzun, ay batmaz,
Dərdlilər gecə yatmaz.
Sənin kimi bir gözəl,
Dünya bir də yaratmaz.

Şikariyəm, axır gözdən qəm yaşım,
Bəladən qurtarmır bəlalı başım.
Cahangir oğlumdu, ya da qardaşım,
Sarı siyah telli balam, ağlama.

Fələyi dindireydim,
Bilmədim bildireydim.
Mənə yazı yazanda,
Qələmin sındıreydim.

Şikari üzün tutdu Simizərinən Nazikbədənə: "Mən gedirəm, can sizin bu Qönçələb əmanəti. Bunu sizə, sizi Allaha tapşırıram".

Gecəynən qeyitdi, özün yetirdi ləşkəri İslamə. Şikari gecə yatdı, səhər bevaxt durdu. Şəbru Əyyar gəldi, Şikarini oyatdı. Bəli, bunnan belə genə cəng başlanır. Sərhəngi Şami ki on gün möhlət almışdı, əlli beş dövlətdən kömək alıb, Şikarinin qabağında. Sərhəngi Şami dəstur Verdi, təbil nəqqərəni vurdular. Şikari gör-

dü Sərhəngi Şami tərəfinnən təbil cəngi vurulur. Şirzadı Tigzən Şikariyə dedi: "Əmi can, ver bu yan tərəfdən də təbili mənim adıma döysünlər". Dedi: "Yox, oğul, təbli mənim adıma dövəcəklər". Şirzadı Tigzən gördü əmisi qəbül eləmədi, götürüb bu dillərinən görək xan əmisinə nə deyir? Ərz eliyim eşidənlər sağ olsun:

Şirzadı Tigzən dedi:

Başıva dolanım sənin, xan əmi,
Ver təbli döysünlər mənim adıma.
Allah verməsin sənə qusseynən qəmi,
Ver təbli döysünlər mənim adıma.

Təbib istərəm, məlhəm sala yaraya,
Şahlar şahı, özün yetiş haraya.
Sığınmışam mən də bu gün xudaya,
Ver təbli döysünlər mənim adıma.

Atadan-babadan gərək mərkəb oynadam,
Sənə can-cigərəm, nəinki yara,
Tigzən diyəllər mənə, Şirzadam,
Ver təbli döysünlər mənim adıma.

Gördü Şirzadı Tigzən əl çəkmədi, verdi təbli nəqqərəni döydülər Şirzadın adına. Sərhəngi Şami dəstür verir, hammısı birdən savaşa gessinlər. Bu yan tərəftə Sərhəngi Şaminin qoşunu, o yan tərəfdə Şirzadı Tigzən, Şikari, Keyvan Sovdagər və oğulları və Keyvan Dilavər ki, Sərhəngi Şaminin pəhlivanlardandı, dönüb olub müsəlman, Şikarinin yanında savaşir.

Axşamacan cəng elədilər, axşam təbli-bazgəşt vurulur, dönüllər yerlərinə.

Bəli, günlərin bir günündə savaş əsnasında uzakdan bir toz numəyən oldu. Çağırdı Şəbru Əyyarı dedi: "Get o qoşunnan mənə bir xəbər gətir". Şəbru Əyyar getdi gördü, bəli, on iki pərçəm, (yəni, on iki min nəfər qoşunun əlamətidi) gəlir Şikarinin qoşununa. On iki əyyar, biri Firuz Əyyardı, on biri də bunun şagirdləridi, gəlillər. Mənzər şahı Yəməni ki, mərkəbi-Əjdaxarınan qaşmışdı, gəldi. Şəbru Əyyar Şikariyə döndü, dedi: "Dilavər, müjdə ver mənə, Mənzər şahı Yəməni on iki min qoşun və on iki əyyarınan

gəlir". Şikari gəldi buları peşvaz elədi. Qeysi Rəmmahı-Ərəb də Mənzər şahı Yəməninən gəlibdi. Elə ki otursunlar, bu yannan, o yannan söz açıldı. Şikari üz dolandırdı Mənzər şahı Yəməniyə:

– Qurban, de görüm mənim mərkəbimnən bir xəbər var, ya yox?

Mənzər şahı Yəməni üz dolandırdı:

– Oğlum, o zamani ki sənə bihüşdərü verdilər, yıxdılar, mən mərkəbi-Əjdaxarı mindim, aradan çıxdım. İndi mərkəbi-Əjdaxarı da gətirmişəm, on iki nəfər onun otuna, suyuna yetişir.

Şikari mərkəbi-Əjdaxarın yanına getdi, onun bu yüzünnən, o yüzünnən öpdü.

Şikari onu görəndə qudrəti genə özünə gəldi. Verdi təbli cəngi vurdular, götürb bu dillərinən görək Sərhəngi Şamiyə nəmənə yazır, ərz eliyək sağlığıza:

Şikari dedi:

Allah verdi əlimə ixtiyərimi,
Genə çıxıram Əjdahaxər üstünə.
Mənim sənnən ayrı sözüm yoxdu,
Əlim çatsa nazlı yarin dəsdinə.

Ağlaram, gözümnən qan-yaş tökərəm,
Məzlumlar üstündə zəhmət çəkərəm.
Toprağıvı dəryalərə tökərəm,
Genə çıxıram Əjdahaxər üstünə.

Ayrılıq həsrəti day bəsdi mənə,
Müsəlmanam, bu iftixər bəsdi mənə.
Dədədən-babadan qalıbdı mənə,
Genə çıxıram Əjdahaxər üstünə.

Bu yannan, o yannan əmiruümərа dedilər, qurban, gəl Simizəri verginən aparsın. De bir gün, iki gün, üş gün. Kamil vəzir üz dolandırdı Sərhəngi Şamiyə:

– Qurban, fənd bu dəyil. Bizim qoşunumuz çoxdu, vəqti bular səhər çağına Sərhəngbaddan çıxıllar eşiyə, sən verməginən Sərhəngbadı, mühasərəya alsınlar, cəngi sal gecə-gündüzə, təblibazgəşt vurmagınan, bizim qoşunumuz çoxdu.

Axşam bular təbli-bazgəşt vuranda gördülər olar təbli cəng vurur. Cəngi saldılar gecə-gündüzə, Şikarinin qoşunu azaldı.

Eşid dastani kimnən? Cahangirdən. Cahangirin yaraları yaxcı olub, Muxtara üz dolandırdı: "Mən Şamidən çox nigəranam, mərkəblərimizi hazır elə, biz gedək".

Hər ikisi mərkəbə səvar olublar, çıxdılar yola. Yola çıxanda Cahangir gördü uzaxdan bir toz nüməyan oldu. Yerinən göyün arasın toz tutubdu. Cahangir dedi:

– Muxtar, mənim qəlbim çox döyünür, o ləşkərdən mənə xəbər gətirəsən.

Bəli, Muxtar özün yetirib qoşuna. Gördü o ey dadi-bidad, qarışqanın sanı var, qoşunun sanı yoxdu. Gördü Şahı Şucadı ki Gülbar vilayətinin padşahıdı, dört yüz min qoşun o gətirib, bir də Hilal padşah, Zöhhak padşahdı ki, Cahangir gələndə oranı da müsəlman eləmişdi, dört yüz min də o qoşun gətirib. Bular səggiz yüz min qoşun, məşğül olsunlar gəlməyə. Şikarini də cəngidə təhliyiblər.

O tərəfdə Şikari cəngidə təh qalıb. Gecə-günüz yol gəliblər Şamə tərəf. Yetirdilər gördülər cəngidi ki, bulut kimi toz yerinən göyün arasın tutub. Qılınc, qalxan, əmüd, şeşpər, neyzə, at şahəsinin səsi asimanə bülənd olub. Bu yan tərəfdən Şikari gördü bir qoşun gəldi. Sərhəngi Şami də gördü ki, uzaxdan qoşun gəldi. İslam tərəfinnən təbli-bazgəşt vurulur, kaffər tərəfinnən təbli cəng vurulur. Aralanmıllar. Şahı Şüca üz dolandırdı Cahangirə: Qoşun çadırların qursun, ta görək kim, kimədi? Cahangir dedi, yox, elə dəyil. Cahangir görək nə desin? Mən də ərz eliyim:

Cahangir dedi:

Gəl sənə söyləyim, ey Şah Şuca,
Elə bil ki, bu gün qiyamət olub.
Nə gündüz bəllidi, nə də gecə,
Yoxsa qiyamətdən əlamət olub.

Loğmən istər verə bir dərman mənə,
Bu səs nə sədadı, yetişir mənə?
İstərəm, icazə ver fərman mənə,
Bilmirəm nə gündü qiyamət olub?

Cahangir də gəldi, qoy düşmən bilsin,
Əcəl xələtini əyninə geysin.
Kimdə hünər vardı meydanə gəlsin,
Elə bil görürəm, qiyamət olub.

Söz tamam oldu, özün vurdu dəryayi ləşkərə. Səggiz yüz min qoşunun seçilmiş pəhlivanları da özlərin vurdular dəryayi ləşkərə. Bir tərəfdə Şikariynən rübərü gəldi, mərkəbi-Əjdaxar bir kişnədi, Kürrə də kişnədi. Niyə? Cahangirinən Şikari dədə-baladı, mərkəbi-Əjdaxarınan da Kürrə. Ata-babalar deyiblər: "İnsan dilləşə-dilləşə, heyvan iyləşə-iyləşə gedər, bir-birin tapar.

Cahangir kuləhi başınnan atdı, Şikari gördü bu bir qəvi pəhlivandı. Tanımır ki, dədə-bala bir-birlərin. Cahangir kulahı başınnan atdı, Şikariyə dedi:

– Görürəm elə bil yorulmusan, sən çıx kənarə, mən intigəmıvı bulardan allam.

Şikari qoşunun içinnən çıxdı getdi, bir ağaş var idi, onun dibində otursun, mərkəbi-Əjdaxarı bağladı ağaca, dəstəmaz alıb namaz qıldı.

Əmma eşid dastani sovdagərdən. Gəldi yetirdi özün Şikarinin yanına: "Oğlum, məgər yaralanmısan?". Şikari götürüb bu dillərinən görək Keyvan sovdagərə nə deyir? Mən də ərz eliyim, eşidənlər şad olsun:

Şikari Keyvan sovdagərə dedi:

Dolanım başıva, dədəm Sovdagər,
O cəvannan gətir bir xəbər mənə.
Sənə kömək olsun o pərvərdigar,
Tez gətir sən onnan mənə bir xəbər.

Malım, canım, Keyvan, sənə qurbandı,
Fərəmərzidi, ya da Teymur, şah Kəmandı.
Özü mənnən artıq o pəhlivandı,
Get gətir sən onnan bir xəbər.

Şikarinin ürəyinin başısən,
Şad olub ürəkdən daymən güləsən.

Gedisən, salamət görüm gələsən,
Tez gətir sən onnan mənə bir xəbər.

Şikari Keyvan sovdagərdən bir xəbər istədi. Saleh sovdagər hər nə qədər bu yan tərəfdən, o yan tərəfdən baxdı ki, mən nə novnan onun yanına gedəm. Bir uca yerdən durub baxdı, imkanı yoxdu, bu bunun yanına gedə bülməz. Sərhəngi Şamini dört dana filin üstündə təxti rəvan düzəldiblər, Sərhəngi Şami də onun üstündədi. Pərçəmi küfr də onun üstünə vurublar. Gördü Cahangir qoşunu yara-yara ona tərəf gedir. Sərhəngi Şami neçə nəfər yanında ox atan, kəmənd atan durubdu ki, ona əsib yetişməsin.

Saleh sovdagər buları belə gördü, foren özün yetirdi, qeyitdi Şikarinin yanına. Şikari dedi: "Hə, Keyvan Sovdagər, bir xəbər gətirə bildin?"

Keyvan sovdagər dedi: "Qulağ as deyim da". Götürüb Keyvan sovdagər bu dillərinən görək Şikariyə nə deyir?

Keyvan Sovdagər Şikariyə dedi:

Sənə qurban olum mən, ey pəhlivan,
Qoşundu ki, qatılıb, gəlir üstünə.
İndicə qoşunu tarümar eylər,
Qol-qışdı ki tökür tamam daş üstə.

Bərq kimi qılış vurub keçiri,
Düşmanlar əlinnən aman çəkiri.
Qoşunun bağrını yarır sökürü,
Bədəndi ki, tökülür baş üstünə.

Bəladan qurtardı bəlalı başım,
Tökmə gözlərinnən qanlı yaşın.
Ya oğlundu sənin, ya qardaşın,
Bədəndi ki, tökülür baş üstünə.

Cahangir necə ki qəlb ələmin gözləmişdi, uzaxdan yara-yara gəlir, yetirir bunun təxtı rəvanına bir şəmşir vurur. Təxtı rəvanın bir tərəfi gedir, ələm düşür. Ələm düşsün yerə, yetişir ona.

Sərhəngi Şaminin kəmərinnən tutur qozuyur qöyə. Belə ki gördü, Sərhəngi Şami, kəmərin kəsdi və şappıltıynan düşdü yerə.

Sərhəngi Şami əskərlərinin içində yox oldu. Cahangirin əli boşda qaldı. Bu zəman gördülər təbli-bazgəşt vuruldu. Döndülər. Sərhəngi Şami də getdi öz yerinə. Ot, otun, su, suyun alsın.

Sizə kimnən ərz eliyim? Cahangirdən. Cahangir çadırına gəldi. Muxtarın vəsiləsiynən dədəsinə namə yazdı ki, gələsən mənim çadırıma. Şikari cavabında dedi: "Sənin mənnən işin olmasın, sən öz işivə idəmə verginən". Muxtar qayıdıb Cahangirə desin, Cahangir narahand oldu. Dübarə peyğəm yolladı. Mənzər şahı Yəməni, Keyvan Sovdagər dedilər: "O da bir dilavərdi, o gəlmir, sən onun yanına get". Durub ayağa Şikari gəldi. Şikari gəldi yetirdi bunun çadırına. Təamı gətirdilər, əmma Şikari yemədi. Dedi:

– Dilavər, niyə yemisən?

Şikari dedi:

– Mənim qoşunum ac, mən necə yeyim?

Cahangir dəstur verdi, qoşuna təam göndərdilər. Cahangir dedi:

– Sən bu az qoşununan Sərhəngi Şaminin qabağına niyə çıxmısan?

Dedi:

– Cəvan, mənim sərgüzəştim demağınan qurtarmaz, sən de görüm niyə Sərhəngi Şaminən cəng eliyisən?

Cahangirin gözləri doldu, Aldı sazın, dedi, qulağ as deyim da. Götürüb bu dillərinən görək nə deyir, mən də ərz eliyim.

Cahangir dedi:

Soruşma halımı sən, ey dilavər,
Vardı ürəyimdə nisgilim mənim.
Qara bağrım şan-şan olub əriyər,
Vardı ürəyimdə nisgilim mənim.

Bu dağda maralım var,
Ox dəyib, yaralım var.
Nə gecə yuxum gəlir,
Nə gündüz qərarım var.

Dərdim çoxdu, salammaram aşkara,
Vardı ürəyimdə bir neçə yara.

Necə desən mən olmuşam biçara,
Vardı ürəyimdə nisgilim mənim.

Aşiqəm, bir də nara,
Neştər vur, bir də yara.
Məni zülfün vurubdu,
Vur, durma bir də yara.

Fələk məni eldən ayrı salıbdı,
Dört dövrəmi qəm ləşkəri alıbdı.
Anam biçara gözü yolda qalıbdı,
Vardı ürəyimdə nisgilim mənim.

Mən aşıq, güllər ayrısı,
Bülbül güldən güllər ayrısı.
Bir saat ayrılığa dözmüyən can
Genə oldu illər ayrısı.

İzzətü-şövkəti gedib xarıdı,
Hər bir yerdə məzlüm pərəstarıdı,
Adım Cahangirdi, dədəm şir Şikaridi,
Vardı ürəyimdə nisgilim mənim.

Ordubada, ay Ordubada,
Bu yollar gedər Ordubada.
Qoşuna sərkərdə gərək,
Verməsin ordu bada.

Şikari adın eşidəndə bihüş, biixtiyar yerə düşür. Ta Şikarini hələ gətirsinlər, Zöhhak padşah, Şah Şuca və bir neçə nəfər yığışdılər bunun dörəsinə. Şikari halə gəldi dedi:

– Oğul, de görüm sən nə mədrəkinən özüvü Şikariyə tanıtacaxsan? Hardan sübut elərsən?

Cahangir dedi:

– Mən Yəmən şəhrinnən Xocand vəzirın qızı Pərnazın oğluyam, bu bazübəndi verib mənə, Şikarinin bazübəndlərinnən birin qoluma bağlayıbdı.

Şikari bazübəndi görəndə gördü öz bazübəndidi. Dedi: "Oğul, evi yıxılan Şikari mənəm də". Dədə balanı tanıyıb, bala dədəni tanıyıb dübarə ikisi də bihüş oldu. Ta buları halə gətirsinlər. Şikari üz dolandırdı: "Əsla səsizi çıxarmayın, təbli şədiyanə də vurulmasın, ta düşman bilməsin".

Bular burda qalmaqda olsun, eşit dastani Sərhəngi Şamidən. Götürdü bir peyğəm yolladı ki, şahzadə, mən sənnən dübarə on gün möhlət istiyirəm. Möhlət caizdi. Sərhəngi Şami götürdü Firəngistəna namə yazdı.

Bir də Rumda Ərçiyə yazdı ki, Şikariynən başara bilmirəm.

Bular da burda qalmaxda olsun, eşid dastani Şikariynən Cahangirdən. Yiyillər, içillər, məst aləmindədilər, birdən Simizərin eşqi vurdu Şikarinin başına. Oğlu Cahangirə üz dolandırdı: "Oğlum, mən gedib Simizəri hərəmxənada görmüşəm. Sənin yarivi də orda görmüşəm, dədəvin yanıcax gələ bilirsən, gedək ordan bir xəbər bilək?". Dedi: "Dədəcan, məslahat sahibisən". Bular durdular mərkəblərinə mindilər, Şikari mərkəbi-Əjdaxarı, Cahangir də Kürrəni mindilar, yola düşdülər Şamə tərəf.

Gəldilər Şamın duvarlarına yetişdilər. Kəməndi atdılar duvara, çıxdılar, gördülər Sərhəngi Şami hər tərəfə qarovul, yasovul qoyub. Kamil vəzir qırx dana pəhlivanlardan qoyub hər tərəfə ki, şəhridə gəzsinlər.

Şikari oğlu Cahangirə dedi:

Başıva dolanım, gül üzlü oğul,
Bir iltifat istə xudadan bizə.
Anan yedirdibdi qəndinən noğul,
Bir iltifat istə xudadan bizə.

Sənilən üz qoyub gəldim buraya,
Təbib ola, məlhəm sala yaraya.
Bəlkə başım qarışmıya qovğəya,
Nəcat verə Allah gügədən bizə.

Hara getsəm, sən gəl mənim dalımca,
Anan həsrət qalıb indi dalınca.

Şikari də sənə baxsın doyunca,
Bir iltifat istə xudadan bizə.

Sözlər tamam olsun, yola düşdülər, bir meydanın çarsusunu dönəndə qaravullar bulara yetdi. Şikari üz dolandırdı: "Oğul, bizi gördülər". Cahangir əl elədi şəmşirə: "Ata can, icazə versən buları qovum". Dedi: "Yox, oğul, yüzə doxsan doqquzu fətdi, ta biri lotuluxdu".

Meydanda bir səqqəxana var idi, Şikari döndü ora: "Gəl məninm yanımca, işin yoxdu". Böyük səqqəxanadı, yerin altında qazmışdılar, yekə bir yerdi. Qapını açıb içəriyə keçdilər. Cahangirə dedi: "Oğul, duracaxsan qapının dalısında, mən gedirəm dibə, gələnlərin əlindəki şamları püflə". Xulasə, qırx pəhlivanın hamısını öldürüblər. Yola düşüllər, dübarə gəlib yetişillər həramxananin bağına. Kəməndləri çin-çin eliyib atıblar duvara, duvardan aşıblar həramxanənin içinə. Qulağ asdılar, gördülər qızlar danışıllar. Qönçələb görək nəmənə deyir qızlara, Şikariynən Cahandar da eşihdə qulağ asıllar. Mən də ərz eliyim eşidənlərin sağlığına.

Qönçələb dedi:

Sizə qurban olum, əyləşən qızlar,
Yığışın dörəmə barı bu gecə.
Bir yaram var, dayim qan verər, sızlar,
Yığışın dövrəmə barı bu gecə.

Zəlil olub əcəb düşdüm ayağa,
Bülbül kimi sığınmışam budağa.
Məlhəmət eliyə, gələ otağa,
Nə olur yarı görəm bu gecə?

Sözlərimi yetirdim day tamama,
Saqi, haramdı, mey tökmə camə.
Qönçələbin ömrü yetdi təmama,
Yığışın dövrəmə barı bu gecə.

Mən aşıq, oydun məni,
Nar kimi soydun məni.

Nə kölgədə saxladın,
Nə bir günə qoydun məni.

Sözlər tamam olsun, Şikari qapını açıb girdi içəri. Yetirib qolların saldı Qönçələbin boynuna: "Ey mənim ərşəd gəlinim, gedib örgənmişəm, Cahangir mənim oğlumdu, sən də mənim gəlinim". Qönçələb dedi: "Bəs Cahangir harda?". Dedi: "Qorxma, onu da gətirmişəm". Ağa, hər ikisi, dədə-bala sövgülülərin yanına alıblar. Şikari Nazikbədəninən Simizəri, Cahangir də Qönçələbi alıb yanına. Dayələr də buların yanında. Eyşünüşa bular hamısı məşğül olsunlar.

Üş-dört gün burda qalannan sora buların bir aşpəzləri varydı, o getdi, Sərhəngi Şamiyə peyğəm göndərdi ki, Şikari də, oğlu da – ikisi də burda. Döt min dana pəhlivan Sərhəngi Şami töküb bağın dörəsinə, ikisi də məsdilər. Cahangir əl elədi qəbzeyi şəmşirə: "Atacan, deyisən hamısının anasını ağlar qoyum". Şikari dedi: "O cur dəyil, oğlum, dur".

Şikari götürüb bu dillərinən görək Cahangirə nə deyir? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Şikari Cahangirə dedi:

Xəbərin yox, bu xəbərdən, ay bala,
Alıb dövrəmizi çoxlu pəhlivan.
Sən ilə ikimiz verək dal-dala,
Alıb dövrəmizi çoxlu pəhlivan.

Namərd kimsəynən təam yemə sən,
Məğrür olub heç vaxt mənəm demə sən.
Məzlumlar qəlbinə heç vaxt dəymə sən,
Alıb dövrəmizi çoxlu pəhlivan.

Şikariyəm, əcəb düşdüm bəlaya,
Təbib ola, məlhəm sala yaraya.
Şahlar Şahın çağır gəlsin haraya,
Alıb dövrəmizi çoxlu pəhlivan.

Qızlarnan həlallaşıb qəsridən çıxdılar. Bular kəmənd atsınlar bağdan çıxsınlar kənarə, dörd min pəhlivan buları saldılar

arayə. Dədə-bala bular verdilər kürəh-kürəyə. Sağdan gələni sağdan, soldan gələni soldan vurdular. Cəng eliyə-eliyə bular şəhridən çıxdılar.

Mənzər şahı Yəməni buların mərkəblərin yolladı, birdən dəstür verdi, qoşun hərəkət elədi. Bu yan tərəfdən küffərın qoşunu, o yan tərəfdən islamın qoşunu, genə qarışdı bir-birinə.

Ağalar, bular burda cəng eləməhdə olsun, eşid dəsitanı kimnən, ərz eliyim? Qızlardan. Nazikbədən üz dolandırdı qızlara:

– Əgər dədəmin başı cəngidən ayılsa, gələr məni verər öldürəllər və sizin də nəmüsüzə əl atar. Çün mən də dönüb olmuşam müsəlman. Əgər məni desəz mən bar az yol-yöntəmə bələdəm, özümüzü yetirək islam qoşununa.

Ağa, durdular bu qızlar, beşi də Simizərdi, Nazikbədəndı, Qönçələbdi, Mahızəmin dayədi, Pərizaddı, bular beşi də çıxsınlar, daldeynən, bucağınan çıxdılar.

Bular yolu azdılar. Yolu azdılar, getdilər çıxdılar hara? Meşeyi Məhlekiyə. Tilisimdi bura, gedirdilər, gördülər bir yerdən işıx gəlir. Pərvərdigara, barı bular islam qoşunlarınnan olaydı. Gəlib yetirdilər yaxınlarına. Bular dayansınlar, Mahızəmin dayeynən Pərizadı yolladılar, gedin görün o işıx nəmənədi? Bular gəldilər gördülər üş-dört dana qız oturubdu, vəli bəni-adəmə oxşullar. Qeyitdilər desinlər, Nazikbədənə dedilər, o bildi. Nazikbədən başını, saçını yolmağa məşğul oldu. Ağladı. Qızlar dedi:

– Nə olub ki?

Dedi:

– Day bizimki qalıb qurdunan qiyamətə. Day bura qədərdi, işimiz çətindi.

Ta görək, Nazikbədən burda nəmənə deyir? Sazı aldı desin, mən də ərz eliyim eşidənlərin sağlığına.

Nazikbədən dedi:

Pərizad dəyil, bəs kimdi?
Bu cəzirə tilsimdi.
Nəcat yoxdu, day ölümdü,
Yardan düşdük kənarə biz.

Nazikbədənin sözünü,
Sürmə məst edib gözünü.
Görəmmərəm yar üzünü,
Həsrət qaldıx canana biz.

Reyhan pəri kim ola? Sərəfraz şahın qızı, çün bunu devlər padşahı istər oğluna, ildə bir dəfə buların cəngi olar. Bu qızı dədəsi qorumaq üçün gətirib qoyub ora. Çün, tilsimdi, heş kəs gedə bülməz ora. Özü ildə bir yol gələr qızı görmağa. Bunun yanında pərizadlar var, bəni-adəmin iyisin bir ağaşdan annarlar. Reyhan pəri iki nəfər pərilərdən məmür eliyib, gedin oları bura gətirin. "Salam", "Əleykum salam", durun ayağa görək. Hara? Bizim şahımız bizi məmür eliyib sizi aparax onun yanına. Dedi, bizim şahımız bəni-adəmdi, o sizi görsə, çox sevinər. Bir də çadırın içində gözəl oturub ki, nə gözəl. Bular baxdılar bir-birinin üzünə, əgər biz gözəlih, bu nədi? Yox, gözəl budu, biz nə deyirik? Qız bularınan bir-bir görüşdü, otutdu yerə. Qızlar ağlıyıllar. Reyhan pəri dedi:

– Deyin görüm, siz bura nəyə gəlmisiz?

Dedilər, mozü belədi, biz Sərhəngi Şaminin hərəmxanəsinnən çıxıb qaşmışix, özümüzü yetirək Şikariyə. Səni and verrik cəlali-İlahiyə, bizi apar qoy yerimizə. Dedi: "Olsun, dəstür verrəm sizi pərilər aparar, əmma gərək mənə bir neçə gün misafir olasız". Nazikbədən gözünün yaşın baharın buludu kimi tökür, götürüb görək bu qıza nə cür yalvaracax, bəlkə, buları apara qoya yerlərinə. Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Nazikbədən dedi:

Hər elmə bələdsən, pərilər şahi,
Tanırsan Allahı, yetir o yarə bizi.
On səggiz il düşmən əlində çəhmişəm ahi,
Sevərsən Allahı, yetir o yarə bizi.

Qoyma xəcalət çəkək bizi, şahzadə,
Məzəmməd yoxdu Şirin ilə Fərhadə.
Gözəllikdə yoxdu tayın dünyadə,
Tanırsan Allahı, yetir o yarə bizi.

Ürəyimin bu həqiqi sözüdü,
İntizar qalan bu qızların gözüdü.
Adım Simizər, Yəmən şahının qızıyam,
Tanırsan Allahı, yetir o yarə bizi.

Reyhan Pəri dedi, dəf, tənbür, ney, ərgəvən çalındı, səsi asimənə bülənd oldu.

Bular burda qalmaxda olsunlar, o tərəfdən islam qoşunuynan Sərhəngi Şaminin qoşunu cəngidədilər, qan su yerinə axır. Elə ki təbli-bazgəşt vurulsun, bular cəngidən baş aşsınlar. Getdi hərəmxaniyə. Bu xəbəri verdilər ona ki qurban, gözlərin aydın olsun, özüvünkü də qoşub ona, qızları aparıblar. Sərhəngi Şaminin əyyarları var idi, qızların rəddin tutsunlar, xəbər verdilər ki, qurban, qızların rəddi gedir düşür Meşeyi-Məhlekəyə. Qızlar gedib düşüb tilsimə.

Sərhəngi Şami götürüb Şikariyə namə yazır ki, qızlar gedib düşüb Meşeyi-Məhlekəyə, tilisimi Heyhatə. Sən əgər oğlansan, day mənnən işin olmasın, get oların dalısıca. Elə ki bu xəbər gəlsin yetişsin Şah Dara oğlu Şikariyə, Şah Dara oğlu Şikari əl eliyib xəncərə ki, özün aradan aparsın. O yannan, bu yannan yığışıblar, qoymuyublar ki, nə olub? Şah Dara oğlu Şikari götürüb bu dilllərinən görəh nə desin, mən də ərz eliyim eşidənlərin sağlığına.

Şikari dedi:

Canım ləşkər, əl götürün siz mənnən,
Fələk həsrət qoydu o yarə məni.
Təzə-təzə qurtulurdum qovğadən,
Fələk həsrət qoydu o yarə məni.

Yaman vəxtə əcəb düşdüm hünərdən,
Gileyliyəm zəmanədən, fələkdən.
Qızların beşi də gedibdi əldən,
Fələk həsrət qoydu o yarə məni.

İskəndərdən vardı məndə nişanə,
Bu yer gərək qannan dönə ümmanə.
Çox iltimas ettim mən o sübhanə,
Fələk həsrət qoydu o yarə məni.

Keyvan sovdagər çox narahat oldu, üz dolandırdı:

– Şah Dara oğlu, on səggiz il sənin nəmüsin qaldı Sərhəngi Şaminin əlində, əl tapa bülmədi ona, məgər sənin Allahın yoxdu? Əgər Allahın əyar olar, gedərsən tilsimdən də çıxardarsan. Bəs mən neynəməliyəm? Götü namənin cavabında yazgınan ki, Sərhəngi Şami, mən qız davası eləmirəm ki, mən sənnən din davası eliyirəm. Sənnən qız davası eləmirəm ki, gedib-gedib da.

Sizə xəbər verim kimnən? Cahandardan. Cahandar dayılarının yanında bir iddə qoşun cürrüyüb, gəlir dədəsinin köməyinə. Gəlib, elə ki Şamə yetişdi, dəstür verdi, çadırları qurdular. Dəstür verdi pərçəmi vurdular çadırın üstünə. İslam pərçəmini hamı asıbdı çadır üstünə. Şikari gördü ki, bunun pərçəmi islam pərçəmidi. Bu da adam yolladı. Çün nənəsi demişdi ki, Şikarinin bir dana da oğlu var, indi orda pəhlivandı, bunun pəhlivan olmasını istiyirdi ki, bu da pəhlivan olsun. Şikari özü getdi bulara. Düşmən də durdu təmaşəyə. Əvvəl gün bular ikisi dədə-bala küştü tutdular. Axşam olanda Cahangir yeridi qabağa. Cahandar yeridi, qolların saldı Şikarinin boynuna, dədə-bala qol-boyun oldular, öpüşdülər. Şikari bir çinar ağacı görsədib dedi: “Hər kim o ağacı bir zərbədə qələmliyib ikiyə bölsə, mənə ərşəd oğul odu”. O dedi, sən əvvəl vur, bu dedi, sən əvvəl vur, firsəndi verdilər Cahandara. Cahandar bir dana ağacı rişədən çıxatsın atsın kənarə, ərşəd oğul Cahandar oldu.

İndi xəbər verim sizə kimnən? Qızlardan. Pərilərdən bir neçəsi Reyhanə pəriyə xəbər verdi ki, dədən Sərəfraz şah gəlir səni görməyə. Öz-özünə dedi: “Mən bu qızları neyniyim? Mən neyniyim, neynəmiyim?” Pərilərdən örgətdi ki, siz durun buları aparın, buları gizlədin. Sərəfraz şah gəlib oturub. Dədə-bala bular öpüşdülər, görüşdülər. Dedi: “Dədəmə döhdür deyibdi, sən gərək əcəmnən bir qız alasan, dədəmin oğlan evladı olmaz. Əgər əcəmdən birin alsan, sənin oğlan evladın olacax. Ta dədəm buları görməsin”.

Sərəfraz şah dedi:

– Qızım!

Dedi:

– Bəli.

Dedi:

– Mənim nəzərimə gələn bu məhəbbətədə əcəm var.
Dedi:
– Yox, dədə.
Dedi:
– Dədəvə yalan danışma, iyi gəlib mənim burnuma dəyib.
Dedi:
– Bəlkə, səba yeli əsir, yel gətirir.

Gecə mövqeyi yatmax gəldi araya, bu durdu getdi yatsın. Yatdı, əmma ilan vuran yatdı, bu yata bilmir. Sərəfraz şahın yarısı devdi, yarısı adam, özü də nüməyəndeyi Süleymandı. Gülistani-İrəmdə padşahdı, özü də nümayəndeyi Həzrəti Süleymandı. Bu gördü yatammır. De burda, de orda, getdi buları taptı. Qızları gətirdi çadırın içinə. Yetirmağ həmin cəllad istədi. "Qurban, qıbleyi-aləm sağ olsun, kimin ömrü tamama yetişib? Başıynan bədəninin arasında ayrılıq salım" – dedi.

– Mənim qızım mənə yalan dedi. Vur bu qızın boynunu!

Bu Pərnaz xanım qabağa getdi, yalvarmağ üçün. Qəbül eləmədi, cəllada dedi, vur bu qızın boynun. Qız gördü belədi, dedi, dədəcan, qoy mən neçə kəlmə söz deyim, vəsiyyətimi eliyim. Dedi, deginən. Qız götürüb bu dillərinən görək nə diyəcək?

Pərnaz xanım dedi:

Hökm eyləmə üstümə gələ cəllad,
Mən cəvanam, ata, öldürmə məni.
Şirin yolun gözlür dayim Fərhad,
Mən cəvanam, ata, öldürmə məni.

Bilirsən niyə bu cannan geşmişəm,
Doldurub əcəl camını işmişəm.
Bular qonaxdılar, mehman etmişəm,
Peşiman olarsan, öldürmə məni.

Qızın Reyhaniyə meşə bəndərdi,
Sənin namərdliyin halim döndərdi.
Buların sahibi evladı İskəndərdi,
Peşiman olarsan, öldürmə məni.

Reyhanə Pəri dedi:

– Mən rəmlidə görmüşəm. Bular evladi İskəndərdi. Gələllər Gülistəni-İrəmə, padşahlığıvı əlinnən alallar. Sənin şahlığın da əlinnən gedər.

Dedi:

– Necə, bura gələ bülər? Bura tilsimidi, axı necə gələ bilər? Rüstəm eliyə bülmədi bura gəlsin.

Qız nə qədər diyənnən sora dedi, day özün bülərsən. Bular belə qalmaxda minayi şərabı arıya qoydular. Simizərə dedi ki, gəl bu meydən tök, mən içim. Dedi:

– Sən kimsən?

Dedi:

– Mən Sərəfraz şaham. Gülistani-İrəmin şahıyam.

Simizər dedi:

– Mənim sahabım var, onu çağır gəlsin, hünərivi görüm, sən məni sahibimnən alasan, sora sən nə desən elə olsun.

Sərəfraz şah dedi:

– Sənin sahibin hardadı?

Simizər dedi:

– Mənim sahibim Şamdadı.

Bunun, Sərəfraz şahın bir dana pərisi var, benamı Əncüm pəri. Bu iyirmi dört saatın ərzində kürəni dolanıb gəlib oturardı. Əncüm pəri yi istədi. Namə yazdı, aparasan verəsən Şamda Şah Dara oğlu Şikariyə.

Kağaz-qələm qoyuldu Simizərin bərabərində yerə, görək Simizər Şikariyə nəmənə yazır? Mən də ərz eliyim əziz dusların və eşidənlərin sağlığına.

Simizər məktubda Şikariyə yazdı:

Sənə qurban olum, ay şir Şikari,
Namzədin düşüb düşmən əlinə.
İstiyillər incitsinlər Simizəri,
Simizərin düşüb düşmən əlinə.

Düşmən istəyir girə mənim qəsdimə,
Əl verməərəm namərdlərin dəstinə.

Əcəl köynəyin geyib əyninə,
Simizərin düşüb düşmən əlinə.

Simizər yolunu gözlər ölüncən,
Ölüm yeydi, yardan ayrı qalıncan.
Cahangiri həmrəh elə yanıncan,
Simizərin düşüb düşmən əlinə.

Namənin ayağın imzalayıb üstün möhr elədilər, verdilər Əncüm pəriyə. Əncüm pəri naməni götürüb rəvaneyi-rah oldu.

Əncüm pəri gəlməkdə olsun, eşid dastani kimnən? Müzruq, Müşrübdən ki, Sərhəngi Şamiyə köməyə gəliblər. Firəng padşahlarıdılar. Bir də Zərqəm gəlibdi, bular oturublar, yeyillər-içillər. Sərhəngi Şamiyə üz dolandırdılar ki, sən bu islam qoşunuynan baş edə bülmürsən? Bu yan tərəfdən Müzruq, Müşrübün əyyarları çoxdu, əmma bir əyyarları vardı, adına Sarık Əyyar diyəllər, yetmiş iki sürətə girər. Bunu istədilər, qabağına on tabax qızıl qoydular. Dedilər ki, gedəsən, bu iki nəfərin başın gətirəsən, özün istəmirik. Sərhəngi Şami deyir ki, əgər bu iki nəfər olmasa islam qoşunu döneyliy edər.

Sariq Əyyar gəlib yetişdi islam qoşununa. İslam qoşunu içində dolanmaqda olsun. Günorta zamanıdı. Əmma eşid kimnən? Əncüm pəridən. Əncüm pəri gövərçin üzündə gəlib yetirsin islam qoşununa. Gördü bir nəfər əyyar sini-sini dolanır. Gəlir, yetirdi Şikariynən Cahangirin yatdığı çadırı tapdı. Elə ki varid olsun içəri, Əncüm pəri gövərçin sürətində qondu çadırın bərabərində yerə. Gördü bu əyyar bihüşdərini çıxardıb, Şikari və Cahangirin burnuna tutdu.

Əncüm pəri Şikariyi görəndə bir göyüldən, min göyülə aşıq olur. Sariq Əyyar əl elədi ki, xəncərlə Şikarinin başın kəssin, Əncüm pəri bir sehr oxudu, Sariq Əyyarın xəncər əlinnən düşdü yerə. Baxdı gördü bir gövərcin oturub, bildi ki, bu da sehrgərdi. Əncüm pəri bir dana da sehr oxudu, böyüh bir uqab oldu vurdu bunu çəngəsinə, apardı. Sərəndib dəryasının yanında bir ağac var idi, möhkəm səridi o ağaca. Nəməneynən? Başının tüküynən. Əl elədi taziyanəyə, dört yüz dana taziyanə vurdu.

Dedi:

– Nə iş görürdün?

Dedi:

– Sərhəngi Şami mənə on tabax qızıl veribdi, gəl sənlə oları öldürax, qızılların yarısın verim sənə.

Dedi:

– Bağladım burda qiyamətə kimi qalacaxsan. Başımın tüküynən. Sövgülümün qılıncının ucuna bağladım səni.

Dedi:

– Sənin sövgülün kimdi?

Dedi:

– Elə Şikaridi.

Deyib, düzəldi yola. Gəlib oturub Şikarinin başı üstə. Hənüz Şikari ayılmamışdı. Bu dillərinən görək nəmənə desin? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Əncüm pəri Şikariyə dedi:

Nə yatmısan xab içində,
Gətirmişəm xəbər sənə.
Bülbül ayrılıb gülünnən,
Gətirmişəm xəbər sənə.

Səba dəyər, tel örpəni,
Baxanda göz xirələni.
Ürəkdən sevirəm səni,
Gətirmişəm xəbər sənə.

Sözlərim yetdi təmamə,
Qoynumda var cüt məmə.
Əncüm gətiribdi namə,
Gətirmişəm xəbər sənə.

İkiəlli naməni qoynundan çıxardıb verdi Şikariyə. Şikari oxusun, məzmününnən xəbərdər olsun. Qızların meşəyi Məhləkədə tilsimi-Heyhatə düşdüklərini dedi. Sərəfraz şahın əlindədilər dedi. Şikari dedi: “Sən getginən, sağlıq olsa mən gedərəm”.

Əncüm pəri getdi, yoldan genə döndü. Şikari hara gedir, Şikarinin başı üstündə gedir, əl çəkəmmir. Şikari də Mənzər şahı

Yəməni, Keyvan sovdagəri, Cahangiri, Cahandarı, Şirzadı Tigzəni-hamısın yığıb cərəyanı olara dedi ki, Simizər tilisimi Heyhatə düşüb, dedi, mən getməliyəm.

İstədi onun yerinə gessin, Cahangir dedi: "Atacan, qoy mən gedim". Dedi: "Sən kəmərbəstə dəyilsən, Sahibqıran dəyilsən. Sən burda qalmalısan. Mən gedirəm, əmma düşmən bilməsin ki, mən qoşunda yoxam. Bir də vəsiyətim odur ki, əgər Şamı alsaz, Keyvan Dilavəri Şamda padşah eliyin". Sora da Firuz Əyyarınan bu rəvaneyi-rah oldu.

Sərəfraz şah yeddi dana tilsim bağıyıb Şikarinin adına meşəyi Məhləkədə, özü də nəzərinə qoyubdu ki, hər bir tilsimə on il dəva eləsə, olar yetmiş il. Şikari gəlib bura çatana kimi qocalar gedər. Elə ki gəldilər meşəyi-Məhlakəyə, qədəm qoydular birinci tilsimə girdilər.

Birimci tilsimidi, tamam qurt. Şikari əl eliyib şəmşirə, Əncüm pəri də başının üstündədi. Əncüm pəri sehr oxuyub, Şikari buları öldürdü, yoxsa Şikari olarınan hardan baş edəcəyidi? İkiminci tilsimi şir, üçümüncü pələng, dördümüncü bəbir, beşiminci əcayib heyvənatdı, oları da öldürüb keçdilər. Altımıncı... yetirdi bir dana dəryanın kənarinə, dərya bütün qandı. Şikari dayansın dursun, Əncüm pəri üz dolandırdı:

– Dilavər, bura kimi səni gətimişəm, vəli burdan o tərəfə mənim qudrətim yoxdu, bunun sehrini mən bilmirəm.

Şikari dedi:

– Sən kimsən?

Dedi:

– Mən Əncüm pəriyəm, namə gətirən.

Şikari qaldı neyniyim, neynəmiyim? Bu durub dəstnamaz aldı, iki rəkət namaz qılıb. Götürüb bu dillərinən Şikari görək nəmənə diyəcək?

Şikari dedi:

Qadir Allah, budur sənnən diləyim,
Özün düzəlt, bu işləri düzəldən.
Sakit ola, bəlkə, mənim ürəyim,
Özün düzəlt, bu işləri düzəldən.

Bir bağbanam, əlim üzülüb bağdan,
Nə yazdan gül dərdim, nə də bahardan.
Necə əl götürüm mən Simizərdan,
Özün düzəlt, bu işləri düzəldən.

Qadir Allah, özün eylə çarəni,
Kim sağaldar sevgi vuran yaranı?
Şikariyəm, gedim gəzim haranı,
Özün düzəlt, bu işləri düzəldən.

Dəli göyül, atəşlərə atılma,
İnnən belə dünya sənə dar olmaz.
Bir mərt qazansa, yüz namərd doyuyar,
Yüz namərd qazansa, mərdə bir nahər olmaz.

Söz tamam oldu, ağlıyıb bihüş oldu, genə kim gəldi bunun rüyasinə? Genə Xızır peyğəmbər özün yetirdi ora. Xızır peyğəmbər Şikariya dedi: "Şikari, oğlum, bəyam mən sənə "batili-sehri" örgətməmişəm? Sən niyə yadınnan çıxatmısan axı?"

Dedi: "Onu burda desəm, yol tapa bülləm gedəm?" Dedi: "Oğul, o "batili-sehri"di, onu harda oxusan, hər nə işin olsa peş gedər".

Xızır peyğəmbər bir dəst libas verdi, Şikarinin geydirib əyninə, bir kəmər bağlıyıb belinə, Xızır peyğəmbər qeyib olsun. Şikari gəlsin özünə, gördü libaslar əynində, kəmər belində. Durub ayağa mərkəbinə səvar olsun, "batili-sehri" oxusun, nə dərya, nə su, nə qan heş zad qalmadı.

Mərkəbi heyliyib, mərkəbi-Əjdaxar yeridikçə ayağının altınnan toz qalxır. Gedir, bir yerdə gördü susuzzux buna çox əl verdi. Yeddiminci tilsimdə gördü bir qarı, övrət oturub bir ağacın dibində, ayran satır. Bu yan tərəf dağdı, o yan tərəf biyəban. Bir dana da məqarə var. Elə ki yetirib qarı nəniyə, dedi:

– Salam.

– Əleyküm salam, bala.

Sordu:

– Nə iş görüsən?

Dedi:

– Ayran satıram, bala.

Dedi:

– Axı bu çöldə, biyəbanda sən nə ayranı satısan?

Dedi:

– Bala, burda müştəri çox olar, yol üstüdü.

Şikari dedi:

– Ürəyim yanır, onnan bir kasa verə bilisən mən içəm?

Dedi:

– Bala, niyə verəmmirəm?

Bu mərkəbi-Əjdaxardan düşsün yerə, alıb kaseyi ayranı istir çəksin başına, Firuz Əyyar qarıya dedi:

– Al qabaxcan sən iş görüm.

Qarının əl-ayağı titrədi. Necə işsin bunu? Əl-ayax titrədi, kasə əlinnən düşdü yerə, elə ki əlinnən düşəndə yerə, qarı dad çəkdi. Firuz xəncəri basdı bunun qarnına. Elə ki qarı öldü, yeddi dana nərrə dev o məqarədən çıxdı gəldi Şikarinin üstünə. Şikari əl eliyib şəmşirə, buların altısın öldürdü, onu da tutdu qoydu ayağının altına. Dedi: "Xətakar, öldürəcəyəm, deyin görüm siz kimsiz burda?". Dedi: "Səni and verrəm cəlali-İlahiyə, məni öldürmə, deyim da. Mənim bir neçə söz vəsiyətim var sənə, onnan sora öldürsən də öldür". Bu ibarət ola Sütürsər devdən ki, indi çıxıb qabağına.

Bu dillərinən görək Sütürsər dev Şikariyə nə deyəcək. Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına. Sütürsər dev Şikariyə dedi:

Bəni-adəmdən mən özüm eşidmişəm,
İyid gərək basdığını kəsməyə.
Sərəfrazdan ötür candan geçmişəm,
İyid gərək basdığını kəsməyə.

Əvvəl sözüm budur sənə, ey cavan,
Necə keçdin dəryanı, tutmuşdu qan.
Diyərəm kəlməni, ollam müsəlman,
İyid gərək basdığını kəsməyə.

Hər kəsilən nanü-nəmək yiyəllər,
Onlarınan libası, hırkayi giyəllər.
Mənim adıma Sütürsər də diyəllər,
İyid gərək basdığını kəsməyə.

Bu sözü dedi, üz dolandırdı:

– Cavan, məni öldürməginən, məni özüvə qulamı həlqəbeqüş eləginən, özüm də müsəlman ollam.

Bu oldu müsəlman, bir dana nal götürdü saldı qulağına, qulamı həlqəbeqüş oldu. Dedi:

– O qarı da ki, öldürdüz o, Nənə cadu idi ki, Sərəfraz şah qoymuşdu bura, siz burdan keçəndə sizi öldürək.

Elə ki bunu azad elədi, Sütürsər dev gessin, durub ayağa, mərkəbə səvar oldu, qədəm qoydu meşəyi-Məhlakəyə. O yan tərəfdən Əncüm pəri yetirdi özün Sərəfraz şahın huzuruna. Sərəfraz şah dedi:

– Hə, de görüm Əncüm pəri, neçə gündü getmisən, Şikaridən bir xəbər?.

Dedi:

– Şikari qədəm qoydu meşəyi-Məhlakəyə.

Dedi:

– Necə qədəm qoya bilər meşəyi-Məhlakəyə? Yeddi yerdə mən onun adına tilsim bağlamışam.

Dedi:

– Mən neynim, batili-sehri başarır, gəlibdi.

Şikari gəldi, dayanıb burda mərkəbi-Əjdaxarda. Elə ki görsün Şikarini tez bir dana məntər oxuyubdu, qızların hamısı çadırdaydı, çadır göz önünnən qayib olsun. Sərəfraz şah bunu peşvaz elədi. Elə ki varid olsunlar çadıra, bir neçə kəlmə danışdılar. Sərəfraz şahınan, Reyhan pəri çadırın yelkanınnan baxır, deyir: “Pərvərdigara, görəsən belə də cavan olar? Mən qiyam-qiyamət olsa, bu oğlannan ayrılmaram, elə bu mənim sövgülümdü”. Sərəfraz şah Şikariyə dedi:

– Bilirsən, səni niyə bura gətirmişəm?

Dedi:

– Qurban, desən billəm.

Dedi:

– Sən iki dəqiqə əyləş burda, ta mən gəlim.

Çıxıb Reyhanəni çağırdı. Dedi:

– Qızım, sənə bir neçə kəlmə sözüm vardı.

Götürüb bu dillərinən görək nə diyəcək? Sərəfraz şah Reyhanə pəriyə dedi:

Sən mənim istəkli əziz qızımsan,
Bir sözüm var, onu yerə salma sən.
Ağzımda söhbətim, ürəkdə sözüm,
Bir sözüm var, onu yerə salma sən.

Əgər baxsan ürəyimdə yaraya,
Rəhmin gələr mənim tək biçariyə.
Səni verim, qızım gəl, Şikariya,
Bir sözüm var, onu yerə salma sən.

Sərəfraz şah bir ərz edər sənə,
Bu qədər yara, gəl vurma sinəmə.
İndi mənim işim düşübdü sənə
Gəl sözümü, qızım, yerə salma sən.

Reyhanə pəri dedi:

– Sözüvü qəbül elədim.

Sərəfraz şah dedi:

– Biz içəridə oturduğumuzda sən gələrsən içəri və Şikarinin dizinin üstündə oturarsan, sorasını mən düzəldərəm. Elə ki Sərəfraz şah gəldi, bir az üstünnən keçib, Reyhanə pəri gəldi. Şikarinin gözü sataşanda gördü, ey dadi-bidad, elə bil hüriyi-qılmandı.

Qəm çəkmə göyül, məclisə canan genə gəldi,
Bu qadiri birühə verən can genə gəldi.
Bir neçə gün olmuşdu günüm tirə qəmindən,
Şəd etdi məni, ol mahı-təban genə gəldi.

Fırlandı, dolandı, gəldi oturdu Şikarinin qucağında. Qız elə ki oturdu Şikarinin qucağında, qolların saldı Şikarinin boynuna. Şikari Sərəfraz şaha üz dolandırdı:

– Qurban, bu kimdi? Bəs niyə belə eliyir?

Dedi:

– O, mənim qızımdı, çün sən özün şahsan və bir dilavərsən, mən də istirəm onu peşkəş eliyəm sənə.

Şikari sözün ağzında kəsdi, dedi:

– Qurban, yalan deyisən. Gərək rəsminən, rüsuminən, əgər sən düz diyisən, mənə bir kağaz ver.

Sərəfraz şah dedi:

– Mənim başım üstə.

Sərəfraz şah əl elədi kağız-qələmə. Yazdı da, imzaladı da. Dedi:

– İndi sən də o qızların birin peşkəş eliyəsən mənə.

Şikari dedi:

– Mən bülmürəm ki, qızlar hayandadı? Sən yerin bilisən, yolla gəlsinlər bura, görüm sən hansısın istisən?

Sərəfraz şah Reyhanə pəriyə dedi, get qızları gətir buraya. Reyhanə pəri qızları gətirdi, bir-bir içəri girdilər. Şikari dedi:

– De görüm, bu qızların hansın istisən mənnən?

Sərəfraz şah Simizərin biləyinnən tutdu, dedi:

– Mən bunu istirəm.

Şikari baxdı gördü on səggiz il bu göz dustağı çəkib, zindanda qalıb. Dedi:

– Qurban, heş onnan mənim cərəyanımnən baxəbərsən?

Dedi:

– Cərəyanız nəmənədi?

Götürüb görək Şikari Simizərin barəsində nəmənə diyəcək? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Şikari Sərəfraz şaha dedi:

Gəl sənə söyləyim, Pərilər şahı,
O mənim ürəyim, bu cismimə candı.
On səggiz il qalıb düşmən əlində,
O mənim canımda rühü-rəvandı.

Sərəfraz şah dedi, indi ki bunu vermədin, tutdu Nazikbədənin biləyinnən:

– O sənin, bunu verginən mənə.

Dedi ki, qulağ as, onun da sözü çoxdu, ərz eliyim. Götürüb bu dillərinən görək Sərəfraz şaha nə deyir.

Şikari dedi:

Səni nümayəndə eylədi Süleyman,
Məğribdən məşriqə eylədi fərman.
O qız mənnən ötür olub müsəlman,
O dini islama pərçəm vurandı.

Sərəfraz şah dedi: "Xeyli xüb, bu da sənin". Onnan da əl götürdü, yapışdı Qönçələbin biləyinnən ki, Cahangirin xanımısıdı. Şikarinin gözləri doldu. Sərəfraz şah dedi:

– Dilavər, halın niyə əvəz oldu?

Dedi ki, qulağ as deyim da niyə əvəz oldu. Şikari ö bürü kəlməsin bu dillərinən aldı sazın görək nə dedi.

Şikari dedi:

Yengi, yengi bağçaların barıdı,
Almasıdı, heyvasıdı, narıdı.
Şikari diyər, o, Cahangir yarıdı,
O ərşəddi, özü böyük aslandı.

Sərəfraz şah dodağın vurdu dodağına: "Zərəbə, zərnə, əbə büvə püf." Bu çadır oldu nasırga kimi bir şey. Hamısın yığdı bir yerə, çadıra, qaxdı göyə. Şikari özünə gəldiyində Firuz Əyyarla üş gün lələgiryan dolansınlar, üş günnən sora Şah Şuca bulara ras gəldi. Dedi:

– Şah Şuca, mən getməli oldum qızların dalısıcan. Gedəsən mənim oğlanlarıma diyəsən, dədəvüz getməli oldu dubarə qızların dalısıcan.

Şah Şuca gəlsin Şamə sarı, Firuz Əyyarınan Şikari gedillər hara? Qızların dalısıca. O dedi ki, əgər biz istəsək gedək Gülistani-İrəmə, əvvəl gərək gedək Sərəndibə. Sərəndibdə Həzrəti Adəmin qədəmgahın ziyarət eliyək. Hər ikisi yol gəlillər. Bir ay ikisi də yeridilər. Bir ay yeksərə yol gələnnən sora, bir yerdə yatmışdılar. Gecənin bir vəxtində Şikari gördü ki, çox sızıltı səsi gəlir, Firuz da yatıbdı. Durdu o yana, bu yana qulağın yatıtsın, sızıltı səsi gələn səmtə getmağa məşğül oldu. Gedib gördü bir nəfəri bağlıyıblar ağaca, bir dana nazik tükünən, munun sızıltısı asimanə bülənd olub. Ürəyi yandı buna, yetirdi yaxına, soruşdu:

– Səni niyə bağlıyıblar bura?

Dedi:

– Dilavər, əgər məni burdan açasan, dünya malınnan səni qəni elərəm.

Şikari əlin atdı bu tükü qırsın, gördü qırılmır. Bu eynidə Firuz yuxudam ayılsın, gördü Şikari yox, durdu bu yol Şikarini axtardı, gəldi gördü onu ipin yanında, istir şəmşirinən tükü kəssin. Şikariyə dedi ki, Şikari dayan, sən dur dalıda görüm. Dedi:

– Sənin adın nəmənədi?

Dedi:

– Mənim adıma Sariq Əyyar diyəllər. Mən Sərhəngi Şaminin yanınnan gəlmişəm, özüm də Müzrüq, Müşrübün əyyarlarınnanam.

Şikari eşidəndə əl elədi şəmşirə, şəmşiri qiləfinnən çıxardanda, bir dana şəmşir vurdu, ağacınan Sariq Əyyarı aradan böldü, yarısı düşdü o yana, yarısı düşdü bu yana.

Şikari və Firuz Əyyar rəvaneyi-rah oldular. Gəlib yetirdilər Sərəndib dəryasının kənarinə. Gördü gəşti dayanıb, tacirlər mal vurullar, olar da gəştiyə mindilər, rəvaneyi-rah oldular.

Üş gün yol getdilər, üç günnən sora hər tərəfdən “Ya Allah” səsləri gəldi. Şikari dedi ki, nolub? Dedilər ki, naqqa istir gəmini qərq eləsin. Şikari neynədi? Şikari əvvəl həmmişə Allahı yad elər. Şikari götürüb bu dillərinən görək Allaha necə yalvarır? Mən də ərz eliyim, əyləşən ağaların, dosların sağlığına.

Şikari dedi:

Gəmimiz qərq olur dəryadə,
Nuha nəcat verən yetiş harayə.
Sən özün rəhm elə müsəlmana,
Nuha nəcat verən, yetiş harayə.

Fələk mənə sitəm etdi doyunca,
Ölüm yeydi bu dünyadə qalınca.
Mən gedirəm nazlı yarın dalınca,
Nuha nəcat verən, yetiş harayə.

Hamı fəryad çəkir edir əl-aman,
Şikari dərdinə gəl eylə dərman.

Şiələr ağası ol şahı Mərdan,
Nuha nəcat verən, yetiş harayə.

Şikari oxu qoydu kəmanə naqqanın gijgahın nişanə tutdu, vurdu naqqanın beyninən. Dərya oldu tamam qan. Tacirlər yığışdılar buların dörəsinə, hərəsi bir tas qızıl gətirib verdilər, həmdü səna yerinə gətirənnən sora yollarına qoyuldular. Bir neçə gün getdikdən sora yetişdilər dəryanın kənarına. Bular tacirlərdən ayrılsın Sərəndabə tərəf yola düşdülər. Sərəndabə iki ağaş aralı bir dana bağ vardı. Humayun şahın bir dana qızı var, benamı Qəmərrux. Qəmərruxun dayəsi, kənizi çoxdu, əmma birinin adı Əmbərdi. Şikarigil gəldi yetişdilər bu bağa. Şikari Firuza dedi ki, bu gecəni bağda qalax və bunnan bu yana yolu burdan soruşax. Gəliblər bağın qapısın döysünlər, bağban gəldi qapıya:

– Kimsiz?

Şikari dedi:

– Allah qonağıyux.

Dedi:

– Allaha da qurban olum, qonağına da. Amma mən burda bağbanam, Şahın qızı gəlib bura, mən eliyə bülmərəm sizi qonağ eliyəm.

Şikari dedi:

– Yolu bizə görsət, biz nə cur Sərəndibə getməliyik?

Bular gəldilər bağın kənarinə. Gecə oldu, Şikari yatannan sora Firuz də başın qoydu yerə, əmma Firuz gördü yata bilmir. Niyə ? Bağdan bir ney, dəf, tənbür, ərgəvan səsi asimanə bülənd olubdu. Bunun bir torbeyi əyyarısı var idi. Gətirib qoydu bərabərində yerə. Bunun içində köhnə mündəris libasdan zaddan var idi. O libasları çıxardıb, öz libasların soyunub, pünhan elədi. Bir ayağına köhnə bir çarıx geydi, bir ayağına da givə geydi. Kəməndi atıb düşdü bağın içinə. Mının bir dana neyi var idi. yeddi bənd idi. Gəlib gördü bir qəsridi üş dört təbəqə, hürilər, mələklər, gözəllər tamam yığışıb bura. Çalırlar, oxuyullar eyşü işrətə məşğüldular. Hovuzun kənarində Firuz börün verdi yerə, neyi saldı dodağına. Bir "Hüməyün" başladı neydə, bu neyin səsi dəydi Qəmərruxun qulağına ki, Humayun şahın qızıdı.

Hammı sakit, qulax verdilər. Qəmərrux dedi:

– Əmbər dayə, çıx bir dörəni dolan gör bu səs hardan gəlir? Mənim bağıma kim gəlib?

– Əmbər dayə çıxdı getdi ney səsi gələn yerə, gördü bir piranə kişidi, börün verib yerə. Əmbər dayə dedi:

– Dur ayağa, xanım istir səni.

Dedi:

– Mən gedə bülmərəm, al dalıva götür.

Əmbər dayə gəlin geyimin birisidi, getdi bunu aldı dalısına. Firuz Əyyar minib Əmbər dayənin dalısına, getdi qızların yanına. Elə ki varid olsun qızların yanına, qızlar hammısı baxıb buna qah-qaha çəkib güldülər. Qəmərrux dedi: "Bu nə vəzdi?" Dedi: "Məni göynən cadu aparırdı, salıb, qıçım sınıb, libasım da yoxdu ki, dəyişəm, iynə sapım yoxdu ki, tikəm". Otutdular bunu bir yerdə. "Ney çal görüm", – dedi. Bu neyi salıb dodağına, başladı çalmağa. Qəmərrux dedi:

– Bu ney çalmağı kimnən öyrənmisən?

Dedi:

– Biz elə dədə-babadan ney çallıx. Bu bizim dədə-baba kəsbimizdi. Mənim bir oğlum var. Məni bağın içində salıb, onu da bağın eşiyində.

Qəmərrux Əmbər dayəni çağırıb huzürinə ki, gedin baxın görün. Bular gəldilər gördülər, Şikarini gətirdilər. Qəmərrux baxdı, pərvərdigara, mütəalın kərəm dəryası cüşə gələndə bunu yaradıb. Başınnan, gözünnən şahlıx tökülür. Qəmərrux Şikariyə üz dolandırdı, dedi:

– De görüm, sən hara gedisən? Hardan gəlisən?

Dedi, nazənin, qulağ as deyim da. Şikari götürüb bu dillərinən görək nə diyəcək, mən də ərz eliyim dosların sağlığına.

Şikari dedi:

Güzəşt eylə məni, sən ey şahzadə,
Bilmirəm ki, nə məkana gedirəm.
Səni gördüm, sevgim düşdü yadıma,
Bilmirəm ki, nə məkana gedirəm.

Ay gözəl çox olar dəryada mahı,
Cəmalıvı görən heş çəkməz ahı.
Götürüb aparıb Pərilər şahı,
Bilmirəm ki, nə məkana gedirəm.

Şikarinin yox kimsədən hərəsi,
Geyibdir əyninə cəng libasi.
İndi mənnən ötür tutubdu yasi
Bilmirəm ki, nə məkana gedirəm.

Dedi, sevgilim beş gözəldi, ikisi əyalımdı, biri gəlinimdi, ikisi də dayələridi. Pərilər padşahı Sərəfraz şah sehr gücünə onları mənim əlimnən alıbdı. Dedi: "Dilavər, dünyanın arası məğribdən məşriqə gözəl ola, hamısı sənə gələ, gərək məni də alasan. Mən Humayun şahın qızıyam, çün sənnən bir yerdə oturdum, yedim-işdim, çarəsi yoxdu, gərək məni də alasan".

Bular bu söhbətdə olsunlar, qızın iki dana qardaşı var. Birinin adı Şəhnazdı, birinin adı Şəhbaz. Bular şikara çıxmişdilər, yolları düşür bağın kənarinə, görüllər səs gəlir, qapını döyüllər. Qız pərişan oldu, Şikari dedi:

– Niyə belə eliyisən?

Dedi:

– Mənim qardaşlarım pəhlivandı, quş quşluğuyla mənim bağıma qanat sala bilməz. Əgər gəlsələr bura, səni də öldürəllər.

Bağban qapını aşsın, bular varid olsun içəri, gördülər bacının yanında bir nəfər dilavər oturub. Yetirdilər bular, əl elədilər şəmşirə, cumdular Şikarinin üstünə. Dedilər: "Dilavər, sən nəmahrəmsən axı, bu bizim bacımızdı". Şikari götürüb bu dillərinən görək bulara nə deyir:

Mərd oğlana xilafu şər yaraşmaz,
Varıdı başında bir göhərdən tacı.
Hər bağa, bağçıya dikən yaraşmaz,
Bu şirin ağzımı etməyin acı.

Şikarçıyam, namərd toru qurmaram,
Məzlumların heç boynun burmaram.

Nakəslə nanu-nəmək yemərəm,
Bu şirin ağzımı etməyin acı.

İskəndər babamnan vardı nişanə,
Bac alıbdı, pərçəm vurub dünyayə.
Gərək xəyanət olmasın islamə,
Şikari düşmənə vermiyib bacı.

Qızın qardaşları Şəhnaz və Şəhbaz Şikariyə dedi: "Sən evladi-İskəndərsən, bəs bu yanlarda neynisən?" Şikari mözünu mətrəh elədi: "Sərəfraz şah mənim beş dana nəmüsimi əlimnən alıb, sehr gücüynən götürüb aparıb Gülistani-İrəmə, mən indi oların dalısıcan gedirəm". Dedilər: "Əgər səndə biz namərdlik görməsək ölənə kimi sənə qulam ollux". Dedi: "Nə namərdliyi?" Dedilər: "Əgər bizim bacmızı almasan, biz səndə namərdlih görürük". Dedi, xeyli xüb. Dedilər: "Onda bacımızı götürək gedək şəhrə, babamızın yanına mözünu diyax, sən də gələrsən, babamızdan istərsən". Bəli, bular gedib babalarına dedilər ki, Şah Dara oğlu Şikari istir gedə Gülistani-İrəmə, yolu burdan düşübdü. Babaları gəldi onun peşvazına. Şikari buları belə görəndə Firuza dedi:

– Mənim sinəmdə bir neçə söz var, onu sənə deyim.

Şikari götürüb görək nə desin? Mən də ərz eliyim eşidənlərin sağlığına.

Şükr eylərəm birliyivə, ey Xuda,
Bu busatı Süleymanə vermədin.
Sənin cəlalivə deyim mərhabə,
Bu busatı Süleymanə vermədin.

Leyli həsrətinnən Məcnun saraldı,
Züleyxa meylini Yüsifə saldı.
Fərhad külüng ilən başını yardı,
Bu busatı heç insanə vermədin.

Baba İskəndərtək bağladı bəndi,
Hər yana gedəndə mindi səməndi.
Fələk Şikariyə verdi fırsəndi,
Bu cəlalı heç insanə vermədin.

Şikari dedi ki, mənə qədəmgahı Adəmi nişan verin. Gətirdilər qədəmgahı Adəmə. Elə ki buranı ziyərət eləsin, Şikari bir qədri ağlıyıb, bunu hüş apardı. Bir pay da Şikariyə qədəmgahı Adəmdə verdilər. Elə ki bu yatdı, aləmi-rüyadə buna diyillər ki, Şikari, Gülistani-İrəmın padşahlğı sənnən olacax.

Humayun şah öz-özünə dedi: "Bu evladı İskəndərdi, mən gərək buna bir nümayiş verəm, ta bunun hünərin görəm". Şikariyə üz dolandırdı: "Oğlum, bizim bu dəryada çox yaxşı mərkəblərimiz olar. Bulardan birin tuta bilsən, çox yaxşı olar sənin üçün. Sən bunnan bu tərəfə devlərinən, pərilərinən tərəf olacaxsan".

Şikari özün vurdu dəryayə, bir o qədr zəman çəkmədi, dəryadan bir dana mərkəb tutdu. Mərkəbin adına deyillər Üqabı Devzad. Şikari mərkəbi-Əjdaxarı qoyacax qalsın burda, burdan bu yana Üqabı Devzadınan gedəcax.

Qəmərruxu verdilər Şikariyə və Əmbər dayəni də verdilər Firuz Əyyara. Bir neçə gün eyşü işrətə məşğül olannan sora isdillər ki, bular gessin Gülistani-İrəmə sarı. Şikari üz dolandırdı:

– Nazənin, çün mən gedəcağam, sənə bir neçə kəlmə sözüm var.

Götürüb Qəmərruxa bu dillərinən görək nə deyir? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Şikari Qəmərruxa dedi:

Başına döndüyüm Qəmərrux yarım,
Qulax ver sən indi neçə kəlamə.
Oğlanlarım əgər gəlip soruşsa,
Diyərsən ki, gəlmişdi bu məkanə.

Mən aşiqəm, gəlmədi,
Köçüm getdi, gəlmədi.
Fələk mənnən bəd etdi,
Ağlar üzüm gülmədi.

Zamanə dolanıb bir zaman olsa,
Fələk aramıza ayrılıq salsa.
Allah versə, səndən bir oğlum olsa,
Bu bazübəndi verərsən nişana.

Mən aşıq, yar qana,
Yar sözün, yar qana.
Vurulmuş bir sonayam,
Sığınmışam yarğana.

Şikari dəryada eylər şikar,
Mənnən bu sözləri saxla yadigar,
Cahangir, Cahandar, Cahanbəxş olar,
İndi getməliyəm mən Gülistanə.

Bu dağda maralım var,
Ox dəyib, yaralım var.
Nə gecə yuxum gələr,
Nə gündüz qərarım var.

Şikari üz dolandırdı:

– İki dana oğlum var, biri Cahangir, biri Cahandar, əgər sənnən də oğlum olsa adın Cahanbəxş qoyarsan.

Bir cüt bazübəndi də verdi ki, əgər bunu bağlasan mən harda olsam gələr tapar, ya ki qız olsa cəhaziyasin, hər bir şeyin görər. Şikari bazübəddəri versin, Firuz da bir dana tülkü quyruğu verdi öz xanımısına, Əmbər dayəyə ki, uşağ olannan sora bu tülkü quyruğun bağlıya bir dana ağaca zada, heş zad bunun dörəsinə dolana bilməz. Elə ki yola düşdülər, az gediblər, çox gediblər, Həddisəddə Pərizadə və Divzadə yetişdilər.

Sərəfraz şahın bir qardaşı var, adına Əlavə şah deyillər. Devlərin padşahı idi. Sərəfraz şah da pərilərin padşahıdı. Əlavə şahın bir dana oğlu var, adına Zərdan deyillər. Əlavə şah Sərəfraz şahdan qızını neçə dəfə isdiyib, vermiyib buna. Hər səfərində yüz min dev aparar, genə şikəst yiyər, gələr Kühi Kafda sakin olar, ta yüz min qoşun dübarə yığa gedə Həddisəddə Sərəfraz Şahınan cəng eliyə.

Bular Həddisəddə gəlib yetirdilər. Şikari dəstür verdi Firuza ki, çadırımızı qur görək. Elə ki çadırı qurdular, Firuz tüpənginən iki dana ov şikar elədi. Oları gətdilər, başın kəsiblər, soyublar, ətinnən kəbab eliyillər yeyillər. Bir də gördülər ki, Üqabı

Devzad bir kişnədi. Firuz bir çadırdan çıxdı baxdı, gördü iki dana nərrə dev budu ha, gəlir. Gəlib dayandılar çadırın qabağında. Şikari çıxıb eşiyə dedi:

– Bəli, fərmayişiz nəmənədi?

Dedilər:

– Bizim padşahımız harda bəni-adəm görsə, ona çox xidmət elər. Sizin qəlmağızı bilibdi. Bizi əziyət eliyir ki, kim bu bəni-adəmləri gətiribdi bura? Sən də onun yanına gələsən.

Durublar çadırı zadı yığışdırıblar, bahəm gəldilər. Elə ki gəliblər varid oldular buların dərbarına. Əlavə şah üz dolandırdı:

– Oğlum, de görüm səni hansı devlər gətiribdi bura?

Şikari dedi:

– Mən özüm gəlmişəm.

Dedi:

– İndi ki, özün gəlmisən, sən çox xoş gəlmisən.

Bulara pəziralıx elədi. Minayə şərab qoyuldu arayə. Yedilər, işdilər. Ora şərablar gəldi. Əlavə şah üz dolandırdı:

– Oğlum, hardan gəlisən? Hara gedisən? Nə əcəb bu yanlarda görsənisən?

Söhbətə məşğuldular, buların başına yığva yığıb, ceşn tutublar. Əlavə şah üz dolandırdı: “Mənim çalğıcılarım gəlsinlər. Bəli, mənim çalğıcılarım gəlsinlər”. Firuz baxdı gördü ki, nazəndə düzülüb bir-birinin dibinə. Firuz baxır birinin bıynızına, birinin başına, birinin quyruğuna. Gördü buları hərəsinin əlində bir dev bıynızınnan, kərgədan bıynızınnan, ov bıynızınnan, başın dəlib, ….. dəlib, bir dana ip salıblar.

Bular başladılar çalmağı, “dadada”, “dududu”. Şikari gördü ki, az qalır dağlar çöksün. Firuz dedi ki, qurban, bizə görə çalsalar bəsimizdi, bura kimi görər. Firuz əl elədi torbeyi əyyardan o neyi çıxatdı. Firuz başladı neyi çalmağa. Şikarinin ürəyi dərdə gəldi. Şikari alıb bu dillərinən görək nə desin? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Şikari dedi:

Mey verdilər, işdim, oldum məstanə,
Bilmirəm ki, nazlı yarım hardadı?

Ölsəm də halaldı, minnət yox canana,
Bilmirəm ki, o cananım hardadı?

Ölənəcən yar yolunda ağlaram,
Sinəm üstün çarı-çapraz dağlaram.
Ürəgimi həqiqətə bağlaram,
Bilmirəm ki, nazlı yarım hardadı.

O güneylər,
O quzeylər, o güneylər.
Həsrət həsrətin görəndə,
Bayramın o gün eylər.

Şikariyəm, işdim əlinnən badə,
Əzəldən gülmüyüb üzüm dünyadə.
Ağlaram, Simizər düşübdü yadə,
Bilirəm, sevgilimin gözü yoldadı.

Bir də mən,
Doldur içim bir də mən.
Ömr azaldı, gün keşdi,
Cavan olmam bir də mən.

Sözlərin tamam eləsinlər. Əlavə şah dedi:

– Sənin sevgilin hardadı?

Şikari dedi:

– Mənim sövgülümü Sərəfraz şah götürüb aparıb Gülistani-İrəmə.

Dedi:

– Sən ki padşahsan, niyə gəlib qalmısan dağın damənəsində?

Dedi:

– Sərəfraz şahdan deməginən, o mənim qardaşımdı. Oğlum Zərdan var, qızın istirəm oğluma, əmma vermir.

Şikari bir az fikrə getdi. Reyhanə pəri bunun əyalıdı, meşeyi-Məhlakədə alıbdı. Şikariyə göz elədi ki, demiyəsən ha, Reyhanə pəriyi mən almışam.

Elə ki fikrə getdi, Əlavə şah dedi:

– Oğlum, çox fikrə getdin?

Götürüb bu dillərinən desin ki, mən Reyhanənin yerin bilirəm. Şikari dedi:

Sənə deyim devlər şahı,
Reyhanəni mən görmüşəm.
Hər zaman çəkərəm ahı,
Reyhanəni mən görmüşəm.

Şaşmasın devlər xiyalı,
Arı bağlar şanda balı.
Aya bənzər gül cəmalı,
Reyhanəni mən görmüşəm.

Şikariyəm, mən də sevdim,
Soruşdum, dərdivi bildim.
Tilsimi Heyhatda gördüm,
Reyhanəni mən görmüşəm.

Dedi, meşeyi-Məhlakədə tilsimi Heyhatdə gördüm. Sərəfraz şah mənim namüslarımı onun yanında saxlıyırdı, tilsimini sındırmışam. Devlər dedi:

– Tamam tilsimilərə yolumuz var, əmma meşeyi-Məhlakəyə yolumuz yox.

Əlavə şah dedi:

– Oğlum, Zərdana namə yazaram, gələr Reyhan pəriyi alar və sənin də nəmüslarını alam.

Şikari dedi, indi ki belə oldu, gedax Gülistani-İrəmdə oları qurtarax. Əlavə şah dedi:

– Oğlum, mənim əlli min qoşunum var, gərək əlli min də yığam, onnan sora gedax sənin sövgülüvü alax və mən də Reyhanə pəriyi oğluma alam.

Bular burda qoşun yığmaxda olsunlar, eşid dastani Gülistani-İrəmdə bağı Süleymanidə Sərəfraz şahdan. Sərəfraz şah qızları verib Reyhanə pəriyə təhvil. Reyhanə pəri də dədəsin əldə, başda dolandırır (Necə ki, Nazikbədən Sərhəngi Şamini əldə,

başda dolandırırdı). Sərəfraz şah üz dolandırdı Camasib həkimə. Camasib həkim həm həkimdi, həm vəzirdi. Özü də rəmlidən başı çıxar. Camasib həkimə üz dolandırdı:

– Bir rəml at görüm, mənim işim nə cur olacax?

Camasib həkim rəml atıb, üz dolandırdı:

– Qurban, mən sənə bir məsləhətli söz diyərəm, bu şərtinən qəbül eliyəsən.

Sərəfraz şah dedi ki, de görüm, nə diyəcaxsan? Camasib həkim dedi:

– Mən rəmlidə baxıram, görürəm, səlahiyəti yoxdu, sən gəl bu Şikarinin nəmüsların ver, bu götüsün aparsın öz vilayətinə. Axirdə sən bəd görərsən.

Dedi:

– Camasib həkim, bu sözü səndin dedin, ayrı adam olsaydı verərdim dilini çıxadardılar. Mən Simizəri verrəm Şikariyə? Nə müddətdi zəhmət çəkirəm.

Camasib həkim üz dolandırdı:

– Qurban, mənnən deməhdi, onnan sora özün bilərsən.

Əlavə şah yüz min devin tədarikin görüb, Şikarini, Üqabı Devzad və Firuz Əyyarı taxta parənin üstünə qoydular, yüz min devinən qaxdılar göyə. Gülistani-İrəmdə buları qoydular yerə. Elə ki cəbhiyə girdilər, çadırların vurublar. Bu yan tərəfdən Əlavə şah bir dana namə yazdı, Sərəfraz Şaha belə yazdı ki, oğlum Zərdan sənnən xəcalətlih çəkir, diyir mənim əmimdi, üzünə baxa bülmərəm. Gəlginən qızını verginən mən alım oğluma.

Bunun bir dana qasidi var, devdi, adına Mancelus dev diyillər, namənin ayağın imzalayıb verdi Mancelus devə. Şikari dedi:

– Mən də Mancelus devinən gedəcağam.

Gəlib yetirdilər bağı Süleymaniyə. Bağı Süleymanidə qapıdan varid olanda, Şikariyə üz dolandırdı bu Mancelus dev:

– Sən otu bu ağacın dibində, naməni aparım verim, cavabın alım gətirim.

Pərizadların bir dəbi vardı, qasid gələndə onu yedirirdilər, içirirdilər, sora naməni verirdilər. Mancelus dev gessin, Şikari durub ayağa dolandı. Dolananda bunun qulağına bir səs dəydi: “Sa-

lam, Şikari.” Şikari dönüb baxanda gördü, ey dadi-bidad, Əncüm pəri di. Şikari dedi:

– Salam, mənnən olsun ey pərizad, sənin başıva dolannam, əgər gec gəlsydin Sariq Əyyar məni və Cahangiri öldürəcəkdi.

Bular bağı Süleymanidə gül ağaşlarının dibində oturdular yerə, qol-boyun oldular. Şikari orda buna bir-üş günlüh siğə oxuyub, gül ağacının dibində bununla bir eşq elədi. Elə ki dursunlar ayağa, Şikari dedi:

– Qızlardan mənə bir xəbər?

Dedi:

– Qızlar burdadı, uzaq yerdə dəyillər.

İkisi durub gəliblər qızların çadırına. Əncüm pəri dedi:

– Sən duracaxsan burda, mən gedəm qızlara müjdə verəm.

Əncüm pəri girdi çadıra, başladı oynamağa. Götürüb bu dillərinən görək nə diyəcəh, mən də ərz eliyim eşidənlərin sağlığına.

Əncüm pəri dedi:

Xəbəriz yox bu xəbərdən,
Bir şad xəbər verim sizə.
Sevgi sevib sevənlərdən,
Bir şad xəbər verim sizə.

Müsəlmanı Allah yıxmaz,
Gözüm naməhrəmə baxmaz.
Necə dedin gəlib çıxmaz,
Bir şad xəbər verim sizə.

Sizə deyim Əncüm pəridən,
Keçibdi ömrüm yarıdən.
Darə oğlu Şikaridən,
Gətirmişəm xəbər sizə.

Hərə əlinə gələn ənamı verdi. Şikari varid oldu içəri, hamısıynan qol-boyun oldu, öpüşdü, sonra yemək, işmək. Reyhanə pəri üz dolandırdı:

– Şahzadə, mən istirəm sənnə xüsusi söhbət eliyəm. Əgər icazə versən gedək ayrı yerə.

Reyhanə pəri dəstür verdi pərilərə, Şikarini və qızları götdülər, yeddi aylıx yolu iki saatdə getdilər. Hara? Bağі Süleymaniyə. Burda duvarlar zər-zivər, ləl, cəvahir, yaqütinəndir. Nə fərşlər döşənibdi? Reyhanə pəri neynir? Qızlara şərabdə bihüşdarü verib, bular bihüş olsun, onnan sora Şikariynən eyşü-nüşə məşğül oldular.

Bular burda qalmaqda olsun. Qızlar hammısı, Reyhanə pəri, Şikari, Əncüm pəri, Simizər, Nazikbədən, Qönçələb, Mahızəmin dayə, Pərizad – bular burda qalmaqda olsun, eşid dastani Mancelus devdən. O, yeyib-içib naməni apardı Sərəfraz şahın huzürinə. Sərəfraz şah naməni oxuyub gördü Əlavə şah yüz min qoşununan gəlib. Namənin cavabını yazdı ki, qardaş, mən eliyə bülmərəm qızımı sənin oğluva verəm. Mənim sənə verməli qızım yoxdu. Mancelus dev qeyitsin. Şikarini qoyduğu yerdə tapa bilmədi. Bu yana, o yana, nə qədər baxdı, Şikaridən xəbər olmayınca döndü gəldi Əlavə şahın yanına. Əlavə şah üz dolandırdı Mancelus devə:

– Bəs, o bəni-adəm noldu?

O, dedi:

– Mən onu bir ağacın altına qoydum qeyitdim, tapa bülmədim.

## USTADNAMƏ

Qafil könül, bir məclisə varanda,
Ver qadağı, acı dillə danışma.
Hərcayı söz söyləmə, hərcayı demə,
Laf eliyib gülə-gülə danışma.

Aşıq gərək hər məclisdə sayılsın,
Sözünü eşidən qansın, ayılsın.
Kəlmə çıxa şirin cana yayılsın,
Aşırıb sözünü zilə, danışma.

Yazıq Hüseyn, əhdin yetir yerinə,
Könül bağla ərənlərin pirinə.
Çək sözünü həqiqətin dərinnə,
Hər qədirbilməzlə belə danışma.

Buların arasında cəng başladı. O yan tərəfdən Zərdan iki yüz devinən gəldi, savaşa məşğül oldular. Təbli-bazgəşt vurulub, bular qeyitsinlər. Gecənin ələmiydi, Zərdan üz dolandırdı:

– Atacan, de görüm mənim əmiqızım Reyhanə tapılıb, ya yox?

Dedi:

– Tapılıb.

Zərdan dedi:

– Bəs mən dururam gedəm, əmiqızımı gətirəm.

Durub ayağa gəlib yetirdi bağı, Süleymaniyə. Bargahi-Süleymaniyə varid olsun. "Salam", "Əleykum salam". "Hə, oğlum?". "De görüm qızıvı mənə niyə vermisən?"

Dedi:

– Oğlum, düzdü ki, dədəvinən mən qardaşam, dədə bir, nənə ayrı, mənim qızım pərizaddı, sən divzadsan, sən gər mənim qızımı bir dəfə öpəsən, o komplet gedər sənin qarnına.

Elə ki dedi, əl elədi Sətura, necə endirdisə, Sərəfraz şahın başınnan dörd barmaq eyləndi. "Tutun bu xətakari", – dedi. Hər kəs yerinnən qalxdı, əl elədi şəmşirə, cəng başladı, bunu dalı-dalı, dalı-dalı imarətdən çıxaddılar eşiyə. Zərdan bir çuxur yer varıdı, ayağı geşsin ora, yıxılsın, Zərdanı qıs-qıvraq tutullar. Sərəfraz şah dedi:

– Götürün bu itin başın, bir yerdə basdırın.

Ammə Camasib həkim qoymadı. Dedi ki, bəs dəstür ver, bunu baği-Süleymaniyənin birində zindani eləsinlər. Bunu pərilər iki saətin ərzində gətirsinlər o bağı-Süleymaniyə ki, Şikari dörd ağaş onnan aralıdadır. Bunu saldılar ayrı bir quyuya ki, orda çarmıxa çəhsinlər, min nəfər də buna keşih verdi.

Bu yan tərəfdən Əlavə şaha xəbər göndərdilər ki, Zərdan cəngdə öldü. Əlavə şah dedi:

– Üş gün oturum, balama əza tutum.

İndi eşid dastani kimnən? Şikaridən. Şikari üz dolandırdı Reyhanə pəriyə:

– Reyhanə, mən neçə gündü burdayam?

Dedi:

– Dört gündü.

Dedi:

– Mən getməliyəm.

Dedi:

– Xeyir, sən gedəmməssən, sən qiyamətə kimi burda qalmalısan. Qiyamət olunca burdasan sən.

Reyhanə qızlara əziyət eliyir, vurur. Şikari çox narahat oldu bu işdən. Dedi ki, Reyhanə, qulağ as sözümə. Vacib oldu, sənə bir neçə kəlmə söz diyəm. Şikari götürüb bu dillərinən görək Reyhanə pəriyə nə diyəcək? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Şikari dedi:

Ağlatma sən bu qırx incə qızları,
Gərək gedəm, burda qala bilmərəm.
Ürəyimdə qalsın yarın sözləri,
Gərək gedəm, burda qala bilmərəm.

Dolandırıb peymanəni doldurram,
Oğlanlığımı burda sənə bildirrəm.
Əgər hüri-qılman olsan, öldürrəm,
Gərək gedəm, burda qala bilmərəm.

İstəmirəm, gözünnən yaş tökəsən,
Şikarinin zəhmətini çəkəsən.
Ya dözəsən, ya mənnən əl çəkəsən,
Gərək gedəm, burda qala bilmərəm.

O, çox dedi, bu, az eşiddi, bu, çox dedi, o, az eşiddi. Şikari qəzəbləndi, əl elədi şəmşirə. Reyhanə pəri gördü ki, çox qəzəbləndi, Simin pəriyə üz dolandırdı. Simin pəri də Şikarini quyunun başına çıxaddı. Şikari baxdı gördü nə bağ var, nə qoşun var. Heş zad yoxdu. Bir qədr yol gələnnən sora gördü bir yerdə qoşun var. Şikari yerinnən qaxdı, əl elədi şəmşirə. Bular min nəfərdi, həmün min nəfərdi ki, Zərdana keşik verillər. Şikari əl elədi şəmşirə, doqquz yüz doxsan doqquzun öldürdü, qaldı biri. Onu tutub qoydu ayağının altına. Dev dedi:

– Sən kimsən?

Dedi:
– Mənim adım Şah Dara oğlu Şikaridi.
Dedi:
– Bunnan belə mən sənə dostam. Biz Sərəfraz şahın tərəfinnən Zərdana burda keşik veririz, Əlavə şahın oğludu.
Bunu ötürdü, dedi:
– Get, səni azəd elədim.
O, dalısına da baxmadan qaçdı. Bir dana dəyirman daşı çövürmüşdülər quyunun başına, götürüb atsın kənarə, səslədi:
– Zərdan.
Dedi:
– Bəli.
Bu kəməndin salladı, çəkdi. Şikari kəməndi bir yerə bağlayıb özü endi getdi quyuya. Çarmıxdan açıb sehr gücüynən eşiyə çıxdılar. Zərdan dedi:
– Mən də Əlavə şahın oğlu Zərdanam.
Şikari day demədi ki, mən Reyhanə pərinin yanındaydım. Şikari dedi:
– Məni bir cadugər aparıdı, burda sehri batil oldu, özü öldü, məni də saldı buların arasına, gördüm məni tutullar, buları öldürdüm.
Zərdan dedi:
– Evin yıxılmasın, burdan Gülistani-İrəmə yeddi aylıx yol var. Nə cür gedəcağıx?
Şikari dedi:
– Çıx mənim çiynimə.
Sehr oxuyub iki saətin ərzində yetişdilər Gülistani-İrəmə. Üçümüncü gündü. Zərdana yas tutublar, bu yan tərəfdən Əlavə şaha xəbər verdilər ki, oğlu Zərdan gəldi, Şikariynən. Dədə-bala öpüşmə, qol-boyun olma. Dedi ki, bala, bə sən hara getmişdin? Dedi ki, cərəyan bu curdu. Əlavə şah verdi təbli, şadiyanəni döydülər. Sərəfraz şah üz dolandırdı:
– Camasib həkim, o yan tərəfdə təbli şadiyanə döyüllər.
Dedi:
– Nə xəbərdi?

Dedi:
– Sabahlarım bəlli olar.
Şikari üz dolandırdı Əlavə şaha:
– Sabaha ver, təbli cəngi döysünlər. Sənə bir neçə kəlmə sözüm var.
Şikari götürüb bu dillərinən görək nə deyir, mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.
Şikari Əlavə şaha dedi:

Əlavə şah, sənə kəlam söyləyim,
Təbl döydür, sabah meydan mənimdi.
Hünərimi gərək bəyan eyliyim,
Təbl döydür, sabah meydan mənimdi.

Nəmusuma görə gəldim bu diyarə,
Məcnun tək çöllərdə qaldım avarə.
Ya öləm, ya bu dərdə edəm çarə,
Təbl döydür, sabah meydan mənimdi.

Şikariyəm, adımı bilməyən bilsin,
Namərd fələk qoymur üzüm gülsün.
Hər kim gəlir meydanıma, qoy gəlsin,
Təbl döydür, sabah meydan mənimdi.

Təbli cəngi döyülsün, əmma ad vermədilər ki, kimin adına təbli cəngi döyülür. Bu yan tərəfdən Şikari Üqabı Devzadı verdi yəhərlədilər, yeddi yerdən təngin bərkidib, ayağı zəngiyə, diz qəbirqəyə, şəhbaz kimi qərar tutsun, təmam cəng silahın geydi. Şikari Üqabı Devzadınan qədəm qoydu meydanə. Sərəfraz şah gördü ki, bu dilavər ayrı dilavərdi. Bu adəmizəddi. Üz dolandırdı Camasib həkimə:
– Camasib həkim, bu səvari kimdi, qədəm qoydu meydanə?
Dedi:
– Şikaridi bu.
Pərizadların tərəfinnən ki, qədəm qoymuşdu meydanə. Bu pərizad bir niyzə havalə elədi. Onu öldürənnən sora ö bürü gəldi, onu öldürdü, ö bürü gəldi. Bir neçəsin öldürənnən sora Sərəfraz şah hökm eylədi, ləşkər yerinnən tərpəşdi. Ağa, cəng başlansın,

Sərəfraz şah gördü, xeyir, bunun qabağında heş kəs dayanmaz. Sərəfraz şah qoşunu cəbhədən qeytərdi, basdı Gülistani-İrəmə. Bu yan tərəfdən təbli-bazgəşt vurulsun. Elə ki qoşun qeyitdi, Sərəfraz şah üz dolandırdı:

– Camasib həkim.

Dedi:

– Bəli.

Dedi:

– De görüm bu cavan kim ola?

Dedi:

– Qurban, kim olacaq, mən sənə əvvəl də ərz elədim. Şikarinin əyalın verginən götüsün gessin. Mən sizə neçə dəfə demişdim, ama siz qəbul eləmədiz.

Sərəfraz şah genə qəbül eləmədi. Dedi ki, qulağ as, sənə nə diyirəm? Götürüb Camasib həkim görək Sərəfraz şaha nə deyir? Mən də ərz eliyim, əyləşən ağaların, dosların sağlığına.

Camasib həkim Sərəfraz şaha dedi:

Səni nümayəndə edib Süleyman,
Hər nə desəm, gəl incimə mənnən.
Qəbül et sözümü, olma pərişan,
Qorxuram şahlığın gedə əlindən.

Bu dağda maralım var,
Ox dəyib, yaralım var.
Nə gecə yuxum gələr,
Nə gündüz qararım var.

Camasib həkim rəml bildiyi üçün bilirdi ki, Şikariyə Qədəmgahı Süleymanidə qırx il Gülistani-İrəmin padşahlığı verilib, orda Xızır peyğəmbər ona vergi verib. Sərəfraz şah dedi:

– Camasib həkim, sözün var, söz de, bu sözlərdən mənə kar yoxdu.

Camasib həkim dedi:

Gəl sülh edək, daha cəng qurtarsın,
Rəva dəyil, gül üstünü xar alsın.
Şikariyə ver, yarını aparsın,
Qorxuram şahlığın gedə əlindən.

Mən aşıq, qazan ağlar,
Ot yanar, qazan ağlar.
Qurbət yerdə ölənin,
Qəbrini qazan ağlar.

Camasib həkimin olma qəsdində,
Əlin olmaz Simizərin dəsdində.
Qızın Reyhanə gedə üstündə,
Qorxuram şahlığın gedə əlindən.

Mən aşıq, qan eylər,
Divan eylər, qan eylər.
Dost məni bu halda görsə,
Ya ölər, ya qanıma qan eylər.

Üz dolandırdı:

– Camasib həkim, qızları tap.

Tapa bilmədilər. Hər yeri vurdular bir-birinə, əmma tapa bilmədilər. Camasib həkim rəml atıb gördü Reyhanə qızları aparıb baği Süleymaniyə. Dedi:

– Qurban, qızlar baği Süleymaniyədədi.

Camasib həkim yolun-yöntəmin örgədənnən sora bular bir neçə dana pəriynən yola düşdülər. Sehr gücüynən iki saatin ərzində özün yetirdi baği Süleymaniyə.

Qızların az qalsın bağırları çattıyacaxdı. Üz dolandırdı:

– Qızım Reyhanə, de görüm burda neynisən?

Dedi:

– Atacan, qızlarınan gəlmişik gəzməyə.

Sərəfraz şah gördü qızın ləli-ləbi, üzü, gözü, dodaxları gövərib. Sərəfraz şah əl atır bunun yaxasına, köynəyin parə elədi. Gördü bunun bədənində də saf yer yox. Qız dimmədi. Pərilərdən birin tutdu qoydu ayağının altına. Dedi:

– De görüm, burda kim var idi?

Əl elədi xəncərə, pərilərin birinin başın kəsdi atdı o yana. Əl elədi ö bürün tutdu, pərilərin birinin də başın kəsdi. Simin pərini də tutdu qoydu ayağının altına. Dedi:

– Dört günüdü Şikari buradaydı.

Üzün çevirdi Reyhanəyə, Reyhanə pərinin dili tutar, tutmaz dedi:

– Məgər sən məni Şikariyə verməmisən?

Sərəfraz şah əl elədi, Reyhanəni ayağının altına qoydu, xəncəri çıxatdı. Reyhanə pəri dedi:

– Atacan, indi ki, məni öldürüsən, qulağ as, bir neçə kəlmə sözüm var, deyim.
Onnan sora ödürsən də öldür.

Qız götürüb bu dillərinən görək nə deyir? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Reyhanə pəri Sərəfraz şaha dedi:

Başıva dolanım, mehriban ata,
Sən özün vermisən pəhlivanə məni.
Mənnən sora şahlığın gedər bada,
Sən özün vermisən pəhlivanə məni.

Qəzəb halətində məni dindirmə,
Şikəstə qəlbimi sən də sındırma.
Eşq bazarıdı, məni öldürmə,
Sən özün vermisən pəhlivanə məni.

And verirəm o rühi-Süleymanə,
İltimas eyləyir qızın Reyhanə.
Gəl öldürmə, ver atsınlar ümmanə,
Acəl qərq eyləsin ümmandə məni.

Reyhanə pəri babası Sərəfraz şaha dedi:

– Dədəcan, indi ki, məni öldürəcaxsan, ver atsınlar məni dəryayə.

Reyhanə pəriyi qoydular sandığın içinə, atdılar dəryayə. Qızların saçlarınnan da bir-birinə bağladı. Təxti Süleymaninin altı zirzəmidi, onun yolu qapısı da o təxtin altındadı. Reyhanəni ki verib, atıb dəryayə, yel vurur, ləpə vurur bunu, aparır o yan, bu yana.

Sənə xəbər verim kimnən? Əmiri Cəzirədən. Əmiri Cəzirə kim ola? Bir vilayətdən, benamı Həmişəbahar. Pərilər şəhrindəndi. Buranın əmirinin adı Firuz idi. Bu Şikariyə köməh üçün bir iddə qoşununun gedir köməyə. Gedəndə görür dəryanın

üzündə bir sandıx var. Pərilərə əmr eliyir ki, gətirin o sandığı, sandığın ağzın götürüllər. Sandığın ağzın götürsünlər, görür hörühlər, saçlar laybalay yatıbdı. Elə ki qızı halə gətirdilər. Qız gözün açdı, gördü bir iddə məxlüqat bunu dörəliyib. Bular Pəriyə oxşuyullar, buların şahları bəni-adəmdi.

Dedi:

– Bəni-adəm, sən kimsən? Məni bura nəyə gətirmisiz?

Dedi:

– Mənim adım Firuzdu, ama adıma Əmiri Cəzirə diyəllər, gedirəm Şikarinin köməyinə, ona köməhliyh eliyək, bəlkə, Allahım yar ola, onun nəmüsun alam verəm götüsün, aparsın.

Qız buları eşidəndə ağladı. Dedi:

– Nazənin, niyə ağlıyısan?

Dedi:

– Sinəmə bir neçə söz gəldi, onu deyim.

Götürüb bu dillərinən görək nə dedi:

Reyhanə pəri Əmiri Cəzirəyə dedi:

Söyləyim zəban halımı, incimə mənnən.
Harda mərd olsa onun qurbanıyam.
Pərilər şahısan, ey bəni-adəm,
Eşqidən bir cavanın giriftarıyam.

Yar qana,
Yar sözün yar qana.
Laçın vurmuş sonayam,
Sığınmışam yarğana.

Bivəfa insana dost deməmişəm,
Hələ bu dünyada gün görməmişəm.
Səni röyada mən görməmişəm,
Dediyin cavanın mən cananıyam.

Gedər, qalmaz,
Axar su, gedər, qalmaz.
Vəfalıya can qurban,
Bivəfa gedər, qalmaz.

Bir oxudum, fələk qoydu kəmanə,
Dədəm qərq etmişdi məni dəryadə.
Sərəfraz şah qızıyam, adım Reyhanə,
Həman Şikarinin mən dildarıyam.

Qan eylər, divan eylər,
Divan eylər, qan eylər.
Dost məni bu haldə görsə,
Ya ölər, ya qanıma qan eylər.

Əmiri Cəzirə Reyhanə pəriyə dedi:

Pərvanətək qoy dolanım başıva,
Ey gözəl, bilmədim, bağışla məni.
Qurban olum, gözdən gələn yaşıva,
Ey gözəl, bilmədim, bağışla məni.

Eşq əlinnən gecə-gündüz xəstəyəm,
Allah tərəfindən kəmərbəstəyəm.
Şikarinin mən istəkli dostuyam,
Ey gözəl, bilmədim, bağışla məni.

Hər işlərə Allah eylər əlacı,
Şirin ağzım oldu zəhirdən acı.
Mən sənə qardaşam, sən mənə bacı,
Ey gözəl, bilmədim, bağışla məni.

Dəli göyül atəşlərə atlana,
İnnən belə dünya sənə dar olmaz.
Bir mərt qazansa, yüz namərd doyuyar,
Yüz namərd qazansa, mərdə bir nahər olmaz.

Sənə xəbər verim kimnən? Qullar padşahınnan. Qullar padşahı çıxmışdı gəştə, gördü bir nəfər şəxs çadır qurub oturubdu. Dedi:

– Ey bəni-adəm, sən nə həqqinən qədəm qoyusan mənim torpağıma? Allah səni mənə rüzi yetiribdi, səni yiyəcağam.

Şikari əl eliyib qəbzeyi şəmşirə. Qullar padşahı gördü Şikarinin qabağında dayana bilməyəcək, əl qoydu qaşmağa. Qullar

padşahı qaçır, Şikari bunu qovalıyır. Neçə mərhələ qışqırdı: "Ey Dilavər, ey bəni-adəm, gəlməginən, peşiman olarsan". Baxmadı, qeyitmadi. Qovdu, qovdu, bu getdi, üç saatın ərzində demək olar ki, üç aylıq yolu apardı. Yetirdi Qəvasibə. Şikariyə genə səsləndi: "Ey Dilavər, gəlməginən, düşərsən tilsimə". Qəbül eləmədi, varid oldu qəliyə, gördü, ey dadi-bidad, hər tərəfə baxır, bir yan görünmür. Gördü yuxarıdan bir səs gəldi: "Ey Dilavər, neçə yol dedim, gəlmə, indi düşdün tilsimə. Yeddi il burda qalmalısan". Tilsimi bağladım, oğlun Cahangirin adına, Cahangir gəlməsə, yeddi il səhlidi, qiyamətə kimi burda qalmalısan.

Reyhanə pəri bunnan xəbərdər oldu. Bunu Əmiri Cəzirə və Piranə pəriyə dedi.

Şikari tilsimə düşənnən sora Üzzar pəhlivan Sərəfraz şahın köməyinə gəldi. Cəng başlandı, təmam devləri öldürdülər. Bir qaldı Zərdan və Əlavə şah, dədə-bala, bir də Şikarinin Firuz Əyyarı. Bu üş nəfər özlərin aradan çıxatdılar, Qaf dağında gizləndilər. Ora Əlavə şahın yeriydi, dübarə özünə qoşun yığmağa başladı.

## USTADNAMƏ

Eşidin, məclisdə arif olanlar,
Sərrafam, gohərim, kanim gedibdi.
Ah çəkibən yar yoluna baxmaqdan,
Yəqin bilin, yarı canım gedibdi.

Nazik barmaqlıydı, şimşad əlliydi,
Ayna qabaqlıydı, siyah telliydi.
Şəkər söhbətliydi, şirin dilliydi,
Tutu kimi xoş zəbanım gedibdi.

Müddətdi gözlərimnən iraq,
Əridib bağrımı, dərd, qəm, fəraq.
Büllur buxaq, lalə yanaq, ay qabaq,
Ala gözlü Şəhrəbanım gedibdi.

İş sənə agahdı, qadir İlahi,
Eşq əlinnən itirmişəm irahi.

Ələsgərəm, budur sözün kutahi,
Yar gedənnən, din, imanım gedibdi.

Sizə xəbər verim Şamda Cahangirinən, Cahandardan. Şikari gedənnən sora neçə illəridi orda cəng var idi. Cahangir üz dolandırdı qardaşı Cahandara və Şirzadı Tigzənə:

– Bu cəng başa gələn dəyil, səhər çağına ki, cəngə çıxacağıx, cəngidən dönməyəcağıx.

Cahandar üz dolandırdı: "Sərhəngi Şami mənim öhdəmə". Cahangir üz dolandırdı: "Müsrüb mənim öhdəmə". Şirzad üz dolandırdı: "Müzrüq də mənim öhdəmə".

Səhər çağına cəng otu şöləvər olur. Hər iki tərəf atlanır. Cahangir Müzrübü öhdəsinə almışdı və Cahandar Sərhəngi Şamini və Şirzadı Tigzan də Müzrüqi.

Zəlzələ Zəngi, Yusif Ərəb, Qeysi Rəmmahı-Ərəb, yeddi qardaş da qarişdilər, olar da ləşkərdədilər. Sərhəngi Şaminin dörəsində min nəfər ox atan vardı. O zaman oldu ki, Sərhəngi Şami gördü dörəsində ox atanlar fərar elədi. Cahangir ləşkəri yara-yara özün yetirdi Sərhəngi Şamiyə. Sərhəngi Şami oturmuşdu fil üstündə, kəcavanin üstündə, vurdu Şamın pərçəmi getdi, düşdü yerə pərçəm, kəmərinən aldı başının üstünə elə ki vurdu yerə, baş gedib yapışdı qabırqaya, qabırqa qırıldı, Sərhəngi Şamini aradan aparsın.

Əmma eşid Cahandardan. Cahandar Müsruqu tutub, o da əl atdı bunun kəmərinə, necə ki, yapışdı bunun kəmərinən vursun yerə bu, əl-amən çəhdi, dedi:

– Dilavər, səni and verrəm o Allaha ki, birdi, məni öldürmə, mən müsəlman olum. Bunu yavaşca qoydu yerə. Bu "Əşhədü-ən la-ilahə-illəllah"ı deyib, ürəhdən döndü müsəlman oldu. Müsruq gördü ki, Sərhəngi Şami aradan gedib, Müsruq döndü müsəlman oldu, fərman verdi ki, nəmənə qala qapıları var idi, hammısı bağlansın, özləri təpiliblər Şamın içinə, özü də otdu təxti səltənətdə.

Bu yan tərəfdən cəngin otu xəmüş olsun, bular da gəldilər oturdular öz yerlərində. Müsruq fərman verdi ki, Sərhəngi Şaminin arvadı Nazikəndam ki, ibarət ola Nazikbədənin anası, onu bəziyəsiz, gətirəsiz mənim yanıma.

Nazikəndam bunu belə görəndə durdu ağlamağa. Bunun bir əyyarı var idi, naməni bu dillərinən yazsın və əyyarın vəsiləsiynən yollasın, ərz eliyim əziz eşidənlərin hamısının sağlığına:

Bilirəm ki, öz dinində doğrusan,
Anannan ayrılıb sinə dağlısan.
Şikarinin bir vəfalı oğlusan,
Gəl məni al, bu namərdin əlinnən.

Nazikəndam əl götürüb duayə,
Fələk məni əcəb saldı bəlayə.
Cahangir, sözümü qoy sən icrayə,
Gəl məni al, bu namərdin əlinnən.

Mərd oğula əmək versən itirməz,
Namərd adəm doslux başa yetirməz.
Vətənin sövən oğlan öz-özünü itirməz,
Söyüd ağacında alma, heyva, nar olmaz.

Naməni gətirib verdi, məzmunnan baxəbərdər oldu. Bu yan tərəfdən fikirləşdilər, neynəyək, neynəməyək? Təsmim tutdular, Fərhəng Əyyarı bunun əvəzində bəziyələr, aparalar Müsruqə, Nazikəndam əvəzinə. O da Nazikəndama bir namə yazdı, dedi ki, belə iş olacaq.

Fərhəng Əyyarı bəzədilər, saldılar bunu arvat moduna, Şəbrəng Əyyarınan Nəsim Əyyar buna yengə muşata oldu. Cahangir, Cahandar arvat libası geyiblər və istiyillər belə gəlin aparsınlar.

Fərhəng Əyyar belə getdi zifaf otağına oturdu. Müsruq əl elədi bunun o yüz, bu yüzünə, əl elədi şəmşirə, vay xətəkarın birisi, o yannan Cahangir, Cahandar varid oldu. Tutdu bunun topuğunnan, qozadı göyə, dedi:

– Xətakar, müsəlman olusan, ya yox?

Dedi:

– Namənə deyim, olum müsəlman?

Dedi: "Kəlmeyi-şəhadət" de. "Kəlmeyi şəhadət"in dedi, oldu müsəlman.

Dəstür verdi, qalaların qapısın aşdılar. İslam qoşunu şəhrə varid oldu. Cahangir, Cahandar və Şirzadı Tigzən, Mənzər şahı

Yəməni, Şah Şuca, Yusif Ərəb saymağınan başa gəlməz. O zəmani ki, Şikariynən Şirzadı Tigzəni Sərhəngi Şami tutmuşdu, əlli min müsəlmanınan, ölən ölüb, qalan qalıb, oları da azad elədi. İslam qoşunu çoxaldı.

Bu xəbər gessin kimə yetişsin? Firəngistanda bir dana padşah var, benamı Ərgəvan şah. Rüyin tən, ot yandırmaz, su boğmaz, qılış kəsməz. Belə bir pəhlivan adamdı. Firəng padşahları Sərhəngi Şaminin öldüyünü və oların müsəlman olmasını eşidər. Dəstür verdi, yüz min nəfər atdandı, yüz mün nəfər qoşununan gəlir Şamə. Şamın kənarında çadürnişin oldular. Götürüb bir dana namə yolladı: "Şikarinin oğlanları, sizdən xahişim budu ki, Müzrüq, Müsruqı sağ-səlim verəsiz mənə".

Bu namə gəlib yetirdi Cahangirin əlinə. Tamam əyyarlar namənin məzmununnan baxəbər olanda vaveyla düşdü. Cahangir dedi:

– Nə var ki?

Dedi:

– Bilisən, bu elə bəşərdi ki, nə ot yandırar, nə su boğar, nə qılış kəsər, rüyin təndi. Əgər bir şeyə gücü yetməsə, sehr də bilər, sehr də oxuyar.

Cahandar dedi:

– Olsun, bizim də Allahımız var, böyükdü.

Cahangir Ərgəvan şahın naməsinin cavabında götürür bu dillərinən yazır, mən də ərz eliyim, eşidənlərin sağlığına.

Cahangir dedi:

Əbəs yerə gəlmisən bu diyarə,
Qorxuram düşəsən burda tora sən.
Vırram qaynağıma, eylərəm parə,
Bilmirəm düşmüsən sən nə xiyalə?

Mən aşıq, qara gözlər,
Sürməli qara gözlər.
Məni fələy əyməzdi,
Sən əydin, qara gözlər.

Yetişti bizə də yazdığın fərman,
Yara vursam, olmaz dərdivə dərman,
Nəcat qapsıdı, gəl ol müsəlman,
Ürəkdən qail ol, bir xudaya sən.

Məzələndi,
Mey içər məzələndi,
Vəfalı dosları gördüm,
Ürəyim təzələndi.

Bahar olcax, süsən-sünbül bitişi,
İki sultan bir-biriynən tutuşi.
"Vay" xəbərin gedər, Firəngistanə yetişi
Cahangir deyir, olarsan bəxti qarə sən.

Mən aşıq, balam ağlar,
Arı şan bala bağlar.
Bir ata yara alsa,
Yarasın bala bağlar.

Namənin ayağın möhr eliyib verdi qasidə, apardı yetirdi Ərgəvan şaha. Ərgəvan şah amadə oldu cəngə. Bu tərəfdən bular şəhrin qapıların bağlıyıb, çəkildilər içəriyə. Ərgəvan şah götdü bi yol mancanağinan şəhrə daş atdı. Arvad-uşax yığışdı Cahangirin dörəsinə ki, sən Şikarinin yadigarisən, niyə bir nəfərdən qorxusan, neyliyə bilər?

Cahangir üz dolandırdı:

– Heş kim eşiyə çıxmasın. Biz iki qardaş, bir əmoğlu, Ərgəvan Şahın cəvabını verəcəyik.

Hazırləndilər bılar. Şirzadı Tigzən qapının birinnən çıxır, baş bunun Ərgəvan şahın yanına yetirib buna neçə dana şəmşir vurur, görür şəmşir qeyidir. Ərgəvan şahın bir dana şəmşiri var, adına Belarik diyillər, həmən şəmşirdi ki, Əfrasiyab bağlamışdı belinə. Belariki endirəndə Şirzadı Tigzəni bir tərəfdən yaraladı. Bir zərbəinən onu yaraladı, onan sora nobə kimə yetişdi? Ras gəldi kimə? Cahandara. Cahandar buna şəmşir, neyzə, Cahandar

da yaralandı. Onnan sora Cahangir. Cahangir də yaralandı. Cahandar meydana gəldi, o da yaralandı. Fərhəng Əyyarın süpəngi var idi. Fərhəng Əyyar ahangı qoydu süpəngə, dedi ki, buna biz bir şey eləsax gərək gözünnən vurax, tovladı, düz vurdu bunun alnınan. Ahang açıldı bunun gözlərinə. Bu nərə çəhdi: "Ey dad, mənim gözlərimi çıxaddılar, mən kor oldum".

Təbli-bazgəşt vuruldu, səhərisi gün Cahandar təkütənha meydana çıxdı. Axşama kimi meydanda cəng elədi, axşam meydannan dönəndə bunun qabağına bir niqabdar çıxdı. Bunlar sübhün zamanına kimi bir-birlərinən cəng elədilər. Sübhün zamanında Cahandar gördü bu oldu bir dana ahu. Ahu gəldi girdi bağa. Cahandar girdi bağa. Bu ahunu bağda itirdi. İstədi dönsün, gördü qapı yoxdu. Bir ağaş var idi, istədi qaxsın duvardan aşsın, gördü bu nə qədər qalxır, duvarlar bunnan qabax gedir. Məcbür oldu, düşdü yerə. Bağda gördü bunun qulağına dəf, ney, təmbür səsi dəyir. Dolandı, gördü bir imarətdə yeddi dana qız oturub. Biri-birinnən gözəldi. Altısı birinin dörəsində oturub. İstədi qeyitsin, dedilər:

– Cavan, hara gedisən? Gəl bura görüm, hara gedirsən? Nə üçün gəlmisən bura?

Cahandar, gəlib oturdu. Minayi şərabı qoydular bunun bərabərində yerə. Bu bir dana sehrgardi, adına Vasvas cadugər diyəllər ki, meydanda bunun qabağında cəng eliyib, sora görüb buna raqib ola bilməyəcax, özünü bu ahu sürətinə salmışdı. Sherinən özün salıb on dört yaşında bir qız sürətinə. Dedi ki, cəvan, sən nə üçün bağa gəlmisən?

Dedi:

– Qulağ as deyim da.

Götürüb bu dillərinən görək Cahandar nə diyəcək? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Cahandar dedi:

Gəl sənə söyləyim, ey nazlı dilbər,
Mənim bir şikarim gəlib bu bağa.
Bülbül güldən ötrü çox əfğan eylər,
Mənim bir şikarim gəlib bu bağa.

Canım qurban ola, mərdin yolunda,
Ləşkərim qalıbdı düşmən əlində.
Qova-qova bu Şamatın çölündə,
Mənim bir şikarim gəlib bu bağa.

Dediyim sözləri indi qanısan,
O keçən günləri bir-bir sanısan.
Cahandaram, məni hardan tanısan?
Verginən şikarim, gəlib bu bağa.

Dəli göyül, ataşlərə atlanma,
İnnən belə dünya sənə dar olmaz.
Bir mərt qazansa, yüz namərd doyuyar,
Yüz namərd qazansa, mərdə bir nahər olmaz.

Dedi:

– Mən sənin nənəvi tanıram ki, Xürşid Banudur. O zaman ki, nənən səni beşiyə salıb süt verərdi, o zamannnan mən sənə aşığam. Əgər mənə “hən” diyəsən, səni dünyaya padşah elərəm.

Cahandara o qədr məhəbbət elədi ki, Cahandarın dədəsi də yaddan çıxdı, qardaş da yaddan çıxdı, ləşkər də yaddan çıxdı.

Məhəbbət bir belə şeydir giriftar olmayan bilməz,
Zimistan çəkməyən bulbul baharın qədrini bilməz.

Minayə şərab qoyuldu yerə, bular yeyillər, içillər, xoş vaqitlər keçirdilər. Qız üz dolandırdı:

– Cavan, icazə versən kənizlər gessinlər?

Kənizlər gessinlər, soyunublar hər ikisi bir rəxti-xabın içinə varid oldular. Cahandara bu qızın ağzınnan bir iy vurdu ki, Cahandar qərib nəfəsi qət olacaxdı. Ayrı bir söz diyə bülmədi, Cahandar üzün çevirdi o yana. Döndü kürəyin çevirdi qıza sarı. Dedi:

– Cavan, bəs niyə belə eliyisən? Mənim otum şöləvər olub, xamüş eləginən.

Dedi:

– Nazənin, bilisən nə var, nə yox?

Dedi:

– Xeyir.

Dedi ki, qulağ as, mənim iki kəlmə sözüm var. Götürüb görək Cahandar buna nəmənə ərz eliəcək, mən də ərz eliyim.

Cahandar dedi:

Demirəm çirkinsən, eybin var, gözəl,
Babam vəsiyəti yadıma düşdü.
Şirin-şirin söhbətin var, ay gözəl,
Babam vəsiyəti yadıma düşdü.

Nabələt yerlərdə gedib qalmayın,
Gördüyüz əməldən peşman olmayın.
Ağzınnan iy gələn qızı almayın,
Babam vəsiyəti yadıma düşdü.

Cahandaram, müntəzirdi qardaşım,
Nə sövdaya düşüb bəlalı başım.
Mənə tənə vurar yarım, yoldaşım,
Babam vəsiyəti yadıma düşdü.

O, çox dedi, bu az eşiddi, bu, çox dedi, o, az eşiddi, iş o yerdə dayandı ki, Cahandar gördü bu, bunun yaxasınnan əl götürməyəcax, bunun bina-qüşunnan sillə vurdu, ağzı-burnu qanla doldu. Neynədi? Qız fərman verdi, altı dana nərrə dev amadə oldu bunun dörəsində ki, altı dana kənizi var idi, hərəsi bir dev oldu. Bu əl elədi şəmşirə, Vasvas cadugər bir sehr oxudu, bunun əl-qolu düşdü yanına. Əlindən şəmşir düşdü yerə.

Dedi ki, bunu götürün aparın tilsimi Reyhanəyə. Devlər Cahandarı götürüb apardılar, atdılar tilsimi Reyhaniyə. Cahandar gözün aşdı, gördü bir qələdi, bir böyük ağac var. Bu ağacın üstündə heç olmasa min dana quş var. İstədi gessin ağacın yanına, quşlar həmlə gətirdilər ona: “Ey cavan, Allah səni bizə rüzi verdi”. Qeyitdi dala, quşların bunnan işi olmadı. Genə istədi ağacın kölgəsinə gessin, quşlar həmlə elədi buna, qeyitdi dala. Götürüb öz vəsfi-halinə görək nə deyir? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Cahandar dedi:

Hər yerdən çaram kəsildi,
Əcəb düşdüm qovqaya mən.

Cavan qəddim tez büküldü,
Pənah gətdim Xudaya mən.

Sınıx göylüm kim bitirsin,
Aparıb Şamə yetirsin.
Ürəyimin dərdin bilsin,
Əcəb düşdüm bəlayə mən.

Ayrı düşdüm mən elimdən,
Bülbültək qonça gülümnən.
Cahandaram, dərd əlindən,
Sığınmışam Xudaya mən.

Sözlar tamam olsun, gözü sataşdı, gördü bir dana qız gəlir. Bu qız o qızdan da gözəldi.

Ya rəb, bu hansı hüridi, bəzaridən keçər,
O işvəli, qəmzəli naz bu dili-zaridən keçər.
Götürüb külahın əlinə, nüsrət ilə gəlir,
O, naz ilə gəlsə əgər, ömrüm yarıdan keçər.

Gəlib yetirdi bunun yanına. Salam verdi. Dedi:

– Cavən, sən kimsən? Hardan gəlmisən? Nə karəsən?

Cahandar dedi:

– Bir dana süvərinən cəng eliyə-eliyə gətirib çıxatmışam bura, sora olub ahu, girdi bağa. Orda bir qıza rast gəlmişəm, mənə höhman deyirdi məni alasan, ağzınnan iy gəlirdi, mən almamışam. Savaşdıx, gətirb məni atıb bura.

Reyhanə dedi:

– Nə cur adamdı?

Diyənnən sora dedi:

– Hə, o mənim nənəmdi, Vasvas cadugər diyəllər. O tilsiminən səni aparıb ora. Ordan bura da genə altı aylıx yoldu. Məni gətirib, məni özünə qız eliyibdi. Məni də alsan dönnəm ollam müsəlman, əmma gərək məni alasan.

Gördü bu da bənd elədi buna ki, gərək məni alasan. Cahandar dedi:

– İndi ki, düz diyisən, gəl həqiqəti qoyax meydana.

Dedi:
– Həqiqət nəmənədi?
Götürüb bu dillərinən desin. Cahandar dedi:

Saxlasan bu gecə, sənə mehmanam,
Həqiqəti gəl biz qoyax meydana.
Ölənəcən yanında qalanam,
Həqiqəti gəl biz qoyax meydana.

Gəl mənnən ikimiz olax biz sırdaş,
Axıtma gözümdən çoxlu qanlı yaş.
Sən mənə bacı ol, mən sənə qardaş,
Həqiqəti gəl biz qoyax meydana.

Namərd fələk mənə verib ahu zar,
Dost-düşmən içində etmə məni xar.
Şikari oğluyam, adım Cahandar,
Həqiqəti gəl biz qoyax meydana.

Dedi, bu şərtinən ki, müsəlman olarsan, səni özümə qardaş elərəm. Bu cürü barmaxların verdilər bir-birinə, həqiqətən bacı-qardaş oldular. Bir-birin qucaxlıyıb öpdülər. Dedi:

– İndi ki, oldux bacı-qardaş, gör nə cur eliyə bülərsən, məni burdan çıxardasan?

Dedi:

– Səni burdan çıxatmax çətindi, əgər mənim nənəm Vas-vas cadugər ölməsə, sən burdan çıxammassan. O, iblisdi, mən ayrı maxluqam, mən onun qarnınan çıxmamışam, məni o oğurluyub gətirib qız eliyibdi. Qoxmassan ki?

Dedi:

– Xeyir, Allah-tala bir qoxmağı bizdə xalq eləməyib.

Qız bir dana sehr oxudu, Cahandarı aldı çiyninə, bir dağın damənəsində qoydu yerə. Genə dedi:

– Qoxmassan ki?

Dedi:

– Xeyir.

Bir bulax var idi, onu nişan verdi dedi:

– O bulağın qabağında bir hovuz var. Hovuzda dört dana balıx var, üçü qırmızı, biri qərə. O qərəni vurasan, gətirəsən bura. Mənim nənəmin canı o qərə balığın qarnındadı.

Balığnan qazdan ayıx heyvan çətin tapılar. Ox, kamanın götürüb endi bulağın başında hovuza, gördü dört dana balıxdı, üçü qırmızı, biri qərə. Yatıb bu balıxların kaminində, necə ki, ox kəmannan rədd olsun. Balığı vurub gətirdi Reyhanənin yanına. Balığı yardılar. Balaca bir şüşeydi, onu çıxatdılar, genə bir sehr oxuyub bunu aldı çiyninə, qeyitdilər qəliyə.

Reyhanə cadu əlində bir löhə var idi, onu tutdu, o da nənəsi Vasvəs cadugəri çağırdı gəldi. Vasvəs cadugər gördü bu ağzın ağlır. Dedi:

– Sən niyə ağlıyısan?

Dedi ki, qulağ as, deyim da niyə ağlıyıram. Reyhanə cadu götürüb görək nənəsinə nəmənə deyir? Mən də ərz eliyim əziz eşidənlərin hamısının sağlığına.

Reyhanə dedi:

Sənə qurban olum, gül üzlü ana,
Bir cəvanın eşqi ağladır məni.
Ürəyimin başın döndərdi qana,
Bir cəvanın eşqi ağladır məni.

Yalvardım da, qol boynuma salmadı,
Dindiribən qəmli göylüm almadı.
İzhar eylədim məni al, almadı,
O cəvanın eşqi ağladır məni.

Şikəstə bülbüləm, qönçə gülüm var,
Dünyada qəm-qüssə, böylə zülüm var.
Reyhaniyəm, dedi ki, sevgilim var,
O cəvanın eşqi ağladır məni.

Vasvas cadugər dedi:

– Bura bax görüm, adı nəmənədi?

Dedi:

– Cahandar. Mənə dedi ki, bir nəfər məni apardı bağına, işmişidim, keflənmiştim, indi onun narahandıyam, ağlıyır.

Vasvas cadugər dedi:

– Ey vay, bala, o məni deyir. Bala, gedim onun yanına.

Reyhanə onu bəzədi, dedi ki, sən burda dur, mən gedim, muştuluq alım.

Bu gəldi Cahandarın yanına. Reyhanə hər şeyi ona örgətdi. Dedi, sən bu cür eliyəcaxsan, şişəni iki qaşının arasına qoyacaxsan. Gözləri yumdurasan, elə şüşə ki, dəydi bunun iki qaşının arasına, canı bədəninən çıxar. Cahandara hər şeyi diyib qeyitdi. Cahandar durdu bunun ayağına. Onnan üzr istədi. Bu istədi qolun salsın Cahandarın boynuna. Dedi, qulağ asgınan, bir neçə kəlmə sözüm vardı, deyim sənə. Cahandar gütürüb görək nə diyəcək, ərz eliyim eşidənlər sağlığına.

Cahandar dedi:

Sən ərussan, mən də damad,
Bu işlərin hesabı var.
Sən Şirinsan, mən də Fərhad,
Ürəkdə eşqin dağı var.

Eşqin oduna yanarsan,
Ürəkdən ilham alarsan.
Bu gecə ərus olarsan,
Arusluğun hesabı var.

Cahandarı gətirdin dilə,
Səninlə verir əl-ələ.
Bədənimi oğ dincələ,
Arusluğun hesabı var.

Cahandar dedi ki, gözlərivi yumma. Elə ki bu gözün yumdu, şüşəni qoydu, Vasvas cadugər orda öldü. Reyhanə cadu dəstür verdi devlərə, bunu Şam kəntinə götürsünlər. Bunu ki göyün üstündə gətirillər, güzari düşdü İskəndəriyədən. Sual elədi: "Burda nəmənə vardı ki, iki tərəfdə də ləşkər durub?" Cavab verdilər ki, İskəndəri Rastinən İsfəndiyar xanın nə müddətdi sözü zidd çıxıb, cəngidi. İsfəndiyar xan oğlun evləndirir. İskəndər Rastinin qızın istiyir, o da vermir. Onun üstündə nə müddətdi cəng var. Dedi ki, məni burda qoyun yerə. Dedilər ki, biz eliyə bülmərik, gərək səni

aparax verax Cahangirə, onnan imza alax, aparax verax Reyhaniyə. Dedi, sizin işiz olmasın, məni qoyun yerə. Bunu yendirdilər, İskəndəriyadə qoydular yerə.

İsfəndiyar xanın gözü sataşanda, gördü bir dilavərdi, oturub bir mərkəbin üstündə. Dedi öz-özünə ki, pərvərdigara, görəsən Rüstəm dübarə dirilib gəlibdi? Dedi:

– Cəvan, sən kimsən?

Dedi:

– Əgər mənim sözümə baxsan, mən sənin dostunam. Ya əgər sözümə baxmasan, mələk əl-movtuvam, gəlmişəm canıvı alam.

Dedi:

– Mən Kabil padşahıyam. Oğlum Kubada bunun qızın istiyirəm. Mən evladı İskəndərəm. Bu qızını mənim oğluma vermir, mənim də nə qədər gücüm var, onnan savaşacağam.

Cahandar dedi:

– Onda dayan, sənə bir neçə kəlmə sözüm var.

Götürüb bu dillərinən görək İsfəndiyar xana nə diyəcək? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Cahandar İsfəndiyər xana dedi:

Sənə vardı mənim bir neçə sözüm,
Götür ləşkərin get, qalma bu yerdə.
“Yox” desən sənilən cəng edəm özüm,
Götür ləşkərin, get qalma bu yerdə.

Bir nəhəngəm, dəryaləri yararam,
Rüstəmtək özümü cəngə vuraram.
Nə qədər dilavər varsa, qıraram,
Götür ləşkərin get, qalma bu yerdə.

Cahandaram, sözümü aşkar diyərəm,
Axtarıb taparam, səni görərəm.
Qızın göylü olsa, özüm verərəm,
Götür ləşkərin get, qalma bu yerdə.

Dedi:

– Mən qızı danışdırram, əgər göylü olsa mən özüm verərəm. Əgər göylü olmasa, burda qalmalı dəyilsən, gərək gedəsən.

Dedi:

– Cəvan, getməzdim, ama çün sən gəlibsən, gedərəm.

Bu ləşkərin döndərsin o yana. Bu yannan da təbli-bazgəşt vurulsun.

Cahandarı İskəndəri Rast tərəfinnən peşvaz elədilər. Gəldi İskəndəri Rastın yanına, dedi:

– Qurban, bir qız, bir oğlanındı, sən niyə vermisən ki, indi bular sənin üstüvə qoşun çəkələr, cəng eliyirlər?

Dedi:

– Ay bala, bular hammısı mənə maliyət verərdi, mənim bir oğlum var idi, o əlimnən gedibdi, indi bular mənə əl yeri tapıblar, üstümə gəlirlər.

Dedi:

– Sənin oğlun kimidi?

Dedi, qulağ as deyim. Götürüb bu dillərinən görək İskəndəri Rast nəmənə diyəcək?

İskəndəri Rast Cahandarə söylədi:

Bu ayrılığa daha mən dözə bilmərəm,
İndi gördüm sənin kimi cavanı.
Qudrətim yox, meydan gəzə bilmərəm,
İndi gördüm sənin kimi cavanı.

Dolu gözlər,
Dağ başın dolu gözlər.
Səndəki nazu işvə,
Məndəki dolu gözlər.

Burda dəyil, qəmli gönlüm dindirsin,
Hünərimi namərdlərə bildirsin.
Gedib babasının tilsimini sındırsin.
Əlimdə dəyil o İskəndəri Şami.

Yox, əzizim balabanı,
Yasda çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı?

Dedi ki, mənim adım İskəndəri Rastdi. Oğlum gedib babası İskəndərin tilsimini sındırsın. Nə müddətdi gedib, bilmirəm ölüb, qalıb, ya daş donuna düşüb? On iki min ləşkərinən gedib, daş donuna düşüb.

Dedi:

– Oğluvun adı nəmənədi?

Dedi, qulağ as deyim da. Götürb ö bürü kəlməsin bu dillərinən desin:

İskəndəri Rast Cahandarə söylədi:

Şaxə verib qönçə gülün butası,
Əl uzadıb damənınən tutası.
İskəndəri Sani oğlumdu, mən atası,
Düşüb tilsimə İskəndəri Sani.

Mən aşıq, balam ağlar,
Arı şanı bala bağlar.
Bir ata yara alsa,
Yarasın bala bağlar.

Cahandar durur ayağa, gedir İsfəndiyar xanın yanına. İsfəndiyar xan bunu peşvaz elədi. Dedi:

– İsfəndiyar xan, çün bunun oğlu gedib tilsimə, odu ki, bular heç iş görə bilməzlər. Mən gedəcağam onun dalısıcan. Mən özüm onu tapannan sora onu bəziyib qoyacağam kəcavəyə, gətirəm Kabulda, ya Babulda ceşn tutam, verəm sənin oğluva.

Cahandar qəyitdi bərgaha. Elə ki gecə gəldi araya, yedilər, işdilər. Sarayda hamı Cahandara heyran qalmışdı. Cahandar dedi ki, bura bax görüm, sənin heş tayfanda evladı İskəndərdən famelin yox?

Dedi:

– Diyari Rumda biri var idi ki, onu şir dağıdıbdı. Biri də vardı ki, olub bütpərəst, İskəndərin də adını batırıb.

Bu cür diyəndə Cahandar ağladı. Dedi:

– Cavan, niyə ağlıyısan?

Götürüb görək Cahandar nə diyəcax, ərz eliyim eşidənlərin sağlığına.

Cahandar İskəndəri Rasta dedi:

Neçə kəlam eşid mənim dillimnən,
O dediyin cəvan ölmüyüb, sağdı.
Fələk ayrı salıb onu elinnən,
O dediyin cəvan ölmüyüb, sağdı.

Dolandım dünyayı, dağları, daşı,
Ürəyimdə vardı onun sırdaşı.
Böyük zülm eliyibdi ona qardaşı,
O dediyin cəvan ölmüyüb, sağdı.

Dədəm, nənəm yada düşüb ağlaram,
Fələk əlinnən sinə dağlıyam.
Cahandarəm, Şikarinin oğluyam,
O dediyin cəvan ölmüyüb, sağdı.

İskəndəri Rast Cahandara dedi:

Necə əl götürüm, indi mən sənnən?
Dünya bir tərəfə, sən də bir yana.
Qoymaram gedəsən, incimə mənnən,
Dünya bir tərəfə, sən də bir yana.

İskəndəri Saninin anası götürüb görək nə deyir?

Bir yaram var, heç sağalmaz ölüncə,
Ağlaram, sızlaram dünya boyunca.
Getsən, gözüm qalar sənin dalınca,
Dünya bir tərəfə, sən də bir yana.

Fələk sizi eldən ayrı salıbdı,
Dört bir yanın qəm ləşkəri alıbdı.
Anan gözü intizarda qalıbdı,
Dünya bir tərəfə, sən də bir yana.

Dedi, mən söz verdim Kubada. Əgər o on iki min nəfəri tilsimdən çıxatdım, ilqar, iman, gərək verdiyim sözü tutam. Bular qəbül eliyiblər. Gecə sabah olsun, Cahandar durub ibadətin eliyib, mərkəbinə səvar olub, rəvaneyi-rah oldu.

Bular gətirdilər dağı buna görsətdilər, dedilər: "Oğul, oraya qədəm qoysan, daha bu yana dönə bülməssən, demirəm tilsimi sın-

dırasan". Cahandar qədəm qoydu çəmənzarlığa, bir neçə qədəm gedənnən sora bir böyük ağaş var idi. Hər tərəfə yarım ağaş qol atıbdı, bunun üstündə o qədr quş vardı ki, Cahandarı görcək həmin bular qırınvış saldılar. Quşlardan buna səs gəldi ki, cavan, gəlməginən ot yandırar. Cahandar görək öz vəsfi-halini necə diyəcək?

Cahandar dedi:

Qadir Allah, sənnən budur diləyim,
Darda qoyma mən kimi bir cəvanı.
Nəzər eylə, sakit olsun ürəyim,
Darda qoyma mən kimi cəvanı.

O yan, dağlar,
Al qana boyan, dağlar.
Bu yan zülmətxanadı,
Necədi o yan, dağlar?

Süsən, sünbül, tər bənövşə bitməsin,
Şeyda bülbül gül üstünnən ötməsin.
İstirəm, babamın adı itməsin,
Dərdə qoyma sən özün mən cəvanı.

Bu dağınan,
El gəzər bu dağınan.
Sənə yaxşı deməzlər,
Mən ölsəm bu dağınan.

Başıma qoyram gövhərdən tacı,
Bu şirin ağzımı eyləmə acı.
Cahandarın kəsilibdi əlacı,
Darda qoyma mən kimi cəvanı.

Bu dağda maralım var,
Ox dəyib, yaralım var.
Nə gecə yuxum gələr,
Nə günüz qərarım var.

Cahandar istədi yaxına gessin, genə quşlardan səs gəldi ki, cavan, gəlmə, yoxsa yanarsan, bizə də yem olarsan. Cahandarın

yadına düşdü ki, Reyhanə ona tükünnən verib ki, hər zaman dara düşdün, bunu tut otun üstünə, mən sənin yanıva gəlim. Dedikləri yadına gələndə foran Cahandar od yandırdı, tükü tutdu odun üstünə. Reyhanə orda hazır oldu. Reyhanə dedi:

– Nə üçün məni çağırdın?

Dedi:

– İstirəm dədəmin tilsimini sındıram.

Reyhanə dedi:

– Sən bu daşları ətəyinnən töhgünən.

Reyhanə götürüb görək Cahandara nə diyir? Mən də ərz eliyim eşidənlərin sağlığına.

Sənə qurban olum, istəkli qardaş,
Bu tilsimin çətin olar əlacı.
Gəl axıtma sən didəmnən qanlı yaş,
Bu tilsimin çətin olar əlacı.

Həmişə çəkdiyim ahu zarıdı,
Bu göylümü tutan qəm qubarıdı.
İskəndərdən qalan yadigarıdı.
Bu tilsimin çətin olar əlacı.

Reyhanəyəm, əl götürrəm duayə,
Əcəb saldın sən özüvü bəlayə.
Çağır şahı-Mərdan yetsin harayə,
Bu tilsimin çətin olar əlacı.

Reyhanə dedi ki, mən gedim xalam Dəmdəmənin yanına, əgər bilsə bu tilsimin qapısın o bilər. Mən bir saata gəlirim. Reyhanə getdi Dəmdəmənin yanına. Salam, əleykumə-salam, ey bacımın yadigari, de görüm, sən nə əcəb bizi yad eləmisən?

Dedi:

– Xala.

Dedi:

– Bəli.

Dedi:

– Xala, bu nə xala balalıxdı ki, sən tilsimi İskəndərin qapısını mənə nişan verməmisən?

Dedi:

– Tilsmin qapısın mən də bülmürəm. Olmasa sən otu burda, mən gedim bacım Həmhəmənin yanına. Bilsə tilsimin qapısın o bilir. Öğrənim gəlim.

Dəmdəmə cadu getdi Həmhəmənin yanına. Dedi:

– Nə əcəb?

Dedi:

– Bizim bacımızın qızı Reyhanə ki, vardı, gəlib mənə gileyliy eliyir ki, niyə mənə tilsimi İskəndərin qapısını örgətməmisiz?

Dedi:

– Ay bacı, tilsimi İskəndərdə on iki min nəfər daş donunda ləşkər vardı, hammısı pəhlivan. Qırx min səvarənin orda əsləhəsi vardı. Əgər o ağacı rişədən çıxarda, bel-külüh olmadan o tilsimə girə bilər. Tilsimin qapısı ordadır, ordan girər.

Dəmdəmə gəldi Reyhanənin yanına. Dedi:

– Ey bacımın yadigarı, mən bacımnan soruşdum. O çəmənzarlıxdaki ağac o tilsimin qapısıdı.

Cahandar bildi ki, bel-külühsüz ağacı çıxardacax, iki rəkət namaz qıldı, düşdü torpağa, o qədr ağladı ki, huşdan getdi. Aləmirüyadə biri gəlib buna bir tənəf verdi və dedi: "Oğul, bu tilsim yazılıb sənin adına, kəməndi ağaca salıb çəkib rişədən çıxardasan". Halə gəldi, gördü kəmənd elə əlindədi. Durub ayağa kəməndi saldı ağaca, ağac rişədən çıxdı eşiyə. Bir tufən oldu, bi qasırqa oldu ki, gəl görəsən. Cahandar bihüş oldu. Gözün açanda gördü bir qanlı dəryanın kənarındadı. Havadan bir quş qəldi bunu vursun çəngəsinə. Reyhanə dedi: "Amandı Cahandar, o quşun başın üzə bilsən, hər zad tamam olar". Necə ki, qolun atıb saldı quşun boynuna, quşun boynun üzüb atdı dəryayə. Genə bihüş oldu. Özünə gələndə başın Reyhanənin dizinin üstündə gördü. Dedi:

– Mənə nolubdu?

Dedi:

– Quşun başın üzdün, bihal oldun.

Reyhanə dedi:

– Dadaş, bunnan belə tək gedəcəksən. Yetişəcəksən bir bağa, bağın duvarları və ağaşları qızıldandı, bir dev duvarın üstün-

də oturub. Bağın dörəsində qırx dana xəndəh var, hər biri on səggiz ərəşdi. İçləri qandı, onnarı addıyacaxsan. Devin əlində bir bel vardı, qızıldandı, o devi o bel öldürər. Ayrı şey öldürməz. Bağda böyük ağaş var, ağacın altında bir qoca kişi oturub, adına Piri Vaqif diyəllər. Səlam verərsən və diyərsən mən löhi tilsimi-İskəndəri sənnən istirəm. Ona hər şeyi diyəcaxsan.

Reyhanə bir uqab surətinə düşdü, dedi, qoxmagınan, mən sənnən gəlirəm. Cahandar yetirib bağın kənarinə, qıx dana xəndəh var idi. Oları bir-bir atlayıb yetirdi devin yanına. Dev buna həmlə eliyəndə, beli əlinnən alıb onu öldürdü. Onnan sora qədəm qoydu bağa. Bağda böyük bir ağacın altında qoca kişini gördü. Salam verdi, soruşdu ki, de görüm, oğlum, sən bura nəyə gəlmisən və necə gəlmisən? Cahandar hər şeyi anlatdı və dedi, mən gəlmişəm löhi tilsimi İskəndəri sənnən alam. Dedi, oğul, məndə dəyil. Cahandar götürüb bu dillərinən görək nə dedi:

Cahandar Piri Vaqifə dedi:

Sənə qurban olum, ey piri-mərd,
Löhi tilsimi sənnən istəyirəm.
Daşa dönüb on iki min müsəlman,
Löhi tilsimi sənnən istəyirəm.

Piri Vaqif Cahandara cəvab verdi:

Başına döndüyüm gül üzlü cəvan,
Gəl əl götürgünən sən bu sevdadən.
Dolanım başıva, mən olum qurban,
Gəl əl götürgünən sən bu sevdadən.

Cahandar yenə də Piri Vaqifə dedi:

Xidmət eylərəm, yanında qallam,
Eşqin, məhəbbətin bu canə sallam.
Mətləbim var, dalısıcan dolannam,
Löhi tilsimi sənnən istəyirəm.

Piri Vaqif dedi:

– Bu günə kimi çoxları gəlib, ama bu löhi tilsimi ala bülmüyüb, daşa dönüb. Hamısı daşa dönüb. Sən də daşa dönərsən.

Piri Vaqif Cahandara dedi:

Rəhmin gəlsin mən qocanın halına,
Fələk qəsd eyləyib şirin canına.
Qorxuram ki, düşəsən daş donuna,
Gəl əl götürgünən sən bu sevdadən.

Cahandar Piri Vaqifə dedi:

Hər nə xəbər alsan düzgün söylərəm,
Arif olsan, sırrım bəyan eylərəm.
Cahandaram, evladı İskəndərdənəm,
Löhi tilsimi sənnən istəyirəm.

Piri Vaqif Cahandara dedi:

Piri Vaqif danışır bir cananinan,
Hələ işin çoxdu o sübhanınan.
Mən tanıyım səni nə nişanınan?
Gəl əl götürgünən sən bu sevdadən.

– Mən nə nişanəynən tanıyım ki, sən evladı İskəndərsən?

Bacısı Reyhanə nə örgətmişdi buna, hamısın şərh verdi:

– Əvvəl tilsimi dərvazədən gəldim, onu rişədən çıxatmışam. Qanlı dəryənın kənarınnan bir quş həmlə elədi, quşun başın kəsdim, qırx xəndəy atlamışam, devin başın əlimdəki belinən qopatmışam. Bu da əlimdə qızıl bel.

Piri Vaqif dedi:

– Bu ağacın üstünə hər gün bir quş gələr. Sənə üş dana ox verəcağam, bir dana kəman, əgər o quşun gözünnən, ya da sinəsinin ağ xalınnan bu üç oxunan vura bildin, tilsimi sındırmısan, vura bilmədin, daşa dönəcaxsan. On iki min nəfər bu quşu vura bilmiyib daşa dönüblər. Əgər birinci oxu vura bilmədin, dizə qədər daş olacaxsan, ikiminci oxu atdın, dəymədi, sinənə – qabırğalaradək daş olacaxsan. Üçümüncü oxu da vura bilmədin, pəhlivanlar kimi daşa dönəcaxsan. Əgər o quşu vura bildin, daş donunda olan pəhlivanlar da daş donunnan çıxacaxlar.

Üş dana ox verdi, bir dana kəman. Ögləyə yaxın quş gəldi oturdu ağacın üstündə. Piri Vaqifə dedi:

– Elə bil şikar gəlibdi?

Dedi:

– Bəli.

Dedi:

– Deginən işnə məşğül olsun.

Piri Vaqif Cahandara dedi:

– Oğlum, məşğul ol.

Cahandar oxların birin qoydu kəmanə, quşun sinəsində ağ xalı nişaniyə qoyub, ox kəmannan çıxanda quş irkindi, ox quşa dəymədi. Cahandar gördü Piri Vaqif necə ki, demişdi, dizə kimi daş olacaxsan, dizə kimi daş oldu elə. Cahandar baxdı, dedi: "Qiyamətə kimi yerisəm başmağa ehtiyacım yox, day bular yırtılmayacax ki". İkiminci oxu qoydu, ikiminci ox kəmannan çıxsın, quş genə yerinnən qaxsın, ox getdi, Cahandar gördü sinəsinə qədər daş oldu getdi. Cahandar üçümüncü oxu qoydu kəmanə, Allaha görək nə dedi? Mən də ərz eliyim, əyləşən ağaların, dosların sağlığına.

Cahandar dedi:

Yeri-göyü, ərşi yoxdan xəlq edən,
Qəza yayındırma mənim oxumu.
Halıma qan ağlar hər gəlib gedən,
Qəza yayındırma mənim oxumu.

Etibar yox bu dünyada beş günə,
Günəhkaram, günəhımnan geşginən.
Damədi peyğəmbər Əli eşqinə,
Qəza yayındırma mənim oxumu.

Cahandəram, məni əymə zamana,
Cəvan ürəyimi döndərmə qanə.
Gözü yaşlı qalıb bacım Reyhanə,
Qəza yayındırma mənim oxumu.

Dəli göyül, atəşlərə atlama,
İnnən belə dünya sənə dar olmaz.
Bir mərt qazansa, yüz namərd doyuyar,
Yüz namərd qazansa, mərdə bir nahər olmaz.

Cahandar üçümüncü oxun ötürmədi, quş qaxdı, genə oturdu. Cahandar dübarə yayı çəhdi necə ki, ötürdü, getdi dəydi qu-

şun ağ xalınnan. Quş ağaşdan düşdü, bir qiyamət oldu, tufən oldu Cahandar bihüş oldu, on iki min nəfər pəhlivan daş donunnan çıxdı. Pəhlivanlar üz dolandırdı:

– Ey Piri Vaqif, bizi kim daş donunnan çıxartdı?

Cahandarı nişan verdi. Bunlar bunun əlin-ayağın öpdülər. Cahandar bu cəvanların arasında gözü düşdü İskəndəri Saniyə. Üzünnən öpdü dedi:

– Mən sənnən ötürü gəldim bura. Sənin nənən, dədən yoluvu gözəttiyir.

Piri Vaqif dedi, indi bu quşun qarnın cıracaxsan. Bir balaca sandıx çıxaddılar qarnınan. Dedi: "Löhi tilsimi İskəndər bunun içindədi. Bunu şah Murgan eliyər. Açarın o tapıp gətirə bilər". Cahandar dedi ki, bu balaca sandığı əmüdunan açaram. Nə qədr əmüd vurdular açılmadı. O vurdu, o yoruldu, bu vurdu, o yoruldu, açılmadı. Dedi, bu sandıq sehrdi, açılmaz. Piri Vaqif Cahandara dedi:

– Oğlum, üş gün yol gedəcaxsan, bir bağa yetişərsən. Bağın içindəki imarətdə bir neçə quş üş dana qəfəsdən asılıbdı, biri şah Murgan, ö bürülar balalarıdı. Künas cadu onu və balaların tilsimə salıb. Ona diyərsən ki, məni Piri Vaqif göndərdi, atılasan, onu qəfəsdən çıxarda bilsən, yol görsədər, sandığın açarını gətirəsən, o sənə kömәy elər.

Üş gün yol gedənnən sora bağa gəldi. Bağın içində imarətə girdi, gördü şah Murgan ordan asılıdı. Götürüb bu dillərinən görək şah Murgana nə deyir? Ərz eliyim eşidənlərin sağlığına.

Cahandar şah Murgana dedi:

Dolana-dolana gəldim yanıva,
Mənnən salam olsun şah Murgana.
Rəhmin gəlsin gözdən axan yaşıma,
Mənnən salam olsun ey şah Murgana.

Yanaram halıva belə hər zaman,
Görürəm təng olub bu zindan.
Gəlmişəm canımı eyliyəm qurban,
Mənnən salam olsun, ey şah Murgana.

Qəmin kərvanın boynuma götürdüm,
Cahandaram, bu diyarə gətirdim.
Piri Vaqifdən sənə səlam gətirdim,
Mənnən salam olsun şah Murgana.

Piri Vaqif adın gətirəndə şah Murgan dedi:

– Əleykümə-salam, ey Piri Vaqifdən salam gətirən sağ olsun. Nəmənə istisən mənnən?

Cahandar dedi:

– Mən tilsimi İskəndərin löhunun sandığının açarın istirəm sənnən. Mən nəvabı İskəndərəm, tilsimləri sındıra-sındıra gəlmişəm. On iki min nəfəri tilsimdən çıxatmışam, quşu öldürmüşəm, Piri Vaqif açarı almağ üçün sənin yanıva göndərdi.

Dedi:

– Bura bax görüm, atıla bülərsən? Məni bu qəfəsdən çıxarda bülərsən?

Cahandar Allahdan imdad istədi, atıldı quşun qəfəsin tutdu. Çox əlləşdi, əmma zənciri qıra bülmədi. Cahandar yerə baxanda gördü yer qan dəryasıdı. (Sehrinən o imarətin içi qan dəryası oldu). Dedi:

– Zəncir qırılsa qan dəryasına düşərsən, sən qəfəsi cırgınan.

Cahandar qəfəsı cırdı, əli rədd oldu ki, düşə qan dəryasinə, Şah Murgan bunu tutdu. İmarətin yanında hovuzda bir neçə dana balıx var idi. İçində bir dana qızıl balıx var idi, dedi gör onu vura bilərsən? Balığı oxunnan vurdu gətirdi. Dedi: "Söh bu balığın qarnın". Balığın qarnın söhdü, iki dana xəncər çıxdı. Şah Murgan, – xəncərlərin dəstəsi ləl idi, – birin bağladı bunun sağ tərəfinə, birin sol tərəfinə. Vurub çəngəsinə, qozadı havayə. Gətirib bir dağın ətəyində qoydu yerə. Bir quyu görsətdi ki, onnan tüssü qalxırdı. Şah Murgan dedi:

– Gedəcaxsan o quyunun içinə, qaranlıq, zülmat olanda xəncərlərin dəstəsi sənə ışıx verəcax. Takə geddin bir bağa yetişərsən, bağda bir imarət var. Orda bir dev var, gözləri yomux olanda bil ki, onda ayıxdı, yaxınına getmiyəsən, devin gözləri ağaranda və xorluyur, bil ki, yuxluyubdu. Yetirəcaxsan, bu xəncərləri hər bir gözünnən vuracaxsan, başqa yerinnən vursan onu

öldürəməzsən. O, ölənnən sora onun nənəsi gələr, Künas cadu, sənin işin yoxdu, mən yetirrəm özümü.

## USTADNAMƏ

Adam oğlu, yol-ərkanı tanı, bil,
Yol-ərkan bilənin yeri dar olmaz.
Sirrini söyləmə qamu aləmə,
Bivəfa dilbərdən sənə yar olmaz.

İyid odu tənə oxun atmiyə,
Həlal mayasına, həram qatmiyə.
Bir oğul ki, ata sözün tutmiyə,
O oğulda qeyrət, namus, ar olmaz.

Öz sürünnən "qurban verdim" diyəsən,
Öz yünündən şal toxuyub giyəsən.
Bəslədiyin bağın barın yiyəsən,
Yad bağınnan sənə heyva, nar olmaz.

Dəllək Murad, çəkmə bunca qəmi,
Burda duran olmaz, gedərlər hami.
Fələk biçinçidi, bu dünya zəmi,
Biçilən zəmidə mürgüzar olmaz.

Cahandar necə ki, şah Murgan demişdi, yeridi quyunun yanına, düşdü quyuya, xəncərlərinin yapışdı tiyəsinnən, bunun ışığıynan getdi yetişdi təkə. Bir az gedənnən sora gördü bir dana bağ nümayən oldu. Bağda devi gördü, gözü sataşdı ifritə, gördü gözlərin yumubdu. Bildi ki, ayıxdı, ağacların daldasında daldalandı. Bir qədrdən sora gördü devin gözləri açıldı, ağappağ ağarır, əmma xoruldusunnan dünya titriyir. Bala-bala yetirdi başının üstünə, qol qüdrətli xəncərlə, tez, necə ki, hər əlində xəncər, vurdu bunun gözünnən. Dev nərə çəhdi, cəhənnəmə vasil oldu. Bu eynidə tufən oldu, zəlzələ oldu, bir ifrit nümayən oldu. Bildi Künas cadudu. Şah Murgan bu zaman yetirdi. Yetirdi, bunlar çəngləşdi – Künas caduylə şah Murgan. Şah Murgan pəncəsiynən

Künas cadunun gözlərin çıxatdı. Cahandar Künas caduyu tutdu və öz tüküynən bağladı.

Şah Murgan Künas cadudan löhi tilsimi İskəndərin sandığının açarın istədi. Künas cadu açarı şişəyə qoyub udmuşdu. Onu öldürdülər, şişəyi qarnınan çıxatdılar və ikisi də Piri Vaqifin yanına getdilər. Piri Vaqif şişəni görüncə dedi: "Bu şişəni Camasib həkim aça bilər". Piri Vaqif şah Murgannan istədi ki, şişəni Camasib həkimin yanına götürsünnər. Şah Murgan onu qəbul eləməyincə görək ona nə dedi? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Piri Vaqif şah Murgana dedi:

Şah Murgan, gərək özün gedəsən,
Bu qoca vaxtımda halımı qatma.
Bu çarəsiz dərdə çarə edəsən,
Bu yanmış qəlbimi qana boyatma.

O güneylər, o quzeylər,
O quzeylər, o güneylər.
Həsrət həsrətin görəndə,
Bayramın o gün eylər.

Hər nə söz deyirəm, onu biləsən,
Şad oluban bir ürəkdən güləsən.
Gülistani-İrəmə özün gedəsən,
Cahandarı ayrı kimsiyə satma.

Mən aşıq, oyan, gül,
Oyan, bulbul, oyan, gül.
Bülbül fəğan eylir,
Nə yatmısan, oyan, gül.

İstəkli bacı olubdu Reyhanə,
Qorxuram ürəyi tez dönə qanə.
Piri Vaqif yalvarır şah Murganə,
Qəflət yuxusunda bu belə yatma.

Əzizim balabanı,
Yasdı çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı?

Şah Murgan məcbür qaldı, şişəni apardı Gülistani-İrəmdə Camasib həkimin yanına. Üqab surətində qondu Camasib həkimin yanına. Üz dolandırdı:

– Qurban, məni Piri Vaqif göndərdi sənin yanına.

Macəranı şərh verdi: "Cahandar tilsimi İskəndəri sındırıb, Künas cadunu öldürmüşük, şişəni çıxartdıq, quşu öldürdük, cəbəni çıxardıq, indi bu şişədən açarı sən çıxardasan, verəsən mən aparam". Camasib həkim bir sehr oxudu, şişə düd oldu getdi göyə, açar yerdə qaldı. Camasib həkim dedi ki, bu açarı apar ver Piri Vaqifə, mənim salamımı söylə. Bir dana da Cahandara diyərsən, oğlum, tilsimi İskəndər sənin adına yazılıb, Piri Vaqif və Reyhanənin sözünnən çıxmagınan.

Şah Murgan açarı verdi Piri Vaqifə. Piri Vaqif açarı salıb sandığı aşdı, sandıxda tumar adına balaca dəftər vardı, verdi Cahandarın əlinə, dedi, bu bütün tilsimlərin açarıdı. Cahandar bununla neçə dana tilsimi sındırır, tilsimi Tavus, tilsimi Rühani, tilsimi Şahabdı, tilsimi Almas, neçə dana tilsimi bu dəftərdə yazanlarınan qırdı.

Şah Murganınan genə gedillər bir quyunun başına, buna diyir gedəcaxsan quyunun təkinə, bir çeşmə vardı, bu tumarı atarsan yerə, bir əjdaha gələr onu götürsün, sən levhayı götürəsən. Özüvü əjdahanın ağzına atasan. Onnan sora huşdan gedəcaxsan. Bir qədr huşdan gedərsən, ayılanda özüvü bir dağın damənəsində görərsən, tilsimi Tavus yetmiş iki şəkildə hər səfərində bir şəkildə, sənin qabağıva gələcax. Əvvəl dəvə sürətində gələr, qılıncı üstünə çəhsən qaçar. Bir az sora bir şir sürətində gələr, həmlə eləsən üstünə, qaçar. Yetmiş iki dəfə heyvan sürətində gələr. Axirdə bir dana qoca qurt sürətində gələcax. Kəməndi atasan, tutasan, ama öldürmüyəsən, sənin karına gələr, sənə yolu görsədər. Həzrəti Süleymanın ruhuna onu anda verəsən ki, sənə

xəyanət eləmiyə, o da səni anda verəcax və dost olacaxsız. Orda Tavus şəklinə dönür, özü də müsəlman olur.

Onnan sora bular bahəm gedillər tilsimi Rühənini sındırsınlar. Ərz elədim, şərh versəm çox çəkər. Onnan sora gedillər tilsimi Şahabı sındırıllar. Tilsimi Şahabı sındırannan sora gedillər tilsimi Alması sındırsınlar və xəzaneyi İskəndəri gətirsinlər. Almas buları istir öldüttürsün, Murgi Dövlət gəlir, Alması öldürür.

On iki min qoşun, Cahandarınan İskəndərin yeddi dana xəzənasin dolanıllar. Hər biri bir rəngdədi. Qıx min nəfərin esləhəsin götürüllər, Tumari İskəndər ki, ibarət ola İskəndərin şəmşirinnən, belinə bağlıyır, gəllilər hara? İskəndəriyyə. İskəndəri Rast buları peşvaz elədi. Ceşn tutullar. Bir neçə gün keçdi. Cahandar üz dolandırdı:

– Mən İsfəndiyar xana söz vermişəm ki, əmiqızımı verəm onun oğlu Kubada.

Olara da xəbər verdilər, durdular qızı qoydular kecavəyə. Geddilər Babülə ki, İsfəndiyar xan oranın padşahıdı, orda toy eləsinlər. Toyun dördüncü günündə (Allah çuğulun birin iki eləsin, ikisin üç eləsin, üçün də yer üzünnən puç eləsin) bu daş donunnan çıxanlar yedilər, işdilər, məst oldular, biri dedi tilsimi o sındırdı, mən də onu sındıra bülləm, biri dedi, onun gücü mənə yetməz. Bu sözü çuğul gəldi Cahandarın qulağına yetişdirdi. Cahandar dedi, görüşəcağıq, olarınan meydanda danışaram. Cahandar şahbaz ki çıxdı meydanə, dedi:

Şərab içib məst olanlar eşitsin,
Bu gün burda ər meydanı mənimdi.
Geyinsin silahın, mərdanə gəlsin,
Bu gün burda ər meydanı mənimdi.

Allah heç oğlanı eyləməsin xar,
Cəng edə meydanda ola aşikar.
Çıxsınlar aşkarə dalda duranlar,
Bu gün burda ər meydanı mənimdi.

Deyirəm sözümü, qoy hamı bilsin,
Yaxşı-yaman bu gün burda seçilsin.

Cahandara bərabər kimdi, gəlsin,
Bu gün burda ər meydanı mənimdi.

Damadı istədi, pəhlivanlarınan güləşəcağam, sora əmoğlumunan ki, qızın qardaşı ola. Dedi ki, at qovacağıq, hər kəs ö bürün atın üstünnən götürsə, o faiq gələcək. Cahandar əl atdı damadın kəmərinnən necə ki tutdu, qozadı göyə.

Kubad şah damadlıq gecəsində qızdan söz aldı ki, (İslam qoşunu orda Ərgəvan şahilən cəng eliyillər) məni də aparsın, ta mən orda gedəm Gülistani-İrəmə. Toyun səhərisinə, dəbdi, gəlin gəlir, qaynatasın, qayinanasının əlin görər. Buna əlgörmə dəbi diyəllər. Cahandarın əlin görəndə, dedi: "Mənnən nə istisən istə". Dedi: "Sənnən bir istəyim olacax ki, Kubad şahı aparasan Gülistani-İrəmə". Dedi: "Bu sözü sən diyisən, ya, o istiyir?". Dedi: "O, dünən gecə mənnən istədi".

Dedi ki, o zaman qulağ as, sənə bir neçə kəlmə sözüm var. Götürüb, görək nə dedi?

Cahandar dedi:

Gəl sənə söyləyim, öz əmim qızı,
Hansı bülbül tez ayrılar gülünnən?
Belə aşikarə deməzlər sözü,
Hansı bülbül tez ayrılar gülünnən?

Şeyda bülbül gülə intizar olar,
Əgər qəflət etsə üstün xar alar,
Kubadı aparsam sənə zülm olar,
Məgər bu söz çıxıb damad dillinnən?

Cahandarın dərdin yetirdin yüzə,
Yandırdın qəlbimi, döndərdin közə.
Ürək necə fitvə versin bu sözə?
Hansı bülbül tez ayrılar gülünnən?

Kubad şahı çağırdı, o da dedi ki, bəli, mən özüm istəmişəm.

Bu yan tərəfdən İsfəndiyar xan, o yan tərəfdən İskəndəri Rast, İskəndəri Sani qoşun tədariki görüblər və on iki min nəfər ki, daş donunnan çıxmişdilər, hammısı amadədilər, hammısı üz qoyublar Şamə tərəf. Aylar, günlər yolda olannan sora gün o

gün oldu, saət o saət oldu ki, gəldilər yetişdilər Şamə. Şamda şirin cəngidi. Cahandar gedənnən Cahangir və Şirzadı Tigzənin yaraları yaxcı olub. Ərgəvan şahın gözləri ki, süpenginən əyyarlar ahangı yumurulayıp vurmuşdular, yaxcı olmuşdu. Cahandar və dörəsindəkilər iki yüz min nəfəridilər, yetirillər Şamə. Cahandar özün vurdu dəryayi-ləşkərə. Bir zaman özün Ərgəvan şahın bərabərində gördü. Süleymani şəmşirin ki, xəzaneyi İskəndərdən almışdı, bağlamışdı belinə, bilirdi ki, bu rüyin təndi, şəmşir buna əsər eləmiyəcax, şəmşiri qoydu qılafinə, yapışdı bunun on səggiz lay kəmərinnən, atın üstünnən atdı bunu yerə. Əyyarlar bunu qısqıvraq tutdular, zəncirə bağladılar.

Axşam Mənzər şahı Yəməni üz dolandırdı ki, Ərgəvan şahı gətirin. Ərgəvan şahı gətirdilər. Mənzər şahı Yəməni Ərgəvan şahı danışdıranda dedi ki, mən o adam ki məni atın üstünnən götürüb yerə atdı, onnan danışaram, sizinlə danışmaram. Cahandarı nişan verdilər. Cahandar dedi:

– Səni mən götüməmişəm, Allahım götürüb.

Dedi:

– Mən əhd eləmişəm ki, mənim kim heykəlimi götürsə, ömrümün axirinə dək ona qulam olam.

Dedi:

– Mən qulam istəmirəm. Sən əgər müsəlman olsan, mənə böyük qardaş olarsan.

Dedi:

– Mən namənə deyim, olum müsəlman.

Dedi:

– Diyəsən "Əşhədü-ənla ilahə-illəllah və əşhədü ənna Muhamədən rəsulullah".

Dedi, oldu müsəlman, bunnar qol-boyun oldular, Mənzər şahı Yəməninin yanında oturdular.

Ərgəvan şah qoşununun içinə getdi və hamısın azad elədi, ama heş biri getmədi. Üz dolandırdılar ki, qurban, sən müsəlman olmusan, biz də müsəlman olacağıq.

Ərgəvan şahın bir əyyari çox muxalif oldu, bunun müsəlman olmağına narahand oldu. Əmma bir söz də demədi, olar kimi

müsəlman oldu. Bu yan tərəfdən Cahangir üz dolandırdı Cahandara: “Dadaş?” Dedi: “Bəli”. Dedi: “Bizim dədəmizin bir vəsiyəti var idi, vəqti ki, Şamı aldız, Keyvan dilavəri şah eliyəcaxsız və Keyvan sovdagəri də ona vəzir eliyəcaxsız”. Dedi ki, dədəmiz nə diyibdi, elə onu eliyəcağıx. Cahangir götürüb bu dillərinən islamın qoşununa görək nəmənə diyəcək, ərz eliyim eşidənlərin sağlığına.

Cahangir dedi:

Hamı qədəm qoysun bu gün meydana,
Ləşkər qabağında sultan yerisin.
İslam pərçəmini vursun hər yana,
Atamın verdiyi fərman yerisin.

Sizə həqiqətdən açaram söhbət,
Din yolunda gərək eyliyəm xidmət.
Atam eyliyibdi mənə vəsiyyət,
Atamın verdiyi fərman yerisin.

Cahangir sözün desin mərdana,
Hər kəs muxalifdi, çıxsın meydana.
Şamın hökümətin verim Keyvana,
Atamın verdiyi fərman yerisin.

Dedi: “Atamın verdiyi fərman budu ki, Şamın hökümətin verəm Keyvan dilavərə və Keyvan sovdagəri də ona vəzir eliyəm”. Hammı qəbül elədi. Hammısının ixtiyarın ona verdilər. Keyvan dilavəri tihmə qoydular Şamə.

Sabahı gün bular atlandılar gessinlər hara? Gülistani-İrəmə – dədələrinin dalısıcan. On iki min pəhlivan, İsfəndiyar xan, onun qoşunu hammısı atlandılar. Əmma buların yolu Sərəndib dəryasındandı. O yerdən ki, Şikari keçibdi, bular da o dəryanı gərək keçələr. Dəryanın kənarinə yetişəndə gəmilər orda, naxudaya dedilər ki, bizim ləşkərimizi keçirdin dəryanın o tərəfinə. Dedilər: “Bizim şahdan icazəmiz yoxdu, gərək icazə alax”. Cahangir götürüb görək naxudayə nə deyir? Mən də ərz eliyim eşidənlərin sağlığına.

Cahangir dedi:

Səni qəni eylərəm dünya malınnan,
Keçird bu dəryadan, naxuda bizi.

Xəbərin yox bir qəribin halından,
Keçird bu dəryadan, naxuda bizi.

Əvvəlindən gönül gözümüz toxdu,
Ürəkdə nisgilim, möhnətim çoxdu.
Bizim bir kəsinən işimiz yoxdu,
Keçird bu dəryadan, naxuda bizi.

Dedi: "Şahı Sərəndibdən fərmən almayınca sizi keçirdəmmərəm". Cahangir Humayun şaha bir məktub yazaraq belə dedi:

İki qardaş biz gedirik bu rahə,
Sənnən üz döndərən batar günahə.
Ərzim yetən kimi ədalət şaha,
Əmr eylə, keçirtsin naxuda bizi.

Cahangir məktubu yazdı, ama ayağın imzalamadı, ad vermədi. Məktub yetişdi Humayun şahın əlinə. Humayun şah Qəmərruxun babasıdı ki, Şikari Sərəndibdə onunla evlənmişdi və demişdi ki, əgər oğlum olsa, adın qoyarsan Cahanbəxş. Cahanbəxş on iki yaşına yetişmişdi. Şikari də yeddi il tilsimdə qalıb.

Namənin cavabın yazdı ki, keçit gəlsin qoşunu bu tərəfə. Bu yan tərəfdən Cahanbəxş bir iddə qoşununan çıxdı buların qabağına. Dedi ki, dayanın görüm. Tamam qoşun dayandı. Dedilər: "Cəvan, sözün nəmənədi?". Cahanbəxş götürüb görəh bulara nə deyir? Mən də ərz eliyim eşidənlərin sağlığına.

Cahanbəxş dedi:

Deyin görüm, nə məramə gəlmisiz?
Gəlmişəm cəng edəm sizinnən cəngə.
Qonaq olsaz gözüm üstə yeriz var.
Əgər düşmən olsaz hazıram cəngə.

Tamam pəhlivanlar olsun amadə,
Çağırın köməyizi gəlsin imdadə.
Tək-tənha bərabəram bu ləşkərə dəvadə,
Bac verməərəm tamam Rümü, Firəngə.

Dedi: "Bura bax görüm, sənin adın nəmənədi? Kimin oğlusan?". Çün Humayun şahı özünə dədə bülür, Şikariyi tanımır. Götürüb bu dillərinən özün tanıtsın.

Cahanbəxş dedi:

Göy geyibən, qaraları bağlayam,
Sinəm üstün çari-çapraz dağlıyam.
Cahanbəxşəm, Humayun şahın oğluyam,
Əgər düşman olsaz hazırəm cəngə.

Gördülər bu uşaxdı, bir şey demədilər. Dedilər, biz Gülistani-İrəmə gedacağıx, bizə yol versəz, ora gedəcağıx. Dedi, o zaman qonaxsız, gözümün üstündə yeriz var. Buları ağırladı, buları üş gün ağırladılar. Üş günnən sora ki, hərəkət elədilər, Cahanbəxş nənəsinin yanına gedir. Nənəsi soruşur:

– Oğlum, bular bildin kimidilər?

Dedi:

– Ana Cahandar və Cahangir, iki qardaş idilər.

Qəmərrux bunu eşidəndə ağladı. Cahanbəxş dedi:

– Niyə ağlıyısan?

Dedi, qulağ as deyim da niyə ağladım:

Xəbərin yox bu fələyin işinnən,
Gecə-gündüz olar çəkər əl-əman.
Əyər incisələr sənin dilinnən,
Olacaxsan, oğul, sora peşiman.

Məzələndi,
Mey içər məzələndi,
Vəfalı doslarımı gördüm,
Ürəyim təzələndi.

Bəlaya salmısan bəlalı başın,
Özgə gəlib olmaz sənin sırdaşın.
Cahangir, Cahandar sənin qardaşın,
Bu sevdadan olacaxsan peşiman.

Qan eylər, divan eylər,
Divan eylər, qan eylər.
Dost məni bu haldə görsə,
Ya ölər, ya qanıma qan eylər.

Qəmərruxdi sən cəvanın anası,
Lazımdi o ola xeyir-duası.
Şikaridi sən cəvanın atası,
Olar getdi, sən qalısan pərişan.

Dağlara qar düşübdü,
Gör nə hamar düşübdü,
Qəbrimi yadlar qazıbdı,
Yerim dar düşübdü.

Dedi:

– Sərəfraz şah oların namusların aparıbdı, Şikari dədən də oların dalısıcan gedəndə, gəldi burdan geşsin, o məni sövdü, mən onu sevdim, Humayun şah sənin babandı.

– Ana, bəs niyə indi deyisən?

Oğlan elə qıyyə çəkib ağlıya bildi ki, mənə niyə demədin. Durub getdi Humayun şahın yanına. Dedi: "Dədə, mənə qoşun ver, gedəcağam qardaşlarımın dalısıcan". Cahanbəxş dədəsi Humayun şahdan ləşkər alıb qardaşlarının dalısıcan getdi. Yolda bir zaman gördülər hava tutuldu, bir bulut gəldi, hava tutuldu. Buludun içinnən bir əl uzanıb yapışdı Cahanbəxşin kəmərinnən, havaya qozadı. Ləşkərdən bir qovğə çıxdı, çalxalandı. Dedilər:

– Sən kimsən? Hara aparısan?

Dedi:

– Mənim adıma Zəfərən cadu diyəllər, neçə vaxtı bunun həsrətindəydim. Mən elə bu günü gözləyirdim.

Ağa, ləşkər qəyitdi, Humayun şaha olanları dedilər. Nalə, əfğan getdi havaya, göyün üzü tutuldu.

Olar orda qalmaxda olsun, eşid dastani kimnən? Cahangirlə Cahandardan. Ləşkəri islam gəldi yetişdi Həddisəddə Pərizadə. Dəstür verdilər, tamam ləşkər atından enib əyləndi, çadırların mıxların çaldılar yerə.

Bu yan tərəfdən Fərhəng Əyyar çıxıb gəşt eylədi, gəldi Cahangir, Cahandarın yanına. Dedi ki, Cahangir, bu dağda o qədər dev vardı ki, ayax qoymağa yer yoxdu. Bular – Əlavə şah, oğlu Zərdan və bir də Firuz Əyyar. Bular üçü devləri yığıblar

oraya. Bu zaman gördülər bir dana dev varid oldu. Dedi ki, ləşkərin böyüyü kimdi? Naməni Mənzər şahı Yəməninin əlinə verdi ki, siz kimsiz, bəni-adəm? Nə üçün gəlmisiz? Dedi, sən getginən, mən cavabın yollaram. Naməni yazdı. Cahangir dedi, mən aparram. Götdü naməni apardı, hara? Devlər şahının yanına. Devlər padşahi gördü bir cavan gəlir, simada Şikariyə oxşuyur. Bu düşdü bunun qədəmlərnə. Cahangir qozadı, dedi ki, niyə belə eliyisən? Əlavə şah götürüb bu dillərinən görək Cahangirə nə dedi? Əlavə şah Cahangirə dedi:

Canım qurban, sənin kimi cəvanə,
Səndə vardı bir cavanın nişanı.
Xoş gəlmisən, oğlan, bizim məkanə,
Səndə vardı bir cəvanın nişanı.

Mən aşıq, bu dağınan,
El gəzər bu dağınan.
Sənə yaxşı deməzlər,
Mən ölsəm bu dağınan.

Özüm öz işimdə olmuşam naşı,
Axıtma didəmnən bu qanlı yaşı.
Ya oğlusan onun, ya da qardaşı,
Səndə vardı bir cəvanın nişanı.

Ərzuruma, hay Ərzuruma,
Bu yollar gedər Ərzuruma.
Dəvəsi ölmüş ərəbəm,
Dözərəm hər zuluma.

Dediyim oğlanın var etibari,
Gecə-gündüz eylərəm ahu-zari.
Evladı İskəndər, adı Şikari,
Səndə vardı o cəvanın nişanı.

Mən aşıq, səbr eylər,
El məni dəli eylər.

Yanasan mənim ürəyim,
Necə bu dərdə səbr eylər?

Şikarinin adın eşidəndə dedi: “Sən onu hardan tanıyısan?”. Dedi: “O yeddi ildi tilsimdədi. Biz də burda Firuz Əyyarınan onu gözətliyirik, görək neynirik”.

Cahangir düşdü bunun ayağına. Əlavə şah dəstür verdi, təbli şadiyanəni vurdular. Bular yığışdılar, bir yerdə yedilər, işdilər. Üş gün bular burda qaldılar. Üçümüncü gün Cahangir Cahandara üz çevirdi:

– Getməli qonağın getməsi qalmasından yaxşıdı. Dədəmiz bizi gözlüyür, tilsimi Heyhətdədi.

Əlavə şah üz dolandırdı:

– Mən hər tərəfə namə yazmışam ki, qoşun gəlsin.

Cahangir Əlavə şaha dedi:

Sənə qurban, Əlavə şah,
Bizə söhbət haramıdı.
Köməy olsun qadir Allah,
Bizə söhbət haramıdı.

Qılıncım sovuldu əldə,
Dilavərlər sağ və solda.
Dədəm gözü qalıb yolda,
Bizə söhbət haramıdı.

Dost-düşmən vurur minnət,
Namərd fələk vermir fürsət.
Cahangirə olmur qismət,
Bizə söhbət haramıdı.

Hammısı atlandı. Bəni-adəminən dev qarışıb bir-birinə. Devlər də müsəlmandı. Üş günnən sora Gülistani-İrəmə yetirdilər. Şəhrin kənarında mıxların çaldılar yerə. Əlavə şah bir dana namə yazdı yolladı Sərəfraz şaha ki, qardaşımsan, xatirivi saxlaram, sən gəlginən qızın Reyhanəni ver oğluma və cəng qutulsun. Bunu da bilginən ki, Şikarinin oğlanları neçə min ləşkərinən gəliblər dədələrinin dalısıcan. Naməni verdi apardı Sərəfraz şahın

yanına. Sərəfraz şah naməni alıb məzmununnan xəbərdar oldu, vəziri Camasib həkimi çağırdı. Dedi:

– Sən bu işə nə deyisən?

Dedi:

– Neçə dəfə demişəm, buların namusun verginən aparsın, mən bülmərəm, özün bülərsən.

Sərəfraz şah eşidmədi, götürdü namənin cavabını cəng yazdı. Namə oların əlinə yetişdi. Üş gün möhlət verdilər, ta Sərəfraz şah da ləşkərin yığa, cəng eliyələr.

Gəlın sizə ərz eyləyim,
Aqil olan, bu dünyada var nədi?
Dünya bir bostandı, pozular, gedər,
Çiçəh nədir, yemiş nədir, bar nədir?

Bu dünyada çox-çox şirin mal olu,
Tamahkarlar halı müşgül hal olu.
Qol burulu, qulax batı, lal olu,
Qohum nədi, qardaş nədi, yar nədi?

Dəllək Murad, bu yollarda sürünnəm,
İndi gedişimdi, nə vaxt görünnəm?
Altun torpax, üstündə döş hörünnəm,
İsti nədi, soyux nədi, qar nədi?

Gecələrin birində Cahangir qılıncın, qalxanın bağladı belinə, dedi, üş gün cəng yoxdu, hələ mən bir gəşt vurum. Getdi, bir zaman gördü dalısınca bir qəraltı gəlir. Dedi ki, gələn, gəlməginən yoxsa öldürrəm. Bu kim idi? Zərdan, Əlavə şahın oğlu. Dedi: "Cahangir, indi ki, gedisən, məni də apargınan". Qəbül eləmədi, getdi, ginə gəldi, Cahangirin dalına düşdü gəldi. Hər ikisi gəldilər Gülistani-İrəmdə, çərbağı Süleymaniyəyə yetişdilər. Bular bağın içinə girib dolanırlar. Cahangir gördü uzaxdan balaca bir ışıx gəlir. Bu ışığa sarı gəldilər, gördülər çadırın içində bir dana qız oturub. Cahandar dedi:

– Onda oturacaxsan burda yerə. Mən gəlmiyincə, ya səni çağırmıyınca burdan o tərəfə getmiyəcaxsan ha.

Dedi, baş üstə. Cahangir yeriyib çadıra yaxınlaşdı. Bir ağacın daldasında qulağ assın, gördü bu qız özüynən sızıldıyır. Nəmənə deyir?

Qız dedi:

Qadir Allah, budur sənnən diləyim,
Nə Cahangir, nə Cahandar gəlmədi.
İntizar qalıb gözüm, neyləyim?
Nə Cahangir, nə Cahandar gəlmədi.

Mən aşıq, qara qözlər,
Sürməli, qara qözlər.
Məni fələy əyməzdi,
Sən əydin qara gözlər.

Kimə deyim cavab versin sözümə,
Yeddi ildi yuxu keşmir gözümə.
Az qalıram qəsd eyliyəm özümə,
Nə Cahangir, nə Cahandar gəlmədi.

Oyan, dağlar,
Al-qana boyan, dağlar.
Bu yan zülmətxanadı,
Necədi, o yan, dağlar?

Reyhanəni qoydun yana-yana,
Bağrımın başını döndərdin qana.
Gah tilsimə düşdün, gah da zindana,
Nə Cahangir, nə Cahandar gəlmədi.

Mən aşiqəm, bir də mən,
Doldur içim bir də mən.
Ömr azaldı, gün keçdi,
Cəvan olmam bir də mən.

Dəli göyül, atəşlərə atlama,
İnnən belə dünya sənə dar olmaz.

Bir mərt qazansa, yüz namərd doyuyar,
Yüz namərd qazansa, mərdə bir nahər olmaz.

Qız istədi özün həlak eliyə, əma Cahangir yeridi qabağa və dedi ki, nazənin, əl saxla. Bu Reyhanə Sərəfraz şah qızıdı ki, meşeyi-Məhlakədə Sərəfraz şah bunu Şikariyə vermişdi. Dedi:

– Sən kimsən, burda nə işin var?

Dedi:

– Mənim adım Cahangirdi, Şikarinin oğluyam.

Zərdan gördü Cahangir geç gəlib, gəldi çadıra, baxdı gördü çadırda Cahangir bir qızınan oturubdu. Yaxına gələndə gördü bu bunun öz əmiqızısıdı. On il bunun üçün gecə-gündüz göz yaşı tökərdi. Zərdan Cahangirə dedi:

– On ildi bunun üçün ağlıyıram, onun əlin ver əlimə.

Dedi:

– Olmaz, cəng qurtarsın, onnan sora.

Bu, bunu səridi. Reyhaniyə də dedi ki, bu bilməsin macərə nə curdu? Reyhanəni bağdan götürdülər, gətirdilər hara? İslam qoşununa. Bunun öz çadırın qurdular.

Bəli, üş gün tamam oldu, cəng başladı, pəhlivanlar gəldi meydanə. Pərilərdən nə qədr sındırdılar. O zamani ki, istirdilər Gülistani-İrəmi alsınlar, bir onda gördülər ki, hava qaraldı, birdən gördülər Üzzar atmış min nəfər qoşunnan Sərəfraz şahın köməyinə gəldi. Elə ki Üzzar gəlib təbli-bazgəşt vuruldu, gecəni sabah eləsinlər, sabah genə təbli cəng vurulsun, hər kəs gəldi meydanə. Cahandar meydanə girdi. Sərəfraz şah iki dana pəhlivan göndərdi. Cahandar oları cəhənnəmə vasil elədi. Onnan sora Üzzar qədəm qoydu meydanə. Hər aləti cəngi işlətdilər, gördülər olmadı, əl birbirinin kəmərinə elədilər. Üzzar gördü buna fəiq olmadı, bir sehr oxuyub getdi havanın üzünə. Bir zaman gördü ki, göydən bir əl gəldi, elə mərkəbli zaddı bunu apardı havayə. Bunu aparanda dedi: "Adəmizəd, sən bura gərək gəlməyəydin, bura sənin meydanın dəyil. De görüm, indi səni dəryaya atım, ya quyuya?"

Cahandar bilirdi ki, buna desə at quyuya, atacax dəryayə, əgər desə ki, at dəryayə, aparıb atacax quyuya. Buna dedi ki, məni at dağa. Bunu aparır atar quyuya.

Sizə şad xəbər verim Cahandarın bacısı Reyhanədən. Reyhanə cadu və Tavus cadu, bular hər ikisi gedillər Gülistani-İrəmə. Gördülər havanın üzündə bir nəfəri gətirdilər atdılar dəryayə. Elə bil bu adəmizaddı. Dedi: "Sən mərkəbi tut, mən adamı tutaram". Biri onu tutdu, biri bunu, gətirdilər qoydular yerə. Gözlərin açanda gördü bunun başı genə Reyhanənin dizlərinin üstündədi. Nə oldu sənə? Dedi: "Üzzar məni hileynən götürdü havayə". Dedi ki, bacı, sənə bir-iki kəlmə sözüm var.

Cahangir Reyhanə caduya dedi:

Dad eylərəm bu fələyin əlinnən.
Qərib yerdə qəza işin işlədi.
Bülbül idim, uzaq düşdüm gülümnən.
Qərib yerdə qəza işin işlədi.

Meydanda salmışdım böyük vəlvələ,
Çətin ki o bir də bəriyə gələ,
Siz də gəlın gedək mənimlə belə,
Qərib yerdə qəza işin işlədi.

Mərkəbimi Cahandara götürün,
Götürübən ləşkərgaha yetirin.
Ya da gedin mənə xəbər gətirin,
Qərib yerdə qəza işin işlədi.

Həmhəməyinən Dəmdəmə gəliblər Sərəfraz şaha kömək eliyillər. O zaman yetirdilər ki, islam qoşunu pəriləri aradan aparıb, istirlər Gülistani-İrəmi alsınlar. Pərilər tərəfinnən sehr oxuyublar, islam qoşununa ot yağdırıllar. Həmhəməynən Dəmdəmə sehr oxudular, ot qəyitdi getdi pərilərə sarı. Fitnə cadu da gəlib Sərəfraz şaha kömək, ot yağdırır. Təbli-bazgəşt vurublar, sabah iki ləşkər gəlsinlər meydana. Üzzar girdi meydanə. Cahangir qədəm qoydu onun meydaninə. Dedi: "Dünən gələn pəhlivan sənin nəyindi?". Dedi: "O neynədi ki, sən də neyniyəsən?". İkisi bir-birinin kəmərinən tutdu. Döyüşə başladılar. Gördü bu dünənki pəhlivannan zorludu, getdi havayə, istədi onu da aparsın, göydən gələndə Cahangir girdi Kürrənin altına. Mərkəbin altınnan çıxıb elə bir dana şəmşir vurdu bunun uzununa, aradan böldü saldı yerə. Üzzarini cəhənnəmə

vasil elədi. Bu yan tərəfdən islam qoşunu pərilərin üstünə getdi. Zərdan da getdi Reyhanənin çadırına. Reyhanə gördü iş işdən keçib, buna kələh qurdu, dedi: "Üzüvü çövür o yana, mən paltarımı soyunum". Əl elədi. Üz çevirəndə Reyhanə bir sehr oxudu, üqab sürətinə düşdü, "pırrr" eliyib uşdu getdi. Zərdan da Cahangirin qorxusunnan qaşdı getdi gizləndi ki, onu tapa bilməsinlər.

O yannan təbli-bazgəşt vurulsun, islam qoşunu gəldi bu yana, pərilər getdilər öz yerlərinə. Cahangir cəngidən qəyidəndə Reyhanənin çadırına getdi, gördü çadırda yoxdu. Bu yan, o yana baxdı, gördü vəziyyət nə curdu, bildi burda bir iş var, qeyitdi Zərdanı axtardı, tapa bülmədi. Gəldi Əlavə şaha üz dolandırdı: "Oğlun hardadı, gərək tapasan".

Hər tərəfi axtarıblar, Zərdanı bir yerdən tapdılar. Gətirdilər, Əlavə şah, Cahangir, Cahandar və tamam üməra məclistəydilər. Cahangir dəstür verdi, Zərdanın qolların bağladılar. Cahangir götürüb bu dillərinən soruşsun, görək Reyhanəni nə cür soruşur?

Cahangir Zərdana dedi:

Günahın var, qollarıvı bağlıram,
Söylə görüm, Reyhanəni neynədin?
Ürəyimi eşq oduynan dağlıram.
Söylə görüm, Reyhanəni neynədin?

Mən aşıq, dağda nə var?
El gəzər, dağda nə var?
Məcnun xəyallı gönlüm,
Leylisiz dağda nə var?

Dal gərdəndə qollarıvı bağlaram,
Sinən üstü çari-çapraz dağlaram.
Düz deməsən, rizə-rizə doğraram,
Söylə görüm, Reyhanəni neynədin?

Mən aşıq, bu dağınan,
El gəzər bu dağınan.
Sənə yaxşı deməzlər,
Mən ölsəm bu dağınan.

Cahangirəm, danış mənnən mərdana,
Qılıç çəksəm kölgə sallam cəhana.
O gözəli harda saldın zindana,
Söylə görüm, Reyhanəni neynədin?

Mən aşıq xal məkanı,
Üzündə xal məkanı.
Alçaqlan uca dağlar,
Görsənsin yar məkanı.

Dedi, mən Süleymanın ruhuna and içirəm ki, xəbərim yoxdu, devlər yalan danışmaz. Doslardan soruşma, düşmənlərdən soruş, mən yalan danışmaram. And olsun Süleymanın ruhuna mənim əlim ona dəymədi. Zərdanı azad elədilər.

Bu yan tərəfdən ertəsi gün cəng genə başladı. Bular az qalsın Sərəfraz şahı tutacaxlar və Gülistani-İrəmi ələ keçirəcaxlar. Sərəfraz şah İfrit Büzürgə namə yazmışdı ki, mənə köməh elə. Axşam zamanı öz ləşkəriynən gəldi. Sərəfraz şah İfrit Büzürgü peşvaz, pəyandəz elədi. İslam ləşkərinə kölgə düşdü ki, ey dadibidad, İfrit Büzürg gəldi. Reyhanə dedi ki, bunun qabağına çıxa bülməzsiz, bu həm yerdə dəva elər, həm göydə. Əlavə şah dedi, biz devlər də buna hərif ola bülmərik. Cahangir gördü durum belədi. Şirzadı Tigzən üz dolandırdı ki, əmoğlu, on gün möhlətimiz var, olara çarə elərik. Gəlin fikr eliyək, görək namuslarımız harda qalıbdı? Əyyarlardan biri – Şəmkür Əyyar var idi, yerinnən durdu dedi, mən gedərəm oların dalısıcan. Şəmkür Əyyar düşdü yola, az getdi, çox getdi, yetişdi bir dağın damənəsinə. Gördü həsarın içində bir imarət var. Onun qabağında bir bulax var. Bulağın başında bir övrət oturub. Çox heykəllidi. Eşidmişdi ki, Fitnə cadu çox heykəllidi. Yeridi qabağa, səlam verdi. Dedi:

– Sən kimsən?

Dedi:

– Mənə Həqiqəti Firəngi diyəllər. Məni burda Əlavə şah dəstgir eliyib. (Bunu tutmağ üçün buna kələk gəlir.)

Dedi:

– Düzün de görüm, sənin burda nə işin var?

Dedi, qulağ as deyim da. Götürüb bu dillərinən görək nə deyir?

Şəmkur Əyyar dedi:

Əlavə şah edib məni dəstigir,
Gəzəm gərək çölləri mən ölüncə.
Neçə illər idi edib məni dəstigir,
Gəzəm gərək çölləri mən ölüncə.

Kimsə yoxdu, mən dərdimi söylüyəm,
Xəncər alıb bu qərə bağrım teyliyəm.
Fələyin əlinnən çox gileyliyəm,
Ölüm yeydi bu dünyada qalınca.

Dedi ki, mənim başımın sərgüzəşti çoxdu. Sərvətim, dövlətim əlimnən çıxıb. Anam mənə vəsiyət eləmişdi ki, Qulleyi-Qafda bir Həkimə cadu var, onun bir dana qızı var, adı Fitnə cadudu. Mənə diyərdi səni onunla beşikkəsmə eləmişəm. Sənin ömrün üş minə yetişəndə o sənə qismət olar. İndi mən onu axtarıram tapam, tapa bilmirəm.

Fitnə cadu bir qəhqəhə çəkib güldü ki, dağlar yerinnən oynadı. Dedi:

– Elə o mənəm, sən mənim sövgülümsən, mən də sənin sövgülünəm.

Dedi:

– De görüm, islam qoşununda kimlər vardı?

Dedi:

– Orda Tavusunan Reyhanə var. Əmma sən o Şikarinin hərəmlərinnən mənə bir xəbər gətir.

Şəmkür Əyyar ona bihuşdaru verdi, səridi özüynən getti. Apardılar baği Süleymanidə çəhdilər dara. Tavusumnan Reyhanə qızların yerin örgəşdikdən sora dedilər biz gətirrik. Sehr oxuyub üqab surətinə düşdülər, qondular bargahi Süleymaniyə. Tamam nigəhbanlara sehr oxuyub bihüş elədilər. Varid oldular bargahə, Sərəfraz şaha da bihüşdaru tutullar, o da bihüş oldu. Təxti çəhdilər, gördülər qızların beşi də orda sızlıyıllar. Ani dəqiqə götürdülər Cahangirin yanına, ceşni tutsunlar. İfrit Büzürgdən söhbət aşdılar.

Dedilər, bizim on günümüz qurtaranda on gün də möhlət alax. Cahangir dedi ki, mənim ayrı fikrim var, qulağ asın deyim.

Cahangir dedi:

Sizə qurban olum, əyləşən canlar,
Gedirəm dədəmin mən sorağına.
İfrit Büzürg gəlibdi gülzarə,
Nəri ötürəllər nər qabağına.

Yar yarınan əyləşib diz döşəyə,
Baş əymərik bəylərə biz, paşayə.
Sərəfraz şah duracax təmaşayə,
Nəri ötürəllər nər qabağına.

Həq söz çıxdı Cahangirin dilinnən,
Bir bülbüləm, ayrılmışam gülümnən.
Əcəl kəməndini sallam belinən,
Nəri ötürəllər nər qabağına.

Üz dolandırdı dövriyə ki, mən gedim dədəmin dalısıcan, mən gələ bülməsəm on gün də möhlət alarsız. Cahangir, Tavus və Şəmkur Əyyar getmağa hazırlandılar. Tavus bir sehr oxudu, üçü də üqab sürətinə düşdülər, qaxdılar göyə. Tavus dedi ki, mən Sütürsər devi tanıram, şah Gulanın tihməsidi, onun xəbəri olar. Getdilər Sütürsər devin qələsinə. Qarovul, yasavul buları durdurdu:

– Niyə bura gəlmisiz?

Tavus üz dolandırdı:

– Biz Sütürsər devin qonağıyıx. Ona deyin ki, Tavus gəlibdi.

Buların qədəmlərinə qurbanlıx kəsdilər. Söhbət açılanda dedi:

– Bular kimdi?

Dedi:

– Bu Şikarinin oğludu.

Dedi:

– Hansı Şikari? Adəmizəd Şikari?

Dedi:

– Bəli.

Bu, onun üzünnən öptü.

Dedi:

– Meşeyi-Məhlakədə Şikari məni öldürmədi, mən də bir dana at nalı saldım qulağıma ki, sənə qulamı həlqə-beqüş olacağam və mən də döndüm oldum müsəlman. Götürüb bulara görək nə dedi? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Gəl sənə söyləyim, ala göz oğlan,
Onun vardı məndə bir nişanəsi.
Qəbül etdim dinin, oldum müsəlman,
Onun vardı məndə bir nişanəsi.

Müsəlmansan, öz dinində doğrusan,
Ürəkdən yaralı, sinə dağlısan.
İndi bildim Şikarinın oğlusan,
Onun vardı məndə bir nişanəsi.

Məhlakədə rast gəlmişdi o mənə,
Qulaq versən düzün söylərəm sənə.
Çox yalvardım, qulam oldum mən ona,
Onun vardı məndə bir nişanəsi.

Qulağın görsətdi. Dedi ki, bu onun yadigaridi mən ona qulam oldum. Macəranı dedilər. Bu durdu ayağa ki, gessin şahın yanına, Şikaridən xəbər gətirsin. Sütürsər dev dedi:

Gedim tilisimi Heyhatə,
Gətirəm xoş xəbər sizə.
İskəndərtək o zülmətə
Gətirəm xoş xəbər sizə.

Peymanətək mən də dolam,
Saralubən gül kimin solam.
Gedirəm bir xəbər biləm,
Gətirəm xoş xəbər sizə.

Sütürsəram, ona qurban,
Əyləşin siz, əziz mehman.
Yolunda verrəm başu can,
Gətirəm xoş xəbər sizə.

Sütürsər dev getdi şah Qulamın yanına və dedi ki, eşidmişəm siz bir dana adəmizad tutmusuz. Mən heş adəmizad görməmişəm. Gəldim onu bir görəm, o nə cürdü. Bu cür istiyir söz alsın ağzınnan. Dedi: "Onu salmışam tilisimi Heyhatə". Bu bir dana sehr oxuyub püflədi. Şikari bunun gözünün qabağında nüməyan oldu. Gördü dəryada bir cəzirədi. Bu, gəlib Reyhaniyə və Tavusa dedi ki, Şikari ölmüyüb, sağdı və bir cəzirədədi. Üş günnən sora şah Qulam min nəfər devinən gəldi, hara? Sütürsər devin yanına. Yeddi gün orda onu ağırladı, yedilər, işdilər, kefə baxdılar. Yeddi günnən sora Sütürsər dev şah Qulama dedi:

– Nə cür tutdun onu, neyniyəcaxsan?

Dedi: "O mənnən savaşdı, ona dedim mənim dalımca gəlmə, tilsimə düşərsən, baxmadı, gəldi. Mən də onu tilisimi Heyhatə salmışam. Onun ordan çıxması üçün onun tilsimini yazmışam öz adıma. Əgər məni öldürmax istəsələr onu çıxatmax üçün, mənim hər bir qətrə qanımnan min dana dev ərsiyə gələr. Əgər bir adam məni diri-diri torpağa versə, üş gün cəsətim qalsa topraxda, üş günnən sora mənim canım çıxar və o, azad olar".

Bunu Sütürsər dev Cahangirə dedi. Şəmkür Əyyar dedi: "Onu diri-diri torpağa quylamax mənim öhdəmə. Siz fəqət məni qələyə aparın işiz olmasın".

Şəmkür Əyyar dedi:

Sənə qurban olum, məlakeyi Sahiran,
Yetirin siz fəqət qələyə məni.
Dost yolunda qurban, bu başınan, can,
Yetirin siz fəqət qələyə məni.

Mən aşıq, dolu gözlər,
Dağ başı dolu gözlər.
Səndəki naz, ürək,
Məndəki dolu gözlər.

Fələk özü salıb məni bu günə,
Neçə dil bələdəm, neçə cür dona.
Ayrılıx az qalır ürəyim yona,
Yetirin siz fəqət qələyə məni.

Nəzər bağı,
Dost gələr, gəzər bağı.
Dodağın gül qonçası,
Açılsa bəzər bağı.

Şəmkür deyir, Şikariyə nökərəm,
Əcəl badəsini doldurub içərəm.
Üqab olub, qanat çalıb uçaram,
Fələk salıb genə bəlayə məni.

Aşığam, gedər, qalmaz,
Axar su, gedər, qalmaz.
Vəfalıya can qurban,
Bivəfa gedər, qalmaz.

Şəmkür Əyyar dedi: "Əgər mən Sütürsər dev sürətnə düşsəm bu işi görə bülləm". Tavus bunu Sütürsər dev surətinə saldı, özü də Cahangir üqab sürətində havalandılar, gəldilər qəliyə, dört gün uşdular, ta ora yetişdilər. Cahangir yolda bir ağaş gördü ki, hər butağı yarım ağaş yol gedir. Bu ağaçın üstündə elə bir yuva var idi ki, diyəsən boyu üş kilometr olar. Tavusdan sordu: "Bu nə quşun yuvasıdı?". Dedi: "Bura Zehi Azəmin yuvasıdı". Bular bunu danışmaxdaydılar, gördülər birdən hava qaraldı. Baxdılar gördülər bu quş dört dana fil şikar eliyib gətirir.

Cahangir çox əcayib heyvanlar gördü. Bir az da getmişlər, gözü bir heyvana düşdü, on iki dana başı var. Hər başında da on iki dana gözü var. Dört dənə buynuzu, bir dana ayağı var. Bir ayağıynan hoppanıp gedəndə, hər hopananda min ərş yol gedir. Gəlib yetirdilər qəliyə. Şəmkür Əyyar ki, özün salıbdı Sütürsər devin sürətinə. Şahı Qulamınnan bağı tilsimi Heyhatdə oturdular bir ağacın kölgəsində. Onnan icazə alıb getdi Şikarini gördü. Şikari Sütürsər devdən əvvəl qızları soruşdu. Dedi, olar salamətdi, gəlmişik sənə nəcat verəx. Şikari dedi: "Mən yuxuda Xızır peyğəmbəri görmüşəm, mənə dedi, yeddi il təmam olanda oğlun Cahandar səni burdan çıxardacaxdı". Şəmkür Əyyar qeyitdi gəldi şah Qulamın yanına. Şəmkür Əyyar, şah Qulam oturdular yeyib işmə-

yə. Bunun dört misqal bihüşdarusu var idi, töhdü onun piyaleyi şərabına. Bu, bihüş oldu. Bunu götürüb eşihdə quyluyur. Bir dana sehr oxuyur, min batman ağırlığında bir daşı gətirir torpağın üstünə qoyur. Üş günnən sora yer lərzəyə gəldi, devlər yığışdılar. Bunun can dodağınnan çıxanda yer zəlzələ eliyir.

Şikari tilsimi Heyhatdən çıxdı, bular özlərin bağda gördülər. Bağ ot tutub yandı. Susən cadu və Vasvas cadugər bağa ot vurdular. Devlər də həmlə elədilər. Şikariynən Şəmkür Əyyar oların hammısın öldürdü. Susən cadu və Vasvas cadugər gəlib Tavusun ayağına düşdülər.

İfrit Büzürg indi islam qoşunuynan cəng eliyəcax. Vasvas cadugər dedi ki, onun ölümü mənim əlimdədir. Canı bir dana şüşədə mənim yanımdadır.

Tavus, Şikari, Vasvas cadugər, Susən Cadugər, Cahangir, Şəmkür Əyyar gəldilər islam qoşununa. Saət o saətti ki, iki qoşun atlanıbdı. İfrit Büzürg meydanda at oynadır. Xəbər apardı ləşkərə, onun dalısıcan, Şikari ki, üqab sürətində gəlirdi, meydanın vəsətində endi yerə. İfrit Büzürg dedi: “Sən kimsən? Sən adəmizadsan, Qaf dağında nə işin var?”

Şikari götürüb görək bu dillərinən nə deyir?

Şikari İfrit Büzürgə dedi:

Cadu İfrit, belə tufan eyləmə,
Gərək bayraq vuram bu meydanə mən.
Nərə çəkib belə fiğan eyləmə,
Gərək bayraq vuram bu meydanə mən.

İskəndər babamdı getdi zülmətə,
Özünü yetirdi abi-həyatə.
Sənnən köməy olmaz bu pərilərə,
Gərək bayraq vuram bu meydanə mən.

Şikariyəm, mən davadan doymaram,
Bu qisası yerdə qala, qoymaram.
Qırram pəriləri, tamam doğraram,
Gərək bayraq vuram bu meydanə mən.

İfrit Büzürg Şikarinin sözlərin eşidənnən sora dedi ki, indi ki, elə diyisən, qılıcıvı çıxart, nəmənə gücün vardı, vur mənə.

Dedi:

– O, namərdlik olar, yiğitlih olmaz.

İfrit Büzürg dedi:

– Mən özüm icazə verirəm, vursun mənə.

Şikari əl elədi şəmşirə, tiği Süleymaniyi vurdu buna, bu qeyitdi dalıya. Əmüdun çıxatdı vurdu, əmüd qəyitdi dalıya, o da olmadı. İfrit Büzürg istədi həmlə eləsin, Şikari əl elədi, tutdu kəmərinnən. Kotan kimi yer sököllər, o çəkir bu yana, bu çəkir o yana. Bu istiyir Şikariyi götürsün göyə, Şikaridə pəhlivanlıx var, firsənd elədi yapışdı bunun buynuzunnan. Gördü bunun buynuzu çıkkıldadı.

İfrit Büzürg dedi:

– Əgər mənim buynuzumu sındırsan day mənə nəng olar, dolana bülmərəm. Əgər ötürsən, mən gedərəm.

Şikari bunu ötürdü. Bir sehr oxudu, getdi havayə. Dedi ki, ey Sərəfraz şah, mən sənnən dönühlük elədim, mən day getdim. Qoşunu da onun dalınca. İslam qoşunu həmlə elədi.

Eşid dastani kimnən? Camasib həkimnən. Camasib həkim üz dolandırdı Sərəfraz şaha: "Qurban, indi mənim sözümə gəldin? İndi gəl mən diyənə baxgınan, mən gedim Şikarinin yanına, sizi barışdırım". Qəbül elədi, Camasib həkim durub gəldi. Xəbər verdilər ki, Sərəfraz şahın tərəfinnən elçi gəlir, durdular onu peşvaz elədilər. Ona xidmət elədilər. Dedilər, buyur, sözün, əmrin nəmənədi? Camasib həkim dedi, qulağ asın diyim.

Camasib həkim dedi:

Sərəfraz şah qalıb indi avarə,  
Qəbül eyləsən gəlmişəm iltimasə.  
Gər desən, get eylə parə-parə,  
Bir dəfə əyləşim mən burda yasə.

Ey dilavər, gətir öpüm üzünnən,  
İyidlik nişanı getmir üzünnən.  
Şahlar çıxmıyıblar mənim sözümnən,  
Qəbül eyləsən gəlmişəm iltimasə.

Xoş gəlmisən göz üstə bu məkanə,
Başıvın qəzası heş gəlməz sanə.
Camasibəm, baxatiri Reyhanə,
Qəbül eyləsən gəlmişəm iltimasə.

Dedi, Sərəfraz şahın qızı Reyhanəyə xatir ki, onun sevgilisidi, onun sözün yerə salma. Dörədən də üz tutdular ki, Camasib həkimin sözün yerə salma.

Şikari Camasib həkimə dedi:

– Bu şərtinən onu bağışlaram ki, öz qızı Reyhanəyi ki, meşeyi-Məhlekədə onu tapa verə mənə. Söz tamam, vəssalam.

Camasib həkim durdu gəldi Sərəfraz şahın yanına ki, deyir mən bu şərtinən onunla barışaram ki, onu tapsın versin mənə. Dedi:

– Mən qızımı ona vermərəm. Mən razi deyiləm.

Camasib həkim dedi, indi ki, vermisən, qulağ as sözlərimə. Götürüb bu dillərinən görək Sərəfraz şah nə deyir? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Camasib həkim Sərəfraz şaha dedi:

Sənə qurban olum, qıbleyi devran,
Bu qovğa salmağın nə əlamətdi?
Bais olma, tökülməsin nahaq qan.
Tacü-təxtin gedər, nə qiyamətdi?

Nə söz çıxsa, qəbül eylə bu dildən,
Bülbüldə qaydadı, ayrılmaz güldən.
Qorxuram ki, şahlığın gedə əldən,
Yəqin bil ki, Reyhanə sələmətdi.

Camasib deyir, şad olubən gülmürəm,
Bu qəmli göylümün pasın silmirəm.
Çox təlaş eylirəm, yerin bilmirəm,
Yəqin bil ki, Reyhanə salamətdi.

O zaman ki, bu göyərçin surətinə dönüb uşmuşdu, getmişdi. Həmişəbahar da ki, Əmiri Cəzirənin vilayətiydi, Piranə pərinin yanındaydı. Dedi, neyniyək? Camasib həkim dedi, Şikarini çağıraq gəlsin bura, onnan barışın, sən onnan barış, sora pərilərdən

onu tap. Qasid yolladılar, Şikarini dəvət elədilər. Gəldi bargahi Süleymaniyə. Şikari dedi, mən Reyhanə olmasa barışmaram. Məclis qurulsun, Şikarigil döndülər islam qoşununa. Sərəfraz şah əmr elədi: “On iki min nəfər pərini, Reyhanəni tapasız, gətirin mənə”. Eşid dastani kimnən? Reyhanədən. Reyhanə qəmliydi, bir kənarda oturmuşdu tək-tənha. Piranə pəri dedi: “Niyə qəmlisən? De mənə, qəmivə şərik olum”.

Dedi, qulağ assan deyim. O, siyah zülflərdən bir dəstə tər ayırıb basıb məmələrinin üstünə, götürüb görək nə deyir?

Reyhanə pəri Piranə pəriyə dedi:

Əyləş, bacı, deyim sənə dərdimi,
Genə yarın eşqi ağladır məni.
Didərgin salıbdı fələk yurdumu,
Genə yarın eşqi ağladır məni.

Dağlara qar düşübdü,
Gör nə hamar düşübdü.
Qəbrimi yadlar qazıbdı,
Yerim dar düşübdü.

Namərd fələk mənim evim yıxıbdı,
Bağlayıb qəlbimi, möhkəm sıxıbdı.
Bilirəm, Şikari tilsimdən çıxıbdı,
Genə yarın eşqi ağladır məni.

Bu dağda maralım var,
Ox dəyib, yaralım var.
Nə gecə yuxum gələr,
Nə günüz qərarım var.

Reyhanəyəm, qəmxar olar kim mənə?
Qorxuram edələr sərzəniş mənə.
Göndər gətirsinlər bir xəbər mənə,
Genə yarın eşqi ağladır məni.

Ərzuruma, hay Ərzuruma,
Bu yollar gedər Ərzuruma.

Dəvəsi ölmüş ərəbəm,
Dözərəm hər zülüma.

Piranə pərinin bir pərisi vardı, onu təyin elədilər, Şikaridən bir xəbər gətirsin. Tənürə bağlayıb hava üzündə gedir. Baş mının baş Əncüm pərinin havadə bir-birinə tuş oldular. Bir-birinnən sordular: "Hara gedisən?" Əncüm pəri dedi ki, mən gedirəm xanımım Reyhanə pəridən xəbər büləm. Dedi, mən də Şikaridən xəbər almağa çıxmışdım. Dedi ki, indi ki, sənin Şikaridən xəbərin var, gəl gedax Reyhanə pərini sənə nişan verim. İkisi gediblər Həmişəbahara, Əmiri Cəzirənin vilayətidi.

Reyhanə pəri Əncüm pərini görəndə düşdü onun ayaxlarına. Reyhanə pəri iki dana namə yazdı ki, birin ver Şikariyə, birin də ver dədəmə. Namələri verdi Əncüm pəriyə, Əncüm pəri qalxdı havaya, namələri yetirdi birin Şikariyə, birin Sərəfraz şaha. Şikari naməni oxudu, məzmununan baxəbər oldu. Şikari Əlavə şaha Reyhanə pərinin tapıldığını xəbər vermədi. Ona namə yazdı ki, cəng qutuldu, sən qoşunuvu götür get. Reyhanə pəri tapılanda, mən onu sənin oğlun Zərdana alarım. Əlavə şah Zərdan və qoşunun götürdü getdi Həddisəddi pərizadə ki, orda qalardılar.

Sərəfraz şah naməni oxudu və bildi ki, Reyhanə Həmişəbahardadi. Bədəxşan pəriyə xəbər verdilər. Bədəxşan pəri, Sərəfraz şah bir neçə pəriynən yollanıblar Həmişəbahara. Əmiri Cəzirəyə xəbər verdilər ki, Sərəfraz şah, Bədəxşan pəri bir neçə pəriynən gəlirlər. Bunları peşvaz, pəyəndaz elədilər. Reyhanə pəriyə yalvardılar. Bunu rəyə gətiriblər. Əmiri Cəzirə, Piranə pəri Reyhanə pəriyi min dana pəriylə götürdülər gətirdilər Gülzara, Sərəfraz şahın bargahinə. Qurbanlıqlar kəsildi, ceşn tutdular. Şikariyə xəbər verdilər. Şikari bir neçə nəfərinən gəldi Sərəfraz şahın bargahinə, buları barışdırdılar. Sərəfraz şah, Reyhanə pərinin əlinnən tutdu və verdi Şikarinin əlinə.

Şikari hər tərəfə xəbər verdi – İran şahlarına, Gülbar, Yəmən, Sərəndibdə Humayun şaha və Şamə ki, Keyvan pəhlivanı orda tihmə qoyubdu, xəbər verdilər.

Sərəndibdən Humayun şahın qızı Qəmərrux ki, Cahanbəxşin nənəsiydi, Firuz Əyyarın əyali Əmbər dayə və onun oğlu Ça-

lak gəlibdi. Humayun şah və Qəmərruxu qarşılayanda ağladılar. Dedi: "Niyə ağlıyısan?". Dedi: "Cahandar və Cahangir ki, bu tərəfə səni tilsimdən qurtarmağa gəldi, o da düşdü oların dalısıycan, yolda Zəfərən cadugər elə onu apardı". Şikarinin gözünə dünya tar oldu. Çağırdı Tavusu, görək ona nə deyir:

Şikari Tavusa dedi:

Sən mənə istəkli bacı,
Düşdü bu göylüm təşvişə.
Şirin ağzım oldu acı,
Düşdü bu göylüm təşvişə.

Başımın çoxdu bəlası,
Göz yaşı tökür anası.
Məndən istəyir balasın,
Düşdü bu göylüm təşvişə.

Şikarinin rəngi solub,
Cahanbəxşim harda qalıb?
Zəfəran cadu aparıb,
Düşdü bu göylüm təşvişə.

Dedi:

– Oğlum, Cahanbəxş ki, Zəfəran Humayun şahın qızı Qəmərruxdan olan oğlumdu, Zəfəran cadu onu tutub aparıb, onu necə gətirə bilərsən?

Tavus üz dolandırdı ki, onun qələsi cəzirəyi-Hindustandədi. Ona da mən bələdəm, heş kim ehtiyaş deyil, özüm gedərəm gətirrəm. Tavus məntər oxuyub bir üqab surətinə düşdü, qaxdı havanın üzünə. Özün yetirdi cəzirəyə, Hindustanda Zəfəran cadunun qələsinə. "Xoşbeş, nə əcəb?". Dedi: "Bacı, eşidmişəm bir dana bəni-adəm tutmusan, həə?" Dedi: "Bəli, çəhmişəm çarmıxa". Dedi: "Gedax görək nə cur adamdi?"

Bular durdular getdilər Cahanbəxşin yanına. Dedi ki, bu Şikarnin oğludu, Tavus bunu aşdı, dedi: "Mən gəlmişəm bunu aparam. Bu Şikarinin oğludu, nənəsi ağlıyır. Xoşluğunan versən ver, yoxsa mən zorunan da olsa bunu aparacağam". Dedi: "Bəs

mən neyniyəcağam?” Dedi: “Sən də gələrsən Şikaridən üzrxahlıx istərsən, Şikari sahibqırandı”.

Bu qəbul elədi, durdular Cahanbəxşi də götürdülər gəldilər Gülzara. Əvvəl anası Qəmərruxa görsəddilər, bular qol-boyun olub ana-bala ağladılar. Ondan sora Şikariyə tanıtdılar ki, bu sənin dədəndi. Cahanbəxş Şikarinin əllinnən öptü. Qurbanlıxlar kəsildi, ney, ərgəvən, tənbür səsi havaya qalxdı.

Bular burda cəşndə olsunlar, sizə hardan xəbər verim? Şamdan, Ərgəvan şahın əyyarınnan ki, adı Şəbahəng Əyyar idi ki, bu Ərgəvan şahdan küsmüşdü ki, niyə mənə xəbər verməmisən, olmusan müsəlman? Bu orda islam qoşununun içindəydi. Yetmiş iki sürətə düşər. Bu, Əlavə şaha əlaltı bir namə yazdı, dedi ki, Şikari burda Reyhanə pəriynən toy eliyir, Gülistani-İrəmdə.

Namə yetişdi Əlavə şaha. Zərdan noxoş idi, bunu eşidəndə dedi, bəs mən neyniyim, necə eliyim? Durdu ayağa, getdi Hezardastanın yanına. Durdular getdilər Həmhəməynən Dəmdəmənin yanına. Həmhəmə və Dəmdəmə bunu görəndə dedilər, durun gedax Səhman devin yanına. Səhman dev Qırvan şahın oğlu Sənubərin qardaşıdı. Səhman dev Hezərdastannan soruşdu ki, bu kimdi? Dedi: “Bu Zərdandır, Əlavə şahın oğludu. Şikari gəlib bunun sevgilisin alıb, Gülistani-İrəmdə toy tutub”. Dedi: “Hər kəs ləşkərin götürsün gessin Gülistani-İrəmə, mən gedim qardaşım Sənubərə deyim. Onnan icazə alım, əgər gətirə bilsəm onu da gətirim”.

Bular dursunlar, Hezardastan öz ləşkəri, Əlavə şah öz ləşkəri, Dəmdəmə, Həmhəmə on iki min cadugərinən atlandılar. Səhman dev də ləşkərin götürdü getdi bacısı Sənubərin qapısına. Bacısı bunu peşvaz elədi. Dedi: “Qardaş, hara gedisən? Bu ləşkər nəmənədi?” Mənim dedıxlarımın hamısın sizə demişdim, ona dedi. Dedi: “İndi nə iş görəcaxsan?”

Dedi, qulağ as deyim. Alıb bu dillərinən desin, mən də ərz eliyim eşidənlərin sağlığına.

Səhman dev Sənubərə dedi:

Sənə qurban olum, istəkli bacı,
Gərək gedək diyari-Gülzara biz.

Qoyaram başıva gövhərdən tacı,
Gərək gedək diyari-Gülzara biz.

Görürsən, dolanıb peymanəm dolub,
Saralıb gül rəngim, heyva tək solıb.
Deyillər, orada qiyamət olub,
Gərək gedək diyari-Gülzara biz.

Yeni yengi, bağçaların barıdı,
Səhman dev kimin tərəfdarıdı?
Evladı İskəndər şir Şikaridi,
Gərək gedək diyari-Gülzara biz.

Sənubər dedi ki, minəccimlər xəbər veriblər ki, Şikari adında bir adam gəlib Gülistani-İrəmdə hökümət eliyəcax, mən onun cənginə getmərəm. Nə qədər diyənnən sora bunu razı eliyib. Sənubər xəlifələrin götürüb bir dağın damənəsində çadır qurub oturub. Sənə xəbər verim kimnən? Şikarinin əyyarlarından: Şəbru Əyyar, Şəbrəng Əyyar, Fərhəng Əyyar çıxmışdılar gəşt eləmağa. Yolları düşdü bu dağın damənəsindən buların çadırlarınan. Sənubərin xəlifələri buları qıs-qıvraq yaxalayıb gətirdilər onun yanına. Sənubər baxdı ki, bular adəmizaddı. Dedi ki, yaxşı oldu, buların ətin kəbab eliyb yiyərik. Ot qaladılar, əl eliyib belinnən kətarəni çəkdi. Əyyarlar gözlərin yumdular, öldülər. Dedi, götürün atın gessin buları, murdar oldular. Buları aparıb bir dərəyə atdılar. Elə ki xəlifələr uzaxlaşdılar, bular durdular, tü dabana qaşdılar, dallarına da baxmırlar. Şikariyə dedilər ki, Sənubər gəlib, xəlifələri də bizi tutmuşdular, ölümdən qurtuldux. Şikari Camasib həkimi çağırdı ki, de görüm bu Sənubər kimdi?

Camasib həkim Şikariyə dedi:

Gəl sənə söyləyim, ay şir Şikari,
İhzar eylə, gəlsin Reyhanə pəri.
İhzar əlinnən alallar o Simizəri,
İhzar eylə, gəlsin Reyhanə pəri.

Mənim sözümnən bir söz qanarsan,
Düz deməsəm, ot tutarsan, yanarsan.

Tavus desə bu sözə inanarsan,
İhzar eylə, gəlsin Reyhanə pəri.

Camasib həkim sözlərin heş sözə qatmaz,
Eşq əhli gecəni sübhəcan yatmaz.
Sənubərə heş kəsin gücü çatmaz,
İhzar eylə, gəlsin Reyhanə pəri.

Bu tərəfdən Cahandar durdu mərkəbinə minib getdi, xəlifələrin birin gördü. Dedilər: "Nə işin var burda?". Dedi: "Eşidmişəm Sənubər cadu gəlib, onu tutmağa gəlmişəm". Sənubər bunu eşiddi, dedi, mənəm. Cahandar əl elədi şəmşirə, bu yapışdı bunun dəstbəndinnən, vurdu yerə. Bunun əl-qolun bağladılar. O tərəfdən Cahangir Səbraya dedi ki, məni apar onun yanına. Durdular atdandılar, gəldilər çadırın qabağına yetişdilər. Dedilər: "Nəyə gəlmisən?" Dedi: "Sənubər cadunu tutmaya gəlmişəm".

Sənubər cadu çıxdı eşiyə. Onun da tutub dəstbəndinnən yerə saldı, dedi: "Sənin başıvı kəsmiyəcağam. Qardaşıma hədiyəsiz". Şəbru Əyyar getdi, Şikariyə xəbər verdi ki, oğlanlarıvı da, Zəlzələ Zəngiyi də Sənubər cadu tutdu. Şikarinin başına elə bil Qaf dağı endi, hamı eşitdi, suya döndülər. Şikari üz tutdu Şəmkür Əyyara, dedi: "Sən çarə elərsən". Üz dolandırdı: "Qurban, Sənubərə çarə yoxdu, nə cur eliyim?"

Camasib həkim Şəbahəng Əyyari ehzar elədi: "Əl mənnən, ətək sənnən". Şəbahəngə yüz tabax qızıl gətirdilər. Dedi, qol verirəm, sənin oğlanlarıvı ordan çıxardam. Şəmkür Əyyarı, Fərhəng Əyyarı da özüynən götürdü, rəvaneyi rah oldu. Yolda bir məntər oxudu, özün saldı həkimi Qaf sürətinə, olar da onun mülazımləri olur. Sənubərin xəlifələri buları tutdular, Sənubərin yanına apardılar. Bunu diyəndə durdu otdu yerə. Dedi: "Məni güzəşt elə, səni tanımadım". Dedi ki, mən Ərayiş cadunun yanınnan gəlirəm, mənə dedi Sənubərə denən o iki dana adamı yollasın mənim yanıma. Cahangir və Cahandarı azad eliyib Fərhəng Əyyarınan Şikarinin yanına göndərdi. Sənubərin yanına gəldi, dedi: "Sənə sözüm var, əmma belindəki kətarədən qorxuram. Onu aş qoy yerə, deyim". Alıb kəlməsin bu dillərinən desin, mən də ərz eliyim.

Həkimi Qaf Sənubərə dedi:

Gəl sənə söyləyim, məlekeyi Qaf,
Zəlzələ Zəngi ölər, səhərə qalmaz.
Mən sənə demərəm kezafinən laf.
Zəlzələ Zəngi ölər, səhərə qalmaz.

Mən aşıq, qoydun məni,
Nar kimi soydun məni.
Nə kölgəndə saxladın,
Nə günə qoydun məni.

Mərdlərdə qaydadı basdığın kəsməz,
Səbr ilə iş görər, heş vaxt tələsməz.
Aşiq məşuqəsinə yəqin dağ basmaz,
Zəlzələ Zəngi ölər, səhərə qalmaz.

Qan eylər, divan eylər,
Divan eylər, qan eylər.
Dost məni bu halda görsə,
Ya ölər, ya qanıma qan eylər.

Həkimi Qaf diyər, hər dil oxuram,
Hələ dayanmışam, məzlüm baxıram.
İblissən, hökmüm var, sigə oxuram,
Zəlzələ Zəngi ölər, səhərə qalmaz.

Oyan, gül,
Oyan, bulbul, oyan, gül.
Bülbül fəğan eylir,
Nə yatmısan, oyan, gül.

Bu durdu getdi Şikarinin yanına, ona olanları dedi: "Oğlanlarıvı qurtardım, Zəlzələ Zəngiynən Sənubəri ər-arvad eləmişəm". Bular oturdular nəxşə çəkdilər, Cahangir Şirzadı Tigzən və qoşunuynan gedəcək Əlavə şah və oğlu Zərdana sarı.

Cahandarı verdi Həzərdəstan qoşununun qabağına. Tavus, Reyhanə pəri və Zəfəran cadu da Dəmdəmə və Həmhəmənin qa-

bağında duracax. Şikari özü də orda dedi ki, Səhman cadu mənimdi. Onun savaşına özüm gedəcağam.

## USTADNAMƏ

Bivəfanın, muxənnəsin, nakəsin,
Doğru sözün, düz ilqarın görmədim,
Namərdin dünyada çox çəhdim bəhsin,
Namusun, qeyrətin, arın görmədim.

Namərdi özümə dost eylədim,
Yolunda canıma çox qəsd eylədim.
Söyütdən bağ saldım, peyvəst eylədim,
Almasın, heyvasın, narın görmədim.

Nəfs aldatdı, hər yetənə xan dedim,
Beyhudə kollara "gülüstan" dedim.
Əbəs yerdə bivəfaya "can" dedim,
Zəhmətin çox çəhdim, karın görmədim.

Huşum çaşdı, düşdüm olmaz oyuna,
Yetmədim gözəlin əsli soyuna.
Aşiq oldum simasına, boyuna,
Heyif ki, kəmalda dərin görmədim.

Səhər ki, açılıb, iki tərəfdən qoşun atdanıb, cəngdə Zərdan gəlir Cahandarın qabağına. Cahandar dedi: "Biz sənin kimi devlərdən çox görmüşük, gəl bu sövdadan vaz geç". O, çox dedi, bu, az eşiddi, bu, çox dedi o, az eşiddi. Əl elədilər qılınca, Cahangir bunun başın bədəninən ayırdı. O tərəfdən Əlavə şah gəldi Şirzadı Tigzənin qabağına. Şirzadı Tigzən aman vermədi. Cahandar Həzardastan devin qoşunun qırdı, Həzardastan qaşdı getdi.

Bu yan tərəfdən Tavus, Reyhanə pəri və Zəfəran cadu da Həmhəmə və Dəmdəməni qaçıtdı. Sənubər həmən cəngə gəldi və Şikarinin qarşısına çıxdı, ama tanımır Şikaridi. Bunun başına bir əmüd vurdu. Əgər Qaf dağına vurseydi ovulardı. Ona bir şey olmadı. Yapışdı kəmərinnən qoydu yerə, bir sillə vurdu, neçə

qədəm o tərəfə getdi. Ani dəqiqədə bunun qolların bağladı. Bu yan tərəfdən təbli-bazgəşt vuruldu. Şikarini gətdi zindani elədi. İslam qoşunu çox narahand oldu. Bu yan tərəfdən həkimi Qaf gəldi Sənubərin yanına. Dedi: “Eşidmişəm cəngə getmisən”. Dedi: “Bəli, birin də tutmuşam”. Bir dana namə yazdı, bunu apardılar onun yanına. Şəbahəng Əyyar, həkimi Qaf özün yetirdi Şikarini azad elədi. Şikari qeyitdi, İslam qoşununa şadlıq elədilər.

Həmhəmə bir sehr oxuyur, düşür ilan sürətinə, gəlir islam qoşununun dörəsində dolanır. Sehr oxuyur, islam qoşunnu salır tilsimə. Səhman dev ki, onun sövgülüsüdü, onun adına bağlıyır bu tilsimi. Səhman dev ölməsə, islam qoşunu sehrdən çıxmaz. Bunu görən Camasib həkim rəml atır. Üz dolandırır Sərəfraz şaha, Şikariyə ki, islam qoşununu bağlıyıb tilsimə və onu da bağlıyıb Səhman devin adına ki, o ölməsə tilsimdən çıxmaz.

Fərhəng, Şəbahəng və Şəmkür Əyyar bular üçü də gedillər Sənubər cadunun yanına. Həkimi Qaf Fərhəngi qəytərdi. Dedi: “Gedərsən Tavusə diyərsən Səhman dev meydana gələndə bir devə dönərsin, dev dərisinnən bir şey düzəldəcax, için doldura-cax ecüzeynən, əmudu vuranda, Səhman devə vuranda od tutub yansın, islam qoşunu azad olsun.

Bular meydana gələndə necə ki, demişdi, bir dərinin içində əcüzə Səhman dev ot tutub yandı, islam qoşunu azad oldu. Bu xəbər Sənubərə yetişdi. Bunu eşidəndə həkimi Qafə dedi: “Mən indi neyniyim? Mənim qardaşımı öldürüb”. Dedi: “Sən gəl gedax Çarbaği Süleymaniyə, səni Şikariynən barışdırım”. Dedi: “Mən gedim oların ayağına?” Dedi: “Elə elərəm ki, səni peşvaz elərlər”. Xəbər göndərdi ki, Sənubəri gətirirəm ora, bunu pişvəz eliyin. Dedilər, qəbul eliyirıx. Elə ki Sənubəri apardılar, qabağında qurban, kəsdilər, Sənubərinən Şikarini bacı-qardaş elədilər. Camasib həkimi çağırdılar. Dedi: “Rəml at görək, bizim bacı-qardaşlığımız havaxta kimi olacax?” Rəmli atdı, dedi: “Qiyami-qiyamətəcən sizin bacı-qardaşlığız olacax”. Bu yan tərəfdən Camasib həkim dedi ki, onun Zəlzələ Zəngidən bir dana oğlanları olacax, dünyaya gələnnən sora adın qoyacaxlar Əlmasi-Gülzad. Qulleyi-Qafın pəhlivanı olacax. Həmhəmə, Dəmdəmə də gördü ki, Sənubər barışdı, olar da getdi-

lər. Şikari Çərbaği Süleymanidə toy eləmağ istədi, namə yazır hər kəsə ki, istiyən gəlsin. Həmişəbahardan Əmiri Cəzirə və Piranə pərini, Şamdan Keyvan pəhlivanı, hammısını çağırdı. Şikari də öz sövgülüləriynən – Simizər, Nazikbədən, Reyhanəynən gəldi.

Cahangirin sövgülüsü Qönçələbdi. Reyhanə pəri üz dolandırdı: "Mən qardaşıma Piranə pəriyi istirəm alam". Reyhanə caduyu da danışdırdılar ki, Əmiri Cəzirəyə gedisən? Qəbul eliyənnən sora onu da verdilər ona, aldılar Əmiri Cəzirəyə. Əncüm pərinin bir bacısı var, Mahcan pəri. Bunu da verdilər Şirzadı Tigzənə. Qaldı Cahanbaxş. Toylar tutulur, dəf, ərgəvan, ney, tənbur səsi asimanə bülənd olur.

Şəbahəng Əyyarın gözü sataşdı Cahanbəxşə, gördü bir guşədə tək-tənha oturub, hər kəsin sevgilisi var, o da təkbaşına oturub. Şikariyə dedi, ərzim var. Dedi, buyur. Götürüb görək Şəbahəng Əyyar Şikariyə nə deyir? Mən də ərz eliyim, bütün eşidənlərin sağlığına.

Şəbahəng Əyyar Şikariyə dedi:

Yaqub çox istərdi oğlu Yüsifi,
Qardaşları saldı bağı-zindana.
Eyşünüş eyləyib deyib gülürsən,
Mənim rəhmim gəlir bir cəvana.

Mən aşıq, balam ağlar,
Arı şanı bala bağlar.
Bir ata yara alsa,
Yarasın bala bağlar.

Qılışdan kəskin bilirəm qovvlundu,
Cahangir, Cahandar sənin oğlundu.
Camasib, Sərəfraz sağın, solundu,
Mənim rəhmim gəlir bir cəvana.

Dolu gözlər,
Dağ başın dolu gözlər.
Səndəki nazu-işvə,
Məndəki dolu gözlər.

Şəbahəngəm, məhəbbət var qanımda,
Fikri qalıb Cahanbəxşin yanında.
Hər aşıq öz məşüqəsinin yanında,
Mənim rəhmim gəlir bir cəvana.

Əzizim, balabanı,
Yasdı çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı?

Şəbahəng üz dolandırdı Ərgəvan şaha dedi, əgər şahım mayilı olsa, qızı Əfsərbanunu Cahanbəxşə gətirrəm. Portakali Firəngi onun qızına namzədiydi. O da istəmirdi qızı gedə kafərə. İcazəsin alıb əlin qoydu gözünün üstünə, bir neçə nəfər pərilərdən götürüb özün yetirdi Firəngüstanda qızın otağına, yuxubənd eliyib, bihuş elədi, gətirib ani dəqiqədə Çərbaği Süleymaniyə. Orda onu qoydu yerə. Nuşdəru verdi, özünə gələndə dedi:

– Mən hardayam?

Dedi:

– Nazənin, səni aparıram bir məclisə, o məclisdə hansı cavani söysən, əlivi qoyacaxsan çiyninə.

Qız məclisə gəldi, qız Cahanbəxşin qabağından keçəndə dizləri titrədi, biixtiyar əlin qoydu Cahanbəxşin çiyninə. Dedi: “Elə burda oturacaxsan”. Şikari Şəbahəngidən soruşdu: “Bu başı örtülü nəmənədi dolandırısan?”

Dedi, qulağ as deyim, alıb görək Şəbahəng Şikariyə nə diyəcək?

Şəbahəng Əyyar Şikariyə dedi:

Sənə qurban, sahibqıran,
Söz Şəbahəngin sözüdü.
Bu məclisdə açıb dövran,
Söz Şəbahəngin sözüdü.

Yadında var, yazdın namə,
Mey doldurdun bülür camə.
Göndərdin Firəngistanə,
Söz Şəbahəngin sözüdü.

Şəbahəngəm, tez yetirdim,
Cahanbəxşə yar yetirdim.
Sınıx gönlünü bitirdim,
Həmin söz həmin sözdü.

Cahanbəxşinən Əfsərbanuya qırx gün, qırx gecə toy elədilər. Hamı öz sevgilisinin yanında.

Eşid dastani kimnən? Həmhəmə, Dəmdəmə və Həzardəstannan. Oturublar bir yedə, söhbətə məşğuldular. Həmhəmə dedi ki, mən bu dərdi göra apara bilmərəm. Necə bir dana bəni-adəm gələ Gülistani-İrəmə sahib ola. Dururam gedəm Gülistani-İrəmə, gedim görüm neyniyə bülləm? Gəlib əlaltı dolanır, Şikariyə əl taptı qəsri-Bilqeysdə. Şikari yuxunun içində, bunu yuxubənd elədi, bir sehr oxudu, apardı kühi-Ahənrübada tilsimi Minayə saldı. Bir nəfərin xəbəri yoxdu. Kühi-Ahənrübada tilsimi Minəyə heş kim gedə bülməz.

Səhər olanda gördülər Şikaridən xəbər olmadı. Baxdılar rəxti-xabı var, bu yerində yoxdur. Soraxlaşdılar, heş kəs onu gördüyünü demədi. Bunu gəldilər Camasib həkimə dedilər. Camasib həkim rəml atdı, baxdı gördü ki, nə olub, Şikarini gecə Dəmdəmə cadu kühi-Ahənrübadə tilsimi Minaya atıbdı. Camasib həkimin gözünnən yaş axdı. Dedilər: "Camasib həkim, nə olub?". Camasib həkim götürüb bu dillərinən görək nə dedi?

Camasib həkim dedi:

Məşvərət eylədim həq kəlaminə,
Mənim sözlərimi bilənlər bilər.
Alimtək söylərim ariflər qana,
Mənim sözlərimi bilənlər bilər.

Mənim kitabımın yalanı yoxdu,
Ürəyimnən dəyən peykani oxdu.
Cəzirəyi Mina zəhməti çoxdu,
Onun yollarını görənlər bilər.

Asiftən qalıbdı, bir əmanətdi,
Yazılıb timarda bir əlamətdi.

Yəqin bilin, Şikari səlamətdi,
Camasibin sözün bilənlər bilər.

Camasib həkim dedi: "Mənə üş gün möhlət verin, mən kitabı oxuyum və Şikarini necə qurtara biləcəyimizi sizə deyim". Sora Cəmasib bir kənara çəkilib üş gün kitabı oxudu. Üş günnən sora gəldi dedi: "Hər kəs istir gedə Şikarinin dalısıcan, gərək gedə cəzirəyi Minadə dirəxti Əcuzə, əcayib bir ağaşdı, dünyada nəmənə miyvə desən onda var. O ağaşda mürgi Humayun var, o, ona rəhnumalıx eliyə, ta o apara Şikarinin yanına. İndi kim gedir?". Tavus, Cahangir və Şəbahəng amədə oldular ki, gessinlər tilsimi Minayə.

Tavus bir məntər oxudu, bular üçü də düşdülər ügab surətinə, uşdular cəzirəyi Minayə yetişdilər. Ağacın yanına yetişdilər. Murgi Humayuna səlam verdilər. Camasib həkim demişdi ki, əgər səlamızı alsa, yol görsədəcax. Murgi Humayun buların səlamını aldı. Dedi: "İşiz nəmənədi?". Bular dedilər: "Nə olubdu?". Dedi: "Ey dadi-bidad, işiz müşgildi, əgər bu ağaşdan qalxasız, mən sizə cavab verrəm". Ağac da tilsim olmuş ağacıydı, bular nə qədər uşdular, başına yetişə bülmədilər. Yeddi gün, yeddi gecə uçandan sora ağacın başına, Murgi Humayunun aşiyanəsinə yetişdilər. Murgi Humayun olara bir löh verdi, bular heş biri oxuya bilmədi. Dedilər: "Bunu oxusa, oxusa Camasib həkim oxuyar". Dedilər: "Neyniyək, bir də Gülistani-İrəmə dönək?". Murgi Humayun ağacın yarpaxlarından dərib suda qarışdırdı, verdi olara. Olar bihuş oldular, gözlərin açanda gördülər ki, Gülistani-İrəmdə, Camasib həkimin yanındadılar. Camasib həkim dedi, nə oldu? Kitabı ona verdilər. Camasib həkim kitaba baxdı, görək nə dedi?

Camasib həkim dedi:

Bir neçə söz vardı, deyim əvvəldə,
Məni saldız əcəb böyük zəhmətə.
Bu işləri, bəlkə, Allah düzəldə.
Məni saldız əcəb böyük zəhmətə.

Fələyin əlinnən çəkirəm ahi,
Necə səbr eyləyim bu zülmə dahı?
Möhlət verin mənə, oxuyum löhi,
Məni saldız əcəb böyük zəhmətə.

Ürəklərdən qəm dumanın götürrəm,
Gönüllərdə mətləbizi bittirrəm.
Camasibəm, sizə xəbər gətirrəm,
Məni saldız əcəb böyük zəhmətə.

Camasib həkim dedi ki, löh belə xəbər verir ki, min dana gərək balıq tutax dəryadən. Onları biryan eliyax. Min dana dağ öküzü vurax, oları da biryan eliyax və min nəfər də özümüznən pərizad aparax cəzirəyi Minayə. Ordan o tərəfə də özüynən əsləhə aparmıya.

Buları amadə eləsinlər, min dana pərizad attandılar Cəzirəyi Minayə. Murgi Humayunun yanında bu ləşkər düşdü. Sərəfraz şah üzüyün verdi Cahanbəxşə. Murgi Humayun dedi: "Mən gedərsəm balalarım qalar". Dedilər: "Biz burdayıx". Murgi Humayun Sərəfraz şaha balaların əmanət elədi.

Murgi Humayun Sərəfraz şaha dedi:

Səni nayib eliyibdi Süleyman
Can sizindi, can balam əmanət.
Ərzimi eyləyim sənə doyunca,
Can sizindi, can balam əmanəti.

Mən aşıq, qara qözlər,
Sürməli, qara qözlər.
Məni fələy əyməzdi,
Sən əydin, qara gözlər.

Yeddi dərya yeddi gündə keçərəm,
Yeddi tulux abı rəvan içərəm.
Dost yolunda canu başdan keçərəm,
Can sizindi, can balam əmanəti.

Nə qədər ki, ruh vardı bu canda,
Gözüm vardı o qadiri Sübhanda.
Şöhrətim ucalar mənim cəhanda,
Murgi Humayuna yoxdu minnəti.

Söz tamam olsun, durdular ayağa, o ki Tavusdu, özü gedir, əmma Cahangiri murgi Humayun kürəyinə alıbdı. Dedi: "Yeddi

tulux su, yeddi şaqqa ət. Hər moqe su istədim, su verin, ət istədim, ət verin". Yola düşdülər. Gündə bir dərya geçillər. Altısın keçdilər, hər gün birinnən keçdilər, yeddiminci dəryadə dəryayi Ahənrübadi gördü, bu suya yönəldi.

Murgi Humayun dedi: "Ey dilavər, yanızda əslahə, xəncər zad yoxdu? Mən qərq oluram ha?". Cahangir dedi: "Məndə bir zat yox". Şəbahəng Əyyar dedi: "Mənim yanımda xəncər var". Dedi: "Onu at dəryayə". Tazadan havalandı. Buları dağda qoydu yerə, dedi, mən bunnan sora gedəmmərəm. Bir bulağın başına yetişdilər. Bir ifriti gördülər. Dedi: "Ey xətakar, sizi kim gətirib?" İfrit istədi buları tutsun.

Şəbahəng mallax vurdu bunun boynuna, ipi saldı, bu devi tutdu. Dedi: "Məni öldürsəz, qardaşım sizi öldürər". Bunun sözünə baxmadılar, onu öldürdülər. Cahangir baxdı timarə. Gördü timardə yazıb, bu devin qardaşını da gərək öldürəsiz. Birdən gördülər uzaxdan bir dev bağıra-bağıra gəlir. Bu həmün Mualax Devdi. Yetirdi, əlində bir ağaş var idi, atdı yerə ki, sən necə mənim qardaşımı öldürəsən? Cürətin var, bu ağacı götür yerdən. Cahangir baxdı timarə, Camasib həkim demişdi ki, hər nə iş görsəz əvvəl baxın kitabə. Gördü timardə yazıb: "Timarinən vurun ağaca, ikiyə böl, yarısı səninkidi, amma ağaş bölünməmiş əlivi atma ona". Kitabınnan vurdu ağaca, kitab ikiyə ayrıldı, ondan sora ikiyə böldü, əl elədi ağacı götürdü, bunu öldürdü. Bunu öldürsün, bir zaman gördü bir gözəl qız bir əlində şərab, bir əlində məjmeyi, hər miyvədən var. Bu yaxına gələndə Cahangir gördü bu sevgilsi Qönçələbdi. Bular ikisi də "novdanım vay, buzum vay" dondular qaldılar. Qız yaxına gələndə görək ona nə dedi. Qız Cahangirə dedi:

Cahangirəm, gəl bir qol-boyun olax,
Yarın mənəm, bu şərbəti nuş eylə.
Sənnən qabax gətiribdilər qonax,
Yarın mənəm, bu şərbəti nuş eylə.

Bir gün gördüm məni cadu götürdü,
Gətiribən bu məkanə yetirdi.
Səni gördü, qaşdı, məni ötürdi,
Yarın mənəm, bu şərbəti nuş eylə.

Ekvan devi Gülbarda sən öldürdün,
İslam pərçəmin o diyarə vurdurdun.
Qönçələbin peymanəsin doldurdun,
Yarın mənəm, bu şərbəti nuş eylə.

Cahangir baxdı löhə, gördü nişan verir ki, bu şərabı alasan vurasan onun üzünə, ot tutup yansın. Bu əl elədi qızın əlinnən şərabı alıb səpdi üzünə, bu ot tutub yandı, bir tufan qopdu, bular bihuş oldu. Ayılanda gördülər bir əjdaha ağzın açıb bulara tərəf. Löhə baxdılar, gördülər yazıb ki, iküz də atlayın əjdahanın ağzına. Bular ikisi də gürültüynan özlərin atdadılar əjdahanın ağzına. Bular bihuş oldular, özlərinə gələndə gördülər bir dağdadılar, dağ ot tutub yanır. Löhə baxdılar, gördülər yazıb otu söndürmax üçün löhu atın yerə. Bular löhu yerə atmax həmün bular bihuş oldu, ot xəmuş. Ta halə gəlsinlər, özlərin bir dəryanın kənarında gördülər. Gördülər bir nəqqarə ağzın açıb bulara. Dübarə löhə baxsınlar, gördülər bu balığın qarnına getməlidilər. Bular atıldılar, genə bihuş oldular. Atdılar özlərin, ta halə gəlsinlər, özlərin bir biyabanda, quyunun başında gördülər. Cahangir löhə baxdı, gördü yazıb ki, bu quyunun təkinə getməlidilər, qabaxlarına əcayib məxluq gələcax, onu öldürməlisən. Bular endilər, gördülər bir hezardəst gəldi buların üstünə, əlində də şəmşir var, Atəşparə adında. Min dana əli var. Cahangir bunu belinnən gərək vura. Bunu ikiyə böldülər. Gördülər heyvandı ki, gəlir buların qabağına. Baxdılar buların vəsatində bir şir var, onu gərək öldürələr. Elə ki bunu öldürdülər, ginə bihuş oldular. Elə ki ayılsınlar, özlərin bir bağın yanında gördülər. Bağın içində bir dana qəsr var. Burda bir qız var, Dilkeş deyillər adına. Varid oldular, qızın yanına yetişəndə Dilkeşin gözü Cahangirə düşəndə bir göyüldən, min göyülə ona aşıq oldu. Dedi: “De görüm, siz bura niyə gəlmisiz?”. Cahangir dedi, mənim ürəyimin sözü var, qulağ as deyim nəyə gəlmişəm. Alıb bu dillərinən görək Cahangir qıza nə deyir? Mən də ərz edim ağaların, dosların sağlığına.

Cahangir qıza dedi:

Mətləbim var ürəyimdə,
Mən bu diyarə gəlmişəm.

Şahı Mərdan köməyimdə,
Mən bu diyarə gəlmişəm.

Necə sağaldım dağını?
Çəkirəm intizarını.
Aparmağa Şikarini,
Mən bu diyarə gəlmişəm.

Cahangirdi mənim adım,
Dağılmaz qurqu, busatım.
Babam İskəndər nejadım,
Mən bu diyarə gəlmişəm.

Qız bunu eşidəndə dedi:

– Sən evladı İskəndərdən olsan, gərək səni Murgi Humayun buraya gətirsin və sənin yanında dırexti Əcuzənin yarpaqları ola.

Dedi:

– Bəli, məni Murgi Humayun bura gətirdi və yanımda da o ağacın yarpaqlarınnan var.

Dedi:

– O zaman mənim nənəmin dərmanı səndədi. Elə ki mən qədim adamlardan elşidmişəm ki, evladı İskəndərdən bir nəfər Cahangir adında Murgi Humayununan gələcax, yanında da ağacın yarpaxlarınnan olacax. O ağacın yarpaxları mənim nənəmin dərdinin dərmanıdı.

Bular durdular, getdilər ayrı bir qəsrə ki, bunun nənəsi orda bihuş yatırdı. Elə ki Cahangir varid oldu qəsrə, gözü sataşdı bir arvada, gördü bir dana təxt qoyulub, bu da o təxtin üstündə yatıb. Həmün o yarpaxdan saldılar suya, bunun ki təbiəti nəməneydi, çıxdı bu suya. Bu sudan gətirdilər damızdırdılar bu arvadın burnuna. Arvad asqırıb durdu oturdu. Gördü dörd dörə bunu əhatə eliyib. Dedi:

– Qızım, Əfsanə, de görüm mənim dərdimə kim dərman elədi?

Qız əlin qoydu Cahangirin çiyninə. Həmlə cadu dedi: “Mənnən nə istərsən, istə”. Bular getdilər qəsrə, başladılar kef,

yemək, işmək, bular ceşn tutdular. Həmlə cadu Cahangirə üzün dolandırdı:

– Cəvan, sənə bir neçə kəlmə sözüm var.

Həmlə cadu götürüb bu dillərinən görək Cahangirə nə deyir? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Həmlə cadu Cahangirə dedi:

Camasibin əmriynən gəlmisən,
Qədəm qoydun bu diyarə, mübarək.
Ahənrübə dağın eylədin məkan,
Qədəm qoydun bu diyarə, mübarək.

Yeddi dərya vardı, yeddi biyaban,
Sənə qurban ola bu başınan can.
Düşmən çıxsın üzə, olmasın pünhan,
Qədəm qoydun bu diyarə, mübarək.

Qoyaram başıva burada tacı,
Məndə vardı cəm dərdivin ilacı.
Tavus mənə həm anadı, həm bacı,
Qədəm qoydun bu diyarə, mübarək.

Dəli göyül, atəşlərə atlama,
İnnən belə dünya sənə dar olmaz.
Bir mərt qazansa, yüz namərd doyuyar,
Yüz namərd qazansa, mərdə bir nahər olmaz.

Həmlə cadu dedi:

– De görüm, ey cəvan, sənin muradın nəmənədi, bura gəlmisən?

Cahangir dedi:

– Mənin babamı burda tilsimə salıblar, gəlmişəm onu qurtaram.

Dedi:

– Bəs dur ayağa gedək.

Durublar ayağa, Cahangir oldu, Şəbahəng oldu, Əfsanə oldu və bir də Həmlə Cadu. Bular dördü gəldilər Kuhi Ahənrübayə. Dedi:

– Cəvan, görüsən bu zənciri, dağın bu tərəfinnən o tərəfinə aslanıbdı. Çün bu dağ Ahənrübadı, bu zənciri Ahənrüba çəkib saxlıyıbdı. Ayrı bir şey bunu qıra bülməz, fəqət, sənin belindəki atəşparə.

Atəşparəni çəkib, bunu qırdı.

Ordan da rədd oldular gəldilər. Az gəliblər, çox gəliblər, yetirdilər bir ağacın dibinə. Həmlə cadu dedi: "Cəvan, bu ağacı gərək yerinnən çıxardasan". Cahangir yanındaki löhə də baxdı gördü yazıb, bəli, bu ağacı gərək yerinnən çıxardasan. Kəmənd atıb ağacı çəkdi atdı kənarə, bir qutu kimi bir şey gördü. Cahangir qutunu çəhdi. Həmlə cadu dedi:

– Bu qutunu sındıracaxsan, içində bir qəfəs var, o bir dana tilsimə düşmüş bir övrətdi, onu gərək öldürəsən.

Quşu çıxardanda bir pirizən övrət gördü. Cahangir atəşparəni çəkib bunu ortadan ikiyə böldü. Əgər pirzən löhu əlinə alsaydı, bular burda tilsim olacaxdılar. Elə ki onu öldürdülər, tilsim qırıldı, Tavus və Murgi Humayun orda zahir oldular. Yetmiş dana xəzanə var idi burda.

O yannan Əfsanə cadu özün yetirdi Şikarinin yanına. Şikari gördü bir dana gözəl qız buna tərəf gəlir. Şikari bunu tanımırdı, dedi:

– Sən kimsən?

Dedi, qulağ as deyim, sənə müjdə gətirmişəm. Götürüb görək Əfsanə cadu Şikariyə nə diyəcək?

Əfsanə cadu Şikariyə dedi:

Sənə qurban, şir Şikari,
Müjdə gətirmişəm sənə.
Dolanmısan hər diyarı,
Sənin lütfün nədir mənə?

Xidmətində mən qalınca,
Qulluq eylərəm ölüncə.
Cahangir gəlib dalıncan,
İndi lütfün nədir mənə?

Dilkeş sadiqdir qoluva,
Müştaq oldum camalıva.
Məni kəniz et oğluva,
Lütf eylə bir ənam mənə.

Şikari dedi:

– Əgər mənim oğlum səni sövsə baş üstünə. De görüm, Cahangir bura nə cur gəlib?

Bu bir dana sehr oxudu, hər şey bunun bərabərində aşikar oldu. Bu gördü Cahangir, Şəbahəng, Tavus və iki nəfəri də ki tanımır, biri Murgi Humayun, biri də bunun nənəsi Həmlə Cadu. Şikari sövündüyünnən elə bir nərə çəkə büldü ki, o Dilkeş də bihuş oldu. Bular bir-birin dövrəliyiblər, bazəri busə rəvac oldu. Təmam xəzinəni ki, yetmiş dana xəzinə var, sehr gücüynən havaya qaldırdılar. Murgi Humayun Şikarini aldı kürəyinə, Tavus da ki özü gəlir. Cahangiri də, Həmlə cadu və Dilkeşi də xəzinəynən götürdülər gəldilər bargahə. Bargahi Süleymanidə Şikarinin tilsimdən qurtulub gəlmağına ceşn tutdular. Dəf, tənbur, ney, ərgəvən səsi aləmə bülənd oldu. Nəvazəndə çaldı, rəqqasə oynadı.

Bular burda eyşu-nüşə məşğul olsunlar, sənə xəbər verim Dəmdəmə cadudan. Dəmdəmə cadu gəldi kuhi-Ahənrübayə görsün Şikari neynir orda? Gəldi gördü lələ köçüb, yurdu veran qalıbdı. Özün yetirdi Hezardastanın yanına və macərani ona dedi. Dedi: "Mən əgər İfrit Büzürgi Gülistani-İrəmə apara bülməsəm, mənə də Dəmdəmə deməsinlər".

Dedi:

– Şikari onun buynuzun sındırıbdı, onu necə aparram Şikarinin meydanına?

Dedi:

– O, mənə aludədi, mən onu aparram.

Dəmdəmə cadu gəldi İfrit Büzürgün yanına. İfrit Büzürgün yanına gəldiyində bu çox şad oldu. Dedi: "Ey məlakeyiziba, nəmənə bais olubdu, sən mənim yanıma gəlmisən? Bu gün hayannan çıxıbdı? Dedi:

– Bu sözlərin vəxti dəyil, dur hərəkət eliyax Gülistani-İrəmə.

Dedi:

– Niyə?

Dedi:

– O buynuzlar sənə həram olsun ki, bir dana adəmizad gəlsin Gülistani-İrəmə, sənin qeyrətin harda qaldı?

Dedi, qulağ as, sənə bir neçə kəlmə sözüm var. Götürüb bu dillərinən görək ifrit Büzürg Dəmdəmə caduya nə dedi?

İfrit Büzürg Dəmdəmə Caduya dedi:

Gəl sənə söyləyim, Dəmdəmə cadu,
Bəni-adəmin heş günahı yoxdu.
Mən yazığam, gəl adımı batırma,
Sahibqırandı, onun hərifi yoxdu.

Buynuzum şikəst, başım xəstədi,
Əmma ehtiramın gözüm üstədi.
Şikari dediyin kəmərbəstədi,
Yeddi qulleyi-qafdə hərifi yoxdu.

İfrit Büzürgəm, heş yoxdu tayım,
Neçə il ömr eləmişəm, bir-bir sayım.
Bu canımı kimin yolunda qoyum?
O mərd oğlandı, onun hərifi yoxdu.

Dost insanı təriflər, söz burdadı ki, düşmən adamı tərifliyə. Dedi:

– Dəmdəmə, mən gedə bülmərəm onun meydanına, o mərd oğlandı, o kəmərbəstədi. O, məni öldürmədi, buynuzumu sındırdı, əmma öldürmədi.

Dedi:

– Getməsən, day məni görə bülməssən.

Bu qaldı məcbur. Dedi:

– Çaram yoxdu, gedirəm, əmma başıma nə gəlsə bavalı sənin boynuvadı.

Elə ki qəbul eylədi, Dəmdəmə cadu yeddi yerdən ləşkər atdandırdı. Hara gedir? Gülistani-İrəmdə Şikari üstünə, həmlə gətirir. Bu xəbər gəldi yetişdi Şikariyə. Şikari götürdü bir dana namə yazdı bacısı Sənubərə.

Şikari neynədi? Yeddi dana ləşkər təyin elədi, hər birinə bir sərkədə, Şikari hərəsin yolladı bir tərəfə. Şirzadı Tigzani yolladı bir bəndərə, Cahangiri yolladı bir bəndərə, Cahandarı yolladı bir bəndərə, Qeysi Rəmmah Ərəbi yolladı bir bəndərə. Gördü Cahanbəxş oturub, çox bekefdi. Dedi:

– Məni niyə bir yerə göndərmədin?

Şikari dedi:

– Sən hara istərsən, ora get, hansı atı minmax istiyirsən min.

Dedi:

– Məni heş bir yerə vermədin, hamıya qoşun verdin.

Şəbahəng belə görəndə götürüb bu dillərinən görək Cahanbəxşə nə diyir? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına. Şəbahəng Əyyar Cahanbəxşə dedi:

Sənə qurban olum, gül üzlü cəvan,
Görsəydim şah olmusan külli Firəngə.
Mənim canım sənə də olsun qurban,
Sən səvar olacaxsan Əstəri Gülrəngə.

Göydə saymaq olmaz heç sitarəni,
Sənubər belində ol kətarəni.
Bağlasan belinə o ahənparəni,
Amadə olgunan bulartək cəngə.

Ərzuruma, hay Ərzuruma,
Bu yollar gedər Ərzuruma.
Dəvəsi ölmüş ərəbəm,
Dözərəm hər zuluma.

Belariki alan kimi dəstinə,
Baban kimi çıx bir əstər üstünə.
Şəbahəng deyir, gir bu ləşkərin qəsdinə,
Şiru, bəbir kimi vurgunan pəncə.

Cahanbəxş belariki Ərgəvan şahın şəmşiriydi, bağladı belinə, geymi çarəynəyi giydi əyninə, əstarə mindi. Bir iddə qoşunnunan bu da getdi bir bəndəri kəsdi. Şikari bu yan tərəfdən üz

dolandırdı ki, ifrit Büzürgün cənginə özüm gedəcağam. Sənubər üz dolandırdı: "Qardaş, nə qədər ki, mən varam, qoymaram gedəsən ifrit Büzürgün cənginə. Can sənin, can Zəlzələ Zənginin".

Əmma eşid dastanı bu yan tərəfdən ki, ifrit Büzürg gəlir. Sənubər bunun qabağın sədd elədi. Bular ikisi də həm yerdə cəng eliyillər, həm göydə. Bular o qədər cəng elədilər, day yoruldular. Təbli-bazgəşt vuruldu, ifrit qeyitdi öz ləşkərinə, Sənubər öz ləşkərinə qərar qoydu ki, üş gün cəng olmasın. İfrit Büzürg neynədi? Durdu gecəynən Sənubərin ləşkərinə şəbixun vurdu, bir min nəfəri öldürdü. Səhər bu xəbər Sənubərə yetişdi, dedi, çox namərdlik eliyibdi. Getdi ləşkərinə gördü kimlər ölübdü. Elə ki gecə gəldi, kətarəni bağladı belinə, özün vurdu ifrit Büzürgün ləşkərinə. O min nəfər öldürmüşdü, bu dörd min nəfər öldürdü. İfrit Büzürg bunu eşidəndə cəng odu şöləvər oldu, hər iki tərəfdən ləşkər arəstə oldu. İfrit Büzürgünən Sənubər qədəm qoydular meydanə. Bir-birinə meydan oxudular. Bular küştünü başladılar, gah yerdə, gah göydə. Günorta çağına kimi murad almadılar.

Şikari Camasib həkimə dedi, bular ki belə başlıyıblar, dünyanı viran eliyəcaxlar, bəlkə, bu Sənubəri sən ram eliyəsən. Dəstur verdi, təbli-bazgəşt vuruldu. Hər ikisi aralandı, öz ləşkərlərinə getdilər.

Dəmdəmə caduynan ifrit Büzürg oturdular söhbət eləsinlər. Gecə olur, Dəmdəmə cadu durur gəlir Sənubərin ləşkərinin içinə, sehr oxuyur, onu da, ləşkərin də salır tilsimə. Tilsimbənd eliyir, onu da bağlıyır bacısı Həmhəmənin vücudinə.

Səhər oldu, gördülər, ey dad, nə Sənubərdən xəbər var, nə ləşkərinnən. Dedilər ki, Camasib həkim, çarə elə görax. Camasib həkim götürüb rəml atıb, kitab açıb, gördü ki, bəli, Dəmdəmə cadu gəlib buları tilsimə salıb.

Şikari pəhlivanların yığdı. Zəfərən dedi ki, mən gərək bu qisası alam. Durdu getdi, şüşə oğdu, neynədi, ifrit Büzürgü bu da saldı tilsimə. Tilsimi də bağladı bir dana ağaca. Sənubər tilsimdə qalmaxda, gördü çarəsi yoxdu. Adamlarına dedi: "Əgər Dəmdəmə cadu ilən Həmhəmə cadu aradan getməsə, biz qiyamətə kimi burda qalmalıyıx". Bəs neyniyək, neynəmiyək? Dedi: "Mən bir

dana namə yazacağam, qoyacağam fələxuna, atacam bu tilsimdən eşiyə, bəlkə, tapıb aparalar Şikariyə". (Tilsimdən heş kes çıxa bilməz ki eşiyə). Götürüb bu dillərinən Şikariyə görək nə yazır? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Sənubər Şikariyə məktubda yazdı:

Mənnən salam olsun Sahibqıranə,
Hamı bilir Gülzaddı mənim nijadım.
Mənsur kimi salıblar məni darə,
Qoymasın tarixdən silinsin adım.

Bəladən ayrılmır bəlalı başım,
Axır rüxsarimə qantək göz yaşım.
Mən sənin bacıvam, sən də qardaşım,
Qoymasın tarixdən silinsin adım.

Sənubərəm, mən bu cannan geşmişəm,
Əcəl camın dolduruban işmişəm.
Müsəlmanam, bu sövdayə düşmüşəm,
Şəbahəngə deyin, alsın qısasım.

Naməni qoydular fələxunə, atdılar. Tavus bu naməni tapdı. Gördü, namə yazılıb Şikariyə. Yetirdi tez Şikariyə. Şikari alıb naməni möhrün götürdü, oxudu, məzmununnan baxəbər oldu. Üz dolandırdı Şəbahəngə: "Şəbahəng, bütün əyyarları gətir bura. İndi kim eliyə bülər Tavusu ləşkəriynən tilsimdən çıxarda?". Hamı başın çevirdi Şəbahəng əyyara. Şəbahəng dedi, gedim görüm neyniyə bülləm. Nəmənə, vəsiyəti var idi, elədi. Şəbahəng durdu ayağa, özün saldı şeytan surətinə. Üz qoyub gəlmağa məşğul oldu. Gəldi Dəmdəmənin yanına. Gördü bir övrət oturub, atmış ərəş bunun qəddu qəvərəsidi. Yetişəndə ona səlam verdi, gördü almadı, o yana keşdi, səlam verdi, almadı. Dedi:

– Sən kimsən?

Dedi:

– Mən Şeytanam, Çeşmeyi Nuşinnən gəlirəm. Niyə Sənubəri saldın tilsmə?

Dedi:

– Gəlmişəm sizi kəmərbəstə eliyəm. Dəmdəmə hardadı, tap gətir mənim yanıma.

Durdu ayağa, gəldi yetirdi hara? Dəmdəmənin mənzilinə. Gördü Dəmdəmə ağlıyır. Yetirib salam, əleykum salam elədi. Niyə ağlıyırsan? Dedi:

– Mən yuxuda görmüşəm, yanıram.

Dedi:

– Yuxu yana vurar, dur ayağa, Şeytan gəlib bizi kəmərbəstə eləsin.

Dedi:

– Qulağ as, deyim da niyə ağlıyıram.
Götürüb bu dillərinən görək nə deyir?
Dəmdəmə cadu Həmhəmə caduya dedi:

Başına döndüyüm gül üzlü bacı,
Gərək əhvalimə özüm ağlıyam.
Şirin ağzım röyadə oldu acı,
Ürəkdən yaralı, sinə dağlıyam.

Gedər, qalmaz,
Axar su gedər, qalmaz.
Vəfalıya can qurban,
Bivəfa gedər, qalmaz.

Sənin gəlməyinnən mən usanıram,
Dediyin sözləri bir-bir qanıram.
Atəşinnən ot tutuban yanıram,
Gərək əhvalimə özüm ağlıyam.

O yan dağlar,
Al-qana boyan, dağlar.
Bu yan zülmətxanadı,
Necədi o yan, dağlar?

Qorxu düşüb Həmhəmənin canına,
İliyinnən sümüyünün qanına.

Gəl məni aparma İblis yanına,
Gərək əhvalimə özüm ağlıyam.

Dolu gözlər,
Dağ başın dolu gözlər.
Səndəki nazu-işvə,
Məndəki dolu gözlər.

Deyir, yuxu yana vurar. Bunu götürdü getdilər Şeytanın yanına. Şəbahəng Dəmdəmə caduya dedi: "Sən get islam qoşununa xəbər gətir". Həmhəməyə dedi, qabağımda otur. Buna duadan-zaddan oxudu. Bir şirni verdi, dedi, ye. Elə bu bihuşdaru bunun boğazınnan enəndə bu yerə düşdü. Bunun qarnın sökdü, yerinə əcza qoydu. Bunu yeri qazdı, qoydu yerə. Onun üstündə yerə oturdu. Həmhəmə gəldi. Onu da otudu bihuş elədi, qarnın boşatdı, əcza doldurdu, yerə quyladı. Əczaynan bir nazik yol düzətdi. Əczaya uzaxdan ot vurdu, bular patladılar, dağıldılar, Sənubər ləşkəriynən tilsimdən çıxdı. Bular ceşn tutullar.

Bu yan tərəfdən Şəbahəng Şeytan surətində varid oldu. Şikari əl elədi şəmşirə. Hammısı şəmşirə əl elədilər. Cahanbəxş əl elədi şəmşirə. Şəbahəng məntər oxudu, öz halinə düşdü. Camasib həkim Şikariyə üzün döndərdi ki, bilmirəm, səndə nə hikmət var ki, hara gessən piruz olarsan?

Şikari Camasib həkimə dedi:

Sizə qurban olum, əyləşən canlar,
Ağamın əlinnən badə işmişəm.
Xəbər verəcağam hər bir dövrannan,
Ağamın əlinnən badə işmişəm.

Ovçutək yataram ov bərəsində,
Tutaram, bağlaram tez vədəsində.
Düşmanı öldürrəm öz vədəsində,
Ağamın əlinnən badə işmişəm.

Eşqin badəsini içib xəstəyəm,
Şeyda bülbül kimi bir gül üstəyəm.

Şikariyəm, mən də kəmərbəstəyəm,
Ağamın əllinnən badə işmişəm.

Şikari Zəfəran caduya üz dolandırdı, dedi:

– İfrit Büzürgü sən kimin adına bağlamısan?

Dedi:

– Bir ağaca bağlamışam.

Dedi:

– Ged, onu tilsimdən çıxard.

Dedilər:

– Belə eləmə.

Dedi:

– Məni o Dəmdəmə, Həmhəmənin yanında övüp.

Dedi:

– Bu işvə Qeysi Rəmmah Ərəb verəcağam sənə ki, gündə bir dəvənin dizin söküb ətin yiyərdi.

Cahandarınan gəldilər o ağacın başına. Babasının tilsimin sındıranda aləmi-rüyadə buna bir kəmər vermişlər, onnan çəhdi, ağacı çıxartdı. İfrit Büzürg dedi: "Bizi kim tilsimdən çıxartdırdı?". Dedilər: "Şikari". Dedi: "Mən Şikariyə ömür boyu qul olacağam".

Zəfəraninan Qeysi Rəmmah Ərəbin toyun elədilər. İfrit Büzürgü də sağdış elədilər. Şikarinin sinəsinə bu sözlər gəldi, alıb bu dillərinən desin, ərz eliyim eşidənlərin sağlığına.

Şikari dedi:

Şükr eylərəm mən də qadir Allaha,
Bu şövkəti Süleymanə vermədi.
Nayibi Süleyman Sərəfraz şaha,
Bu şövkəti Süleymanə vermədi.

Mən aşıq, qarə qəyə,
Doludur qarə qəyə.
Miskin qapıva gəlib,
Daşlara dəyə-dəyə.

Göy üzündə şəqqül qəmər bitişir,
İki sultan bir-biriynən tutuşir.

Ürəyimə həxdən ilham yetişir,
Bu şövkəti Süleymanə verмədi.

Mən aşıq, maralım var,
Bu dağda yaralım var.
Nə gecə yuxum gələr,
Nə günüz qərarım var.

Şikariyəm, qurbət bəsdi day mənə,
Həsrət qalıb tamam qohum, el mənə.
Göyül istir bir də gedə vətənə,
Bu şövkəti Süleymanə vermədi.

Dağlara qar düşübdü,
Gör nə hamar düşübdü.
Qəbrimi yadlar qazıbdı,
Yerim dar düşübdü.

Sözlərim həmün o yerdə qaldı ki, Zəfərən cadu və Qeysi Rəmmah Ərəbin toyunnan sora Şikari bala-bala toydan sora qəsd elədi gəlsin bu yana, vətənə sarı, Ruma. Əmma deyir sən saydığıvı say, gör fələk nə sayır? Sərəfraz şah istədi Simizəri oğurrasın. Əncüm pərini istədi bərabərinə. Çün buların başı qarışıxdı toya, sən gəlginən Əncüm pərinin vəsiləsiynən Simizəri aradan çıxart. Əncüm pəri gəldi dayandı bunun bərabərində, dedi:

– Mənim dərdimə gərək sən dərman eliyəsən.

Əncüm pəri dedi:

– Qurban, sənin dərdin nəmənədi ki?

Dedi:

– Mənim dərdim odu ki, gərəh Simizəri sən aparıb gizlədəsən.

Dedi:

– Qurban, rüsva olarsan, gəl bu sevdadan düşgünən. Vücudun aradan gedər, özün də ölərsən bu muamilənin üstündə.

Qəbul eləmədi, dedi:

– Əgər aparmasan, özüvü ölmüş bülgünən.

Əncüm pəri gördü nə qədər diyənnən sora bu qəbul eləmiyəcax. Dedi, bəs qurban, icazə ver, sənə bir neçə kəlmə sözüm var. Götürüb görək nə deyib? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Əncüm pəri Sərəfraz şaha dedi:

Gəl sənə söyləyim, pərilər şahı,
Sən hesab algınan bu göz yaşımnan.
Dübarədən olmagınan müqəssir,
Çıxartgınan bu sevdanı başınnan.

Mən aşıq, balam ağlar,
Arı şanı bala bağlar.
Bir ata yara alsa,
Yarasın bala bağlar.

Öldürgünən məni kəniz yerinə,
Həsrət qoyma bülbülü öz gülünə.
Qorxuram ki, dünya dəyə bir-birinə,
Çıxartgınan bu sevdanı başınnan.

Əzizim balabanı,
Yasda çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı?

Əncüm pəri deyir, məni öldürmə,
Aləmləri gəl özüvə güldürmə.
Rusva olarsan, bu sirri bildirmə,
Çıxartgınan bu sevdanı başınnan.

Mən aşıq, qara qözlər,
Sürməli qara qözlər.
Məni fələy əyməzdi,
Sən əydin, qara gözlər.

Eliyə bülmədi bunun əmrinnən çıxsın, ama neynədi, ağlaya-ağlaya elə ki bular yatıblar, əz qəza Simizərinan Şikari bir rəxtixabidə yatmışlar. Əncüm pəri neynədi? Vəxtən istifadə elədi, gəl-

di həm Şikarini bihuş elədi, həm Simizəri. Elə ağlıyır ki, gözünün yaşın baharın buludu kimi ruxsarinə rəvan eliyir. Simizəri Əncüm pəri götürdü, Həft Qulleyi Qafin axirində Əflək devə verdi.

Eşid dastani bu yannan, Şikaridən. Şikari ayıldı, gördü Simizər yoxdu. Gəldi bargahə. Cərəyanı oğlanlarına, Sərəfraz şaha, Camasib həkimə dedi. Camasib həkim götdü bir rəml atdı. Bu da gördü Sərəfraz şahın işidi, üstün torpaxladı keçdi. Demədi ki, Sərəfraz şah bu işi görüb, Əncüm pəri Simizəri aparıb Həft Qulleyi Qafın axirinə. Macərə bu cur olanda bu cadugərlər qalxdılar həvanın üzünə. Zəfərən cadu, Reyhanə pəri, Tavus – bular dolanırdılar həvanın üzündə. Zəfəran caduynan Əncüm pəri bir-birinə rast gəldilər. Əncüm pərini qısqıvrax göyün üzündə tutdu. Dedi:

– De görüm, qızı neynəmisən?

Dedi:

– Vallah, Allahdan gizli dəyil, day sənnən nə gizlin? Macəra bu curdu, elə bil məni Sərəfraz şah məcbur elədi, Simizər xanımı aparıb Həft Qulleyi Qafda Əflək devə təslim eləmişəm.

Bunu gətdi bargahi Süleymaniyə. Cərəyan burda rovşən oldu. Əncüm pəri mətrəh elədi, Şikari narahand oldu, durdu çıxdı eşiyə. Cahandar əl elədi şəmşirə, Sərəfraz şah əl elədi şəmşirə. Elə birdən gördülər ki, Sərəfraz şahın başı məclisin vəsətindədi. Əmma Camasib həkim üz dolandırdı: "Səsizi çıxartmayın, elə bunun cəzası buydi. Neçə yol demişdim, bu sözümə baxmadı". Bu xəbər gessin yetişsin Şikarinin qulağına və Reyhanə ki, eşihdeydilər, gəldilar bargahə. Elə ki varid olublar içəri, Şikari üz dolandırdı Cahandara: "Oğul, bu nə işidi gördün, Sərəfraz şahi öldürdün?" Dedi, atacan, qulağ as deyim da niyə onu öldürdüm.

Cahandar Şikariyə dedi:

Başına döndüyüm gül üzlü ata,
Namərd gərək salim başa varmasın.
Əzəldən salıbdı bizi qovqaya,
Öldürdüm ki, dərd bu canda qalmasın.

Səni çox istərəm iki gözümnən,
Öldürmüşəm, mən dönmərəm sözümnən.

İcazə almışam burda özümnən,
Dedim, qisas qiyamətə qalmasın.

Cahandarı bu barədə qınama,
Dərd məni eyləyib dəli-divana.
Həddən artiq zülm eyləyib anama,
Aldım qısas, qiyamətə qalmasın.

Reyhanə pəri ərz elədim, Sərəfraz şahın qızı o dəqiqə gəlmişidi məclisə. Bu yan tərəfdən Reyhanə pəri qaxdı yerinnən. Dedi:

– Sahibqıran, mən heş zaddan narahat dəyiləm. Əslan mənə görə desən, deməginən. Dədə əgər mənimdi, mən tanıyıram, yüz min dəfə öləydi, diriləydi, ona xidmət eləsəydin imkanı yox idi, axir o sənə işlədiyini işləyəcəkdi.

Camasib həkim üz dolandırdı:

– Mən Asəfiddin Bəlxiyanidən bu sözü eşidmişdim, gərək Sərəfraz şahın sərnəvişti belə olaydı.

Əmma eşid dastani kimnən? Sindurusdan. Sindurus kim ola? Sərəfraz şahın oğludu. Bu xəbər gedib yetişdi onun qulağına. Gəldi, Fitnə cadu ki var idi, (Şikariya demişdi mən müsəlman oluram, azad elə gedim) getdi onnan köməhlik istədi ki, mən gedim dədəmin intiqamın alım.

Sərəfraz şahın oğlu Gülistani-İrəmə ləşkər çəhsin, buların gəlmağı bir-iki gün çəkər.

Sənubər gördü Şikari çox narahaddı. Dedi: "Dadaş, görürəm nərahatsan, dur gedax mənim məmləkətim Gülzadə, behişt kimidi, sənə orda bəd keçməz. Bir neçə gün sora qayıdıb gəlirik, bular da Simizəri gətirəllər". Bular durublar gəlsinlər hara? Gülzada. Bular burda qalmaxda olsunlar, bu yan tərəfdən Sindurus gəlsin yetirsin. Cadular xəbər verdilər ki, Sindurus ləşkər çəkib gəlir Gülistani-İrəmə. Camasib həkim üz dolandırdı ki, heş kəs eşiyə qədəmin qoymuyacax. Gör Sindurus nəmənədi ki, qədim kişilərin dilində vardı ki, gör Şikari nəmənəydi ki, Sindurusu öldürdü? Gör bi yol Sindurus nəməneydi da! Heş kim eşiyə getməsin. Cahandar çox narahand oldu ki, axı bu Sindurus nəmənədi ki, Camasib həkim bizə deyir çıxmayın eşiyə? Bu yan tərəfdən

götürdü bir dana Əncüm pəriyə namə yazdı ki, gəl bu naməni yertir Gülzadda Sənubərinən Şikariyə. Bu da apardı naməni verdi olara. Namə yetimax həmün üz dolandırdı Şikariyə ki, sən daldan gələrsən, vəli mən getməliyəm. Bu həvanın üzündə gəlirdi. Bu yan tərəfdən də Cahandar çıxıb eşiyə, Camasib həkimin sözünə baxmasın, dolanırdı, baş bunun baş Sindurusun. Dedi:

– Bura bax görüm, bəni-adəm, sən kimsən?

Dedi:

– Mən Şikarinin oğluyam.

Əl elədi buna, əmüd, şeşpər, neyzə, qalxan. Bir-birinə, Sindurus Cahandara, Cahandar Sindurusə. Vəli heş birinən murad hasil olmadı. Çün bu həm pəhlivandı, həm cadugərdi. Bu bir sehr oxudu, Cahandarı çəhdi apardı göyün üzünə. O qədr apardı ki, Cahandar bihüş oldu. Cahandarı ötürsün, bu yan tərəfdən Sənubər çıxdı. Özün yetirdi ona, həvanın üzündə tutdu. Gördü ki, bu Cahandardı: "Vay xətakarın birisi, işi o yerə yetirmisən ki, gəlmisən Şikarinin üstünə ləşkər çəkisən?". O buna, bu ona, həvanın üzündə tutuşdular. O qədr tutuşdular, gah yerdə, gah göydə. Cəng o yerə yetişdi ki, ikisi də xəstəu xəmir düşdülər. Sənubər istir Sindurusə söz arasında andırsın ki, bizim davamız qalsın sonraki günə. Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Sənubər Sindurusə dedi:

Sindurus, gəl sənə desin Sənubər,
Gəlməyeydin gərək sən buraya.
Bu yerdə kim olar mənə bərabər?
Sənnən mənim cəngim qalsın sorayə.

Geşmişəm əlimdə ixtiyarımnan,
Dost yolunda geşmişəm bu canımnan.
Qorxuram ki, ayrı düşəm yarımnan,
Sənnən mənim cəngim qalsın sorayə.

Müsəlman olmuşam, bir danadı İlahi,
Mən Sənubərin yoxdu günahi.
Mənim yarımdı Zəngilər padşahi,
Sənnən mənim cəngim qalsın sorayə.

Söz tamam olsun, aralandılar, hər kəs gəldi öz yerinə. Bu gəldi Gülistani-İrəmə. Bu yan tərəfdən şah Dara oğlu Şikari gəldi. Qədəm qoydular Çarbaği Süleymanidə məclisi Süleymaniyə. Şikari göz gəzdirdi, gördü Cahandar yoxdu, dedi: “Bəs mənim balam Cahandar hardadı?”. Sənubərin burda yadına düşdü ki, ey dadi-bidad, mən onu tutdum qoydum nəqqarirə. Adresin verdi Reyhanə pəriyə. Şikari dedi ki, get qardaşıvı gətir. Reyhanə pəri yetişdi, gördü Cahandar ayılmıyıb, götürdü gətirdi bargahə. Elə ki gecəni yatdılar, səhər olsun, hər tərəfdən təbli nəqqarə çalındı. Şikari üz dolandırdı ki, mən gedəcağam meydanə. Sənubər dedi: “Xeyir, nə qədər bacın sağdı, mən qoymaram meydanə gedəsən”. Dedi: “Bacı, gəl məni rüsva eləmə, qoy mən öz işimə özüm baş çəkim”. Qədim kişilərdən qalma sözdü, deyiblər, “oğul adamın öz belinnən, söz adamın öz dillinnən, iş adamın öz əlinnən”. Nə qədr dedi, qəbul eləmədi. Üstad belə nəzmə çəkib, günortanın zamanına kimi Sindurusunan Sənubər küştü tutullar. Əmma heş biri heş birisinə faix gələ bilmir. Meydanın vəsətində Sindurus üz dolandırdı: “Ey Şikari adəmizad, mənim Sənubərinən cəngim yoxdu ki. Mənin cəngim sənnəndi. Mən dədəmin qatilin axtarıram. Əgər iyidsən, qədəm qoygunan mənim meydanimə”. Bu kəlmə yetişdi Şikarinin qulağına. Elə bil dünyanı dolandırdılar, vurdular Şikarinin kəlləsinnən. Şikari aram ola bülmədi, mindi mərkəbinə, gəldi meydana.

Sindurus bir dana əmüd endirdi Şikarinin kəlləsinnən. Dedi ki, day bunda ət tapılmaz, fəqət, sürsümüh tapılar. Üzün tutur islam qoşununa bu kəlməni desin, Şikari qəddin rast elədi, dedi: “Çox lafi-kəzzab danışısan”.

Sindurus çox təəccüb elədi, bə nə cür oldu, mən əmüdumu Qaf dağına vursaydım dağı əridərdi. “İndi ki belə çox lafi-kəzzab danışısan, qulağ asgınan sənə bir neçə kəlmə sözüm var” – alıb bu dillərinən görək Şikari nə deyir? Mən də ərz eliyim eşidənlərin sağlığına.

Şikari Sindurusə dedi:

Gəl bu qədər lafi-kəzzab eyləmə,
Bu meydanda hazır ol mən ilə cəngə.

Bu yanmış qəlbimi parə eyləmə,
Gəlmişəm edəm sən ilə cəngə.

Tutaram gürzünü əldən alaram,
İndi ləşkərivə talan salaram.
Cəsətivi al-qanına boyaram,
Dilin olmaz day mən pəlangə.

Şikari həsrətdi qohum-qardaşa,
Düşmənlər əlinnən çəkilər haşa.
Görürəm, əcəlin gəlib yetibdi başa,
Gəlmişəm edəm sən ilə cəngə.

Ağa, bular hər ikisi məşğul oldular cəngə, əmud, şeşpər neyzəvu kəmənd, heş birisinnən murad hasil olmadı. Əl elədilər bir-birinin dəvəli kəmərinə. Şikari bunu çəkib saldı mərkəbinnən yerə. Bir qədr küştü tutannan sora Şikari dedi: "Ey on səggiz min aləmi yoxdan xəlq eliyən Allah! Məni bu namərdin əlində dəstgir eləmiyəsən". Sindurusu götdü başına, gətirib meydanın vəsətində qoydu yerə, dizin qatlayıb qoydu sinəsinin üstünə, möhkəm qolların dalıdan bağladı. İstədi öldürsün. Dedi:

– Şikari, səni and verrəm o bacın Reyhanənin canına, məni öldürmə, mənə möhlət ver.

Şikari onu öldürmədi. Əmma qolların bağlıyıb verdi zindanə. Sindurusu Şikari zindani elədi və ləşkərin də həkaza. Əmma bir neçə gün zindanda qalannan sora götdü bir dana kağaz yazdı. Yazdı ki, Şikari, məni bixud zindanda saxlamagınan. Elə ki namə gəlsin yetişsin Şikarinin əlinə, Şikari naməni oxuyub məzmununan baxəbər oldu. Dedi, gedin Sindurusu gətirin bura. Getdilər Sindurusu gətdilər məclisə. Dedi: "İndi sözün nəmənədi?". Dedi: "Mən dədəmin qatilin axtarıram. Hər kim öldürə, mənim ayrı adamınan işim yoxdu".

Bu yannan Cahandar qaxdı, dedi:

– Sənin dədəvi mən öldürmüşəm, mənim dədəm öldürmüyübdü.

Dedi:

– Niyə öldürdün?

Dedi:

– Sənin dədən neçə ildi bizim namusimizə gözün tihmişdi. İndi də Həft Qulleyi Qafə aparıbdı.

Sindurus üz dolandırdı Şikariyə:

– Səni and verrəm inandığın Allaha, məni burax dədəmin qatilinin qabağına, mən bunnan cəng eliyim. Əgər öldürsə, dədəmi öldürən kimi heş.

Şikari Cahandara dedi:

– Hazırsan bunun meydanına gedəsən?

Cahandar dedi:

– Bəli, bəs niyə hazır dəyiləm?

Sindurus dedi, onda qulağ as, sənə bir neçə kəlmə sözüm var. Aldı görək nə dedi.

Sindurus Cahandara dedi:

Qafildən bir səda yetdi güşimə,
İgid olan gərək əslin danmasın.
Atam ölüb, kül olubdu başıma,
İgid olan gərək əslin danmasın.

Namərd yatar, heç yuxudan oyanmaz,
Mərd oğlanlar iki rəngə boyanmaz.
Qurd boyunda həlqə, zəncir dayanmaz,
Bu arzular ürəyimdə qalmasın.

Sindurus sözünü desin mərdana,
İncimәsin mənnən bacım Reyhana.
Dədəmin ölümü pəxş olubdu cəhanda,
Bu qisas da gərək yerdə qalmasın.

Elə ki söz tamam olsun, Şikari dəstur verdi, meydan sulandı, süpürüldü. Onnan sora hər iki dilavər qədəm qoydular meydanə, Cahandar, Sindurus. Ərz eləmişəm, Cahandar özü kəmərbəstədi, dədəsi Şikari, nənəsi Simizərdi. Elə ki qədəm qoysunlar meydanə, əmudu şeşpər, neyzəvü qalxan, kəmənd, heş birisinnən murad hasil olmadı. Sindurus meydanın kənarında bir dana çinar ağacı var idi, yeriyib çinar ağacını rişədən çəkib yügürdü Cahandarın

üstünə. Cahandar əl eliyib şəmşirə, necə ki, bu çinarı aradan vursın bölsün, ağacın bir tərəfi qaldı, bir tərəfi getdi o yana. Sindurus əmma bir sehr oxudu, bu getdi göyə. İstir həvanın üzünnən bir sehr oxusun, gəlsin yapışsın bunun kəmərinnən aparsın həvanın üzünə. Reyhanə bir sehr oxudu, Sindurusun sehrini batil elədi. Elə ki istədi yetirsin Cahandara, əlin atsın, Cahandar aman vermədi, o işkəsinnən, iki parça eliyib. Sindurusu Cahandar öldürsün, hər tərəfdən afərin səsi asimanə bülənd oldu. Elə ki bular gəldilər bargahə, eyş məclisin qurdular. Şadlıq eliyillər.

Bular burda şadlıqda olsunlar, eşid dastani Cahanbaxşdən ki, qəblən ərz eləmişəm, Cahanbəxş, Tavus və Şəbahəng Əyyar gediblər Simizərin dalısıcan. Zəfəran da bularınan gedibdi. Tilsimli belgiya, zülmətdə, Qulleyi Kafdə bir ağac sayəsində bular outrublar yerə. Cahanbəxş dedi, indi biz neynəməliyik? Cadular dedilər, əlbəttə tumarə baxax biz. O tumardə nəmənə yazılsa, ona əməl eliyəcağıx. Tuməri gətiriblər, Cahanbəxş açıb baxıb, gördü yazıb: “Varid oldun ki, cəzirəyə, bir “İsmi-əzəm” oxuyarsan. Bir dana bağ görərsən, vəxti ki varid oldun o bağa, bir dana imarət vardı, gedərsən o imarətin içinə. İmərətin içində bir dana təxt qoyulub, bir dana qız yatıb o təxtin üstündə, əmma bihuşdi. Yeddi mərtəbə “İsmi-əzəmi” oxursan. O qız halə gələr, hay salar ki, kim məni halə gətirdi, gəlsin nəmənə mətləbi var, alsın. Sən cəvab verməssən, ikiminci dəfə də diyər, cəvab verməssən, üçümüncü mərhələdə o zəman sən ağacın sayəsinnən gələsən, diyəsən ki, ayrı mətləbim yoxdu, məni apar tilsimi Zülmətə”.

Şəbahənginən Cahanbəxş varid oldular. Dedi, indi aparram sizi. Qız götürür buların ikisin də aparsın tilsimi Zülmətə. Qızın adı Əfsanədi. Bahəm yola düşdülər. Əsnayi-rahdə ki, gedillər,bir bulax var idi. Elə ki gəldilər yetişdilər o çeşmənin başına, Əfsanə dedi: “Bu çeşmənin yanında bir dirəxti çinar var, ağaş. Orda bir qədr ahu çarəya məşğuldi. Oların içində bir ahu var, onun bir təh buynuzu var. Təh buynuzlu ahunu tutasan, onun bir buynızın çəkəsən yerinnən çıxardasan”. O buynızın yerində bir açar var. O, ahunun qarnını yırtdı. Sanduqça ahunun qarnındaydı, sanduqçanı aşdılar. Sanduqçanı aşsınlar, bir dana löh çıxatdılar. Cahanbəxş

Əfsanə dediyi kimi elədi, löhə baxdı, gördü yazıb ki, löhü atasız çeşmiyə, götürəsiz, bir dana əjdaha nümayan olar. Cahanbəxşinən Şəbahəng minələr o əjdahanın belinə, ama gözlərin yumalar. Elə ki löhü atdılar çeşmiyə, bir əjdaha nümayan oldu. Cahanbəxşinən Şəbahəng mindilər bu əjdahanın belinə. Gözlərin aşdılar, özlərin Zülmətdə gördülər. Əfsanə gəldi, bir dana govhər danəsi verib, baba, Şəbahəngə, dedi: "Bunun işığıynan gedəsiz bir dəryanın kənarinə yetişəssiz, orda bir dəvə görərsiz. Dəvə həmlə eliyər sizin üstüzə, siz xof eləməyin, bir dana yumurux vurun qulağının dibinnən, İstər qaşsın, yapışın onun quyruğunnan, girin dəryayə, o zəman siz özüzü zirzəmidə görəcəhsiz. Orda bir qız oturub, əlində bir cam tutub. Cahanbəxş sənə suyu verər, sən suyu alasan atasan quzun üstünə. Qız nərə çəkər, siz bihüş olarsız. Huşə gələndə məni yanızda görərsiz, mən də sizin yanınızda ollam".

Həmin tör eliyiblər, qızın əlinnən camı alıblar səpsinlar qızın üstünə, qız nərə çəhdi, bular bihuş oldular, gözlərin açanda Əfsanə buların yanındaydı. Əfsanə dedi: "Bura bir bağdı, bu bağı ki çıxdız kənarə, bir dana dev gələr, adı Kecvan devdi. İstər sizə ot vursun, siz gərək onu tutasız, onu öldürmüyəsiz. O, nə desə ona baxgınan". Bulara bu vəsiyəti eliyib, rəvaneyi-rah oldular.

Bağdan kənarə çıxanda dev gəldi, bu devi tutdular. Dedi: "Bu imarəti gedəsən, (dev diyir ha!) iki dana şir var. Oların arasında bir dana sanduxça var. Sanduxçanı götürərsən, onun içində səbz bir şişə var. On dana morgi səbz var, oları da götürəsən, bu şirlərə diyəsən ki, kilid hardadı, onu gərək verəsən bizə (Yəni, o tilsimin açarın). Əgər verməsəz, bu şişəni vuracağam yerə, çün oların canı bu şişədədi. Olar düşəllər qoca övrət surətinə. Oların biri Cəmcəmə cadudu. O Cəmcəmə cadu diyər ki, bura sizi kim gətirib? Diyərsən ki, vəzir Süleymanınan lövha varımızdı. Ona löhu görsədərsiz. O, bu sözü eşidəndə, diyər ki, ayığ olun, Əflak dev gəlir sizi aparsın. Hərəviz onun bir ayağınnan tutacaxsız. Elə ki tutduz onun ayağınnan, o aparar sizi o yerə ki, Simizər o yerdədi, sizi ayrı adam apara bülməz".

Elə ki Əflak dev gəlib, yapışdılar onun ayağınnan, apardı Simizərin yerinə. Elə ki bular ayaxların qoydular yerə, endilər,

Zəmzəmə orda hazır oldu. O yan tərəfdən də Əfsanə gəldi. Zəmzəmə cadu Əfsaniyə dedi: “Qızım, o şəmşiri ki sənə əmanət vermişəm, onu ver Cahanbaxşə, bunu vur devin kürəyinnən”. Tilsimi ki bunun adına bağlamışlar, açılannan sora tilsim açıldı, Cahanbəxşin gözü sataşdı Simizərə, dedi: “Bə oğul, burda neynisən?” Dedi: “Anacan, canı başımdan geşmişəm, gəlmişəm səni aparam”. Dedi, oğul eşid, bir neçə kəlmə sözüm var. Götürüb bu dillərinən Simizər Cahanbəxşə görək nə deyir? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Simizər xanım Cahanbəxşə dedi:

Dədəm məni edibdi bəxti qarə,
İltimasım budur, aparma məni.
Gəlmiyeydin gərək sən bu diyarə,
İltimasım budur, aparma məni.

Qulax ver mən beçarə sözünə,
Sürmə məst eyləyib ala gözünə.
Az qalıram qəsd eyliyəm özümə,
İltimasım budur, aparma məni.

Simizər, dərdini bir kəs bilməsin,
Ağlaram didəm yaşın silməsin.
Namərdlərin görüm üzü gülməsin,
Sərəfraz ölməsə, aparma məni.

Əgər Sərəfraz şah ölməsə, məni aparma. Cahanbəxş çox şad oldu. Dedi, anacan müjdə ver mənə, elə bu işdən ötürü qardaşım Cahandar onu öldürdü. Durublar ayağa bahəm, Simizər, Cahanbəxş, Əfsanə, Tavus və Zəfərən, beşi bahəm gəldilər Çərbağı Süleymaniyə. Bular orda bir ceşn tutdular.

Şikari orda Şahrux adında bir nəfərə intixab elədi ki, onun yerində otursun, Mənzər şahı Yəməni də buları aparsın Yəmənə. Camasib həkim soruşdu ki, buları belə eləmaxdan mərəmın nəmənədi? Şikari alıb görək nə desin?

Şikari Camasib həkimə dedi:

Sənə qurban olum, Camasib həkim,
Göyül istir, vətən sarı yerisin.

Elimnən, gülümnən necə əl çəkim?
Göyül istir, vətən sarı yerisin.

Mən aşıq, oyan, dağlar,
Al-qana boyan, dağlar.
Bu yan zülmətxənadı,
Necədi o yan, dağlar?

Xəbərin yox bu şikəstə dilimnən,
Yetmiş ildi ayrılmışam elimnən.
Belə qalmaq yeydi mənə ölümnən,
Göyül istir, vətən sarı yerisin.

Mən aşıq, Ərzuruma,
Bu yol gedər Ərzuruma.
Dəvəsi ölmüş ərəbəm,
Dözərəm hər zuluma.

Şikariyəm, çox dolandım dünyanı,
Qəriblik eylədi ömrümü fanı.
Deyillər adıma Süleyman Sanı,
Göyül istir, vətən sarı yerisin.

Qan eylər,
Divan eylər, qan eylər.
Dost məni bu halda görsə,
Ya ölər, ya qanıma qan eylər.

Şikari bunnan sora adını Süleyman Sani qoydu, dedi ki, hammı mənim adıma Süleyman Sani diyəcəh, Dara vilayətinə gedəcağam.

Cahandarın bir dana oğlu olur, adın qoyur İrəc. Cahangirin bir oğlu olur, adın qoyullar Turəc. Sənubər bir dana oğlan doğur, adın qoyur Albaz. Onnan sora hərəmlərin hammısın Mənzər şahı Yəməniyə verir ki, aparsın Yəmənə.

Bəhmən vəzirin ki bir dana qızı var idi, Əfsərbanu, onu vermişdilər Yusif Ərəbə, onnan oğlan olur, adın qoyullar Fərruxsəvar.

Sizə ərz eliyim Şikaridən. Şikari dedi, mən vilayətim tərəfinnən gedəcağam. Bu yan tərəfdən Hilaliya padşahı Zöhhak padşah, Gülbar vilayətinin padşahi, üz dolandırdı: "Bəs, bizə qonax getmiyəcaxsan?". Dedi, manei yoxdu, gəlləm. Bular bahəm gəlib hərəsində bir neçə gün qonax qaldı. Əsnayi-rahdə bular hərəkət eliyillər gəlsinlər Dara vilayətinə. Cahandar bir iddə qoşununan ayrılır gessin şikarə. Gedir bir ahuyə ras gəlir. Bu cadu idi, bunu öldürür, əmma özü də cadu əlinnən rahə olur. Şikariyə gedillər diyillər ki, belə bir ahunu öldürdü, əmma onu da tapa bülmədik. Cahandar azır. Əmma eşid dastani kimnən? Şikaridən. Şikari üzünə bir dana niqab çəkir. Diyir mən o zaman bu niqabı üzümnən rədd eliyəcağam ki, öz məmləkətimə təsərrüf olam. Əmma Firuz Əyyarı örgədir ki, aparın Şirzadı Tigzənə bihüşdəru verin, onu zindani eləyin, çün bilsə biz gedirik ora, bu gedər, dədəsin öldürər ki, mənim xan əmimi sən niyə aparıb salmısan quyuya?

Elə ki ləşkər atlandı, az gəliblər, çox gəliblər, gəldilər yetişdilər Dara vilayətinə, bir qədr kənarda bular çədürnişin oldular. Əmma Ərçəyə xəbər gətirdilər ki, göydə ulduzun, yerdə qarışqanın sayısı var, ama ləşkərin sayısı yox. Şikari gələndə bir az da devdən, pəridən gətirib ki, hammı bunun Süleyman Sani olduğuna bavər eləsin.

## USTADNAMƏ

Mərd oğula əmək versən itirməz,
Namərd adəm doslux başa yetirməz.
Vətənin sövən oğlan öz-özünü itirməz,
Söyüd ağacında alma, heyva, nar olmaz.

Dəli göyül ətəşlərə atlama,
İnnən belə dünya sənə dar olmaz.
Bir mərd qazansa, yüz namərd doyuyar,
Yüz namərd qazansa, mərdə bir nahər olmaz.

Ərçənin bir dana oğlu var, Şirzadı Tigzənnən kiçihdi, adı Şirəfkəndi. Yeridi dədəsinin bərabərinə:

– Əgər icazə verisən, bir iddə ləşkərinən çıxım buların qabağına, nəmənə dev, pəri var, hamısın bir saatın ərzində dağıdım, çıxsınlar gessinlər.

Əmma bu tərəfdən Ərçə neynədi? Götürüb bir dana namə yazdı bu növinən: "Ey Süleyman Sani, əgər dostsan iblag elə, ta sənə xidmət eliyim. Əgər qonaxsan, dossan, beş gün, üş gün xidmət eliyim. Əlimnən gələni eliyim. Yox, əgər düşmansan, mən bilim, ləşkər yığım".

Bu naməni verdi Fərzanə vəzirə. Fərzanə vəzir kim ola? İbarət ola Şikarinin öz müəllimiydi uşaxlıxda. Şikariyə dedilər ki, Fərzanə vəzir namə gətirib. Fərzanə vəzir adın eşidəndə dedi, gedin onu pişvaz eliyin.

Fərzanə vəzir elə ki varid olsun içəri, üz dolandırdı: "Mənnən səlam olsun Süleyman Saniyə. İcazə verirsə, bir namə gətirmişəm".

Qızıl nisar elədi bunun naməsinə. Alıb naməni oxudu, məzmununnan baxəbər oldu. Dedi: "Xeyli xub, Fərzanə vəzir, siz təşrif aparın, mən namənin cavabını göndərrəm gələr".

Buları yola saldılar. Əmma Şikari Cahanbəxşdən bir namə yazdırdı. Götürüb bu dillərinən görək nəmənə yazır? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına. Şikari dedi:

Mənnən sənə yazıram, salam olsun,
Bütxanə eyləmisən bu məkanı.
Pünhan sözlərim aşikar olsun,
İnsan olan sənnən sürməz dövranı.

Baban İskəndərdi, şöhrət salıb cəhanə,
Məğribdən məşriqə bayraq vurub hər yanə.
Deyillər, zülm eyləmisən bir müsəlmanə,
Səndən edəm gərək onun divanın.

Müsəlmanam, xaliyəm bu günahdan,
İnsana nəcat vardı doğru rahdan.
Məmüram mən, hökm olubdu Allahdan,
İntiqam alacax Süleyman Sani.

O məzlumun qanını sənnən alacağam, ya da ki mənnən cəng eliyəsən gərək. Naməni möhr eliyib verdi Cahanbəxşə: “Oğul, altı yüz nəfər adam götürəcaxsan, bu naməni aparıb verəcaxsan Ərçiyə, cavab alıb gətirəcaxsan, bir nəfəri öldürmüyəsən, bir nəfərə bir dana yara vurmayasan”. Fərhəng Əyyarı da qoşubdu buna. Çəhdi kənarə: “Bax, dünya dünyadən qopsa, bülməsin Ərçə mənim qərdəşimdi ha!”. Dedi: “Qurban, mənim nə işim var diyəm”. Bəli, Cahanbəxş altı yüz nəfərinən atlanıbdı. Naməni götürübdü ki, versin Ərçəyə. Vəli şəhrə varid olanda qoymadı ki, bir nəfər varid olsun şəhrə. Dedi: “Siz qalacaxsız şəhrin dərvazəsinin eşiyində”. Fərhəng Əyyarınan özü girdi şəhrə. Cahanbəxşinən Fərhəng Əyyar naməni gətirdilər, xəbər verdilər Ərçəyə ki, qasid gəlib. Pərdadər pərdəni sındırıb varid oldular qəsrə. Ərçənin gözü sataşsın Cahanbəxşə, ürəyində bir dana məhəbbət oturdu. Əz qəza Cahanbəxşin də qanı cuşə gəlib. Elə ki istiyib naməni versin, bunun namə gətirməyinə Ərçə görək nə deyir? Ərçə bu dillərinən Cahanbəxşə diyir:

Xoş gəlmisən bura, qədəmbəqədəm,
Qədəm qoydun, ey cavan, buraya sən.
Məhəbbətim çoxaldı dəmbədəm,
Təbibsən, mərhəh sal bu yaraya sən.

Qızılgültək yar əlində dəstəyəm,
Ellər vurğunuyam, bir həvəsdəyəm.
Ürək coşa gəlir, səni istirəm,
Xoş gəlmisən, ey cəvan, buraya sən.

Mən görürəm öz dinində doğrusan,
Ot vurusan yaralarım qorusan.
Ərçə deyir, söylə kimin oğlusan?
Xoş gəlmisən ey, cəvan, buraya sən.

Elə ki naməni ikiəlli təqdim eliyib, naməni açıb məzmununnan baxəbər oldu. Naməni oxuyub, əmma narahand oldu, söyüş söydü.

Bunu Cahanbəxş eşidəndə əl elədi şəmşirə: “Naməni oxu, cavabını verginən”. Sakit elədilər. Namənin cavabın cəng yazdı,

əmma dedi ki, mənə üş gün möhlət verginən. Cahanbəxşi yola saldılar. Şirəfkən Ərçəyə dedi, icazə versən gedim yolda onu tutum, necə yanı gəlib elə deyir gessin? Əllərin tovluya-tovluya çıxsın buradan gessin? Ərçə dedi: "Sən bunu öldürsən, bu Süleyman Saninin elə bil qanadının birin sındırmısan. Bizim üçün çox yaxşı olar". Şirəfkən on iki min nəfər götürdü buların dalısıcan getdi.

Əmma əsnayi-rahdə geyirdilər, Fərhəng Əyyar döndü bir dalı baxdı. Gördü ləşkər gəlir buların dalısıcan, qubar asimanə bülənd olub. Götürüb bu dillərinən görək Cahanbəxşə nə deyir? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına. Fərhəng Əyyar Cahanbəxşə dedi:

Məxmür göstər, mərkəbə versin rikab,
Dalımızcan atlanıb ləşkər gəlir.
Cəng etməyə ürəyimdə yoxdu hal,
Dalımızcan atlanıb ləşkər gəlir.

Mənim sözlərimi sən yerə vurdun,
Məhəbbət zəncirin çəkibən qırdın.
Getmədin sən, denən niyə durdun?
Dalımızcan atlanıb ləşkər gəlir.

Sinəm nişanadı bir xədəng olar,
Fərhəng Əyyara da dünya təng olar.
Getməsən burda böyük cəng olar,
Dalımızcan atlanıb ləşkər gəlir.

Şirəfkən Cahanbəxşinən savaşanda yaralandı. Bu xəbər yetişdi Sünbüləyə. Sünbülə başladı hay-hay ağlamağa ki bir qərdəşimi şir dağıttı, bir qədrdəşimi də Süleyman Sani gəl gör öldürəcək. Bu yan tərəfdən Cahanbəxş gəldi yetirdi öz yerinə. Şikariyə üş gün sona cəng olacağını dedi.

Üş gün möhlət almışdılar tamam olsun, Ərçə dəstur verdi, ləşkər çıxsın şəhrdən kənarə. O yan tərəfdən də Şikari dəstur verdi ləşkər çıxdı. Bir tərəfdə dev durub, bir tərəfdə pərizad, bir tərəfdə bəni-adəm durub. Cahanbəxş qərar olur gedə meydana. Şikari dedi: "Oğul, əgər oğlansan, diri-diri tutacaxsan, mənim işim var onnan".

Şəmşir, neyzə, kəmənd qalxandan murad almayınca, əl elədilər bir-birinin kəmərinə, günortanın zamanına kimi küştü tutullar. Günorta gördülər həvanın üzünə bir bulud gəlir. Bulud gəldi, gəldi, əyləndi, buludun içinnən bir əl nüməyan oldu. Yapışdı Cahanbəxşin kəmərinnən, çəhdi apardı göyə. Şikari istədi ox qoysun kəmanə vursun, dedi: "Dilavər, bixüd ox kəmana qoymagınan, əgər ox atsan, öz oğluvu verrəm oxuvun qabağına". Bular təbli-bazgəşt vurullar.

Sabahı gün təbli vurdular Cahangir adına. Bular öyləyə kimi savaşdılar, genə bir bulud gəldi, əyləndi, əyləndi, bir əl uzandı Cahangirin tutdu kəmərinnən, götdü apardı göyə: "Mən Ekvan devin nənəsiyəm. Sənin oğlun Gülbar vilayətində mənim oğlum Ekvan devi öldürüb". Cahangir dədəsi Şikarinin dalısıcan gedəndə, Gülbar vilayətində Ekvan devi öldürüb və Qönçələbi almışdı. Buları apardı Həft Qulleyi Kafın axirinə. Cahandar Xusrovi Qələdərin yanında.

Bu səfər Şikari özü qədəm qoydu meydanə. Görək Şikari Ərçəyə nə dedi:

Şeypur çalax, səs bürüsün hər yanı,
Mənnən cəng eliyax mərdi-mərdana.
Sənnən cəng eylir Süleyman Sani,
Mənnən cəng eliyəx mərdi-mərdana.

Mən ilə bir yerdə şərab içəsən,
Bu meydanda başu candan geçəsən.
Hicranın dəftərin bu gün açasan,
Mənnən cəng eliyax mərdi-mərdana.

Süleyman Saniyə düşman gülməsin,
Mənim sözüm sənə ağır gəlməsin.
İstirəm meydanda qan tökülməsin,
Mənnən cəng eliyax mərdi-mərdana.

Şikariynən Ərçə xeylah küştü tutdular. Şikari kəməndi atıb bunu beli üstə vurdu yerə. Elə ki qolların bağladı, dedi, aparın bunu salın zindana. Ərçənin nəmənəsi var idi, əlinə aldı. Şikari qədəm qoydu bargahə. Hərəmxanada Sünbülə başın yolur, tökür yerə. Şikari üzünün niqabini aşmamış hələ, yeddi gün belə getdi.

Ərçə zindannan namə yazdı ki, məni ya öldür, ya belə saxlama. Dəstur verdi Ərçəni gətirdilər. Bu xəbər getdi yetişdi Sünbülüyə ki Ərçəni aparıllar öldürsünlər. Durdu gəldi bargahə yalvarmağa. Şikari gördü başdan-ayağa qarə geyib, bir saçları ağdı. Gəldi döşəndi bunun qədəmlərinə. Dedi:

– Niyə belə eliyisən?.

Dedi:

– Sən Allah bu Ərçənin günahınnan geç.

Dedi:

– Sən kimsən? Niyə qarə geymisən?

Dedi:

– Mən şahın qızıyam sənə deyim niyə qarə geymişəm.

Götürüb bu dillərinən görək Şikariyə nə diyir?

Sünbülə xanım Şikariyə dedi:

Gəl sənə söyləyim, Süleyman Sani,
Geydiyim bir cəvanın qarasıdır.
Ürəyimnən qara qanlar axıtma,
Geydiyim bir cəvanın qarasıdır.

Mən aşıqəm, gəlmədi,
Köçüm getdi, gəlmədi.
Fələk mənnən bəd etdi,
Ağlar üzüm gülmədi.

Gəlmişəm qapıva mən də çarəyə,
Təbibsən, gətir məlhəm sal yarayə.
Gətirə bülmərəm adın arayə,
Geydiyim bir cavanın qarasıdır.

Mən aşıqam, aşmadı,
Bərk bağladı, aşmadı.
Xəzən oldu, töküldü,
Qonçəgülüm aşmadı.

Sünbüləm, gözüm intizardı,
Bu göylümü alan qəm qubarıdı.

Necə deyim, adı şir Şikaridi.
Geydiyim o cavanın qarasıdır.

Sinəm üstün dağlaram,
Düyünnərəm, dağlaram.
Qardaş-qardaş diyərəm,
Ölənəcən ağlaram.

Elə Şikari adı gələndə Şikari təxt üstünnən kəllə-baş düşdü aşağıya. Fərzanə vəzir və tamam vəzirlər dörəsin aldılar. Niqabı üzünnən çəhsinlər, Fərzanə vəzir üz dolandırdı: "And ola cəlalı İlahiyə, bu Şikaridi. Elə lap Şikari özüdü, yetmiş ildi gedibdi".

Elə ki halə gəlsin, bacısına üz dolandırdı: "Bacı, elə o Şikari üçün qara qeymisən, o mənəm".

Bular bir-birin qucaxlıyıblar. Ərçə çox xəcalət çəhdi, qolları bağlı vəzirlərin yanında. Şikari neynədi? Dedi: "Mən o zaman sənə dedim, öz əlimnən səltənəti sənə verirəm". Yapışıb dəstbəndinnən oturtdu taxta.

O yan tərəfdən Şikari üz dolandırdı, dedi: "Şirzadı Tigzani gətirin". Şirzadı Tigzani gətdilər. Sünbülə qolların aşdı saldı boynuna. Dədəsiynən bunu barışdırıblar. Öpüşüblər, eyşu nüşi bərpa elədilər. Fələk götürüb dərvəçəni, qoymur qapıdan geçəni.

Cahandar Xosrov Qələdarınandı, dedi ki, axı sən bülmüsən ki, fələh mənnən göz əyib, qaş əyib, qurbətə düşmüşəm. Sən mənim adımı bilisən də, qulağ as deyim da. Götürüb bu dillərinən görax Cahandar nə deyir? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına. Cahandar Xosrov Qələdara dedi:

Canım Xosrov Qələdar,
Gəl olgunan qardaş mənə.
Bu can sənindi, hər nə var,
Bu çöldə ol sırdaş mənə.

Gəzməginən mənnən xəlvət,
Darıxıram, eylə söhbət.
Gəl ikimiz içax şərbət,
Ürəkdən ol mənə qardaş.

İskəndərə var nəjadım,
Pozulmaz heş ilqarım.
Cahandardı mənim adım,
Gəl olgunan qardaş mənə.

Dedi: “Xosrov, mənə iki min nəfər verəsən, mənim işim var”. Dedi: “İki min nəfər səhldi, mənim on iki min nəfərim ki var, hammısın sənə verəm, özüm də sənnən gələm”.

Ağa, Xosrov Qələdar on iki min nəfərinə dəstur verdi, hazırlansınlar. Bərabər səvar, geyiniblər, yeddi yerdən təngin bərkidiblər. Cahandar adın qoydu Xosrovi Qələdar, onun da adın qoydu Xiftani Bəbir. Pərçəmi-islamı götürüblər, gəldilər yetişdilər Dara vilayətinin yanına. Bir nəfəri gətirdilər Cahandarın yanına. Gəlib salam verdi. Dedi:

– Qurban, nəyə gəlmisən bura? Bəyə eşidməmisən ki, burda Süleyman Sani gəlib ləşkəriynən?

Dedi:

– Nə Şikarisi?

Özün vurdu bülməməzlığa.

Dedi:

– Qədim zamanda burda bir Şah Daranın oğlu var idi. Ərçə Şikarini salmışdı quyuya, yetmiş ildən sora gəldi. Öldürmədi və onu padşah elədi.

Cahangir ot tutup yandı. Reyhanə pəriyə dedi, sən get bu xəbər gör düzdü? Reyhanə pəri getdi gördü, bəli, necə ki diyib, elə hamısı elədi. Cahandar bir namə yazdı ki, mən evladı İskəndərəm, mənə dədə-babadan hükmranlıx yetişər, ya siz xoşluğunan verin, ya da sabahları cəngə hazır olun. Altında da Xosrov Qələdar yazdı. Öz adın Xosrov Qələdar qoydu.

Bular ikisi şəhrə girdi, ləşkəri saxladılar. Gəldilər dərbara. Elə ki dərbara yetişsinlər, pərdadər pərdəni sındırıb, kirnüş eliyib dayandı. Vəxti ki naməni verdi, dedi, əvvəl gərək mənə qızıl verəsən. Qızıl verdilər, naməni aşdı oxudu, gördü, bəli, yazıbdı mənim dədədən nəslim Süleymanə, nənədən İskəndərə çatır. Şikari dedi: “Oğul, niyə baxısan?”. Bunun üzündə niqab olduğu üçün bunu tanımıllar, yoxsa Şikari oğlunu tanımazdı? Adın da

qoyub Xosrov ki tanımasınlar. Dedi, qulağ as, deyim da niyə məclisə baxıram. Alıb kəlməsin bu dillərinən desin, mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Xosrov Qələdar (Cahandar) Şikariyə dedi:

Ona görə məclisivə baxıram,
Mən görən cəvanlar hanı, görüm mən.
Qeyzə gəlib bir sel kimi axıram,
Mən görən cəvanlar hanı, görüm mən.

Deyirəm dərdimi sənə birbəbir,
Dolanmısan dünyanı sən yerbəyer.
Biri Cahanbəxş, biri Cahangir.
O iki cəvanlar hanı, görüm mən.

Dedi:

– Sən Cahangirinən, Cahanbaxşi hardan tanıyısan?

Dedi:

– Eşidmişəm, özlərin görməmişəm. Əmma ona oxşuyan birini görmürəm.

Şikarinin gözü doldu. Dedi:

– Oları Fərzanə vəzirdən soruş. Əmma sən üzüvü örtmüsən, bəlli dəyil kişisən, ya arvatsan?

Dedi:

– Mən arvad dəyiləm, qulağ as deyim.

Alıb ö bürü kəlməsin bu dillərinən desin. Cahandar dedi:

Arvad danışanda bir az hallənər,
Niqab atta gül cəmalı bəllənər.
Kişi sabah o meydanda bəllənər,
Mən görən cəvanlar hanı, görüm mən.

Elə ki sabah olsun, hər iki tərəf səf çəkib şəhrin kənarində dayandı. Xosrov Qələdar ki ibarət ola Cahandardan, qədəm nahəd elədi qoydu meydanə. Pələh dərisi geyib əyninə bəbr-səvar, üzündə niqab külahın altınnan çəkib. Bu yan tərəfdən Ərçə istədi qədəm qoysun meydanə, Şirəfkən qədəm qoydu qabağa. Dedi:

– Dədə, mən ölməmişəm ki, sən meydana gedəsən.

Dedi:

– Mən gedərəm, onu tutaram.

Əmma xəbərləri yoxdu ki, Cahandar özü kəmərbəstədi. Bir Şikari eliyə bülər ki, bunun qabağında dayansın. Heş kes bunun qabağında dayanəmmaz. Elə ki qədəm qoydu meydanə, gördü bir dana norəstədi. Dedi: "Sənin adın nə?". Dedi: "Mənim adımı gərək neyzəmnən xəbər alasan". Cahandar istədi yerisin qabağa, hələ Şirəfkən ani dəqiqədə neyzəni həvalə elədi Cahandara.

Bu onu tanır, ama o tanımır. Qılınc, qalxan, əmüd, şeşpər, heş birinnən murad hasil olmadı. Əlin atdı yapışdı Şirəfkənin kəmərinnən, Şirəfkəni atdı kənarə. Xosrovi Qələdar dedi: "Xiftani Bəbir, qolların bağla". Ani dəqiqədə qolların bağladı, verdi bu birilərə. Onnan sora bi yol Ərçə qədəm qoydu meydanə. Ərçə qədəm qoysun meydanə, qılınc, qalxan, əmüd, şeşpər heş birinnən fayda gəlmədi. Bular ikisi də piyadə oldular, küştü tutdular. Günorta əzanına kimi küştü tutdular, günortanın zəmanində Cahandar bir qudrətin yığdı biləyinə: "Ey on səggiz min aləmi yoxdan xəlq eliyən Allah". Götürüb Ərçənin arxasın qoydu yerə.

Ani dəqiqədə qolların bağladı, təvil verdi Xiftani Bəbirə. Xiftani Bəbir də təvil verdi ö bürülərə, təbli-bazgəşt vuruldu.

Əmma Şikari ot tutub yandı. Ağzında şirin tüpürcəyi zəhrimara dönüb. Elə ki genə təbli cəngi vuruldu, bu tərəfdən Qeysi Rəmmah-Ərəbin adına, o tərəfdən Xiftani Bəbirin adına, həman Qeysi Rəmmahı-Ərəbdi ki ərz eləmişəm, gündə bir dəna dəvənin ətin yiyərdi, şərabınan. Qeysi Rəmmahı-Ərəb yıxıldı, həmən onun da əlin bağladılar, verdi Xiftani Bəbirə. Şikari dəstur verdi təbli-bazgəşti vurdu. Şikari axşam şərabi içir, əmma bekefdi, narahand. Dedi: "Fərzanə vəzir, sabah mən özüm gərəh gedəm cəngə".

Bu yan tərəfdən Şirzadı Tigzən dedi: "Mən nəməniyəm? Sən məni heşdi yerinə qoymusan". Dedi: "Yox sən də gedərsən dədən kimi, qardaşın kimi tutularsan, sabah özüm gərəh gedəm". Şikari dedi: "Təbli cəngi mənim adıma vurun". Fərzanə vəzir dedi: "Sən gessən biz neynərik?". Dedi, qulağ as deyim.

Götürüb Fərzanə vəzirə dedi:

Dolanım başıva, Fərzanə vəzir.
Dərd əlinnən gəldim təngə mən,

Ver təbili vursunlar mənim adıma,
Sabahları gedim özüm cəngə mən.

Fələyin əlinnən gəlmişəm cana,
Şikayət eylərəm qadir Subhanə.
İstəyirəm qədəm qoyam meydanə,
Sabahları özüm gedim cəngə mən.

Şahı Mərdan özü yetər dadıma,
Qadir Allah yetişsin fəryadıma.
Şikariyəm, bələdsən bünyadimə,
Sabahları özüm gedəm cəngə mən.

Sabah açıldı, təbli cəngi vuruldu. İki ləşkər sabahdan səf çəhdi. Bular qədəm qoydu meydanə. İstədilər bular bir-birlərinə hərbə vursunlar, Şikari düşdü yerə. Şikari hansı mərkəbi minib? Uqabı Divsəri. Uqabı Divsər qədəm qoyanda meydanə, Cahandarı tanıdı. Heyvan gözüaçıx olar, məxsusən atın, itin də gözü açığ olar, bir ağaşdan biri danışsa onun səsin tanıyar. Uqabı Divsər bir şihə çəhdi, ayaxların vurdu yerə, vəli Şikari bilmədi ki, bu bunu tanıyır.

Əl elədilər bir-birinin kəmərinə, axşamacan küştü tutdular, heş kes fəiq gəlmədi. Üş gün bular yeksərə küştü tutdular. Üçümüncü gün Şikari canə gəldi: “Axı bu kimdi mənim qabağımda dayanıbdı? Bu günə kimi heş pehləvan mənim qabağımda dayanmıyıbdı. Bu kimdi axı?”. Əmma Şikari girəviyə saldı, başın aldı qoltuğuna. Cahandar çox əlləşdi, başın qoltuğunnan alsın, Şikari bərk tutub. Cahandar bir fən işlədi ki, başın bunun qoltuğunnan alsın, baş çıxdı, vəli külahək atıldı o yana. Külah gedəndə, niqab da getdi. Niqab gedəndə, bunun cəmali roşən olanda Şikarinin gözü düşdü Cahandara. Şikari gördü, bu Cahandardı, dedi:

– Bəs sənsən?

– Bizi neçə gündü əsir eləmisən?”.

Dedi:

– Atacan, əvvəla ki məni güzəşt eliyəcaxsan, dövümən də mən acıxdan bu işi görmüşəm.

– Niyə bəs, oğul?

– Bəs mən sənin oğlun dəyiləm? Neçə müddətdi mən əsirəm, itmişəm.

Ləşkər hammısı suya döndü, bəs bu Şikarinin oğludu. Xosrovi Qələdar on iki min nəfər ləşkəriynən, Qeysi Rəmmahı-Ərəb, hammısı bir yerə yığışdılər, ceşn tutdular. Sora Cahangirinən Cahanbəxşdən söhbət açıldı. Dedi, bu cur küştü tuturdular, Əkvan devin nənəsi gəlib aparıb buları salıbdı tilsimə.

Bular belə oturmuşdular, gördülər üş nəfər adam gəldi. Şahrux şahın adamları ki Gülistani-İrəmdə. Dedi: "Şahrux şahın qızı Nurüleyni Ugar gəlib aparıbdı. Gəlib aparıb qardaşlarının birinə. Biz indi onnan başara bilmərik". Dedilər, neyniyək, neynəməyək. Cahandar üz dolandırdı:

– Atacan, olmasa, istə mənim bacım Reyhanə pəri gəlsin.

Bular ihzar elədilər, Reyhanə pəri gəldi. Bu yan tərəfdən Şikari mozini mətrəh eliyib. Reyhanə fikrə getdi, dedi: "Qurban, Tavus mənnən böyühdü, ihzar eləginən o gəlsin, mən bu barədə izhar eliyə bülmərəm". İhzar eliyiblər, buna da mətrəh elədilər. Dedi: "Zəfəran mənnən böyühdü, Zəfəran bu barədə izhar eləsin". Dübarə ihzar eliyiblər Zəfəran gəlsin. Bunu da gətirdilər, hər şeyi ona da dedilər. Zəfəran dedi: "Ugar yeddi qərdəşdilər, bular hər biri bir bəndərdədilər, sən gərək yeddi dana bəndər geçəsən, hər birində yüz min qoşun var, Ugar özü də tilsim bəndidi. Heş zad kəsməz onu. Onun aludəsi Vəlvələ cadudu".

Aldı sazını, bir neçə kəlmə görək necə deyir?

Zəfəran cadu dedi:

Çarəsiz sevdayı çıxart başınnan,
Ölüncə dönmərəm sənin sözünnən.
Sənin məhəbbətin bizi öldürər,
İcazə ver, öpüm ala gözünnnən.

Mən aşıq, güllər ayrısı,
Bülbül güllər ayrısı.
Bir saat ayrılığa dözmüyən canım,
Genə oldu illər ayrısı.

Yeddi qardaş dərbəndi var yolunda,
Yeddi yüz min ləşkər sağı, solunda.
Oğlanlarıvın gözü qalıb yolunda,
Bu səfər muğayat ol özünnən.

O güneylər,
O quzeylər, o güneylər.
Həsrət həsrətin görəndə
Bayramın o gün eylər.

Zəfərənam, sənnən istərəm möhlət,
Bir sözüm var, sənə diyərəm xəlvət.
Qeysi Rəmmah-Ərəbinən için şərbət,
Mən doymadım onun işvə nazınnan.

Oyan dağlar,
Al-qana boyan, dağlar.
Bu yan zülmətxənadı,
Necədi o yan, dağlar?

İndi icazə versən biz – Tavus, Reyhanə və mən bu dərbətləri bi yoxluyax. Bular üçü də durublar, tənura bağlıyıblar qaxdılar həvanın üzünə. Yeddi dərbəndi bəzdid eliyib gəldilər. Zəfəran üz dolandırdı: "Şikari, necə ki sənə demişəm, yeddi dərbənd, yeddi yüz qoşun var. Əvvəliminci dərbəttə Ugarın qardaşıdı, Rəhdar". Dedi, sən fəqət bizi birimizi dərbəndə götür, işin olmasın. Dedi: "Şikari, biz aparıx, əmma orda Vəlvələ cadu var, biz olara hərif dəyilix. Biz sizi aparsax da gərəh dalda, bucaxda dolanax. Şikari dedi: "Mən on iki nəfər öz adamlarımnan təyin eliyəcağam, ləşkər aparmıyacağam, on iki nəfər dilavər aparacağam – Qeysi Rəmmahı-Ərəb, Cahandar, Şəbahəng Əyyar, Fərhəng Əyyar, Fərruxzad, Fərruxbəxt, Fəruxdad, Yusif Ərəb, Şirzadı Tigzəndi".

Ərçə gördü onun adın demir, dedi: "Dadaş, bir dayan, mənim adımı niyə demədin? Məni aparmıyacaxsan?". Ərçə sazın aldı, Şikariyə nəmənə diyəcək? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Ərçə Şikariyə dedi:

Bu ayrılıxlara dözə bilmərəm,
Qoşa gedək, mən də gəlim yanınca.
Günahkəram, yerə salma sözümü,
Yəqin ölləm sən qayıdıb gəlincə.

Qazan ağlar,
Ot yanar, qazan ağlar.
Bir iyit qurbətdə ölsə,
Qəbrini qazan ağlar.

İcazə ver, qoy yanına gəlim mən,
Dost bağınnan bir neçə gül dərim mən.
Əhd etmişəm rikabında ölüm mən,
Hamı görsün, mən də gəlim yanınca.

Bu dağda maralım var,
Ox dəyib, yaralım var.
Nə gecə yuxum gələr,
Nə günüz qərarım var.

Ərçə deyir, kimi çağırım harayə?
Şahlar şahı məlhəm sala yarayə,
Dost-düşmən durallar təmaşayə,
Qardaş deyib məni apar yanınca.

Ərzuruma, hay Ərzuruma,
Bu yollar gedər Ərzuruma.
Dəvəsi ölmüş ərəbəm.
Dözərəm hər zülüma.

Şirəfkəni qoydular təxti-səltənətdə, becayi Ərçə, onnan sora bi yol ihzar elədilər, bu cadular gəldilər. Elə ki cadular hazir olsunlar, Zəfəran üz dolandırdı: "Bizi fəqət yetirəcəhsən əvvəliminci dərbəndidə qoyasan yerə". Bular bir böyüh taxtapərə düzətdilər, sehr vəsiləsiynən. Buların mərkəbləriylə özləri amadə oldular o taxta-pərənin üstündə. Bular bir sehr oxudular,

qalxızdılar həvanın üstünə. Bular məşğul olsun, yuxlasınlar, əmma dörəyə baxmaq gərəkdir. Şəbahəng Əyyarınan Fərhəng Əyyar Şikaridən icazə istədilər ki, biz bu dörəni, ətrafı dolanax, ta görək dörədə nəmənə var, nə xəbər var? Hammısı arxeyin yatıb, ama Şikari yata bilmir. Bir zaman Şikari gördü səs gəlir. Şikari bi belə yavaşca başın qozadı, döriya baxsın, gördü təğribən iyirmi nəfər olallar, devdilər, gəlillər. Dedilər: "Elə bil burda adamzad vardı. Gedax görax bular kimdilər".

Elə ki yaxınlaşsınlar, Şikarinin qulağı bulardeydi, gördü biri diyir: "Elə bil bular bəni-adəmdilər, yaxçı oldu, buları tutarıx, aparrıx rahdara, kəbab eləllər, yiyəllər, bizə də ənam verərlər". Elə ki yaxına yetirdilər, Şikari yerinnən qaxdı, əl elədi qəbzeyi şəmşirə, buların səsinə bir Cahandar ayıldı, ö bürülər elə yatmışdı. Buları, on üş nəfəri dədə-bala ikisi öldürdülər. Yeddisi əmma qoydu qaşdı.

Ta ara sakitlənənnən sora bular ayıldılar, gördülər, oğlan, elə bular neçə nəfər öldürüblər. Sübhün zamanında gördülər Şəbahəng Əyyarınan Fərhəng Əyyar budahana yetirdilər, yeyiblər, içiblər, mərkəblərinə səvar olusunlar, gessinlər. Elə ki gessinlər, yolda rahdar buların qabağın kəsib, yüz min nəfərinən. Üz dolandırdı Şikariyə: "Xətakarın birisi, sən bəni-adəm qədəm qoymusan Həddi Səddi Lələdə mənim adamlarımı öldürmüsən?"

Dedi:

– Mən yoldu gedirəm, olardı, bizim üstümüzə həmlə elədilər.

Şikari dedi, bəlkə dilinən buları aşdım, bir iş ki dilinən olacax, niyə olmasın? Şikari götürüb görək buna nə deyir? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Şikari rahdara dedi:

Canım rahdar, mənnən olmasın işin,
Mən gedirəm oğlanlarımın dalınca.
Cadu gəlib iki oğlum aparıb,
Mən gedirəm oğlanlarımın dalınca.

İskəndər babamdı, vardı şöhrəti,
Bürüyübdü dünyanı ədaləti.
Yetişər məzlumların bizə qeyrəti,
İğitçə ölüm yeydi qalınca.

Bahar olsa süsən-sünbül bitişər,
Şikariya yaxşı-yaman ötüşər.
Müsəlman təsibi müsəlmana yetişər,
Din yolunda qılış vurram ölüncə.

Dedi: "Siz Şahrux Şahın qızını aparmısız, mən sizdən onu alacağam". Şikari əl elədi şəmşirə, ləşkər yerinnən oynadı. On nəfər vurdular ləşkərə. Şikari rahdarin adamlarını töhdü yerə, vurdu ləşkərə, ölən öldü, qaçan qaşdı. Bular birinci dərbəndi keçdilər. Qaçanlar getdilər Ugarə xəbər verdilər. Şikari caduları ehzar elədi, ey dadi-bidad, bular gördülər Şikari dünyanı dağıdıb. Şikari dedi, bizi yetirin Gülzarə. Elə ki buları yetirsinlər Gülzarə, Zəfəranə üz dolandırdı: "Mən istirəm, bacım Sənubərə bir dana namə yazam, ta gəlsin. O, bizə köməy eləsin". Götürüb bu dillərinən görək nə yazır? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Şikari Sənubərə dedi:

Badi-səba, mənnən salam apar sən,
Köməyimə bacım Sənubər gəlsin.
Genə gəldim bu Gülzarə diyərsən,
Köməyimə bacım Sənubər gəlsin.

Əlində qılıcı girə meydana,
Yeddi səf bir yana, o da bir yana,
Tarixə yazmışam adın mərdana,
Köməyimə bacım Sənubər gəlsin.

Yanımca gəlibdi ədalət şahım,
Qardaşı Ərçədi, öz qibləgahım.
Şikariyəm, budur mənim səlahım,
Bütün bu ləşkərə bərabər gəlsin.

Ani dəqiqədə tənürə bağlayıb qaxdı göyün üzünə. Sənubərin qabağında otdu yerə. Naməni aşdı, məzmununnan baxəbər oldu. Sənubər öz oğlu Alması beş min nəfərinən yolluyub Şikariyə köməhə.

Şikari otumuşdu Gülzardə, gördü beş min nəfər otdular yerə həvanın üzünnən. Gəlib dayandı bərabərində, səlam verdi.

Sizə deyim kimnən? Ugardan. Ugar otumuşdu, Xərçəngi istiyib bərabərinə ki bəs hərəvüz yüz min qoşununan gedəcaxsız Gülzarı dağıtasız. Bular əllərin qoydular gözlərinin üstünə. Olar yüz min qoşununan hərəkət eləsinlar ora. Əlqəmə ilə Dilqəmə Ugarın qardaşlarıdı. Olların da hər birinə yüz min qoşun verdi, yolladı Gülistani-İrəmə.

O yan tərəfdən Şikariyə xəbər verdilər ki, Ərçəng ilən Xərçəng hərəsi yüz min nəfər qoşununan düşüblər yola, gəlilər Gülzarı dağıtsın. Almas durdu ayağa ki, mən gedirəm, onların yolun kəsəm. Almas olarınan savaşdı. Ərçəng ilən Xərçəngin başın kəsib qoydu torbaya, bir dana nameynən yolladı.

Bu xəbər yetişdi Ugarə. Ani dəqiqədə qoşunlarıynan gəldi ora. Bu xəbər də bir qasid tərəfinnən yetişdi Şikariyə ki, Ugar gəlibdi ora. O yan tərəfdən də Sənubər də attandı, yetişdi Şikarinin yanına. Gördü Şikarinin halı yoxdu. Dedi: “Niyə bekefsən?”. Şikari alıb bu dillərinən görək nə desin? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Şikari Sənubərə dedi:

Sənə qurban olum, bacı Sənubər,
Almas gedib, mənim halım dolandı.
Ərşi-zamin hökmündədi sərasər,
Müsəlmana kömək şahı-Mərdandı.

Süsən-sünbül, tər bənövşə bitişə,
Sübhün dəmində gül üstünə şeh düşə.
Şahrüx müntəzirdi kömək yetişə,
Sənubər də bu yerdə qəhrəmandı.

Şikariyəm, yəqin belə söylərəm,
Bu canımı dosta qurban eylərəm.
Bacım gedər. ya da özüm gedərəm,
Şirin canım müsəlmana qurbandı.

“Ugar Gülistani-İrəmə adamların yollasa, orda pəhlivan yoxdu”, – elə bu kəlmə Şikarinin ağzınnan çıxıb, Sənubər dedi: “Mənim nəfəratım dursun ayağa”. Getdi Gülistani-İrəmə, Şahrux şaha köməyə. Elə o yetirdi, gördü Əlqəmə ilən Dilqəmə buduhana

yetirdi. Sənubər olarınan cəng eləməhdə olsun, eşid dastani kimnən? Vəlvələ cadudan. Vəlvələ cadu gəldi Ugarın yanına, gördü Ugar ahunalə eliyir, dedi: "Bura bax görüm, sənə nə oldu belə?"

Dedi:

– Nə olacax, xəmir yiyən bəni-adəm gəlib iki qardaşımı öldürüb, Almas da gəlib Ərçəng ilən Xərçəngi öldürüb.

Dedi:

– Narahand olmagınan, əlan mən oların hamısın cübrən elərəm.

Bu neynədi? Şikariynən Ugar ki cəng eliyirdi, on iki min nəfər göydən ot yağdırdı onun qoşununa. Şikari gördü bu curdu, Reyhanə pəri, Zəfəran və Tavusun löhunu vurdu ota, bular ani dəqiqədə ehzar oldular. Gördülər islam qoşununa göydən on iki min nəfər ot yağdırıllar, bir sehr oxudular, ot qeyitdi on iki min nəfər cadugərin hamısın yandırdı. Biqeyrəz Vəlvələ cadu. Vəlvələ cadu gördü belə oldu, Alması vurdu cənginə, apardı saldı tilsimə.

Bu yan tərəfdən Sənubər cadu Əlqəmə ilən Dilqəməni öldürüb, Şahrux şahı götürüb gəldi Şikarinin hüzurinə. Şikari döndü gəldi Gülzarə, bu yan, o yana baxdı, gördü Almas yoxdu. Xəbər verdilər ki, Alması Vəlvələ cadu apardı. Şikari çox narahand oldu. Bu yan tərəfdən Sənubərinən Şahrux şah yetirdilər. Dedi: "Dadaş, müjdə verginən, Əlqəmə ilən Dilqəməni öldürdüm". Gördü bu narahanddı. Dedi: "Nolub?". Dedi: "Belə oldu, Almas Ərçəng ilən Xərçəngi öldürüb, Vəlvələ cadu onu aparıb salıb tilsimə".

Dedi:

– Canın sağ olsun, gedib gedib, mənim oğlum sənə qurban.

Sora sazını aldı Şikarinin qabağına. Şikariyə dedi:

Al əlimnən bu şərabı nüş eylə,
Oğlun gedib, xidmətində varam mən.
De, gül, danış, ürəyini xoş eylə,
Ölməmişəm, xidmətində sağam mən.

Ordubada, ay Ordubada,
Bu yollar gedər Ordubada.
Qoşuna sərkərdə gərək,
Verməsin ordu bada.

Cəng meydanında mən bir aslanam,
Nərə çəkəm bu meydanda dolanam.
Oğlumunan özüm sənə qurbanam,
Gecə-günüz xidmətində varam mən.

Mərd atası,
Doldur ver mərdə tası.
Namərd gəlib mərd olmaz,
Olmasa mərd atası.

Başıva qoyaram gövhərdən tacı,
Gəl şirin ağzıvı eyləmə acı.
Sən mənə qardaşsan, mən sənə bacı,
Sənubərəm, xidmətində varam mən.

Bu dağda maralım var,
Ox dəyib, yaralım var.
Nə gecə yuxum gələr,
Nə gündüz qərarım var.

Şəbahəng Əyyar Almasa dedi:

– Bekefsən, söz verirəm, mən onu gətirrəm.

Eşid dastani kimnən? Vəlvələ cadudan. Vəlvələ cadu gəldi Ugarin yanına. Əlqəmə ilən Dilqəmənin xəbərin gətdilər. İkiəlli vurdu başına. Vəlvələ caduya dedi, bu işləri sən başıma gəttin. Beş qardaşımı öldürüb. Bu eynidə Ekvan devin nənəsi varid oldu buların məclisinə. Üz dolandırdılar ki, Şikarinin eşidmişih sən iki oğlun gətirmisən. Dedi: "Bəli, Cahangirinən Cahanbəxşi mən gətirmişəm". Vəlvələ cadu üz dolandırdı: "Gedəsən Şikarinin oğlanların gətirəsən, bu kəbab eliyib yiyə, bəlkə ürəyi soyuya". Ugar götürüb Qəhqəhəyi Məhşərçeşm adında dilavər var, ona bir dana namə yazdı ki, macəra bu curu, mənə köməh gəlin. Qəhqəheyi Məhşərçeşm yüz min nəfərinən ona köməh gəldi.

Sabahları meydanda iki tərəf də səf çəkib dayansın dursun, bu yan tərəfdən Ərçə qədəm qoydu meydanə, o yan tərəfdən də Ugab. Qılınc, qalxan əmud, şeşpər, kəmənd, bir zaman çəhmədi Ərçə bunu öldürdü. Bir ayrısı gəldi, onu öldürdü, de bir

ayrısı. Ugar bunu ürəyində yer eliyə bülmədi ki, bu mənim pəhlivanlarımı öldürə. Özü qədəm qoydu meydanə. Ərçə bir şəmşir yendirdi Ugarın kəlləsinnən, şəmşir parə-parə oldu, dəstəsi qaldı Ərçənin əlində.Ugar istədi onu götürsün, Ərçə vəxtən istifəda elədi, əlin atdı yapışdı buynuzunnan. Buynuzunnan yapışanda ki, çəkişillər, Ərçə əlində olan şəmşirin dəstəsiynən nə gücü var idi, vurdu bunun qulağının dibindən. Ugar mərkəbinnən düşdü yerə. Qolların dalıdan bağladı. Qolların dalıdan bağlasın, min batmanlıx ağırlığında bir zəncirinən bunu səridilər. Verdi bu yan tərəfdən ləşkər həmlə elədi. O tərəfdən Qəhqəheyi Məhşərçeşm gəldi gördü Ugar yoxdu. Bəs Ugar hanı?

Dedilər, Ərçə onu tutubdu. Qəhqəheyi Məhşərçeşm gedib Ugar olan yeri tapdı, bir sehr oxudu, tamam zəncirlər pəxlə-pəxlə töküldü yerə. Elə ki Ugari gətirdi yetirdi öz ləşkərinə, Ugar üz dolandırdı: "Vəlvələ cadu, əgər Şikariyə məni gətirən kimi gətirsən, istəsən, o Şikariyə bir şey elə".

Dedi, onu mənə əvvəldən denən da. Dübarə getdi. Şikari öz mənzilində yatmışidı, Şikarini bihüş vurub çəngəsinə, onu da apardı saldı Almasın yanına. Bu yan tərəfdən təbli cəngi vurdular, baxdılar Şikari yoxdu, bildilər Vəlvələ cadu gəlb bunu aparıb.

Cahandar dedi: "Təbli cəngi vurun mənim adıma". Cahandar qədəm qoydu meydanə. Qəhqəheyi Məhşərçeşmə üz dolandırdı: "Bax, təhbətəh bunun meydanına gedəmmarux. Bulara gərəh birdən həmlə verək". Cahandar gördü bular hamısı birdən istiyir həmlə eləsin, Cahandar əl qozadı, Qəhqəheyi Məhşərçeşmə dedi:

– Sən taza gəlmisən, pəhlivanlığı bilmirsən.

Sazını alıb bu dillərinən görək nə diyəcək? Mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Cahandar Qəhqəheyi Məhşərçeşməyə dedi:

Hökm eylədim təbli cəngi döyülsün,
Sel yerinə meydanda qan yerisin.
Mərd iyiddər hər kəs meydanə gəlsin,
Versin mərkəbinə dövrən yerisin.

Bu gün mənəm dəryalərin nəhəngi,
Meşələrin şiri, bəbri, pələngi.

Nərəm yıxar köhl qayanı, səngi,
Sel yerinə meydanda qan yerisin.

Ləşkər durub hər tərəfdə amadə,
Bərabərəm bu ləşkərə dəvadə.
Cahandar ağasın görüb röyadə,
Köməyimə şahı-Mərdan yerisin.

Söz tamam olsun. Ugar mərkəbin heylədi yeridi meydanə. Heş yerinə bir şey olmaz. Ugarnan çox küştü tutdular, Cahandar nə qədər elədi, buna bir şey eləmədi. Əmma gördülər Cahandar buna zor gəlir, Qəhqəheyi Məhşərçeşm ləşkərə fərman verdi, o yan tərəfdə ləşkər yerinnən oynadı. Sənubər kəsdi Qəhqəheyi Məhşərçeşmin bərabərin. Cahandar Ugarinən, ləşkər də ləşkərinən cəng eliyillər, əmma Qəhqəheyi Məhşərçeşm də Sənubərinən cəng eliyillər axşamacan. Sənubər bir dana Qəhqəheyi Məhşərçeşmin kəlləsinnən vurdu. Qəhqəheyi Məhşərçeşm də Sənubərin başınnan birin vurdu. Bular gicəldilər, mərkəblərin biri getdi o tərəfə, biri bu tərəfə.

Buların arasında qırx gün möhlət oldu ki, qırx günə kimi cəng olmasın. Dəri dovulları vırıldı, hər kəs öz tərəfinə çəkildi.

Elə ki varid oldular məclisə, Şəbahəng Əyyar üz dolandırdı ki, nəmənə əmiru ümarə var, hammısı yığışsın məclisə, mənim sözüm var. Görax nə deyir?

Şəbahəng Əyyar dedi:

Qadir Allah, budur sənnən diləyim,
Bilən yoxdu, bu cəvanlar hardadı?
Bilmirəm, dərdim kimə söyləyim?
Bilən yoxdu, qəhrəmanlar hardadı?

Qan eylər, divan eylər,
Divan eylər, qan eylər.
Dost məni bu halda görsə,
Ya ölər, ya qanıma qan eylər.

Yaxşı olar tərlan quşun əlası,
Şikər üstə ciddi gedər balası.

Fərrüxu aparıb Ekvan anası,
Bilən yoxdu, bu cəvanlar hardadı?

Məzə qanlı,
Mey qanlı, məzə qanlı.
Qorxuram, düşəm öləm,
Yurdumda gəzə qanlı.

Şəbahəngəm, ikimiz başdan geçax,
Tavus ilən əcalın camın içax.
Üqab kimi qanat bağlıyıb uçax,
Gedax görax bu cəvanlar hardadı?

Ərzuruma, hay Ərzuruma,
Bu yollar gedər Ərzuruma.
Dəvəsi ölmüş ərəbəm,
Dözərəm hər zülüma.

Dedi: "Əgər məni Tavus aparıb ora çıxartsa, mən üş dana cəvanı gətirə billəm. Mən bilirəm Ekvan devin anasın necə öldürəcağam". Tavus durdu, gəlib yetirdilər Ekvan devin nənəsinin qələsinə.Tavus üz dolandırdı: "Mən bunnan o yana gələ bülmərəm". Tavus həman yerdə qalsın, pinhan oldu.

Şəbahəng düşdü keşiş surətinə, rəvaneyi-rah olsun. Gəlib yetirdi qələnin qapısına, qaravul, yasovul vardı. "Kimsən?". Dedi: "Mən keşişəm, İblisin yanınnan gəlirəm". Olar inandı və onu Ekvan devin yanına götdülər.

Xəbər verdilər Ekvan devin nənəsinə. Dedi, qapını açın, gəlsin. Elə ki varid olsun içəri, Ekvanın anası durdu bunun ayağına, ona ehtiram elədi, İblisin yanınnan gəlibdi. Oturdular, danışdılar ordan-burdan, Fərhəng Əyyar ona bir şirni verdi. Elə bu qoydu ağzına, yavaş-yavaş bihuşdarü buna əsər elədi. Elə ki şapıltıynan dəydi yerə, bunu diri-diri yeri qazdılar, quyladılar yerə. Elə ki bu öldü, Cahangirinən Cahanbəxşin əlləri açıldı, gördülər nə qələ var, nə zindan var, heş zad yox. Bu tilsimin gücüydü. Bular qol bir-birinin gərdəninə saldılar, öpüşdülər. Ca-

hangir Şəbahəng Əyyardan soruşdu: "De görüm, mənim dədəm Şikaridən, islam qoşununnan nə xəbər vardı?".

Dedi, qulağ as, deyim da. Şəbahəng götürüb bu dillərinən, görək nə dedi? Mən də ərz eliyim, əyləşən ağaların, dosların sağlığına.

Fərhəng Əyyar Cahangirə dedi:

Xəbər alma əhvalimi, Cahangir,
Dövrəmizi düşman alıb hər yannan,
Neçə cəvanlardan olub dəstigir,
O da yaman dərd olubdu bir yannan.

Ürəyimin dərdin artırma bari,
Göylümü tutubdu qəmin qubari.
Tutulubdu Almasinan Şikari,
Çarəmiz kəsilib genə hər yannan.

Bülbül kimi həsrət qaldım gülümə,
Şəbahəngəm, kimsə gəlməz bəhsimə.
Vəlvələ cadu salıbdı tilsimə,
Düşmən əl tapıbdı bizə hər yannan.

Dəli göyül, atəşlərə atlama,
İnnən belə dünya sənə dar olmaz.
Bir mərt qazansa, yüz namərd doyuyar,
Yüz namərt qazansa, mərdə bir nahər olmaz.

Tavus buları salıb üqab surətinə, qalxıblar həvanın üzündə gəlsinlər. Bu yan tərəfdən Vəlvələ cadu, bu tərəfdən olar, təbli cəngi vurublar, bu yan tərəfdən də islam qoşununnan təbli cəngi vurublar. Sabah səhər hər iki tərəfin qoşunu meydandadı. Gördülər bulara firsət versələr bularınan başarammıyacaxlar, bir dəfə həmlə verdilər, cəng otu şöləvər olub. Bu yan tərəfdən həvanın üzünnən bular üqab surətində qədəm qoysunlar yerə. Cahangir üz dolandırdı: "Mənəm Cahangir". O yan tərəfdən Cahanbəxş üz dolandırdı: "Mənəm Cahanbəxş". Fərruxzad dedi: "Mənəm Fərruxzad". Şəbahəng Əyyar gördü belədi, dedi: "Mənəm Şəbahəng Əyyar, getdim pəhlivanları gətdim". Özlərin vurdular ləşkərə.

Gecə ki, gəldi arayə, Vəlvələ cadu dedi, neyniyim, neynəmiyim, gəldi bir sehr oxudu islam qoşununa, buların hamısı tilsimə düşdülər, heyvanat surətinə döndülər. Bulardan qalan kim oldu? Bir Sənubər oldu, Cahandar, Şəbahəng Əyyar, Tavus, Reyhanə pəri, Zəfəran, Ərçə-qalan bular oldu. Bəs neynəyək, neynəməyək? Sənubər cadu Ugardən möhlət istədi. Dedilər, neynəyək, neynəməyək? Şəbahəng Əyyar dedi: "Bəs çarə o dəyil, durun gedəh Şikarinin dalınca". Cahandar, Şəbahəng Əyyar, Tavus, Reyhanə pəri, Zəfəran dedilər, biz hazırıq. Bular durublar xudafizçiliy eliyiblər, düşdülər üqab surətinə, getdilər, Həft Qulleyi Qafın axirinə yetişəndə buları qoydular yerə. Bir az gəldilər qabağa, gördülər qoca bir övrət oturubdu. Bir dana da məqarə vardı. Dedilər: "Övrət, bəs sən burda neynisən təkü-tənha?".

Dedi:

– Mən şah qızıyam, qədimnən cadugərlər gətirib bura, indi qalmışam burda. İndi burda təkü-tənha qalmışam.

Dedilər:

– Bəs təkü-tənha sənə bu devlərdən zaddan həmlə eləməzlər?

Dedi:

– Elələr, əmma məndə bir dana şeypur var, hər möqei onu çalsam mənim yanıma gələ bülməzlər.

Reyhanə pəri dedi:

– Mən o şeypura baxa bülləm?

Dedi:

– Bala, bə niyə baxa bülməsən?.

Alıb bu şeypuru, yaxınlaşdırdı dodağına ki çalsın, bunu çalanda Cahandar, Şəbahəng Əyyar, Tavus, Zəfəran bihüş oldular. O şeypurda bir əlamət var idi ki, çalana heş zad olmazdı. Ani dəqiqədə bu övrətin qolların daldan bağladı. Elə ki bular halə gəlsinlər, elə ki bu övrət ayıldı, dedi: "Bu arvada Cəmcəmə cadu deyillər?". Bir sehr oxudu, Reyhanə pəri ki bunun qolların bağlamıştı, qolları açıldı. Reyhanə pərinin rəng üzünnən napədid oldu. Dedi: "Qorxmayın canım, mənim sizinnən işim yox, bir az da sizin köməyizə ehtiyacım var".

Əzqəza Alması ki Vəlvələ cadu aparıbdı, bunu aparanda Cəmcəmə cadu görüb bunu və sövüb, aşıq olub. Dedi: "Xub, ehtiyacın nəmənədi ki, bizə deyisən, sizə ehtiyacım var?". "Bir şərtim var" – dedi. Cəmcəmə cadu alıb bu dillərinən görək nə desin? Mən də ərz eliyim, əyləşən ağaların, dosların sağlığına.

Cəmcəmə cadu dedi:

Siziylən biz əhdupeyman eylərəm,
Bəlkə mən də baxça-barə yetişəm.
Sizin əlizdədi mənim mətləbim,
Razı olmayın ahuzarə yetişəm.

Ölənəcən sizə eylərəm xidmət,
Bu gecə siz ilə bir içəm şərbət.
Şikarini çıxardaram həl həlbət,
Almas kimin mən də yarə yetişəm.

Cəmcəmə düşdü qəm dəryasinə,
Gərək sinəm sürtəm yar sinəsinə.
Gəlin gedəm Almasın anasına,
Bəlkə, Almas kimi yarə yetişəm.

Dedi: "Əgər mənnən əhdüpeyman eliyəsiz ki, Alması verəsiz mənə, mən Şikarini də tilsimdən çıxardaram, Alması da. Burdan bu yana siz eliyə bülməsəz mənsiz gedəsiz". Ərçə dedi: "Mənim başım üsdə. Sən mənim qərdəşimin əlin ver əlimə, sənin əlini verrəm Almasın əlinə". Bunu eşidəndə bir nərə vurdu, məqarədən altı dana nərrə dev gəlsin. Olara dedi: "Yeddi dərbəndi açasız, mən qonaxlarımı gətirəm". Əllərin qoydular gözlərinin üstünə. Bular rəvaneyi-rah oldular. Dərbəndi əvvəldə Qırvan dev vardı, bular da yeddi qardaşdılar. Hərəsi bir dərbəndidə məmurdular. Əvvəliminci dərbəndə gəldilər qədəm qoydular, Qırvan dev kəsdi buların qabaxların. Yüz min ləşkəri vardı. Qırvan dev oların qabağına çıxdı:

– Hara gedisiz?

Dedi:

– Sültani Sahiran, Cəmcəmə cadudan hökmümüz var, gəlmişik dərbətlər açax. Əgər yol verdiz bizə, yol verdiz, əgər yol verməsəz, cəng eliyəcağıq.

Dedi:

– Siz nə qudrətin sahibisiz ki, dərbətdəri bir-bir açasız? Məgər mən ölmüşəm?

Əl elədi darüş-şümşadə, əvvəlin mərhələdə həmlə elədi. Qullabı Ahəngər bunun darüş-şümşədın əllinnən alıb, birin vurub kəlləsinnən, patladı. Onnan sora bular əl elədilər şəmşirə, ölən öldü, qaçan qaçdı.

Əvvəliminci dərbəndi aşsınlar, ikiminci dərbəndə qədəm qoysunlar. Bə siz biriminci dərbəndi nə cur aşdız? Dedilər ki, bizim Sultani Sahirannan hökmümüz var, macəra bu cur oldu, qardaşın Qırvan devi də öldürmüşük, ləşkəri ölən ölüb, qaçan qaçıb. Bular gördülər xeyir, Sultani Sahiranın əli buların kürəyindədi, dedilər: "Çün Sultani Sahiranın əli sizin kürəyivizdədi, gərəy o yol verəydi, buyurun, buyurun".

Ta altı dana dərbəndin ö bürülərin də bu cur keçdilər. Bu eynidə Cəmcəmə cadu, Şəbahəng Əyyar, Zəfəran, Tavus, Ərçə, Sultani Sahiran hamısı orda hazır oldular. İndi biz neyniyək? Şəbahəng Əyyar üz dolandırdı: "Mən baxıram, siz heş biriz eliyə bülməsiz, əjdəhanı öldürəsiz. Devin yerini mənə nişan verə büləsiz?".

Bular dedilər, bəli. Bular əjdəhanın yerin buna görsətdilər. Yerin nişan verdilər buna.

Şəbahəng Əyyar üş gün yeksarə əjdəhanın kəminində qaldı ki, görüm əjdəha harda qalır? Neynir? Harda yeyir? Harda içir? İki gün bu cur pinhan olub əjdəhanı güddü, gördü, bəli, gündə bir öyün yuvasınnan çıxır, dəryanın balıxların çəkir kəminə, vəli suyunnan istifadə eləmir, çün dəryanın suyu təlx olar, bir dana bulax vardı, gəlir ordan suyun içir, ginə gedir girir yuvasına. Üçümüncü gün əjdəha gəlir dəryanın balıxlarınnan istifadə eləsin, Şəbahəng Əyyar getdi bulağın başına. Cibində bir şüşə bihuşdarü vardı, şüşənin hamısın töhdü, özi gəldi pinhan oldu. Elə ki əjdəha gəldi o sudan işsin, işdi, elə ki çəkildi doydu, gördü ki, bəli, əjdəha bala-bala çabaliyır. Əjdəha bihüş olub, bu yetirib əjdəhanın şah-möhrələrin qarnınnan çıxardıb, bu möhrələr heş yerdə tapılmaz. Bu möhrələri gətirdi Qullabı Ahəngər, Qullabı Ahənxar, Qullabı Ahənsərə. Bular

altı qardaş, buna güldülər. Bu əjdəhanı necə öldürdü? Bu əl eliyib cibinnən şah-möhrələri çıxaddı ki, budu da mən öldürmüşəm.

Zəmzəmə cadu dedi: “İndi mən Vəlvələ cadunu ehzar eliyim, o löhi-tilsimin yerin bilir”. Vəlvələ cadu gəldi ora, Şəbahəng Əyyar Vəlvələ cadudan löhi tilsimi istədi. Ərçə götürüb Allaha yalvardı, köməy istədi, görək Allahınan özünün arasında nə deyir? Mən də ərz eliyim əyləşən dosların sağlığına.

Ərçə dedi:

Bir nəzər qıl, bu qələni alım mən,
Qadir Allah, qoyma olum xəcalət.
Üz tutmuşam dərgahıva gəlmişəm,
Kərəm sahibisən, eylə ədalət.

Ordubada, ordu bada,
Bu yollar gedər Ordubada.
Qoşuna sərkərdə gərək,
Getməsin ordu bada.

Mən gəlmişəm qardaşımın dalınca,
Ölüm yeydi bu dünyada qalınca.
Göz tikdim yoluna illər boyunca,
Qadir Allah, qoyma olum xəcalət.

O güneylər, o quzeylər,
O quzeylər, o güneylər.
Həsrət həsrəti görəndə,
Bayramın o gün eylər.

Ərçə taxta əyləşəməz arınnan,
Əl götürməz vəzir, vuzərasınnan.
Xəcalət çəkirəm oğlanlarımnan,
Qadir Allah, özün eylə himayət.

Ərzuruma, hay Ərzuruma,
Bu yollar gedər Ərzuruma.
Dəvəsi ölmüş ərəbəm,
Dözərəm hər zülüma.

Ağladı, bihuş oldi. Aləmi-rüyadə Həzrəti Süleyman bunun röyasına gəldi. "Oğlum, Ərçə, al bu kəmanı mənim əlimnən. Bu kəmanı saxla". Bir dana da üzüh verdi ona, bir dana da löh verdi ona ki bu dağı aşarsan o yüzə, bir dana bulax vardı, bulaxda üş dana balıx vardı. O balıxların üçün də tutarsan və qarnın sökərsən. Birinin qarnında xəncər vardı, birinin qarnında löh vardı və birinin qarnında da üş dana ox vardı. Oları götürəcaxsan.

Ərçə halə gəldi, gələndə əlində gördü kəman var. Durublar dağı aşsınlar o üzə. Reyhanə pəri üz dolandırdı: "Day biz gəlmirik, siz özüz gedəcaxsız". Şəbahəng Əyyarınan hər ikisi gəliblər, bulaxdan balıxları tutublar, oxu-zadı ələ gətirənnən sonra gördülər ki, bir qələ numəyan oldu. Bu qələnin üstündə bir Tavus quşu outrub. Löhə baxsınlar, gördülər löhdə yazılıb ki, Ərçə, bu Tavusi oxunan vurgunan. Bir dana ox qoyub kəmanə Tavusi vursun, elə ki tavus öldü, Tavusun bədəninən çıxan qan olur adam, hər yerə ot vurur. Bu üzüyü nişan verdi, ot xəmüş oldu. Sora gördü bir qapı açıldı, bir fil gəlir, filin üstündə bir dana dev. Devi xəncərinən öldürdü, bular bihüş oldular. Halə gəldilər, hər tərəfi heyvanat gördülər. Şəbahəng Əyyara üz dolandırdı: "Baxgınan o löhə". Şəbahəng Əyyar baxdı gördü yazıbdı: "Üzüyü və löhu nişan ver bulara". Elə ki löhu, üzüyü nişan verdi bulara, gördü ki, bu heyvanların içində bir dana əjdəha nümayan oldu, qabağa gəldi. Üzüyü nişan verəndə əjdəha qoydu qaşdı, gedənnən sora bir dana qurd nümayan oldu, baxdılar löhə, gördülər. Bəli, löhədə belə yazıbdı ki, bu qurd bulara rəhnümə olacax. Üzüyünən löhu nişan versinlər, qurd buları apardı yetirdi bir dağın damənində müfəssəl bir bağa. Elə ki bağa varid olsunlar, içində bir qəsrə girdilər. Gördülər bir qoca piranə oturubdu. Ona səlam verdilər. Qoca dedi: "Deyin görüm, bəs bura nəyə gəlmisiz?". Ərçə macəranı şərh verdi ki, bəs mənim qardaşım tilsimdədi, onnan ötürü gəlmişik. Yolda nə görmişdilər, ona dedilər.

Piranə övrət götürüb görək Şəbahəng Əyyara və Ərçəya nə diyəcək? Mən də ərz eliyim, əyləşən ağaların, dosların hamısının sağlığına.

Yaşlı qadın Ərçəyə dedi:

Xoş gəlmisən, bu məkanə Ərçə,
Bunnan belə hər fərmanın məndədi.
Allahdan almısan genə pay, Ərçə,
Xəstə üçün hər dərmanın məndədi.

Qan eylər, divan eylər,
Divan eylər, qan eylər.
Dost məni bu haldə görsə,
Ya ölər, ya qanıma qan eylər.

Bu dünyada yaxşı, yaman bilini,
Şeyda bülbül arar, tapar gülüni.
Sənə verrəm Şikarinin əlini,
Almas kimi pəhlivanın məndədi.

Bu dağda maralım var,
Ox dəyib, yaralım var.
Nə gecə yuxum gələr,
Nə günüz qararım var.

Pirzanəm, yalan yoxdu dilimdə,
Bülbül kimi cəh-cəh vurram gülümdə.
Tilsimin sınmağı mənim əlimdə,
Bir hakiməm, hər dərmanın məndədi.

Dağlara qar düşübdü,
Gör nə hamar düşübdü.
Qəbrimi yadlar qazıbdı,
Yerim dar düşübdü.

Dedi: "O ağacı görüsən?". Dedi: "Hə". Dedi: "Çıxacaxsan bu ağacın başındaki o quş yuvasına. O quşun yapışarsız iküz də iki qıçınnan. O, sizi göyün mələhlərinin səsini eşidənədək aparar. O yerdə tilsimi Miqnatisin lap özünə yetişərsiz. O, sizin başızı qoparmağ üçün sizi endirər, mən o dəqiqə ordayam".

Şəbahəng Əyyarınan Ərçə, ikisi də qaxdılar ağacın başına, ta o quşun yuvasına kimi. Quş yuvada yatmışdı. Bular ki yetirib-

lər, hər biri yapışıb bunun bir qıçınnan, bu quş pərvaz eliyib, qaxdı getdi. Necə ki ərz elədim, göyün mələhlərinin sədası buların qulağına dəyənə kimi apardı. Bular bihüş oldular. Orda yendirdi qoydu yerə. İstədi Ərçəni öldürsün, Pirzan övrət yetirdi: "Bu evladı İskəndərdi, bilirsən?". Bu heynidə özünə gəldi, gördü belədi. Ərçə əl elədi, qoşun başın kəsdi. Elə ki başın kəsdi, Ərçənin nəzərində dünya ot tutub yandı. Şəbahəng Əyyar löhə baxdı. Şəbahəng Əyyar baxdı löhəya, dedi: "Atgınan quşun başın otun içinə". Quşun başın atsınlar otun içinə, ot xəmuş olsun.

Gəliblər yetişdilər bir ağacın yanına, bu Pirzən övrət üz dolandırdı Ərçiyə ki, bu ağacı gərək rişədən çıxardasan. Ağacı rişədən çıxartsın Ərçə, gördü bir dana lağımdı. Dedi: "Bureynən gedəcəhsən, axirə yetişəndə bir dana qələ vardı, siz gedin, sən narahand olma, biz özümüz orda hazir olacağıq".

Ərçəynən Şəbahəng düşsünlər, bu lağımınan gessinlər. Az gediblər, çox gediblər, axirə yetirəndə gördülər bir qələ manənd bir yerdi. Bu qələnin qapısına bir dana qıfıl vurublar. Löhə baxdılar, gördülər yazıbdı ki, bu löhu gərək vurasan o qıfıla, ta o qıfıl açıla. Elə ki löhu vursunlar qıfıla, qıfıl açıldı. Bular varid olsunlar içəri, altı qardaş, Qullabı Ahənxargil, Cəmcəmə cadu, Reyhanə pəri, Tavus, Zəfəran. Bular hammısı bahəm orda dəstəcəm oldular. Elə ki dəstəcəm olsunlar, tilsimi sındı, buların gözləri sataşdı Almasınan Şikariyə. Yetiriblər bunlar qolların saldılar bir-birlərinin boynuna və təbrik dedilər.

Orda olan xəzinəni aldılar. Şikari və altı qardaş – Qullabı Ahənxargil, Cəmcəmə cadu, Reyhanə pəri, Tavus, Zəfəran tənurə bağladılar, qaxdılar həvanın üzünə.

Bular bu yannan gəlməhdə olsunlar, sizə xəbər verim Vəlvələ cadudan. Bu yan tərəfdən Vəlvələ cadu yetirdi Ugarə xəbər Verdi: "Evin yıxılsın, tilsimi sındırıblar, Almasınan Şikarini gətirillər, əgər gələnə kimi bir iş gördün, görmüsən, əgər görəmmədin, day səninkiynən mənimki qalıb Allaha".

Təbli cəngi vurulub, şirin cəngidi. Sənubərinən Cahangir özlərin vurublar ləşkərə, ö bürülar də yolda gəllilər və ö bürüləri də heyvanat surətində tilsimdədilər.

Eşid Fərhəng Əyyardan bir neçə kəlmə. Baxır görür ki, islam qoşununda bir şey yoxdu. Əyyarın da həqqi yoxdu cəng eləsin, alıb ö bürü kəlməsin bu dillərinən görək Allahınan öz arasında nə desin, mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Fərhəng Əyyar dedi:

Şükr eylərəm birliyivə hər zaman,
Nəzər eylə bizə, qadir İlahi.
Sənnən suvay yoxdu bir kəsə güman,
Nəzər eylə bizə, qadir İlahi.

O güneylər, o qüzeylər,
O quzeylər, o güneylər.
Həsrət həsrətin görəndə,
Bayramın o gün eylər.

Əcəb yerdə başım düşdü bəlayə,
Təbib yoxdu, məlhəm sala yarayə.
Nüha nəcat verən, yetiş hərayə,
Nəzər eylə bizə, qadir İlahi.

O yan dağlar,
Al-qana boyan, dağlar.
Bu yan zülmətxanadı,
Necədi o yan, dağlar?

Fərhəng Əyyar bu gün olub biçarə,
Qəm üz verib hər tərəfdən bu zarə.
Düşmanın əlində belə qaldıx avarə,
Nəzər eylə bizə, qadir İlahi.

Məzələndi,
Mey içər, məzələndi.
Vəfalı dosları gördüm,
Ürəyim təzələndi.

Bir zaman gördülər Almasınan Şikarinin nərə səsi gəlir. Elə ki Almasınan Şikari əyləndi yerə, o yan tərəfdən Şikari, bu yan tərəfdən Ərçə, özlərin vurdular dərya kimi ləşkərə. Cəngin o şirin

yerində Almasınan Məhşərçeşm rubəru çıxdı. Almas əl eliyib Məhşərçeşmin əlinnən şəmşirin aldı, elə vurdu ki, Məhşərçeşmi iki şəqqə eliyib, biri düşdü o yana, biri düşdü bu yana. Şikari də Ugarinən rubəru gəldi. Bu da onu elə elədi.

Şahruxun qızı Nurüleyni Ugar aparıbdı bu qardaşına, buların nəmənə qoşunu var idi, qırıb dağıtdılar. Nurüleyni aldılar, aparsınlar versinlər Şahruxa. Elə ki gecə gəldi araya, Cəmcəmə cadu gördü islam qoşunu tilsimdə ehzar elədi, ani dəqiqədə Vəlvələ cadu orda hazır oldu. Səlam verib dayandı: "Ey Sultani Sahiran, mənim üçün əmrin nəmənədi?".

Dedi: :

– De görüm, buları niyə tilsimə salmısan və niyə çıxatmırsan?

Dedi:

– Oları mən tilsimdən çıxarda bilmərəm.

Şəbahəng kəməndi atıb Vəlvələ cadunu tutdu. Dedi:

– Sən öləsən, bunnan işim var.

Dedi:

– Nəmənə işin var?

Dedi, qulağ as deyim, bu yalannan deyir bağlamışam sənin vucuduna. Mən gərəh burda çarə eliyəm.

Şəbahəng Əyyar götürüb bu dillərinən görək nə desin? Mən də ərz eliyim, sizlər sağ olun. Şəbahəng Əyyar dedi:

Sizə qurban olum, əyləşən canlar,
Mənim bu bağrımın başı talandı.
Şikayətim çoxdu belə dövrannan,
Bu qarının, vallah, sözü yalandı.

İnanmayın, hər nə desə sözünə,
Sürmə məst eyləyib ala gözünə.
Tilsimi bağlayıb yəqin özünə,
Mən bilirəm, vallah, sözü yalandı.

Şəbahəng arifdi, sözü tez qanar,
Möminlər hər zaman ömrünü sanar.

Yağ vurram, vucüdi ot tutar yanar,
Bu qarının, vallah, sözü yalandı.

Şəbahəng Əyyar dedi: "Bu yalan diyir. Məndə bir dana yağ var, çəkəcağam bunun vucudinə, ot vuram, bunun yüz min dana canı olsa, biri qurtarmaz". Yağı çəhdi vücudinə, onnan sora bir dana kibrit vurdu. Elə ki cəhənnəmə vasil olsun, islam qoşunu ki bu salmışdı heyvan surətinə, hammısı silkinib tilsimdən çıxdılar. Onnan sora bu yol hər tərəfə namə yazdılar ki, yığışsınlar, Almasa toy eləsinlər.

Sizə dastani hardan deyim? Firəngistannan, Portakalı Firəngi ki Əfsər banunun nişanlısıdı, ordan ləşkər çəkib gəliblər, dayanıblar Şamə.

Sərhəngi Şaminin iki dana oğlu var idi, birinin adı Huşəngidi, birinin adı Peşəng idi. Buları yollamışdı Talibi Məğribinin yanına. Keyvan pəhlivanı öldürüllər və orda iddə var idi, döndərib kafər eliyillər, bezərbi şəmşir Şamə dubarə pərçəmi küfr vurullar. Orda ceşn tutduqdan sora, ləşkəri ikiyə bölürlər. Talibi Məğribiyəni yolluyullar gedir Dara vilayətinə. Ərçə orda şahlığ eliyirdi ki, Gülistani-İrəmə gedəndə oğlu Şirəfkəni qoymuşdu öz yerində.

Huşənginən Peşəng də gəlillər Yəmən şəhrinə ki, Mənzər şahı Yəməninin paytaxtıdı, Gülistani-İrəmnən gələndə Şikarinin hərəmlərin qoyublar orda.

Sizə deyim Yəmənnən. Yəmənin kənarində ləşkər gəlib düşsün, Huşənginən Peşəng ki Sərhəngi Şaminin oğlanlarıdı, bir dana namə yazdılar ki, hərəmxanənin qızların verin. Yolladılar Mənzər şahı Yəməniyə. Elə ki naməni oxusunlar, Mənzər şahı Yəməninin halı dolandı. Bunun bir dilavəri var, benamı Neman. Neman Mənzər şahı Yəməniyə üz dolandırdı: "Qurban, qibleyi-aləm sağ olsun, elə bil halın dolandı". Dedi: "Bəs macərə bu curdu".

Huşənginən Peşəngə cəng yazdı. Bu yan tərəfdən cəng yazıldı. Sabahlarına hər iki tərəfdən ləşkər arəstə oldu. Neman təku-tənha qədəm qoysun meydanə. Huşənginən Peşəng gəldi meydanə, əl eliyib buların ikisini də, birin sağ, birin soldan yapışdı kəmərlərinnən, götdü göyə. Bular əman çəhdilər. Əman imannandı. Heş kəs hərəkət eləmiyib, buları azad elədi ki, gedəsiz. Bular münsərif

olmuşdular ki, gessinlər, o yan tərəfdən Gülbar vilayətinnən, Zöhhak padşahın qoşunları Mənzər şahı Yəməniyə köməhə gəliblər. Dubarə cəng otu şöləvər oldu. Nemaninan Cahandarın anası gördü bular çoxdular, islam qoşununa ərsəni təng eliyillər, niqab saldı üzünə, mərkəbinə səvar oldu. Bular burda cəngidə olsunlar, Talibi Məğribiyə Dara vilayətində Şirəfkəninən cəng eliyillər.

Əmma eşid dastani kimnən? Gülistani-İrəmnən, Şikaridən. Şikari aləmi-röyadə yatmışdı, gördü ki, Yəmən şəhri qovqanın içindədi. Elə ki səhər olsun, camaati yığır dörəsinə, deyir ki, gəlin, mən bir yuxu görmüşəm, onu deyim sizə, siz yozun. Nə cur yuxu görmüsən? Alıb bu dillərinən, mən də ərz eliyim əyləşən ağaların, dosların sağlığına.

Şikari dedi:

Yatmışdım, yuxu gördüm röyadə,
Nazlı yarım düşdü xiyalə genə.
Mülki Yəmən genə qalıb qovğayə,
Nazlı yarım düşdü xiyalə genə.

Tavus pəri Reyhanəni götürsün,
Salamımı nazlı yarə yetirsin.
Bihüş edib özüilən gətirsin,
Nazli yarım versin piyalə genə.

Yarə deyin, ölməyibdi Şikari,
Mənnən ötrü yar çəkir intizari.
Durun, gedin gətirin Simizəri,
Şimizərim düşüb xiyalə genə.

Şikari Reyhanə pəriynən Tavusi məmur elədi ki, gessinlər Simizəri gətisinlər Yəmənnən. Bular getdilər yetirdilər Yəmənə. Gördülər hər tərəf qarovul, yasovul, ləşkərdi. Simizəri yuxubənd eliyiblər, bir dana da namə yazdılar ki, Mənzər şahı Yəməni zad bülsün ki, buları bular aparıblar Gülistani-İrəmə.

Elə ki gətiriblər Şikarinin bərabərində yuxulu-yuxulu təxtixabın üsdündə yerə. Bu yan tərəfdən halə gətirsinlər. Dedi:

– Nazənin, niyə bu qədər narahandsan? Mənə de görüm, Yəməndə nə vardı?

Simizər üz dolandırdı:

– İcazə versən diyərəm.

O siyah zülflərdən bir dəstə tel ayırıb, basıb əlbüstan məmələrinin üstünə. Simizər götürüb bu dillərinən nə deyir?

Simizər xanım Şikariyə dedi:

Hər tərəfdən ləşkər çəkib gəliblər,
Mülki Yəmən qalıb ləşkər əlində.
İndi əl tapıblar, qisas alıllar,
Mülki Yəmən qalıb ləşkər əlində.

Adıvı qoymusan Süleyman Sani,
Gələn deyir, o şir Şikari hanı?
Sənə qurban, olsun, Simizər canı,
Mülki Yəmən qalıb ləşkər əlində.

Cahandar, Cahanbəxş, Qeysi Rəmmahı-Ərəb, buları əlli min qoşununan yolladı Ruma tərəf ki, Dara vilayətinə. Gedəsiz Şirəfkənə köməhliy eliyəsiz. Şirzadı Tigzəni, Yusif Ərəb, Fərruxzad, Fərruxbəxş, əlli min nəfərinən yolladı hara? Şamə. Cahandara üz dolandırdı: “Oğlum, sən də əlli min nəfərinən gedəcaxsan Yəmən şəhrinə”. Özü də, Şikari, Ərçə və Xosrovi Qələdar da gedəcağıdı Hindustana. Hər tərəfə ləşkər atlandı. Necə ki ərz elədim həmin tör. Şirzadı Tigzən, o da ki Şamə gedirdi, gəlib Şamı aldı.

Cahandarinan Almas gəliblər. O zaman yetirdilər Yəmənə ki, gördülər Mənzər şahı Yəməni veribdi, xəndəhlərə su bağlıyıblar və Xürşid Banuynan Nemanı təhliyiblər. Düşmən alıb dörəsinə, kəmənd atıblar, istillər tutsunlar, o zaman Almasınan Cahandarın nərəsi göy üzündə bülənd oldu. Necə ki yetişdilər, özlərin vurdular ləşkərə. Nə qədr qoşun var idi, hammısın bular qırdılar və Cahandar Huşənginən Peşəngi tutdu. Çağırdı Nazikbədəni gətdilər. Dedi, müsəlman olmasalar, neyliyim? Dedi, müsəlman olmasalar, öldür. Çağırdı, gördü bular müsəlman olmadılar, buların ikisin də öldürdü. Burda nəmənə ki, hərəmləri vardı, yığdılar, Mənzər şahı Yəmənidən xudafizçiliy eliyiblər, üz qoydular Dara vilayətinə.

Şirzadı Tigzən Şamı aldı, pərçəmi vurdu ora. Cahandar, Cahanbəxş, Şirəfkən, bular da Talıb Məğribeynən cəng eliyiblər

və onun nəmənə qoşunu vardı, vurdular dağıtdılar, öz şəhrlərinə sahib oldular.

İndi iş fəqət Şikaridədi ki, sürüb Hindustana, Hindustan padşahına bir dana namə yazdı, burda da pərçəmi-islamı vuram. Əgər "bəli" deməsəz, səğirdən kəbirə rəhm eləmiyəcağam. Hindustan padşahı istədi namənin cavabını cəng yazsın, vəzir qoymadı. Dedi: "Qurban, mən nucümdə oxumuşam, Sərhəngi Şami bunnan əlləşdi, bir iş görə bülmədi, Sərəfraz şah ki Süleymanın nümayəndəsiydi, hakəza. Əgər istiyəsən bunnan cəng eliyəsən, səğirdən kəbirə rəhm eləməz, özüvün də şahlığın aradan gedər, özün də ölərsən. Götü bir dəfə "bəli" de, pərçəmi-islamı vursun, qoysun gessin. İşin olmasın". Götürüb bu namənin cavabında sülh yazdı. Şikariyi peşvaz eliyiblər, varid olsun şəhrə, pərçəmi-islamı vursun, ceşn tutdular.

Şikari, Ərçə, Xosrovi Qələdar yetirdilər şəhrə. Elə ki dünyaya pərçəmi-islamı vurannan sora, Şikari dedi: "Bunnan bu yana mən ibadət eliyəcağam. Allahınan öz aramda rəzu-niyaz eliyəcağam. Beş gün ki ömrüm var, Allaha sarı gedim".

Şirzadı Tigzəni qoydular təxti-səltənətdə şahlıx eləsin. Onnan o yana Şikariynən Ərçə, hər iki qardaş məşğul oldu ibadət eləməyə. Verdilər məsciddəri bəzədilər.

## DUA

Allahı and verrik öz izzətü-cəlalinə, hər kəsin ürəyində nəmənə niyyəti var, mətləbi var, bəravurdə eləsin, necə ki, Şah Dara oğlu Şikarinin mətləbin yerinə gətirir, bizimkin də gətirsin.

Allah həmməşə sizi şad eləsin. Şadlıx versin, yamanlıx verməsin. Tamam subay oğlanlara da Allah toy qısmət eləsin.

## DUVAQQAPMA

Dağdan düzə yenmişəm,
Al-əlvan geyinmişəm.
El, bey, tayfa arası,
Oğlanı bəyənmişəm.

Ay aşıq, təriflə bizim gəlini,
Qayninə deyin bağlasın belini.
El-oba desin: "Bəy, toyun mubarək!"
Bəy sevindirsin obasını, elini.

Bu dərə, dərin dərə,
Sularu sərin dərə.
Yardan cavab alınca,
Yalvarmışam min kərə.

Başlayıb toy axşamı,
Gəlin yandırın şami.
Gəlinə bəzək verin,
Gəlir oğlan adamı.

Ay aşıq, təriflə bizim gəlini,
Qayninə deyin bağlasın belini.
El-oba desin: "Bəy, toyun mübarək!"
Bəy sevindirsin obasını, elini.

# LÜĞƏT

**A**

abi-əngur (f) – üzüm suyu, məcazi mənada-şərab
ahənrüba (f) – maqnit
ahu (f) – ceyran
aləmgir (ə) – aləmi əhatə edən, dünyanı tutan
amadə (f) – hazır
avazə (f) – hay-küy
azim (ə) – qəsd edən, qərar verən

**B**

baqi (ə) – 1) qalan; 2) daimi, həmişəlik
bala-bala (d) – yavaş-yavaş
bixud (f) – 1) hissini itirmiş, ixtiyarsız (halda) ; 2) özündə olmadan;
binaguş (ə) – 1) qulağın dibi; 2) məc. lap yaxın;

**C**

cahandar (f) – hökmdar
cahangir (f) – dünyanı istila edən
cazim (ə) – qəti qərar verən, qərar alan
cəng (f) – döyüş
cəzirə (ə) – ada

**Ç**

çah (f) – quyu
çi (f) – nə?

**D**

daniş (f) – bilik, elm, məluma
dadrəs (f) – fəryada yetişən,dada çatan
dəğəl (ə) – saxta
dəsti (f) – qəsdən
dəstur (f) – rüsxət, icazə

**Ə**

əbir (ə) – xoş qoxu, xoş iy
əbru (f) – qaş
əcuz (ə) – 1) qoca qarı, pis xasiyyətli, pis görüntülü qoca qarı; 2) məc. fani dünya
əlqərəz (ə) – nəticə
ərus (ə) – gəlin
əsləhə (ə) – silahlar
əsna (ə) – ara, aralıq an
əyal (ə) – ailə, külfət
əza (ə) – yas
əzqəza (f) – qəzadan, gözlənilmədən

**G**

goftar (f) – söhbət

**H**

harami (ə) – yol kəsən, soyğunçu
heydər (ə) – igid, cəsur
həzarə (f) – min atlı və ya piyadadan ibarət hərbi hissə

**İ**

ibqa (ə) – əbədiləşdirmə
iblağ (ə) – yetişdirmə, çatdırma
iddə (ə) – miqdar
iltifat (ə) – hüsn-rəğbət göstərmə
iltizaz (ə) – ləzzət alma, həzz alma
intixab (ə) – seçmə
irkindi (d) – hürkdü
iştibah (ə) – şübhələnmə, şəkk etmə

**K**

kan (f) – mədən
kətəbə (ə) – 1) kitab, lövhə və s. axırında ima yerində yazılan söz; 2) icazə vərəqəsi
kəzzab (ə) – yalançı, yalan danışan

**Q**

qaid (ə) – oturan, oturmuş
qate (ə) – 1) kəsən, üzən, qıran
qəza (ə) – din uğrunda aparılan müharibə
qısqıvraq (d) – cəld
qiza (ə) – qida

**L**

labə (f) – hiylə
latail (ə) – faydasız, xeyirsiz, boş
ləəb (ə) – oyun
ləşkər (f) – qoşun
lövh (ə) – taxta, lövhə
lüqmə (ə) – tikə, kəsik, parça

**M**

mədhuş (ə) – məst, bihuş
mətrəh (ə) – 1) atılan yer; 2) müzakirə olunan, müzakirəyə qoyulmuş
mövt (ə) – ölüm
mülazim (ə) – lazimi, gərəkli
müsəllət (ə) – ələ keşirilmiş, hakimiyyəti əlinə alınmış
mütəali (ə) – yüksələn, ucalan

**N**

nisar (ə) – saçma, səpmə, dağıtma

**P**

peyda (f) – zahir, aşkar
peyvəst (f) – bitişik, bir-birinə geydirilmiş

**R**

rah (f) – yol
rayət (ə) – bayraq
rəxş (f) – at
pərçəm (f) – bayraq
rəşadət (ə) – igidlik, qoçaqlıq

rəvəndə (f) – gedən
rikab (ə) – üzəngi

**S**

sai (ə) – səy edən, çalışan
salib (ə) – qarət edən
səll (ə) – siyirmə, çəkmə (qılınc, xəncər və s.)
səvar (f) – at və s.minmiş, minici
sübhan (ə) – mədh, tərif, alqış
sürud (f) – nəğmə

**Ş**

şayan (f) – layiq, münasib, yaraşan
şəbü-ruz (f) – gecə-gündüz
şəhamət (ə) – qoçaqlıq, igidlik
şərməndə (f) – utanan, utancaq
şikari (f) – 1) ova məxsus; 2) ov heyvanı
şöləvər (ə) – şöləli, alovlu
şümarə (f) – nömrə, say

**T**

taban (f) – parlaq, parıldayan
teyf (ə) – qarabasma, vahimə
təqaza (ə) – tələb, istəmə
tənur (ə) – təndir
təsmim (ə) – qəti surətdə qərar vermə
təsrih (ə) – açıq söyləmə, aydın danışma
tovfir (ə) – fərq, təfavüt, ayırd etmə
tülu (ə) – doğma, çıxma (günəş və s.)

**Ü**

üqab (ə) – qaraquş, qartal

**Z**

zikr (ə) – dua

## BAŞLIQLAR

**TƏRTİBÇİLƏRDƏN........................................................ 3**
**"Şikari" dastanı ............................................................... 7**
**Lüğət........................................................................... 353**

**Güney Azərbaycan folkloru,**
**VII kitab.**
Bakı, Elm və təhsil, 2018.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığan:
**Səadət Əliyeva**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 358 səh
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də ofset üsulu ilə
Hazır deopozitivlərdən çap olunmuşdur.